AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 11

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2021

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2021, № 11

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2021

www. filologiyameseleleri.com

DİLÇİLİK

QƏRİBƏ MƏMMƏD QIZI MƏMMƏDOVA
Filoloqiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Üzeyir Hacıbəyli, 61
Email: mammadovaqariba5@gmail.com

MÜXTƏLİF SİSTEMLİ DİLLƏRİN ONOMASTİKASINDA FEİL KÖKLÜ ADLAR

Xülasə

Dilçilik elmi yarandığı gündən sözü öyrənməklə məşğuldur. Dildə sözlər müxtəlif məna və funksiyalarda işlənir. Dilçilik üçün maraqlı olan da elə budur.

Dilçilikdə xüsüsi adlar çox böyük fonemal mahiyyət daşıyır. Odur ki, daim dilçi alimlərin diqqətini çəkən bir sahə olaraq qalmışdır. Adların öyrənilməsi, semantikası və mənşəyi məsələsi bu gün də öz aktuallığını saxlayır. Nəzərə alaq ki, xüsusi adlar da ən əvvəl sözdür və buna görə də dilçiliyin tədqiqat obyektidir.

Xüsusi adlar həm də xalqın yaşayışı, coğrafiyası, etnoqrafiyası, tarixi, psixoloqiyası və ən əsas dili ilə sıx bağlıdır.

Məqalədə İngilis və Azərbaycan xalqlarının antroponimiyası araşdırılaraq şəxs adları, heyvanlara verilən adlar və s. misallarla aydınlaşdırılıb. Həmçinin bu adların hansı nitq hissəsindən əmələ gəldiyi, onun inkişaf dinamikası dilçilik baxımından işlənilib. Adların bir xalqın dilindən başqa bir xalqın dilinə keçməsi məsələsi də yeri gəldikcə vurğulanıb. Müxtəlif dilçi alimlərdən stat gətirilərək aydınlaşdırılıb.

Müxtəlif sistemli dillərdən olan İngilis və Azərbaycan dillərində xüsusi adların nəzərə çarpacaq dərəcədə feillərdən yarandığı məsələsinə toxunulub. Onlardan bir qrupunun feillərdən və ya sifət şəklində düzəlməsi məsələsi ön plana çəkilir. Bu zaman təşəkkül tapan şəxs adlarının meydana gəlməsi zamanı heç bir əlavə dil vasitələrindən istifadə olunmur, bu nitq hissəsinin yalnız intiqalı müşahidə edilir. Məsələn: Çapar, Dönüş, Gülüş və s.

Həmçinin feilin müxtəlif növ və şəkillərinin işlədilməsi ilə şəxs adları yaranır. Məsələn, burada sevmək və gülmək feillərinə -ar, -ər qeyri gəti gələcək zaman şəkilçisi artırmaqla Sevər, Gülər kimi adlar yaranıb.

Bu yolla yaranan sözlərin onomastikada geniş yer alması fikri əsaslandırılır.

Açar sözlər: xüsusi adlar, onomastika, antroponemiya, etnoqrafiya, opelyativlər, şəxs adları

Dilçilik elmi yarandığı vaxtdan sözü öyrənməklə məşğuldur. Dildə sözlər müxtəlif məna və funksiyalarda işlədilir ki, bunların da hamısı dilçilik üçün maraqlıdır. Bu apektdə dildə funksiya baxımından fenomenal mahiyyət daşıyan xüsusi adların öyrənilməsi də aktuallığı ilə diqqəti cəlb edir. Nəzərə almaq lazımdır ki, "xüsusi ad da hər şeydən əvvəl sözdür və söz ən əvvəl dilçiliyin tədqiqat obyektidir" [4, s.4].

Ayrı-ayrı xalqların işlətdiyi xüsusi adlar sistemi özünün zənginliyi ilə fərqlənir. Burada təkcə dilçilik üçün deyil, fəlsəfə, tarix, soğrafiya, etnoqrafiya, psixoloqiya və s. elm sahələri üçün də maraqlı faktlar toplanmış olur. Xüsusi adların öyrənilməsi həmin adları daşıyan və işlədən xalqın həyat tərzinin, etik-fəlsəfi baxışlarının, dil və təfəkkür münasibətlərinin ayrı-ayrı cəhətlərini də aşkara çıxarmağa imkan verir.

Hər hansı bir xalqın xüsusi adlar sistemində şəxs adları kateqoriyası ayrıca bir yer tutur. Məhz şəxs adlarında xalqın istək və arzuları, emosional vəziyyəti, ətraf aləmə münasibəti və s. öz əksini tapmış olur.

Ingilis və Azərbaycan şəxs adlarının zənginləşdirilməsi sahəsində fellərdən istifadə edilməsi maraqlı hadisələrdən biri sayıla bilər. Fell əsasında şəxs adlarının yaradılması bir neçə yolla, ancaq konkret götürülmüş dilin qrammatik normalarına uyğun şəkildə həyata keçirilir.

Ingilis şəxs adlarının təhlili göstərir ki, onların bir hissəsinin əsasında feillər durur, ancaq bu adların mütləq əksəriyyəti ingilis dilinin özündə yaranmamış, daha qədim xalqların antroponimiyasından hazır şəkildə götürülmüşdür. Feillərdən düzəlmiş ingilis şəxs adlarının isə, demək olar ki, hamısı qədim ingilis dilinin məhsulu olub, müasir dillə əlaqəsini itirmişdir. Məsələn, *Brent* şəxs adı qədim ingilis dilində "yandırmaq" mənasını verən feildən, *Brewer* adı qədim ingilis dilində "pivə bişirmək" mənasını verən *brëowan* feilindən, *Biddulph* adı qədim ingilis dilində "əmr etmək, hökm vermək" mənasını verən *bëdan* feili ilə *wulf* "qurd" isminin birləşməsindən törəmişdir. Orta ingilis dövründən antroponimiyada özünə yer almış *Ambler* adının mənşəyi köhnə fransız dilindəki *amlere* sözünə, o da öz növbəsində " keçmək, içindən keçmək, yanından keçmək" mənasını verən latın mənşəli *ambulare* feilinə gedib çıxır. *Althea* ingilis adı yunan antroponimiyasında "müalicə etmək, əlac etmək, sağaltmaq" mənasını verən feildən yaradılmış *Althaia adı* əsasında təşəkkül tapmışdır; *Amy* adı fransız antroponimiyasında sevmək mənasını verən *aimer* feili əsasında yaranmış *Aimee* antroponimindən formalaşmışdır. *Aristarchus* adının əsasında yunanca *aristos* "ən yaxşı" və *archo* "rəhbərlik etmək, başçı olmaq" sözlərinin birləşməsindən yaranmışdır; *Arnold* adı qədim alman dilində *arn* "qartal" ismi və *waltan* "idarə etmək" feilinin birləşməsi əsasında təşəkkül tapmışdır; *Casimir* adı slavyan mənşəli olub, "sülh elan etmək" deməkdir və s. Bir sıra qədim yəhudi mənşəli şəxs adları isə hətta orijinaldakı çümlənin daşlaşması nəticəsində yaranmışdır: *Elizabeth* adı *Elisheba* yəhudi adından törəmişdir ki, ilkin mənası

"Mənim Allahım and içmişdir" deməkdir; eləcə də *Elkanah* adının əsasında "Allah yaratmışdır" mənasına gedib çıxan *Elganah* qədim yəhudi adı durur və s. [5, s. 156]

Ingilisdilli onomastikanın başqa sahələrində də belə vəziyyətlə rastlaşmaq mümkündür. Göründüyü kimi, bütün hallarda xüsusi ad öz motivliyini itirmişdir və bu da bəzən terminoloqiya sahəsində irəli sürülən motivləşmə tələbinə uyğun gəlir (həmin tələb çox vaxt onomastikada da irəli sürülür). Müasir ingilis antroponimiyasında yaradılmaqda davam edən şəxs adlarında isə daha çox isim və sifətdən istifadə olunur; fiellərdən ad yaradıcılığına rast gəlmirik.

Azərbaycan antroponimiyasında isə müasir şəxs adlarının müəyyən hissəsi feildən düzələn isim və sifət şəklində yaradılır. Onomastikaya aid tədqiqat işlərində belə adların bu və ya digər dərəcədə nəzərdən keçirdiyi və öyrənildiyi məlumdur. Feildən düzələn isim və sifət şəklində təşəkkül tapan şəxs adlarının meydana gəlməsi zamanı heç bir əlavə dil vasitəsindən istifadə olunmur, bu nitq hissələrinin yalnız məna intiqalı müşahidə edilir. Məsələn, *Çapar, Dönüş, Durmuş, Görüş, Gülümsər, Gülüş, Güldərən* qəbilindən adların [bax:3 s.71] əsasında *çapmaq, dönmək, durmaq, görmək, gülümsəmək, gülmək, dərmək* felləri dursa da, bu şəxs adlarının dilin onomastik sistemində həmin feillərdən yarandığını söyləmək düzgün sayıla bilməz. Əslində sadalanan feillərdən dil sistemində müvafiq *dönüş, durmuş,görüş, gülümsər, gülüş, güldərən* apelyativləri yaranmış, yalnız bundan sonra həmin nitq hissələri əsasında insanlara adlar verilmişdir.

Şəxs adlarının ayrıca bir qrupunu formasına görə feil strukturunu qoruyub saxlamış və yuxarıdakı nümunələrdə olduğu kimi, heç bir qrammatik dəyişiklik edilmədən antroponimiyaya gətirilmiş, belə demək mümkünsə, ad-feillər təşkil edir. Bu cür adlar öz strukturunda feil mahiyyətini saxlayır, feilin müxtəlif növ və şəkillərində işlədilmiş olur. Feildən düzələn apelyativlərin sonradan antroponimləşməsindən fərqli olaraq, burada feilin müxtəlif növ və şəkillərdə işlədilməsi məhz birbaşa şəxs adı yaradıcılığı məqsədi ilə həyata keçirilir. Başqa sözlə, məhz ad yaratmaq üçün feilin bu növ və şəkil tərtib olunur. Məsələn, burada *sevmək* və *gülmək* fellərinə *-ar// -ər* qeyri qəti zsaman şəkilçisi artırmaqla müvafiq olaraq *sevər, gülər* feil formalarını yaratmaq mümkündür və bu zaman həmin feil formaları "gələcək zamanda yəqin ki, sevər", "gələcəkdə gülər" mənalarını bildirmiş olur (*Evlənsin, sonra sevər. İşləri düzəlsin, sonra gülər* və s. kimi). Antroponimiyada isə həmin şəkilçi əlavə məna kəsb edir və hərəkətin bitməzliyini, tükənməzliyini ifadə edir. Burada artıq *Sevər* və *Gülər* adlarının motivləşməsi heç *də müvafiq apelyativlərdəki mənanı vermir: Sevər –"həmişə sevər, daim sevər; sevən/ sevər* adam (qadın)", *Gülər-* "həmişə gülər, daim gülən; gülən/ gülər adam (qadın)" kimi başa düşülür. Yeri gəlmişkən, *yaşamaq* feli əsasında *Yaşayar* deyil, *Yaşar* formasının meydana gəlməsi də *-ar//ər* qeyri-qəti gələcək zaman şəkilçisinin antroponimiyada başqa məna kəsb etməsi ilə əlaqələndirilə bilər.

Göründüyü kimi, Azərbaycan antroponimiyasında valideynlərin öz balasına arzu və istəklərini ifadə etmək üçün yaradılmış yuxarıdakı adların əsasında müsbət

emosional çalarlı feillər durur. Bunun müqabili kimi mənfi emosional çalarlı feillərdən ad yaradılması üçün *-maz/ -məz* qeyri-qəti gələcək zaman inkar şəkilçisindən istifadə edilir və bu halda da həmin şəkilçi yeni məna kəsb etmiş olur. Məsələn, müq. et: *qorxmaq-Qorxmaz* "gələcəkdə qorxmaz", *solmaq-solmaz* (gələcəkdə solmaz); antroponimiyada isə: *qorxmaq-qorxmaz* "heç zaman qorxmaz, heç nədən qorxmaz, heç kimdən qorxmaz", *dönmək-Dönməz* "heç zaman dönməz, yolundan dönməz, məsləyindən dönməz və s.", *solmaq-Solmaz* "heç zaman solmaz".

"Azərbaycan dilinin izahlı lüğəti"ndə müvafiq apelyativlər sifət kimi (*yaşar-1)* "yaşında olan...yaşı olan" (heyvan haqqında), 2) "çox yaşayan, çox ömür sürən, ölməz", *gülər* –"şən, mehriban, üzügülər", *sevər*-"zəif, incə, çox qorxulu, xətərli", *dönməz*-"səbatlı, əzmli, dözümlü, qərarına möhkəm və ardıcıl", *solmaz*-1) "solmayan, təravətini itirməyən", 2) "həmişəyaşar, unudulmaz, əbədi" qeydə alınmışdır.

Azərbaycan şəxs adları içərisində də cümlənin komponentlərinin bir-biri ilə bitişərək daşlaşması yolu ilə yaranan adlara tez-tez rast gəlmək mümkündür,məsələn: *Allah verdi- Allahverdi, Tanrı verdi-Tanrıverdi, İmam verdi-İmamverdi, Əli verdi-Əliverdi, Pir verdi-Pirverdi, Şah verdi-Şahverdi, Ağa verdi- Ağaverdi, Ocaq verdi-Ocaqverdi, Qar yağdı-Qaryağdı, Qız bəsdir-Qızbəsdi/Qızbəsti, Qız qayıt-Qızqayıt, Qız yetər-Qızyetər və s.*

Azərbaycan dilində feldən ad düzəldilməsinin bu üsulları danışıq dilində daha çox situativ-okkazional mürəkkəb sözlərin yaradılmasına imkan verir ki, bu da danışıq dilinin asanlaşdırılmasına kömək edir

Ədəbiyyat siyahısı

1. S. Cəfərov "Müasir Azərbaycan dili", Bakı, 1968,235s
2. A. V. Arnold "The English Word" Moscow, 1986,295s
3. Adilov M., Paşayev A. "Azərbaycan onomastikası (izahlı terminoloji lüğət).Bakı,Nurlan 2005,488 s.
4. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri. Bakı: Maarif, 1989, 364 s.
5. Рыбакин А. И. «Словарь английских личных имен» Москва, Советская энциклопедия, 1973, стр. 408s

Гариба Маммад кызы Мамедова,
ДОКТОР ФИЛОСОФИИ ПО ФИЛОЛОГИИ
Email: mammadovaqariba

ИМЕНА СОБСТВЕННЫЕ С ГЛАГОЛНОЙ ОСНОВОЙ В ОНОМАСТИКЕ РАЗНОСИСТЕМНЫХ ЯЗЫКОВ

РЕЗЮМЕ

Языкознание как отрасль науки с первых дней образования занимается изучением слова. Слова используются в разных значениях и функциях. Это и есть то, что интересует языкознание.

Имена собственные имеют огромное феноменальное значение в языкознании. Поэтому они привлекают внимание ученых лингвистов. Изучение имен, из семантика происхождение по сей день сохраняют свою актуальность. С учетом того, что имена собственные тоже являются словами в первую очередь, они служат объектом изучения.

Имена собственные тесно связаны с жизнью, географией, этнографией, историей, психологией, а в основном с языком каждого народа, каждой нацией.

В статье изучается, антропонимы Азербайджанского и Английского языков и дается толкование личных имен и кличек животным и т. д. А также разработан с лингвистической точки зрения вопрос, с каких частей речи они образованы и динамика развития. Со временем объясняется и переход этих слов с одного языка на другой. Все это разъясняется цитатами, приведенными от разных известных лингвистов.

Отмечается в известной степени образование личных имен от глаголов в Азербайджанском и Английском языках, которые являются разно системными. Особо подчеркивается образование большой группы этих слов в форме существительного и прилагательного. При образовании этих слов никакие дополнительные звуковые средства не используются, только замечается валентность частей речи. Например: Çapar, Dönüş, Gülüş и т.д.

А также личные имена образуются использованием различных видов и форм глагола. Например: добавлением окончаний будущего времени «-ar», «-ər» к глаголам Sevmək, Gülmək образуются имена Sevər, Gülər. Объясняется идея того, что слова, полученные этим путём, занимают особое место в ономастике.

Ключевые слова: имена собственные, ономастика, антропонимы, этнография, личные имена.

Gariba Mammadova
PhD in Philology, Associate Professor

NAMES OF VERBAL ORIGN IN THE ONOMASTICS OF DIFFERENT SYSTEM LANGUAGES

SUMMARY

From early days of its existence linguistic is dealing with the study of word. Words are used in different meanings and functions in the language. This is the fact that interests linguistics.

Proper names are of great essence in linguistics. That's why it is always very attractive field for linguistics.

The study of names, their semantics and origin is still of great urgency. We should take into consideration that proper names are also words so they are the object of research as well.

Proper names are at the same time closely connected with the life, geography, ethnography, history, psycholgy aond most of all with the language of the nation In the article personal names and names given to the animals are studied and explained through research of antroponymy of Azerbaijan and English languages.

The article also deals with the origin of this names (which part of speech they have derived from) their development dynamics on the basis of linguistics. Transition of the names from one language into another is described in the article too. This process is explained by the quotations taken from different linguists.

The article notes the formation of names noticeably from verbs in different system languages like Azerbaijan and English. They are derived from the verbs in the form of names or adjectives says the article. In this process of formation of personal names none of other language means are used and only valency of the part of speech is observed. For example: Çapar, Dönüş, Gülüş atc. At the same time personal names are formed by using various kinds and forms of the verb. For example: verbs Sevmək, Gülmək by adding Future Tense Form suffixes –ar, -ər.

The idea of large place of these words in the onomastics is widely explained in the article.

Key words: proper names, onomastics, antroponimies, ethnography, personal names

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya elmləri namizədi, dosent Rafiq Şabanov
tərəfindən çapa tövsiyə olunmuşdur

AĞAKIŞIYEV ƏLIHEYDƏR YUNIS OĞLU
Filologiya üzrə fəlsəfə doktoru
MANAFLI XANIMANA FƏTƏLI QIZI
Bakı Dövlət Universiteti,
Azərbaycan dili və nitq mədəniyyəti kafedrası
aliqeydar.a@mail.ru
xanim.manafli@mail.ru

ALI MƏKTƏBLƏRIN RUS BÖLMƏLƏRINDƏ MORFOLOJI NORMANIN TƏDRISI ILƏ BAĞLI BƏZI MƏSƏLƏLƏR.

XÜLASƏ

Morfologiyanın yaxşı mənimsədilməsi, hər şeydən əvvəl, sözün Azərbaycan dilinin qrammatik sistemindəki rol və əhəmiyyətini düzgün başa düşməklə bağlıdır. Əslində söz dilçilik elminin bütün sahələri üçün mühüm material və əsas tədqiqat obyektidir. Dilçiliyin hər bir sahəsi sözü özünəməxsus cəhətdən öyrənir. Məsələn, fonetikada sözün səs tərkibi, düzgün yazılışı, düzgün tələffüzü, leksikada dilimizin söz ehtiyatı, forma və məzmunca söz qrupları, semasiologiyada sözlərin məna xüsusiyyətləri, etimologiyası, üslubiyyatda sözlərin məqamına görə məqsədəuyğun işlədilməsi, qrammatikada isə sözlərin quruluşu, müxtəlif şəkillərə düşməsi, dəyişməsi, birləşməsi qaydaları öyrənilir. Lakin söz dilçiliyin bütün şöbələri üçün əsas obyekt olsa da, qrammatika, xüsusən morfologiya üçün daha mühüm və əsas material sayılır. Çünki müəyyən səs tərkibinə, məna xüsusiyyətlərinə, leksik cərgəyə və s. malik olan hər hansı söz öz-özlüyündə, ayrılıqda fikir ifadə etmir, müvafiq qrammatik dəyişmə və birləşmə nəticəsində ünsiyyət vasitəsinə çevrilir. Yəni mövzuya əvvəlcə tələbələrə sözün nitq mədəniyyətimizdəki rol və əhəmiyyətini başa salmaqla başlamaq lazımdır. Daha sonra isə sözlərin ayrı-ayrı nitq hissələri üzrə qruplaşması prinsiplərinin mənimsədilməsinə keçmək olar. Məqalədə rus bölmələrində əsas nitq hissələri tədris olunarkən qarşıya çıxan çətinliklər və onların həlli yollarına toxunulmuşdur. Rusdilli tələbərin söz ehtiyatı zəif olduğu üçün paralel şəkildə onların söz ehtiyatını necə artıtmağın yolları da araşdırılmışdır

Açar sözlər: morfologiya, nitq hissələri, ismin tədrisi, üslubiyyat üzərində iş, sifətin dərəcələri, feilin zamanları, söz ehtiyatı, bacarıq və vərdişlər, nitqin inkişafı.

Bildiyimiz kimi, qrammatika iki bölmədən ibarətdir: morfologiya və sintaksis. Morfologiyanın yaxşı mənimsədilməsi, hər şeydən əvvəl, sözün Azərbaycan dilinin qrammatik sistemindəki rol və əhəmiyyətini düzgün başa düşməklə bağlıdır. Əslində söz dilçilik elminin bütün sahələri üçün mühüm material və əsas tədqiqat obyektidir. Dilçiliyin hər bir sahəsi sözü özünəməxsus cəhətdən öyrənir. Məsələn, fonetikada sözün səs tərkibi, düzgün yazılışı, düzgün tələffüzü,

leksikada dilimizin söz ehtiyatı, forma və məzmunca söz qrupları, semasiologiyada sözlərin məna xüsusiyyətləri, etimologiyası, üslubiyyatda sözlərin məqamına görə məqsədəuyğun işlədilməsi, qrammatikada isə sözlərin quruluşu, müxtəlif şəkillərə düşməsi, dəyişməsi, birləşməsi qaydaları öyrənilir. Lakin söz dilçiliyin bütün şöbələri üçün əsas obyekt olsa da, qrammatika, xüsusən morfologiya üçün daha mühüm və əsas material sayılır. Çünki müəyyən səs tərkibinə, məna xüsusiyyətlərinə, leksik cərgəyə və s. malik olan hər hansı söz öz-özlüyündə, ayrılıqda fikir ifadə etmir, müvafiq qrammatik dəyişmə və birləşmə nəticəsində ünsiyyət vasitəsinə çevrilir. Yəni mövzuya əvvəlcə tələbələrə sözün nitq mədəniyyətimizdəki rol və əhəmiyyətini başa salmaqla başlamaq lazımdır. Daha sonra isə sözlərin ayrı-ayrı nitq hissələri üzrə qruplaşması prinsiplərinin mənimsədilməsinə keçmək olar. Odur ki, nitq hissələri ilə ümumi tanışlıq zamanı müvafiq nümunələr əsasında tələbələrə başa salınmalıdır ki, Azərbaycan dilində olan sözlər üç əsasa görə müxtəlif nitq hissələrinə ayrılır: 1) sözün leksik mənası 2) morfoloji əlamətləri 3) sintaktik vəzifəsi.

A.Peşkovski haqlı olaraq yazırdı ki, isim olmadan nə işıq, nə istilik, nə həyat, nə dövlət, nə də dilin özü haqqında danışmaq olar (1, 73). Azərbaycan dilində isim öz xüsusiyyətlərinə görə çox əhatəli və maraqlı nitq hissəsi hesab olunur. Bu nitq hissəsinin yaxşı öyrədilməsi, eyni zamanda digər nitq hissələrinin və bütövlükdə qrammatikanın mükəmməl öyrədilməsinə zəmin yaradır. Çünki digər nitq hissələri əşya ilə bu və ya digər cəhətdən bağlı olub, onunla münasibətdə öz funksiyasını təzahür etdirir.

Sultan Məcid Qənizadə Azərbaycan dilinin üslub xüsusiyyətlərindən bəhs edərək yazırdı ki, həqiqətən, bu dil təbiətinə görə çox elastikdir və asanlıqla zərif üslubi formalara düşmə bacarığına malik olmaqla öz xüsusiyyətləri ilə fəxr edə bilər (2, 2-3). Müəllim rus bölmələrində isim haqqında məlumat verəndə başqa nitq hissələrinin də substantivləşmə yolu ilə bəzən isim kimi işlənə bilməsi faktını tələbələrə başa salmağa xüsusi diqqət yetirməlidir. Calışmalar üzərində iş aparan zaman tələbələr praktik şəkildə öyrənirlər ki, əlamət və hərəkət ifadə edən sözlər də bəzən əşya kimi işlənə bilir və bu, dilimizin üslubi zənginliyini göstərir.

İsim bəhsində dilimizin üslubi imkanlarının zəngin olmasını təsdiq edən mövzulardan biri də "Tək və cəm isimlər"dir. Bu mövzunun tədrisi zamanı *–lar, -lər* cəm şəkilçisinin müxtəlif üslubi çalarlarını praktik yolla rusdilli tələbələrə mənimsətməyə diqqət yetirmək lazımdır.

> *1.Noyabr ayından sonra bərk soyuqlar başladı.2. İstilər düşəndə çayların suyu azalır. 3. XII əsrin əvvələrində Azərbaycanın şimalında Şirvanşahlar, cənubunda isə Atabəylər hökmdarlıq edirdi. 4. Həkimlər üçün iş saatı yoxdur. 5. Böyüklər danışanda kiçiklər onun sözünü kəsməməlidirlər.*

Tələbələr bu cümlələrdəki cəm şəkilçisi qəbul edən sözləri tapmaqda çətinlik çəkməzlər, lakin onların digər məna çalarlarını müəyyənləşdirməkdə çətinlik çəkə

bilərlər. Xüsusilə, rusdilli tələbələrə başa salınmalıdır ki, cəm şəkilçisi kimi tanıdığımız –lar, - lər mənasına görə bəzən əşyanın çoxluğunu deyil, onun növ müxtəlifliyini də göstərməyə xidmət edir. *Soyuqlar, istilər* sözlərindəki cəm şəkilçisi soyuğun, istinin çoxluğu mənasında deyil, soyuq və isti havaların davam etməkdə olduğu mənasına gəlir. Yaxud *Şirvanşahlar, Atabəylər* sözlərindəki –lar, -lər şəkilçisi çoxluq mənası ifadə etməkdən başqa, hakimiyyətdə olan nəsil, tayfa mənasını ifadə etdiyini tələbələrə başa salmaq lazımdır.

İsmi başqa nitq hissələrindən fərqləndirən başlıca qrammatik əlamətlərdən biri də onun mənsubiyyətə görə dəyişməsidir. Bildiyimiz kimi rus dilində ismin mənsubiyyət kateqoriyası olmadiği üçün bəzi rusdilli tələbələr mənsubiyyət şəkilçilərinin müəyyənləşdirilməsində çətinlik çəkirlər. Azərbaycan dilində mənsubiyyət şəkilçili isimlərdən əvvəl sahib şəxsi bildirən əvəzliyin işlənməsinə həmişə ehtiyac olmur. Bu hal dilimizin səciyyəvi xüsusiyyətlərindən biridir. Məsələn, rus dilində *моя книга, твоя ручка, его портфель* birləşmələrini bir sözlə ifadə etmək mümkün deyil. Bu məsələlərin praktik cəhətdən möhkəm mənimsədilməsi tələbələrin yazılı və şifahi nitqinin üslubi cəhətdən kamilləşməsində mühüm əhəmiyyət kəsb edir.

İsimlə yanaşı, dilimizdə daha çox işlənən, onun inkişafı və zənginləşməsində mühüm rol oynayan nitq hissələrindən biri də sifətdir. Sifət də isim kimi nitq praktikasında mühüm rol oynayan və zəngin üslubi imkanlarına görə nitqə gözəllik verən əsas nitq hissəsidir. Əvvəlcə müəllim tələbələrə sifətin nitqin gözəlləşməsində, onun emosional təsir gücünün artırılmasında və habelə fikrin daha yığcam və dəqiq ifadə olunmasındakı mühüm əhəmiyyətini başa salmalıdır. Sifətin nitqdəki üslubi funksiyasını tələbələrə əyanı şəkildə anlatmaq üçün hər hansı bədii əsərdən parçalar seçib texniki vəsaitlərin köməyi ilə tələbələrə təqdim etmək olar. Beləliklə, müəllim tələbələrlə müsahibə apararaq sifət haqqında orta məktəbdə əldə etdikləri bilikləri təkrar yada sala bilər.

H.A.Plekin yazır ki, harada paralel nitq vasitələri (sinonim) varsa, üslubiyyat da oradan başlayır. Burada əsas məsələ sinonim və antonim sifətlərdən nitqdə daha məqsədəuyğun şəkildə necə istifadə etməyin yollarını öyrətməkdən ibarətdir. (6, 231) Sinonimlər mənaca nə qədər bir-birinə yaxın sözlər olsa da, onların hər biri öz incə çalarlıqları ilə o birindən xeyli dərəcədə fərqlənir. Xüsusilə, rusdilli tələbələr bu incə çalarları fərqləndirməkdə çətinlik çəkirlər. Məsələn, *qoca, yaşlı, ahıl,* və yaxud *saf, təmiz, pak, dumduru,* eləcə də *yaş, nəm, rütubətli* kimi sinonim sifətlərin hamısı heç də həmişə eyni məqamda bir- birini əvəz edə bilmir. Tələbələrlə işi elə qurmaq lazımdır ki, onlar sinonim sifətlərin təkcə leksik-semantik yolla deyil, həm də qrammatik yolla da əmələ gəldiyini aydın dərk etsinlər. Məsələn, tələbələrə *basəfa* əvəzinə *səfalı*, *baməzə* əvəzinə *məzəli, biqeyrət* əvəzinə *qeyrətsiz, nainsaf* yerinə *insafsız* sözlərini də işlətməyin mümkün olduğunu praktik cəhətdən mənimsətmək lazımdır.

M.Qorkiyə görə üslubiyyatda mühüm məsələlərdən biri də "sözlər üçün darısqallıq, fikirlər üçün genişlik olsun" tələbidir. Bu tələbin gözlənilməsini də tələbələrə yeri gəldikcə başa salmaq lazımdır. Məsələn, dilimizdə dəridən hazırlanmış çanta ifadəsinin əvəzinə *dəri çanta,* torpaq üzərində salınmış yol əvəzinə *torpaq yol,* qızıldan hazırlanmış üzük əvəzinə *qızıl üzük* ifadələrinin işlənməsi məhz üslubun həmin tələbi ilə bağlıdır.

Praktik işlər aparmaqla tələbələrə başa salmaq mümkündür ki, bəzi sifətlərin sinonimi kimi işlənən idiomlar məqamına görə müəyyən incə üslubi xüsusiyyətləri ifadə edir və nitqin obrazlılığını artırır. Məsələn, *Sən nə qorxaq adamsan* cümləsindəki *qorxaq s*ifətində müəyyən tənqid ifadə edildiyi halda, *Mən bilmirdim ki, sən bu qədər ağciyərsən* cümləsindəki *ağciyər* idiomunda isə səmimi, yumşaq irad nəzərə çarpır.

Sifəti digər nitq hissələrindən fərqləndirən müqayisə dərəcələrinin olmasıdır. Sifət əşyanı müxtəlif dərəcələr üzrə əlamətləndirməklə fikrin daha aydın ifadəsinə və dərk olunmasına kömək edir. Əgər biz nitqimizdə dəli, dəlisov, zır dəli, ağ, ağımsov, ağappaq, şirin, kəmşirin, şipşirin və s. kimi dərəcələrdən istifadə etməsək, onda rənginə, zahiri formasına, daxili keyfiyyətinə görə fərqlənən əşyaları bir-birindən tam dəqiqliklə ayıra bilmərik. Əlamət ölçülərinə görə əşyanı dəqiq ifadə etmək yalnız sifət dərəcələrindən istifadə etməklə mümkün olur. Xüsusilə, söz ehtiyatı zəif olan rus bölməsinin tələbələrini praktik materiallar üzərində işlədərək onların həm də söz ehtiyatını artırmaq olar. Məsələn, *işıqlaşmamış* sözünün mənasını başqa cür necə ifadə etmək olar? – *alatoran.* Yaxud, şirinliyi normadan az olan çay necə adlanır? – *kəmşirin.*

Saylar kəmiyyət etibarilə dilimizdə başqa nitq hissələrinə nisbətən az yer tutur. Lakin buna baxmayaraq, saylar dilimizin lüğət tərkibinin zənginləşməsində digər nitq hissələrindən heç də geri qalmır. Ən kiçik vahid olan *bir* sözündən dilimizdə 50-yə yaxın yeni mənalı söz və ifadələrin yaranması sayların söz yaradıcılığında nə qədər fəal rol oynadığını təsdiq edir.

Sayların tədrisində müəyyən miqdar sayları ilə isimlərin arasında işlənən numerativ sözlərin yerində işlədilməsinə diqqət yetirmək lazımdır, çünki rusdilli tələbələrin çoxu danışıqda və yazıda *nəfər, ədəd, cüt, baş, dənə, nüsxə* və s. kimi numerativ sözlərin əvəzinə, bir qayda olaraq, *dənə* sözünü işlədirlər. Ona görə də onları konkret nümunələr əsasında başa salmaq lazımdır ki, numerativ sözlərdən dilimizdə necə gəldi istifadə etmək olmaz, onların hər birinin öz işlənmə yeri var. Bunları yerində işlətmədikdə nitqdə məna və üslub pozuntusu əmələ gəlir.

Qeyri-müəyyən miqdar saylarından sonra gələn isimlərin tək, və ya cəmdə işlənməsinə də xüsusi diqqət vermək lazımdır, çünki rusdilli tələbələrin ən çox səhv etdikləri məqamlardan biri də budur. Müstəsna hal kimi *bir sıra, bir çox* saylarından sonra gələn isimlər bir qayda olaraq cəmdə işlənir. Bunun da başlıca səbəbi odur ki, həmin qeyri-müəyyən miqdar saylar fikirdə müəyyən üslubi-semantik çalar

yaradaraq, küllün, bütövün cüzi bir hissəsini - çoxluğun müəyyən bir qismini ifadə edir.

Bundan başqa sayların düzgün yazılışına və tələffüzünə xüsusi yer ayırmaq lazımdır. Tələbələr sayların düzgün tələffüzünə aid müvafiq vərdişlərə yiyələnmədikdə onların şifahi nitqi qüsurlu olur və yazıda da xeyli orfoqrafik səhvlərə yol verirlər.

Hər bir nitq hissəsinin yazılı və şifahi nitqdə xüsusi rolu vardır, lakin feilin nitqdəki rolu daha böyükdür. Çünki cümlədə feil daha çox iştirak edir ki, bizim də nitqimiz cümlələr əsasında qurulur. N.İ.Qreq yazır ki, "Feil nitqə həyat verir, onun köməyi ilə ayrı-ayrı sözlər canlanır". Rabitəli bir fikri, müəyyən məlumatı təkcə feillərdən ibarət cümlələrlə də ifadə etmək mümkündür. Bu o deməkdir ki, feillər fikrin ifadəsində mühüm yer tutur. Feil eyni zamanda hərəkətin mütəhərrikliyini, dinamikliyini ifadə edir. Dinamik hərəkət isə bu və ya digər hadisə ilə əlaqədar fikri aydın və ətraflı başa düşməyə kömək edir. Feil üslubi imkanlarının zənginliyi ilə də digər nitq hissələrindən seçilir. Bu da nitqə ekspressivlik və emosionallıq və məna gözəlliyi verir. Belə ki, biz istər şifahi, istər yazılı nitqdə eyni bir hərəkəti mənaca bir-birinə yaxın olan müxtəlif sözlərlə ifadə edə bilərik. Məsələn, *əyləşmək, oturmaq, bardaş qurmaq, demək, danışmaq, dillənmək, dilə gəlmək, düşünmək, fikirləşmək, götür-qoy etmək və s.*

Lakin bir-birinə müəyyən qədər yaxın mənalar ifadə edən həmin feillər cümlə daxilində heç də bir-birini tam əvəz edə bilmir. Rusdilli tələbələrə feillərin çoxmənalılığından da xüsusi bəhs etmək lazımdır. Onlar bilməlidirlər ki, eyni bir feil məqsəddən asılı olaraq müxtəlif cümlələrdə ayrı mənalar ifadə edə bilər: *O, suyun dibinə batdı. Gün yavaş-yavaş batdı. Qışqırmaqdan Əlinin səsi batdı. Onun üsü-başı palçığa batdı.* Bu həm də onların söz ehtiyatının artmasına səbəb olar. Deməli, tələbələrə feil bəhsini tədris edərkən onun qrammatik əlamətlərini mənimsətməklə yanaşı, müxtəlif üslubi imkanlarını da öyrətmək lazımdır.

Rusdilli tələbələrə keçmiş zaman feillərini düzəldən *–dı,-di,-du,-dü, -mış,-miş, -muş, -müş, -ıb, -ib, -ub, -üb* şəkilçilərinin üslubi xüsusiyyətlərini. də aydın başa salmaq lazımdır. Çünki bu şəkilçilərin incə məna fərqini bilməyən tələbə həmin şəkilçilərlə düzələn feilləri nitqində qeyri-dəqiq ifadə edir. Məsələn, *aldı, gördü, ağladı* feillərində hərəkət danışanın gözü qarşısında, yəni onun şahidliyi ilə icra olunur. *Almış, görmüş, ağlamış* feillərində hərəkətin icrasını başqasından eşitmə yolu ilə danışıldığını, alıb, görüb, ağlayıb feilləri isə artıq hərəkətin icra olunub bittiyini bildirir. Həmçinin indiki zaman feilləri bəzən hərəkətin daimiliyini bildirməklə mənaca gələcək zamana yaxınlaşır. Məsələn, *Kür və Araz çayları Xəzərə tökülür* cümləsində bu çayların dənizə tökülməsi gələcəkdə də davam edəcəkdir. Hərəkətin bu cür daimiliyi qeyri-qəti gələcək zamanda da özünü göstərir. Bunu daha çox atalar sözləri və məsəllərdə görə bilirik: *Bal tutan barmaq yalar. Pis günün ömrü az olar. Dost başa baxar, düşmən ayağa və s.* Bu nümunələrdəki feillər qeyri-qəti gələcək zamanı bildirməkdən daha çox hərəkətin daimiliyini bildirir.

Bütün bu məsələlərin rusdilli tələbələrə izah olunması onların feilin zamanları ilə əlaqəli üslub vərdişlərinin inkişafına müsbət təsir göstərəcəkdir. (5,112)

ƏDƏBİYYAT:

1. Həsənov H.Ə. Nitq mədəniyyəti və üslubiyyatın əsasları. Bakı Universiteti nəşriyyatı, Bakı, 2003, 394 s.
2. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. "Elm və təhsil", Bakı, 2013, 288 s.
3. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı. "Azərbaycan" qəzeti, 11 aprel 2013-cü il
4. .Məmmədov A. Müəllimin əsas silahı."Ana sözü", 3-4,1992,48səh.
5. H. Balıyev. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası(dərslik). ADPU nəşri, Bakı, 2003, 422 səh.
6. Б.Н.Головин. Основы культуры речи. М., «Высшая школа», 1988, 320 стр.

.

АГАКИШИЕВ АЛИГЕЙДАР ЮНИС ОГЛУ
МАНАФЛЫ ХАНЫМАНА ФАТАЛИ ГЫЗЫ

НЕКОТОРЫЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ МОРФОЛОГИЧЕСКОЙ НОРМЫ В РУССКИХ СЕКТОРАХ ВУЗОВ

Ключевые слова: морфология, части речи, преподавание существительного, работа над стилистикой, степени прилагательного, глагольные времена, словарный запас, умения и навыки, развитие речи

Хорошее усвоение студентами морфологии азербайджанского языка связано, в первую очередь, с правильным осознанием ими роли и значения слова в грамматической системе языка. По сути, слово – важный материал и главный объект исследования для всех областей языкознания, каждая из которых изучает слово в специфическом плане. Например, в фонетике изучаются звуковой состав, правильное написание и произношение слова, в лексике – словарный запас языка, группы слов по форме и содержанию, в семасиологии – смысловые особенности, этимология слов, в стилистике – целесообразное употребление слов в соответствии с моментом, а в грамматике – строение слов, правила их изменения, слияния.

Однако, хотя слово и является главным объектом для всех разделов языкознания, считается более важным и основным материалом в грамматике, особенно, в морфологии, т.к. обладающее определенным звуковым составом,

смыслом, лексическим рядом и пр. слово еще не выражает смысл в отдельности, превращаясь в средство общения только после грамматического изменения и соединения. Другими словами, необходимо начинать с разъяснения студентам роли и значения слова в культуре речи. Только после этого можно переходить к усвоению принципов группирования слов по отдельным частям речи.

В статье затронуты трудности при преподавании основных частей речи в азербайджанском языке в русском секторе и пути их преодоления. Так как словарный запас у русскоязычных студентов в азербайджанском языке ограничен, параллельно рассмотрены также и пути его обогащения.

Agakishiev Aliheydar Yunis oglu
Manafli Hanymana Fatali gizi

SOME ISSUES OF TEACHING MORPHOLOGICAL NORMS IN RUSSIAN SECTORS OF UNIVERSITIES

Keywords: morphology, parts of speech, teaching a noun, work on stylistics, degrees of an adjective, verb tenses, vocabulary, skills and abilities, speech development

A good assimilation of the morphology of the Azerbaijani language by students is associated, first of all, with their correct understanding of the role and meaning of a word in the grammatical system of the language. In fact, the word is an important material and the main object of research for all areas of linguistics, each of which studies the word in a specific way. For example, in phonetics, the sound composition, correct spelling and pronunciation of a word are studied, in vocabulary - the vocabulary of the language, groups of words in form and content, in semasiology - semantic features, etymology of words, in stylistics - the appropriate use of words in accordance with the moment, and in grammar - the structure of words, the rules for changing them, merging.

However, although the word is the main object for all branches of linguistics, it is considered more important and basic material in grammar, especially in morphology, because possessing a certain sound composition, meaning, lexical range, etc., the word does not yet express meaning separately, turning into a means of communication only after grammatical change and combination. In other words, it is necessary to start by explaining to students the role and meaning of the word in the culture of speech. Only after this can one proceed to mastering the principles of grouping words into separate parts of speech.

The article touches upon the difficulties in teaching the main parts of speech in the Azerbaijani language in the Russian sector and ways to overcome them. Since the vocabulary of Russian-speaking students in the Azerbaijani language is limited, the ways of its enrichment are also considered in parallel.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: pedaqoji elmlər namizədi, dosent Jalə Mustafayeva tərəfindən çapa tövsiyə olunmuşdur

LEYLA MAHMUDOVA
Zahid Xəlilov küçəsi - 23. Indeks: AZ 1148
Filologiya üzrə fəlsəfə doktoru, dosent
mahmudova.1969@mail.ru

FARS DILINDƏ ANTESEDENT

XÜLASƏ

Fars dilində şəxssiz cümlədən bəhs edərkən hər şeydən əvvəl onu demək lazımdır ki, bir sıra dillərdən fərqli olaraq , fars dilində şəxssiz fel demək olar ki, yox dərəcəsindədir. Şəxssizlik mənası bir qayda olaraq müxtəlif morfoloji və sintaktik üsullarla ifadə olunur. Fars dilində şəxssiz cümlələrin spesifik xüsusiyyəti bundan ibarətdir ki, cümlədə subyekti bildirən , işin , hərəkətin aid olduğu şəxsi ifadə edən və buna görə də zahirən mübtədanı xatırladan sözü də işlətmək mümkün olur.

Fars dilində şəxssiz cümlələr bəzi formaları şəxs mənasından təcrid olunmuş شدن، شایستن، بایستن، داشتن، خواستن، توانستن felləri ilə ifadə olunur. Belə fellərdən بایستن və شایستن müasir dildə şəxs mənasını tamamilə itirmişdir. O biri fellər isə həm şəxsli, həm də şəxssiz mənada işlədilə bilir. Fars dilində şəxssiz cümlələrin ən ümdə spesifik cəhəti belə cümlələrdə forma etibarilə mübtədanı xatırladan, lakin xəbərlə əlaqədar olan mübtəda kimi formalaşa bilməyən isim, əvəzlik və ya ismi məna daşıyan başqa söz və birləşmələrin də çıxış edə bilməsidir.

Belə hal xəbərləri شدن، رفتن، آمدن kimi fellərlə sonu mənsubiyyət şəkilçili حیف، خوش، بد، حوصله və s. kimi isimlərin birləşməsi yolu ilə düzələn cümlələrdə olur.

Cümlənin əvvəlində məntiqi subyekt bildirən və zahirən mübtədanı xatırladan söz və ya birləşmə işlənir, sonu həmin söz və ya birləşməyə müvafiq olan mənsubiyyət şəkilçisi qəbul etmiş söz felin III şəxs tək forması ilə birlikdə cümlənin sonunda çıxış edir. Belə cümlələrdə hansı şəxsə aid mənsubiyyət şəkilçisinin işlənməsindən asılı olmayaraq fel ancaq III şəxsin təki ilə ifadə olunur. Bu hal felin şəxs mənasından təcrid olunduğunu əyani şəkildə nümayiş etdirir. Bu növ cümlələrdə məntiqi subyekti bildirən sözlə fel arasında ikinci dərəcəli üzv və ya üzvlər də iştirak edə bilir. Məntiqi subyekti bildirən sözlərin statusunu müəyyənləşdirmək çətin olduğundan bir sıra müəlliflər çox asan yol ilə gedərək həmin sözləri mübtəda, cümlənin qalan hissəsini isə bütövlükdə xəbər vəzifəsində olan predikativ söz qrupu adlandırmağı mümkün hesab etmişlər. Belə olduqda predikativ söz qrupu mübtədadan başqa cümlənin bütün üzvlərini əhatə edən bilir. Bu isə xəbərlə birlikdə ümumiyyətlə cümlə anlayışını, ikinci dərəcəli üzvlərin statusunu və s. inkar etməyə bərabərdir.

Açar sözlər: sadə cümlə, təktərkibli cümlə, şəxssiz cümlə, feili xəbər, sintaktik məna, qramatik məna, fars dilində xəbər.

Fars dili sintaksisinin elmi araşdırmalı məsələlərindən birisi şəxssiz cümlə məsələsidir. İlk dəfə fars dilində şəxssiz cümlələr məsələsini qoymuş və onlardan bəhs etmiş müəllif A.K.Arends olmuşdur. Əlbəttə, məsələnin qoyuluşu hələ onun həlli demək deyildir. A.K.Arends şəxssiz cümlə məsələsini qoymuşdursa da, onun hərtərəfli izahına nail ola bilməmiş, hətta şəxssiz cümlədən danışarkən müasir dil normalarına məhəl qoymadan klassik dilə xas olan ترا می بایست داد ، شما را باید گفت kimi müasir dil üçün arxaikləşmiş cümlə növlərini misal gətirmişdir.

Onun şərhində تصور میرود " təsəvvür olunur" , انتظار میرود "gözlənilir" kimi şəxssiz ifadələr də cüttərkibli cümlə adlanır ki, bununla da razılaşmaq mümkün deyil (1,91). Fars dilində şəxssiz cümlələri tədqiq etmiş müəlliflərdən birisi professor L.S.Peysikov olmuşdur. L.S.Peysikov əvvəlcə qısaldılmış məsdərin iştirakı ilə düzələn modal cümlələrdən bəhs edərək onların بایستن felinin şəxssiz formaları, شدن feli və توانستن felinin şəxssiz formaları ilə əmələ gəldiyini qeyd edir. Müəllifin fikrincə, bu sözlərin bəziləri artıq fel sistemindən ayrılmış və modal söz sırasına keçmişdir. Məsələn: می توان "olar ", "mümkündür" sözü şəxs şəkilçisini və şəxs mənasını itirmişdir, نمی شود "olmaz" , "mümkün deyil" mənasında müstəqil şəkildə işlənə bilir. Peysikov doğru olaraq göstərir ki, bəzi fellərdə şəxs mənası silinib gedir. Məsələn: شدن "olmaq" felindən olan شد sözü " oldu", "yaxşı" mənasında artıq müstəqil sözdür. Habelə خواستن "istəmək" felindən olan نمی خواهد sözü "lazım deyil " mənasında, داشتن "malik olmaq" felinin kökü عیب ندار، دار"eyb etməz" şəklində müstəqil vahidə çevrilmişdir. L.S.Peysikovun fikrincə, enklitikanın işlənməsi sayəsində گریه ام گرفت "(məni) ağlamaq tutdu", گرمش شد "(ona) isti oldu", گرسنه ام شد "aclığım tutdu" kimi şəxssiz konstruksiyalar yaranmışdır (2, 98).

Fars dilində şəxssiz cümləni xüsusilə tətqiq etmiş müəllif A.P.Belitsin olmuşdur. A.P.Belitsinə görə, şəxssiz cümlə elə cümlədir ki, mübtəda işi icra edən subyekt və ya müəyyən hala məruz qalan subyekt kimi qrammatik olaraq mövcud olmur və onu mətndən də bərpa etmək mümkün deyil (3,6). Qeyd etmək lazımdır ki, A.P.Belitsinin şəxssiz cümlə haqqındakı tezisləri əsasən doğrudur. Əlbəttə, onun fikirlərində qüsur və çatışmamazlıqlar da yox deyildir. Həmin müəllif bəzən cümlənin statusunu müəyyən etməkdə tərəddüd edir və hətta səhvə də yol verir. Məsələn, aşağıdakı cümləni müəllif şəxsli və şəxssiz cümlə arasında keçid kimi qiymətləndirir :

ملاقات با استاد در کارگاه نقاشی بکلی از یادم رفته بود.

"Rəssamlıq emalatxanasında rəssamla görüş tamamilə yadımdan çıxmışdı".

Fars dilində şəxssiz cümlələrin spesifik xüsusiyyəti bundan ibarətdir ki, cümlədə subyekti bildirən , işin , hərəkətin aid olduğu şəxsi ifadə edən və buna görə də zahirən mübtədanı xatırladan sözü də işlətmək mümkün olur. Məsələn:

من از این قالی خیلی خوشم آمد (مجله ی "نور").

"Mənim bu xalıdan çox xoşum gəldi".

Bu cümlədə işin , halın aid olduğu subyekt من əvəzliyidir. Lakin cümlənin xəbəri həmin əvəzliklə şəxsə görə uzlaşmır. Xəbər III şəxsin təkindədir. Həmin cümlədə xəbərin adlıq hissəsinin sonunda I şəxsin mənsubiyyət şəkilçisi işlənmişdir və xəbər də həmin şəkilçinin qoşulduğu sözlə uzlaşır. Məna etibarilə enklitik əvəzlik cümlənin

əvvəlində göstərilən şəxs əvəzliyinə uyğundur. Lakin enklitik əvəzlik qoşulduğu isimlə birlikdə III şəxsi bildirir. Buna görə də köməkçi fel III şəxsin təkində ifadə olunur. Cümləni Azərbaycan dilinə hərfi tərcümə etsək belə alınar: "Mən bu xalıdan (mənim) xoşum gəldi", (4,20). Qrammatik cəhətdən من əvəzliyi xəbərlə şəxsə görə uzlaşmır. Lakin məzmunca həmin əvəzliyi təkrar edən enklitik əvəzlik uzlaşır. Ona görə də, cümlənin əvvəlində işlənmiş şəxs əvəzliyi cümlənin strukturundan kənarda qalır və ancaq subyekti bildirən sözə çevrilir. Başqa sözlə, şəxs əvəzliyi subyekti ifadə etməklə mübtədaya oxşayır. Lakin mübtədadan fərqli olaraq xəbərlə uzlaşmır. Çünki əvəzlik I şəxsin təki, xəbər isə III şəxsin təkidir. Cümlənin məzmununa xələl gəlmədən şəxs əvəzliyini atmaq olur. Çünki həmişə şəxs əvəzliyinin müzmunu cümlədə xəbərin adlıq hissəsinə qoşulmuş bitişən əvəzliyin vasitəsilə bir də təkrar olunur. Beləliklə, şəxs əvəzliyi zahirən cümlədə artıq nəzərə çarpır. Onun vəzifəsi yalnız işin, halın subyektini bildirməklə bitmiş olur. Şəxs əvəzliyinin yerinə hər hansı bir ismi və ya nomunativ mənalı söz birləşməsini də işlətmək mümkündür. Məsələn:

محمد از این قالی خیلی خوشش آمد.

"Məhəmmədin bu xalıdan çox xoşu gəldi" (hərfən: Məhəmməd bu xalıdan(onun)çox xoşu gəldi). Yuxarıda qeyd etdiyimiz kimi, fars dilində şəxssiz fellər təqribən yox dərəcəsindədir. Bir sıra fellərin bəzi formaları şəxssiz məna kəsb etmişdir. Belə fellər sırasında "lazım olmaq","vacib olmaq", "layiq olmaq" mənalı بایستن felinin باید، می بایستی ، بایستی ، بایست ، می باید

formalarını göstərmək lazımdır. Klassik fars dilində bu felin III şəxs tək forması müstəqil mənada işlənmişdir. Məsələn:

بدین بختم چنو همخوابه باید سریرم را ز گردون پایه باید (نطامی)

"Mənim bu bəxtimə onun kimi bir həmyastıq gərək , Taxtımın qıçı fələyin başında olmalıdır".

بود هر کار بی استاد دشوار نخست استاد باید آنگهی کار (نطامی)

"Hər iş ustasız çətin olar, əvvəlcə usta olmalıdır, sonra iş".

Yuxarıdakı cümlələrdə بایستن felinin III şəxs tək forması müstəqil mənada şəxsli fel kimi işlənmişdir. Lakin müasir dildə həmin fel artıq modal fel kimi daşlaşmış, sabitləşmiş və şəxs mənasını tamamilə itirmişdir. Modal fel kimi باید می بایستی ، بایستی ، بایست ، می باید müasir dildə təkcə III şəxsin təki üçün deyil, bütün şəxslər üçün işlənə bilir ki, bu da həmin sözlərin konkret şəxs mənasını itirdiyinə sübutdur. İntəhası, həmin sözlər bəzi fel formaları ilə işləndikdə şəxsli, bəziləri ilə şəxssiz cümlə əmələ gətirir. Göstərilən fellər şəxs və kəmiyyətə görə təsrif olunmur. Hansı fellə işlənirlərsə, həmin fel təsrif olunur. Məsələn:

ولی شاه باید که در کار خویش پژوهش نماید بمقدار خویش (نطامی)

"Ancaq şah tutduğu işi araşdırmalıdır". (7,78).

Müasir fars dilində həmin sözlər felin təsrif olunan formaları ilə işləndikdə şəxsli, qısaldılmış məsdər şəkli ilə işləndikdə isə şəxssiz cümlə yaranır. Məsələn: پس مردم باید گشنه و محتاج و بیسواد و خرافی بمانند تا مطیع ما باشند (ص. هدایت).

“Demək, xalq ac, möhtac, bisavad və mövhümatçı olaraq qalmalıdır ki, bizə müti olsun”.

باید کاری کرد که برزگر و دهقان خودش را محتاج من و شما بداند و شکرگذار باشه (ص. هدایت).

“Elə bir iş görmək lazımdır ki, əkinçi və kəndli özünü mənə və sizə möhtac bilsin və şükür eləsin”. (5,102).

بایستن felinin بایستی ، باید ، می باید kimi formaları klassik fars dilində də müasir dildə olduğu kimi fellərlə işlənərək həm şəxsli, həm də şəxssiz cümlə əmələ gətirirdi.

Klassik fars dilində بایستن felinin yuxarıda sadalanmış şəkilləri şəxssiz mənada felin həm qısaldılmış məsdəri, həm də tam məsdər forması ilə işlədilə bilirdi. Məsələn:

ترا بایست پیری چند هشیار کزین کردن فرستادن باین کار (نطامی)

“Gərək sən bir neçə qoca tapaydın, Onlar gəlib işi aydın edəydilər”.

که عشق و مملکت ناید بهم راست از این هر دو یکی می بایدت خواست (نطامی)

“Çünki eşq ilə məmləkət bir yerə sığmaz, Bu ikisindən birini istəmək lazımdır”.

Fars dilində şəxssiz cümlə əmələ gətirən fellərdən birisi شایستن felidir. Bu fel klassik dildə “layiq olmaq” , “yaraşmaq” mənasında şəxsli mənada müstəqil işlənə bilirdi. Məsələn:

تو سنگین دل شدی من آهنین جان چنین دل را نشاید جز چنین جان (نطامی)

“Sən daş ürəkli oldun, mən dəmir canlı, Elə ürəyə belə candan başqa bir şey yaramaz”. Bu söz müasir dil üçün şəxs mənasını tamamilə itirmiş və əsasən “ola bilsin”, “bəlkə də” mənasını verir və adətən ara söz kimi işlənir. شاید sözü hələ klassik dildə şəxs mənasından təcrid olunaraq باید sözü kimi fellə birlikdə “layiqdir”, “lazımdır” mənasında şəxssiz cümlənin xəbərini yarada bilirdi. Məsələn:

نشاید کرد بر آزار خود زور که بس بیمار واگشت از لب گور (نطامی)

“Öz azarına zor etmək olmaz, Çünki çox xəstələr gorun qırağından qayıdıblar ”.

شاید sözü klassik dildə şəxssiz mənada felin qısa məsdəri ilə işləndiyi kimi , tam məsdər forması ilə də işlənirdi. Məsələn:

بهنگام سیل آتشکارا شدن نشاید ز ری تا بخارا شدن (نطامی)

“Sel aşıb-coşan zaman Reydən Buxaraya səfər lazım deyil”.

Şəxssiz cümlə əmələ gətirən fellərdən birisi də modal fel olan توانستن felidir. Bu fel “bacarmaq”, “edə bilmək ” mənasında bütün zamanlar və şəxslər üçün təsrif oluna bilir. Lakin həmin feldən olan می توان və توان sözləri şəxs mənasını itirmişdir və bir qayda olaraq fellərlə işlənərək şəxssiz cümlə yaradır. Məsələn: (10,280).

همه کارها را در مدت معین کوتاه نمی توان انجام داد.

“Bütün işləri (müəyyən) qısa müddətdə yerinə yetirmək mümkün olmur”.

باید دید که این آرزو را در چه مدت و با چه وسایلی می توان بر آورد (مجله ی "سخن").

“Baxmaq lazımdır ki, bu arzunu nə vaxt və hansı vasitələrlə həyata keçirmək olar”. Klassik fars dilində belə hallarda qısaldılmış məsdər də işlənirdi. Məsələn:

نباید سر از حکم او تافتن که نتوان از و بهتری یافتن (نطامی)

“Onun hökmündən baş qaçırmalı , çünki ondan yaxşısını tapmaq mümkün deyil”.

Klassik dildə توانستن felin sinonimi kimi دانستن “bilmək” feli də “bacarmaq” mənasında işlənə bilirdi. Məsələn:

اگر بر کف ندانم ریخت آبی توانم کرد بر آتش کبابی (نظامی)

"Mən (onun) əlinə su tökə bilməsəm də, Odun üstündə kabab edə bilərəm". (6,112).

Fars dilində şəxssiz cümlələrin yaranmasında iştirak edən fellərdən birisi də شدن "olmaq" felidir. Bu felin III şəxs tək for mənasını tamamilə itirərək müstəqil şəkildə "oldu" və "olmadı" mənalarında işlənə bilir. Bundan əlavə həmin fel fellərin qısaldılmış məsdər şəkli ilə birləşərək şəxssiz cümlə əmələ gətirir. Məsələn:

تو این دور و زمانه به کسی نمیشه اطمینان کرد (ص. هدایت).

"Bu zəmanədə heç kəsə arxayın olmaq mümkün deyil".

شدن feli خوب "yaxşı" , بد "pis" kimi sifətlər, habelə bir sıra isimlərlə işlədilərək də şəxssiz cümlə əmələ gətirir. Məsələn:

خوب شد یادم آمد (مجله ی "نور").

"Yaxşı oldu, yadıma düşdü".

چنان شد که با زور بازوی او نچربید کسی بر ترازوی او (نظامی)

"Elə oldu ki, onun qolunun gücündən, onun tərəzisini heç kəs əyə bilmədi". Müasir fars dilində خواستن "istəmək" felinin indiki zaman üçün III şəxs tək forması da "istəməz", "lazım deyil" mənası ifadə etməklə şəxssiz cümlə əmələ gətirə bilir. Məsələn :

نمیخواد دور رفت (ص. هدایت).

"Uzağa getmək lazım deyil".

داشتن "malik olmaq " felinin indiki zaman III şəxs tək forması olan ندارد sözü də عیب ندارد "eybi yoxdur" şəklində müstəqil olaraq şəxssiz cümlə yaradır. Məsələn:

خاله گفت:عیبی ندارد خانم (مجله ی "نور").

"Xala dedi: eybi yoxdur, xanım".

حاجی رو کرد به طرف بچه- عیب نداره، قربون (ص. هدایت).

"Hacı üzünü uşağa çevirdi: eybi yoxdur, qurban olum".

Müasir fars dilində şəxssiz cümlələrin bir qismi fiziki psixoloji vəziyyət, bu və ya digər hadisəyə , fakta münasibət ifadə edən cümlələrdir ki, onlar da bir qayda olaraq خوش ، حوصله ، حیف ، بد kimi sözlərin آمدن"gəlmək " feli ilə birləşməsi yolu ilə düzəlir. Belə halda göstərilən sözlərə işin, hərəkətin , halın subyektinə müvafiq olan enklitik əvəzlik artırılır. Məsələn:

با اینکه پایش درد گرفته بود گریه اش نیامد (مجله ی " کیهان").

"Ayağı ağrımasına baxmayaraq ağlamağı gəlmədi".

راستی خوب شد یادم آمد... (ص. هدایت)

"Doğrudan, yaxşı oldun yadıma düşdü..."

Subyektin fiziki-psixoloji vəziyyətini ifadə etmək üçün شدن felinin III şəxs forması da şəxssiz mənada işlənir. Məsələn:

من هر وقت به فکرش می افتم چندیشم می شد (ص. هدایت).

"Hər vaxt onu fikirləşəndə ətim ürpəşir".

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Samirə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏHLA MİR HEYDƏR QIZI HÜSEYNOVA,
BDU, filologiya üzrə fəlsəfə doktoru,
hshahla43@gmail.com

NİZAMİ GƏNCƏVİ - SÖZÜN QÜDRƏTİ VƏ BƏLAĞƏTLİ NİTQ HAQQINDA

Düşüncənin əvvəli, rəqəmin, sayın sonu,
Təkcə sözdür, təkcə söz, yadında saxla bunu.
Nizami Gəncəvi

X Ü L A S Ə

Məqalədə Nizami Gəncənin söz haqqında düşüncələri, sözün qüdrəti barədə mülahizələri təqdim olunur. Şairin "Xəmsə"sinə daxil olan poemalardan gətirilən nümunələrdə düzgün, lakonik, məntiqli və səlis danışmağın məziyyətlərindən söhbət açılır. Sözə yüksək qiymət verən alim-şairin danışarkən auditoriyanın səviyyəsini nəzərə almağı natiqdən tələb etdiyi əsərlərindən gətirilən örnəklərlə əsaslandırılır. Bildirilir ki, Nizami yüksək bəlağətli nitqin hazırlıqsız dinləyici kütləsi qarşısında ifasını alıcısı olmayan bazarda bahalı zinət əşyası satmağa bənzədir. O, cəmiyyətin intellekt səviyyəsini nəzərə almağın tərəfdarıdır. Həmçinin şair lüzumsuz təkrarçılığın, informativ bazası olmadan nitq söyləməyin əleyhinədir. Nitqdə uzunçuluq,təkrarçılıq auditoriyanı yorur. Şairə görə, kamil nitqin əsas ünsürləri təmkinlə, aramla danışmaq, fikrini az sözlə ifadə etməyi bacarmaq, yumoristik atmacalardan əndazəsində istifadə etmək, məzəli zarafatları ilə məclisə təsir göstəmək, yaxud nitqdəki emosional intonasiya ilə adresatı riqqətə gətirməkdir.Şair az sözlə çox fikir söyləməyin tətəfdarıdır.

Şair sözə qiymət verərək, ondan istifadə edən hər bir şəxsin sözdən məsuliyyətlə faydalanmağını tövsiyyə edir.

Dahi söz ustası N.Gəncəvinin əsərlərinin dünya şöhrəti qazanmasının əsas səbəbi sözə verdiyi böyük qiymətdir.N.Gəncəvinin əsərləri bu gün də öz aktuallığını itirməmişdir.

Açar sözlər: Nizami Gəncəvi, dil, nitq, natiq, cəmiyyət, sözün qüdrəti.

Dil və düşüncə arasında əlaqə, onların bir-birindən asılılığı məsələsi daim filosofların təfəkkürünü məşğul etmişdir. Hələ antik dövrün alimləri bu barədə müəyyən mülahizələr irəli sürmüş, sözün hüdudsuz imkanları haqqında fikir yürütmüşlər. Nəticədə sözün ilahi mənşəyini qəbul etmiş və ona hörmətlə yanaşmağı tələb kimi irəli sürmüşlər. Bu ənənə sonralar orta əsrlər İslam Şərqində də davam etmiş, dil, ondan istifadə haqqında bəlağət adlı xüsusi elmin yaranmasına səbəb olmuşdur. Əl-Cahiz, İbn əl-Mütəzz, Əs-Səkkaki və başqaları kimi alimlər zəngin,

obrazlı, səlis nitq qabiliyyəti haqqında mühüm elmi mülahizələr irəli sürmüş, natiqlik məharətindən bəhs edən qiymətli əsərlər ərsəyə gətirmişlər. Zaman-zaman bu möhkəm özül üzərində yüksələn poeziya və nəsr nümunələri meydana gəlmiş, Azərbaycan da daxil olmaqla Şərqdə qüdrətli söz ustaları yetişmişdir. Göstərilən zaman kəsimində Gəncədə, Şirvanda, Təbrizdə, Naxçıvanda tanınmış xatiblər, görkəmli leksikoqraflar, dünya şöhrətli şairlər yetişmişdir. Onlardan biri də adını dünya söz sənətinin tarixinə əbədi həkk edən Nizami Gəncəvidir.

Böyük Azərbaycan şairi İlyas Yusif oğlu Nizami Gəncəvi ilkin orta əsrlər Şərq bəlağətinin ən yüksək nailiyyətlərindən istifadə edərək dövrünün poeziya dili olan farscada misilsiz sənət inciləri yaratmış, doğulub boya-başa çatdığı Gəncənin adını bütün müsəlman Şərqində tanıtmağa nail olmuşdur. Onun lirik əsərləri, xüsusən də poemaları zaman və məkan sərhədlərini aşaraq dünyaya yayılmış, qüdrətli poeziya örnəyi kimi klassiklər tərəfindən ən yüksək qiymətini almışdır. Əbəs deyil ki, onun adı təkcə Azərbaycannın deyil, həm də bütün dünyanın ən qüdrətli söz ustaları sırasında çəkilir. Onu bədii təxəyyülünün genişliyinə və sözdən istifadənin hüdudsuz imkanlarına görə Dante, Şekspir, Höte, Puşkinlə müqayisə edir, Homer və Firdovsiyə bənzədirlər. Şairin irsi, xüsusən də "Xəmsə"yə daxil olan poemalar insan zəkasının nələrə qadir ola biləcəyini nümayiş etdirməkdədir, eyni zamanda sözdən istifadənin hüdudsuz imkanlarını ortaya qoymaqdadır.

Şairin "Pənc gənc" – "beş xəzinə" adlandırdığı bir-birindən fərqli, gözəl süjet və kompozisiya quruluşu ilə qələmə alınmış poemalarında müxtəlif məsələlərə münasibət bildirildiyi kimi söz, dil, nitq, nitq fəaliyyəti və fikrin bəlağətli ifadəsi məsələlərinə də toxunulur. Zəngin ensiklopediya təsiri bağılayan bu əsərlərdə söz dünya xəzinəsinin ən əsas incisi, insanın ən başlıca zinəti hesab edilir. Şair "Sirlər xəzinəsi" əsərində yazır:

Sordu: "Köhnə qızılmı, təzə sözmü yaxşıdır?"
Söz sərrafı söylədi: "Söz dünyanın naxşıdır" [1, s. 48].

Nizami sözü insandan sonra əbədi qala biləcək yeganə yadigar sayır. Ona hörmətlə yanaşmağı tələb edir. Çünki təsəvvüfi dünya görüşünə görə, yaradılışın təkanverici qüvvəsi, mövcudatın səbəbi olan söz[1] "dünyanın naxşıdır". Nizami söz ustası olaraq onun ifadə imkanlarını, funksiyalarını da dəqiq bilir. Klassik Yunan və Ərəb dilçilik məktəblərinin nailiyyətlərindən xəbərdardır. O, sözün informativ və poetik funksiyası arasında incə sərhədin olduğunu söyləyir. Bədii təfəkkürün şirinlik qatdığı sözün daha rahat qəbul olunduğunu, fikirlərdə təşviş sala biləcək bir söz əvəzinə, yumşaq söylənmiş ifadənin qəlbə rahatlıq gətirə biləcəyini nümunələrlə əsaslandırır. Məsələn, "Sirlər xəzinəsi"ndə yazır:

Bunu hamı bilir ki, doğru söz dürr olsa da,
Haqq acı olduğundan acı olacaq o da [6, s. 74].

[1] Sufizmə əsasən, Allah "ol" deməklə aləm olub. Dini etiqada görə də lövhi-məhfuzda nə yazılırsa, o da olur. "Yazılana pozu yoxdur" ifadəsi də yəqin ki, elə bu inancdan qaynaqlanır.

Nizami bununla yanaşı, doğru sözə uca Tanrı yanında da qiymət verildiyindən danışır, "həqiqəti danışanın sözünə yaradanın da nüsrət bəxş etməsinə" olan inamını əsərləri ilə sübut edir. O, bədii yalan və acı həqiqət arasında kəskin uçurum olmadığını və ən ağlasığmaz metaforaların təqdim olunan mücərrəd həqiqətin daha rahat dərkinə yönəldiyini bildirir. Şair qanadlı sözün piyada düşüncənin pərvazlanmasına xidmət etdiyini deyir və fikirlərini "Məxzənül-əsrar"da belə əsaslandırır:

Sözün qanadları var, quş kimi incə-incə,
Dünyada söz olmasa, nəyə gərək düşüncə [6, s. 73].

Şair sözə qiymət verərək ondan istifadə edən hər bir şəxsin bu nemətə nəvazişlə və məsuliyyətlə yanaşmasını tələb edir. Nalayiq ifadələrin işlətməsinin nitqimizdə yolverilməz olduğunu bildirir:

Hər söz ki, mərifətə, ədəbə yaddır heyhat,
Əlinlə çirkini poz, onu saxlama, cır at! [6, s. 74].

Müəllif mənalı ifadələrin, bədii cəhətdən gözəl cilalanmış sözün hər yerdə, hər məclisdə söylənməsinin də yolverilməz olduğunu diqqətə çatdırır. Bunu xiridarların olmadığı bazara bahalı nemətləri çıxarıb, ucuza satmağa bənzədir və belə hərəkəti ağılsızlıq sayır. Yəni alim-şair auditoriyanın səviyyəsini nəzərə almağı tələb edir:

Sözün balsa, gəl onu ucuz satmaqdan əl çək,
Qoyma ki, söz balına qonsun o murdar milçək [6, s. 74].

Nizami hər sözün öz yeri, öz məqamı olduğunu da bir pedaqoq kimi gənc nəslə təlqin edir. Hazırlıqsız nitq söyləməyi tədarüksüz yola çıxmağa bənzədir. Yersiz danışmanın başa bəla açacağını, insanı hörmətdən saldığını nümunələr gətirərək izah edir və bu məqamda bir xalq məsəlini də yada salmağı unutmur:

Vaxtsız yola çıxsan, pusarlar, inan,
Başını kəsərlər vaxtsız banlasan [2, s. 64].

Yaxud başqa bir əsərində:

Xurma tək dəyməzsə, onu bil yəqin,
Açmaram üzünü söz gəlininin [4, s. 44], – deyir.

Şair qısa, lakin mənalı nitqin tərəfdarıdır. O, informativ, lakin lakonik nitqin dinləyicilər tərəfindən daha yüksək qiymətləndirildiyini və daha rahat qəbul edildiyini bildirir. Uzunçuluğun, lüzumsuz təfərrürata varmağın dinləyicini yorduğunu nəzərə çatdırır. Nitqə öncədən hazırlaşmağın, material toplayıb, təhlil edib, sonra onun əsasında mükəmməl nitq tərtib etməyin, hazırlanan nitqin ifası üzərində məşq etməyin vacibliyini "Xosrov və Şirin" əsərində bədii şəkildə belə ifadə edir:

Gül kimi bir neçə dil aç da, amma,
Süsən kimi uzun bir söhbət açma.
Polad kimi bərkit qızıl sözü sən,
Salsın söz sikkəsi pulu qiymətdən.

Dəmirçilər kimi qılıncı yarat,
Sonra cilalandır, gün kimi parlat.
Düşüncəsiz bir söz kimə gərəkdir?
Kim belə sözləri dinləyəcəkdir?
... Sözün çoxsa əgər çalış az olsun,
Yüz sözün yerində bir kəlmə qalsın [2, s. 64].

Yerində və əndazəsində deyilən sözü "ruh üçün dərman"a bənzədən şair həddən artıq xırdaçılığa varan nitqin bəzən gözlənilən nəticənin əksinə effekt doğurduğunu, yorğunluğa səbəb olduğunu bildirir:

Az danışsan əgər, sözün sayılar,
Çox sözü dinləyən çox nöqsan tutar.
Sənincin çox demək bəlkə asandır,
"Çox oldu!" – desələr böyük nöqsandır [2, s. 65].

Nitqin əlavə informasiya verməli olduğunu söyləyən sənətkar nitqi hazırlayarkən dinləyiciyə məlum olmayan materialı təqdim etməyin fikir mübadiləsində böyük önəm daşıdığını bildirir. O, dinləyicinin məlum olanı, onun üçün maraq doğurmayanı dinləməyəcəyini, yaxud məlum faktların xülasəsi kimi yazılan mətnin oxunmayacağını söyləyir. "Xosrov və Şirin" poemasında bir beyt daxilində bu xüsusda fikrini belə yekunlaşdırır:

Bilici deyəni etmədim təkrar,
Məlumu deməkdən kimə fayda var [2, s. 67].

Məzmun ilə formanın vəhdətinin nitq üçün də əsas olduğunu diqqətə çatdıran Nizami yaxşı sözü qızıla, danışanı zərgərə, auditoriyanı zövqlü müştəriyə bənzədir. Daha gözəl işlənmiş qızılın, daş-qaşla süslənmiş zərgərlik məmulatının daha çox alıcısının olduğunu bildirən qüdrətli söz ustası beləcə fikrə müvafiq formanı tapanda nitqin də auditoriya tərəfindən həvəslə qarşılandığını metoforik bənzətmə ilə izah edir. Şair "Yeddi gözəl" poemasında məzmun və forma vəhdəti olan yaxşı sözün əbədi həyat yaşayacağını deyir:

Yaxşı söz insanın batar başına,
Ağıl yazar onu ürək qaşına [3, s. 81].

Nizami uğurlu yeni bənzətməni, fərqli deyilmiş təzə tər sözü okean dibindən çıxarılmış inciyə, deşilməmiş mirvariyə bərabər tutur. "İskəndərnamə"də söz sənətindəki tapıntı edən söz ustasını daşlardan gövhər çıxaran daşyonana tay tutur:

Daşlardan cəvahir çıxaran ancaq
Bilir ki, çətindir gözəl söz tapmaq [5, s. 25].

Nizami dialoqda da müsahiblərin bir-birinə ehtiram göstərməsi və qarşı tərəfin fikrinə hörmətlə yanaşmağın vacibliyi məsələsinə də diqqət ayırır. Debat aparmağın da bir mədəniyyətinin olduğunu, ədəbin gözlənilməsinin vacibliyini "Şərəfnamə"də belə ifadə edir:

Dindirən olmasa danışma hədər,
Kəsəri yavaş vur sınmasın gövhər.

Sormadan kim sözə başlasa, bişəkk,
Sözünü küləyə sovurmuş, demək [4, s. 39]

Şair sual-cavabda da tərəflərin bərabər intellekt sahibi olmasının əhəmiyyətli fikir mübadiləsinə yol açdığını göstərir. Əks halda bunun boş zəhmət olduğunu bildirir:

Söyləmək o zaman verər mənfəət,
Aləmə səs sala, qazana şöhrət.
Sözünə almasan layiq cavab,
Dəyərli sözləri eləmə xarab.
Boş-boş söyləməkdən saxla özünü,
Ağzına qıfıl vur, yandır sözünü. [4, s. 40]

Böyük sənətkar söylənilən nitqin informativ bazası nə qədər zəngin olarsa, natiq az vaxt ərzində nə qədər çox faktiki məlumat ötürməyi bacararsa, daha müvəffəqiyyətli olduğunu deyir. Lakin o, lüzumsuz təkrarçılığın da əleyhinədir. Nizami "Şərəfnamə"də başqasının fikrini təkrarlamağı, epiqonçuluğu bir mirvari dənəsində iki dəlik açmağa bənzədir:

Keçmişlər deyəni eləmə təkrar,
İnciyə bax iki dəlik açmazlar.
Ancaq sözü sözə bağlamaq üçün,
Bəzən nə eybi var təkrar da mümkün [4, s. 46]

Nizami rasionalizmin tərəfdarıdır. Ağla sığmayan fikrin auditoriya tərəfindən qəbul olunmayacağını deyir. O hər fikrində məntiqə söykənməyi tələb edir. Məntiqdən kənar bənzətmələrin insan şüuru tərəfindən də qəbul olunmadığını, lakin məntiqlə əsaslandırılmış fantaziyanın isə dinləyici tərəfindən daha rahat həzm edildiyini deyir:

Qələmə gərəkdir elə söz almaq,
Şüurdan, ağıldan olmasın uzaq.
Parlaq inci kimi düzülən sözlər,
Ağıla sığmazsa, yalana bənzər.
Doğruya azacıq bənzəyən yalan,
Yaxşıdır yalana bənzər doğrudan [4, s. 60].

Nizami müdriklik çağının məhsulu olan "İskəndərnamə" poemasında böyük insan kütlələrini arxasınca aparmaq, toplumun şüuruna təsir göstərə bilmək qabiliyyətinə malik insan obrazı yaradır. Bu surət tarixin dünya fatehi kimi tanıdığı Makedoniya çarı böyük İsgəndər, yaxud Nizaminin də təqdim etdiyi kimi İsgəndər Zülqərneyndir. Şair yaratdığı bu qəhrəmanının natiqlik sənətində uğurlu olmasının əsas səbəbini, onun sözə xüsusi həssaslıqla yanaşması olduğunda görür.

Şair "Şərəfnamə"də Çin hökmdarının casusunun İskəndər haqqında müşahidələrini oxucusuna təqdim edərkən onun natiqlik məharətinə xüsusi diqqət ayırır. Nizami İskəndərin simasında gah saray əyanları, gah ordu, gah da sadə insanlar qarşısında nitq söyləmək qabiliyyətində olan nümunəvi natiq obrazı yaradır

və kamil nitqin əsas ünsürlərini təqdim edir: "İskəndər təmkinlə, aramla danışır, fikrini az sözlə ifadə etməyi bacarır, duzlu-məzəli atmacaları, zarafatları ilə də məclisə təsir göstərir" [7, s. 73].

Nizaminin səkkiz yüz iyirmi il bundan öncə baş qəhrəmanın timsalında canlandırdığı ideal natiq obrazı müasir dövrdə də natiqliyin əsas tələblərinə cavab verən deklomator təsiri bağışlayır.

Görkəmli dilçi akademik Afat Qurbanov kamil nitqi xarakterizə edən səkkiz cəhəti müəyyən edib ki, bunlar aşağıdakılardır: nitqin dəqiqliyi, zənginliyi, aydınlığı, təmizliyi, məntiqiliyi, yığcamlığı, ifadəliliyi və əlbəttə, təsirliliyi [Bax: 9, s. 215-217].

Sadalanan cəhətlərin hər birinə biz Nizami "Xəmsə"sində sözdən istifadənin əsaslarının bədii təqdimi zamanı rast gəlirik. Yəni şair təkcə öz yaradıcılığı ilə kamil nitq örnəyi ortaya qoymur, eyni zamanda bir didaktik kimi sözdən üsulluca və ustacasına istifadənin prinsiplərini gənc nəslə təlqin edir. Əsrlər ötsə də, bu tələblər hələ də əhəmiyyətini qorumaqdadır.

Məlumdur ki, aydın ifadə olunan nitq aydın düşüncənin məhsuludur. Belə nitq isə kamil şəxsiyyətin başlıca fərqləndirici əlamətlərindən biri, bəlkə də, birincisidir. Lakin kamil nitq üçün aydın düşüncə kifayət etmir. Həmin düşüncənin uğurlu yekunu, yəni faydalı fikrin səmərəli təqdimatı da əhəmiyyətli rola malikdir. Kamil təqdimat üçün isə natiqin dil vasitələrindən məqsədli və məharətlə istifadə etməsi vacibdir. Bu təcrübəyə sahib olmaqdan ötrü isə mütaliə etmək, deklomatorların nitqini dinləmək, nitq sahəsində məharəti olan insanlarla ünsiyyət qurmaq, bir sözlə, öz üzərində müntəzəm çalışmaq lazımdır.

Təcrübə göstərir ki, ictimai-siyasi fəaliyyət, ziyalı insanlarla ünsiyyət qurmaq, bir sözlə konkret sosial-mədəni mühitin təsir altında olmaq danışanın nitqinə müsbət təsirini göstərir və istər-itəməz öz möhürünü vurur. Belə ki, bitkilər ətraf mühitə uyğunlaşdığı kimi, insan da düşdüyü şəraitə uyğun davranır. Bunu danışanın nitqindən də hiss etmək mümkün olur.

Nizami Gəncəvi "Xəmsə"sində belə bir mühitdə formalaşan bir neçə obrazı canlandırır. Onlardan ən yadda qalanı isə, sözsüz ki, İskəndərdir. Nizami "İskəndərin təlim alması" fəslində onun xüsusi təmrinlər nəticəsində nümunəvi nitqə sahib olmasını göstərir. Natiqlik məktəbi keçmiş İskəndərin nitqinin rəvanlığını təsvir edərkən şair yazır:

Öz ağlı, zəkası olunca rəhbər,
Tapırdı ən incə, mənalı sözlər.
Hər incə mənanı edərkən bəyan,
Sözləri su kimi olurdu rəvan [4, s. 66].

Göründüyü kimi, müəllif burada üç əsas ünsürün üzərində dayanır: bunlardan birincisi aydın təfəkkür, ikincisi dəqiqlik və ifadəlilik, nəhayət, üçüncüsü intonasiyadır.

Şair "İskəndərnamə" poemasında hər zümrənin, hər peşə sahibinin öz nitq təcrübəsi olduğu haqqında da məlumat verir. Bu haqda fikirlərini əsərin Nüşabə ilə İskəndərin görüşü səhnəsində ifadə edir. Həmin parçada Nüşabə elçi sifəti ilə onun sarayına gələn İskəndəri tanıyır. Buna yardım edən cəhətlərdən biri də İskəndərin nitqi, daha doğrusu nitqindəki bəlağət və ehtişamdır. Nüşabənin: "Bir elçi deyilsən, hökmverənsən", - deməsi məhz İskəndərin nitqinin diplomatik tondan uzaq olmasına işarədir. Lakin Makedoniya çarının nitqindəki intellektuallıq onun xüsusi məktəb görmüş bir zat olmasına nişan verir ki, bu da Nüşabəyə nitq sahibinin əslini tanımağa imkan yaradır. Yəni burada antik filosof Sokratın: "Ey adam, danış, deyim, sən kimsən", yaxud imam Əlinin: "Kişi öz dilinin arxasında gizlənib" tezislərinə uyğun gəlir. Verilən epizodda isə Nizami nitqin onun sahibinin məşğuliyyətini, xasiyyətini biruzə verməsi fikrinə mühüm əlavələr edir. O, ali zümrənin nitqində təkcə xüsusi leksikonun deyil, eyni zamanda amiranə tonun da fərqləndirici əlamət olduğunu müəyyən edir.

O da məlumdur ki, nitqin ifası zamanı səsin tonundan, dil vahidləri arası fasilələrdən və vurğudan yerli-yerində istifadə isə nitqin daha rəvan, eyni zamanda daha anlaşılan olmasına imkan yaradır. Müsahibə ötürülən fikrin aydın çatdırılması üçün dil vahidlərində intizamlılıq mühüm göstəricidir. Nizami Gəncəvi də bu prizmadan yanaşaraq kamil tərtib olunmuş nitqdə hər vahidin öz yerində olmasını tələb edir. O: "Əlində tərəzi mahir söz ölçən, Saxta əşrəfini saldı rövnəqdən", - deyərkən həm də öz nitqindəki intizama işarə vurmuş olur. Nizaminin bu beytinə şərh verən professor Əkrəm Cəfər yazır: "Burada Nizami özünü mahir söz ustası, əsərini də sözün dəyərini, saxta və ya saf olduğunu təyin edən tərəzi, əyar adlandırır" [4, s. 407].

Doğurdan da, Nizaminin "Xəmsə"si təkcə epik şeir örnəyi, nəzmin kamil nümunəsi kimi deyil, həm də dil vahidlərindən məharətlə istifadənin ən kamil göstəricisidir. Çünki dahi sənətkar təkcə nəzəriyyədə deyil, eyni zamanda təcrübədə də kamil nitq faktı necə olmalıdır sualına cavab vermiş, "Xəmsə"si ilə bunun əsrlərlə fəth olunmayan ən uca zirvəsini yarada bilmişdir.

Göründüyü kimi, böyük söz ustası, dahi şair Nizami Gəncəvinin əsrlərin sınağından uğurla çıxmış və hələ də təravətini itirməmiş əsərlərində söz və dilin imkanları, nitq və nitq fəaliyyəti, natiqlik sənəti haqqında irəli sürdüyü fikirlər bu gün də öz əhəmiyyətini qorumaqdadır. Şairin "Xəmsə"sində yer alan insanın cəmiyyətdə, natiqin auditoriya qarşısında mövqeyini möhkəmlətmək üçün lazım olan əsas tələblər haqqında fikirləri gənc natiqlər üçün tövsiyələr sistemi kimi diqqəti cəlb etməkdədir. Ən əsası isə Nizami əsərlərinin dünya şöhrətinin səbəblərindən birinin də sözə, hikmətli ifadələrə böyük dəyər verməsi, natiqə, onun nitqinə yüksək tələbkarlıqla yanaşması olduğunu nümayiş etdirir.

Huseynova Shahla Mir Heydar
BSU, Doctor of Philosophy in Philology,
hshahla43@gmail.com

S U M M A R Y
Nizami Ganjavi -on the power of words and eloquent speech

The article presents Nizami Ganja's thoughts on the word, his views on the power of the word. The examples from the poems included in the poet's "Khamsa" speak of the merits of correct, concise, logical and fluent speech. The scholar-poet, who highly values the word, is justified by the examples from his works, which require the speaker to take into account the level of the audience when speaking. It is said that Nizami's eloquent speech in front of an unprepared audience is like selling expensive jewelry in a market that has no buyers. He is in favor of taking into account the level of intelligence in society. The length and repetition of the speech exhausts the audience.

The poet is also against unnecessary repetition and speech without an informative base. According to the poet, the main elements of perfect speech are to speak calmly, calmly, to express one's opinion in a few words, to use humorous slang, to influence the meeting with funny jokes, or to pity the addressee with the emotional intonation of speech. The poet is in favor of saying a lot in a few words. Appreciating the word, the poet advises everyone who uses it to use the word responsibly.

The main reason for the world fame of the works of the great master of words N. Ganjavi is the great value given to the word. The works of N. Ganjavi have not lost their relevance today.

Keywords: Nizami Ganjavi, language, speech, speaker, society, power of words.

Гусейнова Шахла Мир Гейдар к

Р Е З Ю М Е
Низами Гянджеви - о силе слова и красноречии

В статье представлены мысли Низами Гянджи о слове, его взгляды на силу слова. Примеры из стихотворений, вошедших в поэму «Хамса», говорят о достоинствах правильной, лаконичной, логичной и плавной речи. Ученый-поэт, который высоко ценит слово, опирается на примеры из своих произведений, которые требуют от говорящего учитывать при выступлении уровень аудитории. Говорят, что красноречивое выступление Низами перед неподготовленной аудиторией похоже на продажу дорогих украшений на рынке, на котором нет покупателей. Он за учет уровня интеллекта в обществе.

Поэт также против лишних повторов и выступлений без информационной базы. Длина и повторение речи утомляют аудиторию. По словам поэта, главные элементы безупречной речи - это говорить спокойно, в нескольких словах выразить свое мнение, использовать юмористический сленг, повлиять на встречу веселыми шутками или пожалеть адресата эмоциональной интонацией речи. .

Оценивая это слово, поэт советует всем, кто его употребляет, относиться к нему ответственно.

Основная причина всемирной известности произведений великого мастера слова Н. Гянджеви - это большое значение, придаваемое слову, поэтому, произведения Н. Гянджеви и сегодня не утратили своей актуальности.

Ключевые слова: Низами Гянджеви, язык, речь, оратор, общество, сила слова.

İstifadə olunmuş ədəbiyyat

1. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Lider, 2004, 264 səh.
2. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Lider, 2004, 392 səh.
3. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı: Lider, 2004, 336 səh.
4. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə, Bakı: Lider, 2004, 432 səh.
5. Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə, Bakı: Lider, 2004, 256 səh.
6. Nizami Gəncəvinin hikmət dünyası, Bakı: Təhsil, 2013, 306 səh.
7. Əliyev Kamil. Natiqlik sənəti, Bakı: Azərnəşr, 1994, 159 səh.
8. Məmmədli Nadir. Azərbaycan dili və nitq mədəniyyəti, Bakı: Elm və təhsil, 2021, 528 səh.
9. Qurbanov Afat. Ümumi dilçilik, 2 cilddə, II cild, Bakı: Maarif, 1993, 548 səh.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya elmləri doktoru, professor İlhamə Hacıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AYDIN RZAI
Filologiya elmləri namizədi, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti
rzaiaydin@mail.ru

XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ALINMALAR VƏ DİLİN İNKİŞAFINDA ONLARIN ROLU

Xülasə

XIX əsrin sonu - XX əsrin əvvəllərində rus tacirlərinin Azərbaycana gəlişi rus iqtisadiyyatı ilə yanaşı rus mədəniyyətini də vətənimizə gətirdi. Azərbaycan gənclərinin Rusiyada təhsil alması, rus dilini bilən ziyalıların sayının gedərək artması yeni qəzet və jurnalların nəşrində əhəmiyyətli rol oynadı. "Ziya", "Kəşkül", "Qudok" kimi qəzet və jurnallarda A.S.Puşkinin, İ.A.Krılovun, L.N.Tolstoyun əsərlərinin tərcümə olunaraq çap edilməsi dilimizin lüğət tərkibinə xeyli sözün girməsinə imkan yaratdı. Bu ənənə bugünə kimi də davam etməkdədir. Rus dili vasitəsi ilə dilimizə bir çox Avropa mənşəli sözlərin də daxil olması Azərbaycan dilinin lüğət fondunun zənginləşməsində mühüm rol oynadı. Bunun da əsas səbəblərindən biri XIX əsrin II yarısında milli mətbuatımızla yanaşı, rus dilində çap olunan onlarla qəzet və jurnal idi. Sovetlər dövründə bu ənənə özünü daha dolğun şəkildə göstərdi.

Açar sözlər: diskusiya,kadr, emosional, sadiq, fikir

XIX əsrin II yarısı Azərbaycan iqtisadiyyatında baş verən sürətli inkişaf bir çox sahələrin çiçəklənməsinə şərait yaratdı. Nuxada, Naxçıvanda ipək, Şamaxıda, Gəncədə şərab, Qubada, Lənkəranda boyaq istehsalı durmadan artırdı. Bu mallar Avropa bazarlarına, xüsusilə, Rusiyaya göndərilirdi.

Bundan əlavə, məlum 1861-ci il islahatı ərəfəsində varlanan rus tacirləri Azərbaycana axışmağa başladı. Onlardan Kokorev qardaşları, Qubonin, Voronin qardaşları,Alekseyev və başqalarını göstərə bilərik. Məsələn, Kokorev qardaşları ilə birgə Qubonin tərəfindən inşa olunmuş (Suraxanıda) ağ neft zavodu Rusiyada işlənən Amerika nefti ilə rəqabət aparırdı. Voronin qardaşlarının və Alekseyevin təşəbbüsü ilə yaranan ipək (Nuxada) fabriki, Gədəbəy miss, Daşkəsəndə rəng, Pirallahıda parafin zavodunun yaranması Azərbaycan iqtisadiyyatının yüksəlməsinə çox kann yaratdı.

XIX əsrin 70-ci illərindən sonra Bakı əsas mədəni mərkəzə çevrildi. Bakıda yeni-yeni müəssisələr yaranmağa başladı. Yeni teatr binası, mətbuatın durmadan inkişafı, əsas mədəni qüvvələr olan jurnalistlər, şairlər, yazıçılar, incəsənət ustaları və digər ziyalıların Bakıda yaşaması ictimai-siyasi, mədəni həyatın inkişafına çox böyük təsir etdi. Artıq bu illərdə Azərbaycan mətbuatında, ədəbi əsərlərin dilində yeni-yeni alınma sözlərə və terminlərə rast gəlmək olurdu. Əsərin tədqiqat obyekti M.Ə.Sabir

və A.Şaiqin əsərlərinin materialı olduğu üçün gətirdiyimiz misallar istisnalıq təşkil edir. Misalların bəziləri isə digər şair və yazıçıların əsərlərindən götürülmüşdür. Məsələn:

Pristav, naçalğnik gələndə kəndə,
Obanı, oylağı vururlar bəndə.
Xərac üstə çoxu düşdü kəməndə,
Qamçıdan belinin çatı çıxıbdır.
(A.Ələsgər)
Yaxud,

Gətirmiş aləmi ləngə polis idarələri,
Baxır nə adə, nə nəngə polis idarələri.
Dolub qılınca, tüfəngə polis idarələri,
Dönüb qabana-pələngə polis idarələri
Girib bu xəlqlə cəndə polis idarələri.
(Əli Nəzmi)

Yaxud,
Şerə məşğul edərkən xatiri-qəmmayilimi,
Qoyuram qənşərimə kağızımı, çernilimi
Gəlirəm yazmağa bir kəlmə, tutursan əlimi,
Qorxuram ya nə üçün? Çünki kəsirsən dilimi.
Ey əcəb, mən ki, sədaqət yolunu azmayıram,
Hələ gördüklərimin dörddə birin yazmayıram.
(M.Ə.Sabir)

Gətirdiyimiz misallar nəinki ədəbi əsərlərin dilində, həm də qəzet və jurnalların da dilində özünə xüsusi yer etmişdi. Hətta, bəzi qəzetlərin adları belə alınma sözlərdən ibarət idi. Məsələn; «Qudok», «Şərqi-rus», <«İqbal», «Zənbur> və s.

XIX əsrin II yarısında dilimizin lüğət tərkibi bir neçə yolla zənginləşirdi. Bunları təxminən belə qruplaşdıra bilərik:

1. İqtisadiyyatın və ictimai həyatın güclü inkişafı nəticəsində.
2. Mədəni əlaqələrin yaranması nəticəsində.
3. Tərcümə ədəbiyyatı hesabına.
4. Heç, şübhəsiz ki, Kalka üsulu azad olsa öz rolunu oynayırdı.

Apardığımız tədqiqat və müşahidələri əsas tutaraq belə bir qənaətə gəlmək olar ki, haqqında bəhs etdiyimiz illərdə, dilimizin lüğət tərkibi, xüsusilə, əsas lüğət fondu elə bir nəzərə çarpacaq dərəcədə dəyişikliyə uğramadı. Əvvəllərdə olduğu kimi, yenə də ərəb, fars mənşəli sözlərin alınma sözlər kimi öz hegemonluğunu

saxlayırdı. Yalnız bəzi sahələrdə rus-Avropa mənşəli sözlər diqqəti cəlb edirdi. Belə sözlər, heç şübhəsiz ki, istər dilin lüğət tərkibinə, istərsə də dilin əsas lüğət fonduna bir o qədər də təsir edə bilməzdi.

Lakin onu qeyd etmək olar ki, XIX əsrin birinci yarısına nisbətən ikinci yarısında maarif sahəsində müəyyən bir tərəqqi nəzərə çarpırdı. 1879-cu ildə bir qrup ziyalıların təşəbbüsü il əvə xüsusilə, M.F.Axundovun sayı nəticəsində Qori müəllimlər seminariyasında azərbaycanlılar üçün «Müsəlman şöbəsi»nin yaradılması böyük bir ziyalı ordusunun yetişməsinə şərait yaratdı. Bu məzunlardan M.Mahmudbəyov,

N.Nərimanov, R.Əfəndiyev, C.Məmmədquluzadə, Süleyman Sani Axundov, Üzeyir Hacıbəyov və başqa görkəmli şəxsiyyətlər məhz, bu dövrdə yetişib, meydana gəlmişlər. Adları qeyd olunan bu ziyalılar rus mədəniyyətini təbliğ edir və bir çox qəzalarda, xüsusilə, Bakıda yeni məktəblər açırdılar. Bu məktəblərdə tarix, coğrafiya, ana dili, fars dili və şəriətdən əlavə olaraq rus dili də tədris olunurdu. Məsələn, Şamaxıda Seyid Əzim Şirvani, Şuşada Mir Möhsün Həvvəb, Lənkəranda Mirzə İsmayıl Qasir, Ordubadda Məhəmmədtağı Sidqi «üsuli-cədid» məktəbləri yaradan və yeni üsulla dərs deyən müəllimlərdən idi. Bundan əlavə, əsrin 80-ci illərindən başlayaraq «Rus-tatar məktəbləri» yaradılırdı. Bu dördillik ibtidai məktəb hesab olunurdu. Belə məktəblərdə tədris həm rus, həm də Azərbaycan dilində aparılırdı. İlk «Rus-tatar məktəbləri»nin yaradıcıları Sultan Məcid Qənizadə və Həbib bəy Mahmudbəyov idi.

Dövlət himayəsi altında fəaliyyət göstərən bu məktəblərdə rus mədəniyyəti təbliğ olunurdu. Belə ki, Puşkin, Krilov, Tolstoy, Qoqol, Lermontov kimi tanınmış klassiklərin əsərləri tədris olunurdu. Bundan əlavə, Şamaxıda doğulmuş və uzun müddət orada yaşayan A.O.Cernyayevski böyük rus pedaqoqu K.D.Uşinskinin əsərlərindən istifadə edərək «Səsli metod» ilə «Vətən dili» adlı əlifba kitabı tərtib edib, nəşr etdirmişdir. Bu kitabın hazırlanmasında dövrün görkəmli ziyalılarından sayılan Həsən Əli xan Qaradağı ve Səfərəli bəy Vəlibəyov da yaxından iştirak etmişdir. 1883-cü ildə nəşr olunmuş bu kitabın ardınca Rəşid bəy Əfəndiyevin «Uşaq bağçası» kitabı (yenə səsli metodla) tərtib olunub, 1899-cu ildə nəşr olunmuşdur.

«Əkinçi» bağlandıqdan sonra «Ziya» qəzeti meydana gəldi. «Əkinçi»dən fərqli olaraq «Ziya» qəzeti varlı təbəqənin qəzeti idi. Ona görə mövcud ictimai quruluşun mənafeyini müdafiə edirdi. Qəzetin redaktoru Səid Ünsizadə ruhani təhsili aldığı üçün bu təsirdən çıxa bilmirdi. Hətta qəzetin səhifələrində çıxış edənlərin çox hissəsi bu qəbildən olan adamlar idi. Qəzetin əsas ideya istiqaməti dini ideyaları yaymaq və təbliğ etmək idi. Ona görə də bu qəzetin səhifələrində Mirzə Fətəli Axundovun əlifba (yeni əlifba nəzərdə tutulur) haqqında söylədiyi fikirlər tənqid atəşinə tutulurdu. Hətta qəzetin maarif və mədəniyyət haqqında yazdığı fikir və ideyalar sxolastik dini ehkamlara əsaslanırdı. Belə bir qəzetin fəaliyyəti heç şübhəsiz ki, dilimizdə işlənən yeni sözlərin (rus-Avropa mənşəli sözlər nəzərdə tutulur) terminlərin qarşısına bir sədd çəkir, köhnə ərəb, fars mənşəli sözlərin izafətlərin,

terminlərin yenidən xalqın yaddaşına həkk olunmasına səbəb olurdu. Ona görə də yeni bir qəzetin çapına, nəşr olunmasına güclü ehtiyac duyulurdu. Qısa bir vaxt ərzində «Ziya» nəşr oluna-oluna 1883-cü ildə Səid Ünsizadənin kiçik qardaşı Cəlal Ünsizadənin rəhbərliyi altında yeni bir jurnal, «Kəşkül» çap olunmağa başladı. Sonralar 1884-cü ildə bu jurnal qəzet kimi çap olundu. Bu qəzet də Tiflisdə «Ziya» qəzetinin mətbəəsində çap olundu. «Kəşkül» qəzeti «Ziayi-Qafqaziyyə»yə görə çox mütərəqqi bir yol tutdu. Sanki bir növ <<Əkinçi» qəzetinin ənənələrini davam etdirdi. «Kəşkül»də fəaliyyət göstərən heyət görkəmli ziyalılar və yazıçılar idi. «Kəşkül» qəzetinin əsas məqsədi dil, incəsənət, mədəniyyət, maarif və sair kimi movzularda yazılan məqalələri çap etdirmək idi. Qəzetdə həm də bədii əsərlər, publisist məqalələr, rus, Avropa həyatını əks etdirən bədii tərcümələr aktuallığı ilə seçilirdi.

«Kəşkül»> qəzetində çap olunan məqalələrin (istər bədii, istər publisist, istərsə də elmi fərqi yoxdur) böyük əksəriyyəti dünya ədəbiyyatının klassiklərinin qabaqcıl ənənələrinə sadiq qalırdı. Bir növ onları təbliğ edirdi. Bundan əlavə, «Kəşkül»də XIX əsrin ikinci yarısında fəaliyyət göstərən görkəmli yazıçıların, şairlərin, ziyalıların əsərləri və məqalələri də vaxtaşırı nəşr olunub xalq kütləsinə çatdırılırdı. Məsələn, bunlardan Abbasqulu ağa Bakıxanovun «Təhzibi-əxlaq», Seyid Əzim Şirvani haqqında yazılan məqalələr, Mirzə Fətəli Axundovun özü tərəfindən yazılmış tərcümeyi-halı və digər mütərəqqi ideyalar təbliğ edən materiallar qəzetin səhifələrində öz əksini tapırdı. Bütün bu xüsusiyyətləri özündə əks etdirən «Kəşkül» qəzetinin ən böyük müvəffəqiyyəti ondan ibarət idi ki, Mirzə Fətəli Axundovun tərtib etdiyi əlifbanın layihəsinə ciddi-cəhdlə mane olmağa çalışan mühafizəkarlar, «Kəşkül» qəzeti bu ideyanı nəinki təbliğ edirdi, hətta alqışlayırdı. «Kəşkül» bu ideyanın çox böyük mütərəqqi rola malik olduğunu göstərirdi. Bütün bu mütərəqqi fikirlərin təbliği ilə məşğul olan «Ziya» qəzetinde onu tənqid etməsinə baxmayaraq «Kəşkül» qəzeti şair və yazıçıları rus ve Avropa klassikləri kimi müasir həyatdan yazmağa çağırırdı. Bu baxımdan Gülməmmədbəy Kəngərlinin «Kəşkül»də çap etdirdiyi məqalə daha təqdirəlayiqdir. O yazır: «Kəşkül»ün arabir çıxan nüsxələrində bəzən şeir və kəlami mənzum dexi görürəm. Məzkur qəzetdə bu qismi açmaqdan məqsudunuz bizim müsəlman şüoəra asarını cəlb etmək isə, mənim tərcümələrimi də o qismə daxil qılasınız. Mən bizim indiki müsəlman şairlərimiz kimi şergu deyiləm və onların məalsız şeirlərini oxumağa həvəsnak olanlardan dəxi deyiləm. Bu səbəbdən nəzmən və ya nəsrən elədiyim tərcümələrin əhli-qərb şairləri asarından ibarət olacaqdır. Zira bunların kəlamında bir hikmət və bir mərifət və tərzi-əxlaq üçün bir dərsi ibrət vardır.

«Əkinçi»dən sonra «Kəşkül» rus, Avropa xalqlarının qabaqcıl ideyalarını təbliğ edir və klassiklərin əsərlərində tərcümələrə xüsusi yer verirdi. Məsələn, A.N.Nekrasovdan «Xoşəxlaq insan» əsərinin Azərbaycan dilinə tərcüməsi, M.Füzulinin «Leyli Məcnun», Ömər Xəyyam rübailərinin rus dilinə tərcümə olunması dilin lüğət tərkibinə öz təsirini göstərirdi.

«Kəşkül» qəzetinin ən böyük xidmətlərindən biri də böyük xalq kütləsinə «millət» anlayışını aşılamaq olmuşdur. Bu məsələni bir xarici ilə azərbaycanlı arasında gedən söhbəti dialoq şəklində verən müəllif din anlayışı ilə millət anlayışının fərqini oxucuya çatdırır.

Xarici azərbaycanlıdan hansı millətdən olduğunu soruşduqda – o, «müsəlmanam» - - deyə cavab verir. Xarici bu cavabla razılaşmayıb deyir:

«Millət ayrı, din ayrı. Bildim, dininiz islamdır, ancaq istərdim billəm millətiniz nədir? ».

Suala cavab verə bilməyən həmyerlimizə xarici deyir: - «Sizin millət Azərbaycandır» (azərbaycanlı nəzərdə tutulur).

Beləliklə, qəzet həmvətənlərinə azərbaycanlı olduqlarını başa salır. «Əkinçi» qəzetinin ənənələrini yüksək səviyyədə inkişaf etdirən «Kəşkül»> XIX əsrin 90-cı illərində bağlandı. Qəzet bağlandıqdan sonra uzun illər çar hökuməti Milli mətbuatın çap olunmasına icazə vermədi. Yalnız XX əsrin əvvəllərində yeni bir qəzet «Şərqi-rus» nəşrə başladı. Onu da yadda saxlayaq ki, XIX əsrin II yarısında dilimizin lüğət tərkibinə və əsas lüğət fondundakı sözlər iki yolla dilimizə daxil olurdu:

1. Bilavasitə
2. Bilvasitə

Birinci qrupa daxil olan sözlər müəyyən iqtisadi, ictimai, mədəni, siyasi əlaqələr vasitəsi ilə dilimizin lüğət tərkibinə və əsas lüğət fonduna daxil olan sözlər idi. Bu qrupa daxil olan sözlər ərəb, fars, Qafqaz, rus mənşəli sözlərdir. Bəzən belə sözlər lüğət tərkibinə daxil olsa da, lüğət fonduna daxil ola bilmir. Bir müddət keçdikdən sonra passivliyə doğru yuvarlanır və işləklikdən qalırdı. Məsələn, kapot - xalata oxşar üst geyimi, sakvoyaj - bağlanan yeri olan yol çantası, mantogen qadın paltosu, markizet - parçanın bir növünün adı, şablet - kişi botinkası, futlyar cild, qab, fay-flopal - xoflu adyal, şifon - parçanın bir növünün adı, frak - kostyum, kitel - hərbi geyim, fay - incə zolaqlı ipək parça və s.

İkinci qrupa daxil olan sözlər isə dilimizin lüğət tərkibinə və əsas lüğət fonduna başqa dil vasitəsi ilə keçən sözlərdir. Bura əsasən, Avropa mənşəli sözlər daxildir. Çünki bizim Avropa ilə birbaşa heç bir əlaqəmiz olmamışdır. Avropa mənşəli sözlər dilimizin lügət tərkibinə və əsas lüğət fonduna yalnız rus dili vasitəsilə keçmişdir. Bunun da əsas səbəblərindən biri XIX əsrin II yarısında milli mətbuatımızla yanaşı, rus dilində çap olunan onlarla qəzetin nəşr olunması idi. Bu dövrdə Milli mətbuatımız olan əkinçi», «Ziyayi-Qafqaziyyə», «Kəşkül» kimi qəzetlərlə yanaşı, o dövrün rus mətbuatı da fəaliyyət göstərirdi. Qafqaz canişinliyinin Tiflisdə yerləşməsi, böyük bir aparıcı ziyalılar qrupunun (Azərbaycan ziyalıları nəzərdə tutulur) Tiflisdə yaşaması Qori müəllimlər seminariyasının fəaliyyəti Azərbaycanla sıx əlaqə rusdilli mətbuatın yayılmasına və təbliğinə təkan verirdi. Azərbaycan ədəbí dilində də görünməyə başlayırdı. Deməli, dilimizin zənginləşməsinə əsas iki amil öz təsirini göstərirdi. XIX əsrin II yarısında Tiflisdə nəşr olunan rusdilli qəzetlərdən «Kafkaz», «Новое обозреиие», «Тиолисский

листок» və digər qəzetlər nəşr olunurdu. Haqqında bəhs etdiyimiz illərdə Bakıda «Kaspi» qəzeti rus dilində nəşr olunurdu. Rus dilində çap olunan bu qəzetlərdə Azərbaycan mədəniyyəti, tarixi, coğrafiyası haqqında, ayrı-ayrı klassiklər və folklor nümunələrindən materiallar çap olunurdu. Məsələn, «Kavkaz» qəzetində Adolf Berjenin Azərbaycan şairləri haqqında yazdığı məqalələr, «Koroğlu» dastanından parçalar, Q.Zakir və M.F.Axundov haqqında yazılar çap olunurdu. Eyni zamanda, Q.Zakir və M.F.Axundovun əsərlərindən nümunələr vaxtaşırı nəşr olunurdu. Onu da yaddan çıxarrmaq olmaz ki, bu illərdə çap olunan «Сборник материалов для описания местоимения и племен кавказа» məcmuəsində Azərbaycan mədəniyyəti, folklor nümunələri (tapmacalar, atalar sözləri), Seyid Əzim Şirvaní haqqında və digər materiallar nəşr olunub təbliğ olunurdu. Çox maraqlı hal idi ki, bu qəzetlərdə çalışan böyük bir ziyalı ordusunun tərkibində Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Firudin bəy Köçərli, Mahmud bəy Mahmudbəyov kimi görkəmli Azərbaycan ziyalıları ilə yanaşı, rus xalqını təmsil edən ziyalılardan S.Zelinski, A.Kalaşev, P.Vettrikov və alman millətindən olan Adolf Berje kimi təbliğatçılar və tədqiqatçılar fəallıq göstərirdi.

ƏDƏBİYYAT

1. Qurbanov A.M. Ümumi dilçilik, cild I, II, Bakı-2004
2. Qurbanov A.M. Azərbaycan dilçiliyinin problemləri, cild I, Bakı-2004
3. “Azərbaycan” 21 aprel. 2006. №86
4. “Respublika” 21 aprel. 2006. №86

РОЛЬ НАЦИОНАЛЬНОЙ ПРЕССЫ В РАЗВИТИИ ЗАИМСТВОВАНИЯ СЛОВ В КОНЦЕ XIX-НАЧАЛЕ XX вв.

Айдын Рзаи

Аннотация

Появление русских купцов в Азербайджане в конце XIX-начале XX вв. вместе с русской экономикой принесла нашей родине и русскую культуру. Получение Азербайджанской молодежью образования в России, неуклонно растущее количество интеллигенции, знающей русский язык сыграли значительную роль в издании новых газет и журналов. Издание в таких журналах как «Зия», «Кашкюль», «Гудок» произведений А.С.Пушкина, И.А.Крылова, Л.Н.Толстого, переведенных на Азербайджанский, создало возможность вхождения множества новых слов в лексикон нашего языка. Эта традиция продолжается и по сей день. Многочисленные слова Европейского происхождения, вошедшие вместе с русскими произведениями в наш язык, сослужили важную роль в обогащении нашего словарного запаса. И одной из основных причин этого явился выход в свет во второй половине XİX века

вместе с национальной прессой десятков газет и журналов на русском языке. В советский период эта тенденция проявила себя еще более отчетливо

Ключевые слова: дискуссии, кадровые, эмоциональный, верный, мысль

THE ROLE OF THE NATIONAL PRESS IN THE DEVELOPMENT OF LOAN WORDS IN THE LATE 19TH AND EARLY 20TH CENTURY

Aydın Rzai

Summary

The arrival of Russian merchants in Azerbaijan in the late 19th and early 20th centuries brought Russian culture along with the Russian economy to our country. The education of Azerbaijani youth in Russia and the growing number of Russian-speaking intellectuals played an important role in the publication of new newspapers and magazines. The translation and publication of the works created by A.S.Pushkin, I.A.Krilov, L.N.Tolstoy in newspapers and magazines such as "Ziya", "Kashkul", "Gudok" enabled our language to include many words in the dictionary. This tradition continues to this day. The inclusion of many words of European origin in our language through the Russian language played an important role in enriching the vocabulary of the Azerbaijani language. One of the main reasons for this was the dozens of newspapers and magazines published in Russian in the second half of the 19th century, along with our national press. During the Soviet era, this tradition manifested itself more explicitly.

Keywords: discussion, frame, emotional, faithful, idea

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: prof. T. Ə. Əbdülhəsənov
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRMİN CAHANDAR QIZI AXUNDOVA
AMEA Nəsimi adına Dilçilik İnstitutu
narminaxundova88@mail.ru

ROMAN YAKOBSONUN POETİK DİLLƏ BAĞLI NƏZƏRİ FIKIRLƏRİ

Xülasə

Məqalədə dünya dilçiliyinin ən tanınmış nümayəndələrindən biri olan Roman Yakobsonun yaradıcılığı dəyərləndirilir, onun "Dil və poetika" əsərinin təhlili verilir. Eyni zamanda, məqalədə Roman Yakobsonun poetika ilə bağlı digər əsərləri də geni təhlil olunur, həmin əsərlərin elmi -tənqidi analizi verilir. Araşdırmada, düzgün olaraq, Roman Yakobson semiotika nəzəriyyəsinin banilərindən biri kimi qiymətləndirilir.Roman Yakobsonun çoxşaxəli yaradıcılıq tarixinə geniş ekskurs edilir, alimin nəzəri dilçilik tarixindəki mühüm fəaliyyətləri sadalanır. Araşdırma sübut edir ki, dünya nəzəri dilçilik tarixində Roman Yakobson poetika nəzəriyyəsinin də əsas müəlliflərindən biri sayılmalıdır. Roman Yakobsonun poetika nəzəriyyəsində bədii dilin bütün incəlikləri şərh edilmiş, poetika nəzəriyyəsinin əsas aspektlərindən bəhs olunmuşdur. Roman Yakobson, həm də Praqa dilçilik məktəbinin nümayəndəsi olmuşdur. Məlumdur ki, Praqa dilçiliki məktəbi dünya dilçiliyi tarixində bir çox ilklərə imza atmışdır. Belə ki, funksional qrammatika nəzəriyyəsi, mətn dilçiliyi, bədii dilin nəzəri-metodoloji konsepsiyası məhz bu dilçilik məktəbinin fəaliyyəti ilə bağlıdır.

Roman Yakobson dünya elmi tarixində strukturalizmin və ədəbiyyatşünaslığın əsas banilərindən biri kimi dəyərləndirilir. Onun yaradıcılığında psixolinqvistika, linqvistik semantika, mətn dilçiliyi, semiotika, linqvistik tipologiya, neyrolinqvistika məsələləri də mühüm yer tutmuşdur. Roman Yakobson mətn dilçiliyi ilə bağlı funksionallıq nəzəriyyəsini yaratmışdır. Neyrolinqvistika ilə bağlı bir çox nəzəri məsələlərin şərhi onun adı ilə bağlıdır. Ümumiyyətlə, dünya dilçiliyində funksional dilçilik məktəbinin ən görkəmli nümayəndələrindən biri məhz Roman Yakobsondur.

Roman Yakobsonun yaradıcılığının böyük bir hissəsi bədii dil nəzəriyyəsinə, poetika məsələlərinin şərhinə həsr olunmuşdur. Onun yaradıcılığında linqvistika və poetikanın qarşılıqlı əlaqəsi məsələsi ən aktual mövzulardan biri olmuşdur.

Məqalədə Roman Yakobsonun poetik dil nəzəriyyəsinin əsas konseptlərinə aydınlıq gətirilir, onun poetika nəzəriyyəsinin elmi-nəzəri və metodoloji əsasları təsbit olunur. Araşdırma bir daha təsdiq edir ki, dünya dilçiliyində öz məktəbini yaratmış Roman Yakobson ən böyük linqvistlərdən biridir. Onun çoxşaxəli yaradıcılığında bədii üslub, poetika məsələləri aparıcı yer tutmuşdur. Məqalə poetik araşdırmaların nəzəri aspektlərinin öyrənilməsi baxımdan nəzəri və praktiki əhəmiyyət daşıyır. Araşdırmada Roman Yakobsonun linqvistik fəaliyyəti

kontekstində dünya nəzəri dilçiliyində poetik dil konsepsiyasının mühüm məqamlarına nəzər salınmışdır.

Açar sözlər: Roman Yakobson, dil, dilçilik, poetika, bədii dil, konsepsiya, nəzəri aspekt

Bədii dilə və yaxud bədii mətnə maraq dünya nəzəri dilçiliyində hər zaman böyük olub. Təsadüfi deyil ki, nəzəri dilçiliyin yaradıcılarından biri olan Ferdinand de Sössür yazırdı ki, poetik mətnlər tələffüzü öyrənmək üçün qiymətli materialdır; şeir sənəti sistemi hecaların sayı, şeir sənəti sistemi hecaların sayı, onların kəmiyyəti (uzunluğu), ayrı-ayrı səslərin təkrarı (alliterasiya, assonas, qafiyə) ilə bağlıdır; poetik mətnlər özündə fonologiyanın müvafiq məsələlərinə dair qiymətli məlumatlar hifz edə bilər (1, s.105).

Poetik dil özünəməxsusluğu, məcazlar sistemi ilə hər zaman fərqlənib, fərdiləşib. Bədii dilin əsasını təşkil edən metaforlar sistemi poetik mətndə rəngarəng üsullarla gerçəkləşir. Təsadüfi deyil ki, italyan linqvisti Terraçini yazırdı ki, "poetik dil kompleks lirikliyin ifadəsidir" (11, s.419). Məhz bu xüsusiyyətlərinə görə poetik dil mövzusu və problemi dünya nəzəri dilçilik tarixində hər zaman diqqət mərkəzində olmuşdur.

Dünya nəzəri dilçiliyi tarixində mühüm yer tutan alimlərdən biri də Roman Osipoviç Yakobsondur. O, Moskva dilçilik məktəbinin əsas nümayəndələrindən biri olmuşdur. Roman Yakobsonun nəzəri dilçilik fəaliyyətini bir neçə sahəyə ayırmaq olar: neyrolinqvistika, tipoloji dilçilik, riyazi dilçilik, fonologiya, bədii dil məsələləri. Əminliklə demək olar ki, XX əsrin əvvəllərində hind-Avropa dilçiliyində Şarl Ballidən sonra poetika məsələləri ilə ən çox məhz Roman Yakobsonun yaradıcılığında bəhs olunmuşdur.

Roman Yakobson, həm də Praqa dilçilik məktəbinin nümayəndəsi olmuşdur. Məlumdur ki, Praqa dilçiliki məktəbi dünya dilçiliyi tarixində bir çox ilklərə imza atmışdır. Belə ki, funksional qrammatika nəzəriyyəsi, mətn dilçiliyi, bədii dilin nəzəri-metodoloji konsepsiyası məhz bu dilçilik məktəbinin fəaliyyəti ilə bağlıdır.

Roman Yakobson dünya elmi tarixində strukturalizmin və ədəbiyyatşünaslığın əsas banilərindən biri kimi dəyərləndirilir. Onun yaradıcılığında psixolinqvistika, linqvistik semantika, mətn dilçiliyi, semiotika, linqvistik tipologiya, neyrolinqvistika məsələləri də mühüm yer tutmuşdur. Roman Yakobson mətn dilçiliyi ilə bağlı funksionallıq nəzəriyyəsini yaratmışdır. Neyrolinqvistika ilə bağlı bir çox nəzəri məsələlərin şərhi onun adı ilə bağlıdır. Ümumiyyətlə, dünya dilçiliyində funksional dilçilik məktəbinin ən görkəmli nümayəndələrindən biri məhz Roman Yakobsondur.

Roman Yakobsonun yaradıcılığının böyük bir hissəsi bədii dil nəzəriyyəsinə, poetika məsələlərinin şərhinə həsr olunmuşdur. Onun yaradıcılığında linqvistika və poetikanın qarşılıqlı əlaqəsi məsələsi ən aktual mövzulardan biri olmuşdur.

İndiyə qədər dünya dilçililiyində müxtəlif dillərdə ümumi və nəzəri dilçiliyə aid yazılmış müxtəlif əsərlərdə Roman Yakobsonun yaradıcılığı yüksək qiymətləndirilmişdir. Məsələn, V.M.Alpatov "Dilçilik nəzəriyyələrinin tarixi" adlı əsərində Roman Osipoviç Yakobsonu XX əsrin ən nəhəng dilçilərindən biri adlandırır (4, s. 299).

Digər rus dilçisi Vladimir Zvegintsev "Dilçilik tarixi" əsərinin ikinci hissəsində Roman Yakobsona ayrıca bölmələr ayıraraq ondan "R.Ykobson "Dil universalilərinin dilçilik üçün əhəmiyyəti" və "R.Yakobson. Linqvistika və əlaqələr nəzəriyyəsi" başlıqları altında bəhs etmişdir (10, s.383-395; 435-445).

İndiyə qədər Azərbaycan dilçiliyində yazılan müxtəlif ümumi dilçilik əsərlərində Roman Yakobsonun adı çəkilmişdir. Xüsusilə, Fəxrəddin Veysəllinin "Semiotika" adlı kitabında "R.Yakobson və semiotika" başlığı altında Roman Yakobsonun semiotika nəzəriyyəsinin inkişafındakı böyük xidmətlərindən bəhs etmiş, onun yaradıcılığını təhlil etmişdir (2, s.71-83).

Fəxrəddin Veysəlli yazır ki, R.Yakobson 1975-ci ildə yazırdı: "Şübhəsiz, bütün incəsənət növləri, fərqi yoxdur, mahiyyət etibarilə zamanla bağlı olsun, məsələn, musiqi və poeziya və ya təbiətinə görə məkanla bağlı olsun, məsələn, heykəltaraşlıq və skulptura və ya sinkretik, yəni həm zaman, həm də məkanla bağlı olsun, məsələn, teatr, sirk və kino tamaşaları olsun, eynilə işarə təbiətinə malikdir. O hesab edir ki, incəsənəti dilə qarşı qoymaq cəhdi uğursuzluqla nəticələnəcək, müqayisəli tədqiqat onu adi dilə yaxınlaşdıracaq, çünki incəsənət adi dilin transformasiya olunmuş sistemidir (2, s. 72).

Roman Yakobsonun "Language in style" məcmuəsində çap olunmuş "Dil və poetika" əsəri 1960-cı ildə Kembricdə nəşr olunmuşdur. Roman Yakobson XX əsrin ən böyük dilçilərindən biridir. O, dilçilikdə ən mühüm cərəyanlardan olan strukturalizmin tanınmış simalarından hesab olunur. Roman Yakobson onun yaradıcılığında mühüm yer tutan "Linqvistika və poetika" əsərində yazır ki, poetika elminə linqvistikanın tərkib hissəsi kimi baxmaq lazımdır (12, s.194). Beləliklə, Roman Yakobson poetikanı dilçiliyin bir sahəsi kimi görür və qiymətləndirirdi. Roman Yakobson digər dilçilərdən fərqli olaraq ilk dəfə poetikaya semiotika nəzəriyyəsi prizmasından baxmışdır. Digər tərəfdən isə, Roman Yakobson poetikliyi daha çox nitq faktı kimi araşdırmışdır.

Roman Osipoviç Yakobson XX əsr dünya dilçiliyində əsas cərəyanlardan olan strukturalizmin ən aparıcı nümayəndələrindən biri idi. Maraqlıdır ki, Roman Yakobson çox düzgün olaraq poetikaya çox zaman semiotikanın tərkib hissəsi kimi baxırdı. O yazırdı ki, bir çox poetik xüsusiyyətlərə ancaq linqvistik baxımdan deyil, eyni zamanda, bütünlükdə işarələr nəzəriyyəsi kimi, yəni ümumi semiotika kimi baxılmalıdır (12, s.194). Məlumdur ki, semiotika işarələr nəzəriyyəsini öyrənir. İndiyə qədər dilin işarəvi təbiəti haqqında dünya dilçiliyində müxtəlif fərziyyələr və nəzəriyyələr irəli sürülmüşdür.

Roman Yakobsonun fikrincə, poetikanın əsas problemi odur ki, nəyə əsasən nitqdə verilən informasiya bədii yaradıcılığa çevrilə bilir? sualına cavab verilsin (12, s.194). Maraqlıdır ki, Roman Yakobson poetikaya linqvistikanın əsas sahəsi kimi yanaşır. Onun fikrincə, poetikanın öyrəndiyi bir çox məsələlər bədii söz sənətinin sərhədlərindən kənara çıxır. Qısaca desək, poetikanın bir çox xüsusiyyətləri ancaq linqvistik cəhətdən deyil, bütünlükdə işarələr nəzəriyyəsi baxımından, yəni semiotika baxımından öyrənilməlidir. Bu, nəinki bədii söz sənətinə, eləcə də dilin bütün sahələrinə aiddir, çünki dil digər işarələr sistemi ilə bir çox cəhətdən ortaq, ümumi əlamətlərə malikdir (12, s.194). Məlumdur ki, hələ Ferdinand de Sössürdən başlayaraq bir çox tanınmış dilçilər dilin və nitqin semiotik mahiyyəti haqqında fikirlər irəli sürmüşlər.

Roman Yakobsonun poetika nəzəriyyəsinin əks olunduğu əsas əsərlərindən biri "Linqvistika və poetika" adlı məqaləsidir. Bu məqalədə o, dilçiliklə poetikanın qarşılıqlı əlaqəsini, poetikanın başlıca linqvistik xüsusiyyətlərini təsbit edə bilmişdir. Həmin məqalə öncə də qeyd etdiymiz kimi, 1960-cı ildə ABŞ-da "Style in language" ("Dildə üslub") adlı topluda nəşr olunmuşdur. Roman Yakobson bu əsərində qeyd edir ki, bir çox poetik xüsusiyyətlər yalnız linqvistik cəhətdən deyil, işarələr nəzəriyyəsi baxımından, yəni ümumi semiotika baxımından da öyrənilməlidir (12 ,s.194). Beləliklə, Roman Yakobson düzgün olaraq poetikaya semiotik aspektdən yanaşmışdır.

Roman Yakobson yazır ki, linqvistika kimi poetika da istənilən problemə iki prizmadan yanaşmağın tərəfdarıdır; sinxronik və diaxronik baxımdan. O bildirir ki, sinxronik poetikanı sinxronik dilçilik kimi statika ilə qarışdırmaq olmaz, istənilən proses iki səviyyədə, yəni arxaik formalarla innovasiyalar (yəni neologizmlər) səviyyəsində fərqlənir. İstənilən müasir səviyyə zamanın dinamikasına uyğun olaraq hərəkət edir, digər tərəfdən, poetika da linqvistika kimi, yalnız dəyişmələrlə deyil, statik elementlərlə də müşayiət olunur (12 , s.196).

Yəni Roman Yakobson poetikanı iki hissəyə ayırır: sinxron poetika və diaxronik poetika. O yazır ki, sinxron poetikanı sinxron dilçilik kimi statik hesab etmək olmaz, onun bütün vəziyyətlərində daha arxaik formaları ilə innovasiyalarını (neologizmlərini) ayırmaq lazımdır (12, s.196).

There is still no exactly idea of the role of irony in modern linguistics. This article will consider the different opinions of scientists working on this topic. We see that in modern linguistics there are many ideas about the condition of irony. Take a look at a new modern classification of irony species. Irony is called a verbal situation or style. Irony can be textual, conceptual, associative. The main classification feature of the means of language expressing irony is that they belong to different levels of language structure. In this case, a well-organized context determines the ironic semantic structure of the text, along with the communication task. The irony that creates the text is expressed at different levels of language by different language means. This classification is followed by many scientists: O.P. Ermakova, S.I. Pokhodnya, Yu.V. Kamenskaya. Some scientists believe that irony has its peculiarities, while others say the opposite. Based on our research, we can conclude that irony has a special position in modern linguistics. Humor, satire, and other types of comics, scientists cannot give an exact definition of irony. When it comes to irony in linguistics, researchers are still can't come to a common decision

In irony the real meaning is hidden or contradicts the obvious meaning. Irony is the negative expression of words. In irony positive thoughts have a negative connotation. The irony is mockery. The main effect of irony is to change the evaluative component: a positive evaluation is deliberately turned into a negative value. For example, it is considered ironic to deliberately praise any person loudly [1, p. 128]

O.P. Ermakova doesn't directly evaluate irony in her work "Irony and its role in the life of language", on the contrary compares it with different techniques and styling tools. Emphasizes the comparison between irony and metaphor. Because, according to the researcher, they both have many similar features. O.P. Ermakova says that irony is manifested in the reversal of the literal meaning of the word. Such a semantic contradiction gives the right to compare verbalized irony with a metaphor. But in metaphor evaluation lies on the surface, the word is used in the literal sense and the figurative meaning carries other meanings.

The irony is not in the literal meanings of the words themselves, expresses through masks used by the author:

-the same expression or sentence

-to have different meanings

-depending on the context, intonation

Irony like metaphor, can create new meanings. For example, words like "funny", "excellent", "beautiful", "amazing" can have both positive and negative meanings.

O.P. Ermakova calls irony a deception that requires a different mask, a face: stupid, mean, anxious, wise. It is important to note that O.P. Ermakova says irony does not require dialogue. It can be presented with a speech without direct dialogue. Thus, for example, the author of a work can give an ironic assessment of his characters, thoughts and actions. This is the main difference between a simple joke and irony. A joke always requires dialogue, direct conversation. [8, p. 15].

O.N.Telyatnikova notes that irony and sarcasm can act as a descriptive and expressive means of humor and satire. [10, p. 11]. Many researchers have called irony a special category and regarded irony as a form of comic. V.M. Pivoev approaches the study of irony from a philosophical point of view. He defines it as an epic, moral category. According to the researcher, irony is undoubtedly a form of comics and is generally a cultural phenomenon. The scientist considers irony in a historical context from ancient times to modern times. In every period of history, irony has acquired a special meaning and played a special role in the minds of people. Pivoev writes: "We consider an ironic attitude to be a process that first takes place in the mind of an ironic subject. It is then objectified in certain specific forms of expression and irony ends in the process of perceiving the object or third party" [8, p. 20]. That is according to the researcher, irony can be compared only at a certain stage of its formation. Irony as an aesthetic category, has a wider range of

functions and features. Irony is considered “a complex language and mental phenomenon”. Irony expresses the author's critical attitude to any problem and topic mentioned in the work. Therefore, it is not only a descriptive element of language, but also one of the elements of the writer's worldview. [7, p. 4]

Yu.B. Borev said: “Irony is one of the shades of comedy laughter, one of the special forms of emotional criticism, which hides a sharp irony behind a positive assessment” [4, p. 98]. Every irony has a double meaning, where the real meaning is hidden behind the lie. The deeper the irony hides the truth, the more effective the irony.

E.V. Martyanova says that the use of irony stems from both internal and external linguistic factors. The comic effect is primarily aimed at the addressee. Thus, a direct negative assessment is unacceptable and is therefore replaced by an ironic statement. The scientist first considers the communicative side of irony. In the context of direct communication, the addressee depends on external linguistic factors. However, textual communication implies dependence on internal, personal motives.

Based on E.V. Martyanov's opinion, we can say that, one of the main purposes of irony is to achieve the goal of communication. It becomes a base component of the speech act, conveys the idea to the addressee through irony. The irony is that it can affect the thoughts of the addressee with a lively, unique effect, tries to find a lively original form of speech that can change his outlook. The scientist emphasizes that irony can be called a means of indirect assessment of what happened. But this assessment will always be negative. [2, p. 28]

Based on our research, we can conclude that irony has a special place in modern linguistics. Researchers are unable to give a definitive definition of irony. In the debate over the place of irony in linguistics, researchers are still unable to reach a consensus. In my opinion, irony is a category that has its own means of expression and can express it.

The means of creating irony are diverse and there is a classification of the means of expressing irony according to their belonging to the levels of linguistic structure. The first level is the phonetic level of the language, which is characterized by phonetic and prosodic means are inherent creating irony. This level is typical for oral expression, when the speaker's intonation helps to notice the presence of a given stylistic reception. In this case, prosodic means play a key role and stand out as an independent means of creating irony [5, p 99]. For example, to express irony, he changes intonation, pauses before the most important part of the statement.

At the lexical level, it is customary to distinguish lexical and semantic means of creating irony (the use of homonymy and polysemy for creation of a play on words, lexical opposition of the real to the depicted, antithesis, the use of proper names) and ironic word formation (word composition, affixation, precedent word education, paradoxical word composition

The syntactic level consists of logical-syntactic means creation of irony (repetitions, rhetorical questions, indirect speech, author's generalization, gradation, syntactic wordplay, feigned exclamations, parcels, enumerations, introductory constructions) and intonation-graphic means (use of ellipses, quotation marks).

Also in linguistics there is a distinction between the concept of irony on irony - a trope and irony - meaning [9, p. 271]. It should be noted, that the peculiarity of decoding irony is that the recipient understands irony not by the form of its expression and not by the meaning arising from the linguistic form, but from the feeling that arises in him, accompanying this meaning. This approach to the definition of this the phenomenon seems to be the most interesting, since it is not always possible to determine the form of expression of irony, which arises on the basis of feelings, images that are the effect of irony.

We see that in modern linguistics there are many ideas about the condition of irony. Irony is literally called a situation or style. Irony can be textual, conceptual and associative. The irony that creates the text is expressed through different language means at different levels of language. Many scientists follow this classification: O.P. Ermakova, S.I. Pokhodnya, Yu.V. Kamenskaya. Speaking of the distinction between irony and text, O.P. Ermakova notes that irony is difficult to write and classify in textual diversity, and that what is verbal is directly related to lexical semantics. However, both species share many of the same characteristics. They can be open, pleasant, humorous, or secretive, angry and far from humorous.

The formation of irony also applies to the communicative direction of expression. The main classification feature of the means of language expressing irony is that they belong to different levels of language structure. In this case, a properly organized context, together with the task of communication, determines the ironic semantic structure of the text. Researcher M.E. Lazareva summarizes the classification of language tools that express irony, taking into account the levels of language structure, in the table below [5, p 116].

Table 1. Linguistic means for expressing irony

№	Language levels	Language tools creating irony
1	Phonetic	Phonetic and prosodic means of creating irony
2	Morphological	Use Plural nouns Using superlative adjectives Use of command sentences

3	Lexical: a) Lexico-semantic means of creating irony b) Ironic word formation	Use of homonyms and polysemy to create an ironic effect Lexical opposition of the real to the depicted Antithesis Special nouns Compound words Affixation
4	Syntactic: a) Logical-syntactic means of creating irony	Reiterative Rhetorical questions, indirect speech Gradation Syntactic wordplay Parcels Enumerations Introductory constructions
	b) Intonation-graphic means	Using ellipsis Using quotes
5	Text level: Stylistic means of creating irony	Associative and precedent irony Parody and grotesque as a means of creating irony Deliberate overestimation of the stylistic background (Use of archaisms, use of pathetic vocabulary) Deliberately underestimating the style background (Use of jargon, use of reduced vocabulary) Creation of a collective ironic image using a complex of lexical and syntactic means Creation of a collective ironic image using a complex of lexical and syntactic means Using the symbolic meaning of words and phrases Unusual phrases Impersonation Reification of abstract concepts Ironic paraphrase

		Phraseological combinations Destruction of phraseological units Ironic phraseological unit Paradoxical combinations Ironic tropes Metaphor and cliche Hyperbola and litota Ironic epithet

According to the scientist, irony is always aimed at understanding the original meaning. This search is the main target of text and oral types [8, p. 2] S.İ. Pokhodnya is the first researcher to study the subject of irony at the textual level. He was the first to distinguish between conditional and associative forms of irony. The conditional type is most often represented in linear text. Involves the creation of irony with the help of lexical and syntactic language tools (words, expressions and syntactic structures). This type is immediately visible in the text, the reader sees it immediately. Associative types require a long development and explanation that can last throughout the entire literary text. It is this type of character that can create images, reflect the author's thoughts and attitudes to what is happening. Researchers emphasize that this type can be created at all language levels, from phonetics to text.

İ.B. Shatunovsky classified a detailed classification of the types of irony. The researcher calls irony a linguistic semiotic device and believes that it is caused by the lack of sufficient means in the language.I.B. Shatunovsky identified nine main types of irony. The basis of his classification is the principle that the stimulus that causes irony and ironic expression itself is truth and falsehood. We will talk in more detail about each of these species.

1.The first irony is a mockery of a concrete communicative proposition. The main purpose of this type is to determine the ongoing movement, speech movement, and so on. is to immediately criticize and ridicule. In this case, there must always be an expression of a stimulus that causes mutual ridicule..

2. Objective irony is directly related to the stimulus that gives rise to irony.It is determined that all the words and expressions related to this stimulus are false, and that everything against this stimulus is true. As a result, an ironic expression in response to this stimulus contains both objectively false and objectively true information.

3. Subjective irony unlike the objective, cannot know exactly what information is in the stimulus, whether it is true or false. Therefore, an ironic statement-reaction can be both true and false, which raises certain doubts about the authenticity and legitimacy of the stimulus itself.

4. In the case of interpretive irony, the stimulus does not manifest itself as clearly and directly as it did for previous species. Here the stimulus manifests itself in an ambiguous and unambiguous situation, behind different interpretations lies fraud and truth. There can be several explanations and interpretations of the situation by the participants and by the observer.

5.Nominative irony doesn't cover the whole phrase, it can manifest itself in part. The principle of truth and falsehood can also be applied to this type, because the value of the nomination object acquires other meanings in the process and corresponds only to the value of the nominal expression.

6. The author's irony applies only to fiction. In this type of stimulus and sarcasm overlap. Thus, they become a speech movement at the same time. For example, the protagonist of a work of art, considering his thoughts to be the only truth and truth, can speak seriously and sadly about the events that excite him, but the author constructs the story in such a way that, the protagonist lied in this context and in this situation, contrary to the laws of the given literary text.

7. The irony of illusion manifests itself not in the content of the pronunciation of the ironic meaning (that is, what the author wants to say to the addressee), but in the fact that the speech itself is taken. Uncertainty here depends not on the content, but on the correctness of the use of the act of speech itself, its compliance with language norms. Partial conformity and partial inconsistency create irony

8. The general irony is so named because of the lack of ambiguity and ambiguity, both in terms of content and in terms of the movement of pronunciation. Such an ironic expression conforms to all linguistic and semantic norms. There are only ironic signals in this form of irony. These are a certain intonation, individual ironic words are used in most speech acts due to the generality and invisibility of this type of irony.

9. Ironic jokes differ from ironic expression in the absence of criticism of a situation, object, or action. The principle of partial correspondence and partial inconsistency is applied in creating these jokes [6, p. 346-369].

Consider the opinion of H. Weinrich: "The realization of irony is inextricably linked with the ability of language units to acquire connotative and associative meanings in the process of execution" [10, p 29].. Another important factor is added to the formation of a well-formulated ironic meaning by GV Kolshansky: "Every word has a meaning that reflects some parts of reality. Comments are always placed within any communication action. Here, the essence of the word has a certain relationship with the meanings of the surrounding expressions" [10, p 29].

Irony is a complex linguistic phenomenon based on perception the world by the author. The impact of irony on the reader, in this case, can be different because it depends on factors such as life experience, view of the world, the era in which he lives, the proximity of the characters of the recipient and the writer.

BAĞIRLI SAMIRƏ

İRONIYANIN LINQVISTIK IFADƏ VASITƏLƏRI

XÜLASƏ

Təqdim olunmuş məqalə ironiya və onun linqvistik ifadə vasitələrinə həsr olunub. İroniyanın tarixi inkişaf yolu öyrənilib, bu prosesdə onun formalaşmasına təsir edən amillər haqqında məlumat verilib. İroniya, onun növləri, işlənmə yeri, xüsusiyyətləri məqalədə ətraflı şəkildə göstərilib.

Mövzu ilə bağlı bir çox dilçilərin fikirləri araşdırılıb və onlar məqalədə öz əksini tapıb. Alimlərin ironiyaya olan fərqli yanaşmaları təhlil olunub və onların fikirlərinə münasibət bildirilib. Məqalədə praktik nümunələrə geniş yer verilib.

İroniya özünü dilin müxtəlif səviyyələrində göstərir. Bu da onun dildə olan yerini və önəmini əks etdirir. Fonetik, leksik, semantik, morfoloji və mətn səviyyəsində ironiyanın istifadəsi dilçilərin və tədqiqatçıların ona olan marağını artırır. Məqalədə bütün bu nüanslara toxunulmuşdur. İroniyanın hər bir səviyyə üzrə istifadəsi ayrı ayrılıqda təhlil edilib, nümunələrlə göstərilmişdir. Bununla bağlı məqaləyə bir cədvəl də daxil edilmişdir. Cədvəldə ironiyanın linqvistik ifadə vasitələri aydın şəkildə izah edilmişdir.

Açar sözlər: ironiya, dilçilik, dil, ironiyanın növləri, alimlər

БАГИРЛИ САМИРА

СРЕДСТВА ЯЗЫКОВОГО ВЫРАЖЕНИЯ ИРОНИИ

РЕЗЮМЕ

Представленная статья посвящена иронии и способам ее языкового выражения. Изучено историческое развитие иронии и описаны факторы, влияющие на ее формирование в этом процессе. Ирония, ее виды, место развития, особенности подробно описаны в статье.

Мнения многих лингвистов по этому поводу исследованы и отражены в статье. Были проанализированы различные подходы ученых к иронии и высказаны их мнения. В статье приведены практические примеры.

Ирония проявляется на разных уровнях языка. Это отражает его место и важность в языке. Использование иронии на фонетическом, лексическом, семантическом, морфологическом и текстовом уровнях повышает интерес к ней лингвистов и исследователей. В статье затрагиваются все эти нюансы. Использование иронии на каждом уровне анализируется отдельно и

иллюстрируется примерами. В связи с этим в статью включена таблица. Таблица четко объясняет языковые средства выражения иронии.

Ключевые слова: ирония, лингвистика, язык, типы иронии, ученые

Reference

1.Attardo, Salvatore. "Irony as relevant inappropriateness." *Journal of pragmatics* 32.6 (2000): 793-826.
2. Арнольд И.В. Стилистика. Современный английский язык. – М., 2002. 383 с.
3..Lozano-Palacio, Inés. "Irony in Linguistics and Literary Theory: Towards a Synthetic Approach." *Miscelánea: A Journal of English and American Studies* 59 (2019): 95-115.
4.Lear, Jonathan. *A case for irony*. Harvard University Press, 2011.
5..Messa, Luciana, Elizeu Batista Borloti, and Ana Cristina Carmelino. "Linguistics and Behaviour Analysis in the Functional Conceptualization of Verbal Irony." *European Journal of Child development, Education and Psychopathology* 2.3 (2014): 97-121.
6.Muecke, Douglas Colin. *Irony and the Ironic*. Vol. 12. Taylor & Francis, 2017.
7. Печенихина Е. А. Языковые выражения иронии в произведениях Ж.М. Эсы Кейроша, М., 2010.
8. Пивоев В. М. Ирония как феномен культуры, Петразоводск, 2000
9.Varankina E.A. LANGUAGE MEANS AND METHODS OF EXPRESSION OF IRONY (THEORETICAL ASPECT) // International student scientific bulletin. - 2015. - No. 5-3. ;
10.Шатуновский *И.* Ирония и ее виды // Логический анализ языка. Языковые механизмы комизма. – М., 2007. – 349с.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Dosent Vəliyeva Səkinəxanım tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNOVA TÜRKAN ETIBAR QIZI
Gəncə Dövlət Universiteti
huseynova.turkan@rambler.ru

AZƏRBAYCAN DİLİNDƏ FEİLİN ŞƏRT ŞƏKLİ

Açar sözlər: qrammatik, şərt, şəkil, məna, feil
Key words: grammatical, conditional, mood, meaning, verb
Ключевые слова: грамматика, условный, наклонения, значение, глагол

Müasir Azərbaycan dilinin inkişaf dövründə şərt şəkli istər forma yetkinliyinə görə, istərsə də qrammatik məzmun vahidliyinə görə o qədər təkmilləşib sabitləşmişdir ki, bu xüsusiyyətinə görə nəinki başqa şəkillərdən fərqlənir, hətta deyə bilərik ki, Azərbaycan dilini başqa türk dillərindən, xüsusilə də dilimizə daha yaxın olan türk və türkmən dillərindən də fərqləndirir. Şərt şəklinin izahı müasir Azərbaycan dili materiallarına əsasında yazılmış qrammatika kitablarında tədqiqatçılar arasında fikir ayrılığına səbəb olmamışdır. Deyə bilərik ki, bütün dilçilər şərt şəklinin "işin icra olunub-olunmamasını müəyyən şərtə bağladığını" və –sa, -sə şəkilçisi ilə düzəldiyini və bu şəklin izahını bir neçə nümunə ilə göstərirlər. XIX əsrə qədər Azərbaycan dilinin yazılı abidələri əsasında yazılmış əsərdə şərt şəkli haqqında yarım səhifəlik bir bölmə yazılıb və buna "feilin şərt forması" adı verilib. Dilçi burada şərt şəklinin tərifini verib və bu şəklin dilimizin tarix boyu inkişafı zamanı heç bir dəyişikliyə uğramadığını, yazılı abidələrdə olduğu vəziyyətinin müasir dildən heç bir fərqi olmadığını göstərir. Daha sonra isə qeyd edir ki, Azərbaycan dili abidələrində -sa, -sə şəkilçisinin qədim forması olan "–sar, -sər" şəkilçisi işlənməyib. Dilçi bu şəkil haqqında verdiyi məlumatı özü də qısa hesab edərək yazır: "Bu qısa izahatdan məlum olur ki, -sa, -sə şəkilçisi dilimizdə şərt bildirən bir şəkilçi kimi də dəyişməz qalmışdır." [1; s. 119-120]

-sa, -sə şəkilçisi şərt şəklini yaratmaq üçün feilin kökünə və ya əsasına artırılır. Bu zaman baş cümlədə xəbərin ifadə etdiyi əsas hərəkətin gerçəkləşməsi məsələsi həmin şərtin məzmunundan asılıdır. Cümlədə şərt məzmununu bildirən feildən başqa, əsas hərəkəti ifadə edən feil də iştirak edir və bu feillərin bir-birilə qarşılıqlı münasibəti nəticəsində cümlədəki əsas fikir, ideya formalaşır. Daha dəqiq desək, baş cümlənin xəbəri rolunda çıxış edən əsas feilin reallaşıb reallaşmamasında əsas rolu şərt şəklində olan və budaq cümlənin xəbəri vəzifəsində çıxış edən feil oynayır. Bundan belə nəticəyə gəlirik ki, bir cümlədə iki feil-iki xəbər iştirak edərək müəyyən subyektlərlə əlaqədə olaraq mürəkkəb cümlənin formalaşmasına səbəb olur. Bilirik ki, budaq cümlə baş cümlə olmadan mövcud ola bilməz. Yəni şərt şəklinin şəkilçisini qəbul etmiş feil əsas hərəkətlə əlaqəlidir və onsuz mövcüd ola bilmir və icrasını müəyyən şərtə bağlayır. Budaq cümlənin predikatı olan şərt şəkli baş cümlədəki feili

semantik baxımdan özündən asılı hala salır. Budaq cümlədəki hərəkət, iş imkan verdiyi halda, baş cümlədəki işin icrasından söhbət gedə bilər.

Digər şəkillərdə olduğu kimi (xəbər şəkli istisna olmaqla) əmr şəklində də qrammatik zaman şəkilçisi iştirak etmir. Məna baxımdan yanaşsaq görürük ki, bu şəkil indiki və gələcək zamana aiddir. Lakin keçmiş zaman aid olduğu hallar da vardır ki, bu zaman şərt şəklində olan feillər idi, imiş hissəciyi qəbul edir. Məsələn: Səndin əgər bağrımı qan eyləməsəydim; Gözdən onu kuyində rəvan eyləməsəydim. [2; s. 311]– Bu nümunələrdə–sa, -sə şəkilçili feillərə "idi" hissəciyinin qısaldılmış forması (-di) artırılıb və -y- bitişdirici samit işlənib.

Feilin şərt şəklinin zaman forması iki formada öz əksini tapır: sintetik və analitik sintetik üsul. -sa, -sə şəkilçisinin tək və idi, imiş hissəciyi ilə birgə işlənməsi vasitəsilə yaranan zaman mənası sintetik üsul hesab edilir. -sa, -sə şəkilçisinin "əgər" bağlayıcısı ilə birlikdə işlənməsi isə analitik-sintetik üsul hesab olunur. Analitik üsulda başqa zamanlar da ola bilər. Məs: oxumuş olsa, oxuyacaq olsa, getmiş olsa, gedəcək olsa və s. Nümunələrdən də göründüyü kimi bu halda əsas hərəkəti ifadə edən söz gələcək və ya keçmiş zaman feili sifət şəkilçisi qəbul edir və olmaq sözü ilə birləşir və şərt şəklinin əlaməti olan –sa, -sə şəkilçisi olmaq sözünün sonuna artırılır. Analitik yolla yaranan formalarda həmçinin üslubi modallıq da ifadə oluna bilər. Belə ki, şərt mənasından başqa əsas hərəkətin reallaşmağının lazımlılığı, vacibliyini də nəzərdə tutulur. Bu zaman ya lazım, ya vacib şəkilləri ilə omonimlik təşkil edən feili sifət şəkilçiləri olsa sözünə qoşulur. Məsələn: gəlməli olsa, gələsi olsa, oxumalı olsa, oxuyası olsaq və s. Belə analitik yolla yaranan şərt şəkilçisi qəbul etmiş feillərdə olsa feili şəxsə görə dəyişir yəni müvafiq şəxs sonluğu artırılır. Əsas hərəkət isə təsir, növ kateqoriyasının şəkilçilərini qəbul edir. İnkar şəkilçisi isə həm birinci tərəfə, həm də ikinci tərəfə artırıla bilər. Məsələn; oxumalı olsa-oxumamalı olsa – oxumalı olmasaq - oxumamalı olmasaq və s. [3; s. 51]

Şərt şəklinin əlaməti olan –sa, -sə şəkilçisinin işlənməsində bəzi məna fərqləri vardır. –sa, -sə şəkilçisi ilə ifadə olunan şərt şəklində müşahidə edilən fərqli cəhət, əsasən, şərt budaq cümləsində xəbər rolunda çıxış edən bu formanın baş cümlədəki xəbərin feil forması ilə qrammatik zaman baxımından əlaqəsində, daha dəqiq desək, zamana görə uyğun olub-olmaması xüsusiyyətində özünü biruzə verir. Fikrimizi daha da dəqiqləşdirmək üçün məsələni nümunələrlə şərh edək. Bilirik ki, -sa, -sə şəkilçisi ilə ifadə olunmuş şərt şəklinin dəqiq zaman mənası, daha dəqiq desək, bu şəkilçi ilə ifadə olunmuş hərəkətin şərti icrasının hansı qrammatik zamana aid olması əsasən baş cümlənin xəbəri vəzifəsində çıxış edən feil forması ilə müəyyənləşdirilir. Əgər hərəkətin icrasının şərtiliyi gələcək zamana aiddirsə, baş cümlədəki xəbər feilin xəbər şəklinin qəti və ya qeyri-qəti gələcək zaman formaları ilə, həmçinin tərkibində gələcək zaman mənası olan vacib, əmr, lazım şəkillərindən biri ilə ifadə olunur. Bu zaman –sa, -sə şəkilçisi birbaşa feil kökünə birləşərək şərt budaq cümləsinin xəbəri olur. Müasir Azərbaycan dilində norma halına çevrilmiş bu xüsusiyyət yazılı abidələrdə də geniş yayılıb. [1; s. 122-123]

Məsələn: Əgər padşah bunu bilsə, Sizi cəzalandırar. [4; s. 15]. Bəli, hələ bacarsam almanca da öyrənəcəyəm. [5; s. 205]. Birinci nümunədə baş cümlədə xəbər qeyri-qəti gələcək zamanda, ikinci cümlədə isə qəti gələcək zamanda işlənib.

-sa, -sə şəkilçisinin bu formada işlənməsi yuxarıda da qeyd etdiyimiz kimi, dilimizdə qədim dövrdən müasir dövrə qədər geniş yayılmış və hal-hazırda da bu formada işlədilir. Buna görə də göstərdiyimiz nümunələr fikrimizi izah etməyə kifayət edir. Göstərdiyimiz misallardan da görünür ki, -sa, -sə şəkilçili feillə ifadə olunmuş hərəkət gələcək zaman aiddir. Bu şəklin gələcək zamana aid olasının səbəbi, sadəcə -sa, -sə şəkilçisinin olmasından deyil, həm də baş cümlədəki xəbərin formasından da asılı olmasıdır. –sa, -sə şəkilçili feillərin semantik baxımdan gələcək zamana aid olması iki faktordan asılıdır. Birincisi odur ki, şərt şəklinin özündə gələcək zaman mənası vardır. İkincisi isə odur ki, baş cümlədəki xəbər gələcək zaman mənasını ifadə edən feillərlə formalaşır. Yuxarıdakı misalları müqayisə etsək görərik ki, baş və budaq cümlədəki feillər semantik baxımdan bir-birinə uyğundur, yəni hər iki feil gələcək zamana aiddir. Qeyd etməliyik ki, bu zaman qrammatik zamanın ifadə olunmasında əsas rolu ikinci faktor yəni baş cümlənin xəbəri oynayır. Belə ki, əgər baş cümlənin xəbəri keçmiş zamana aid olursa, bu zaman budaq cümlədə şərt şəkli ilə ifadə olunmuş feil də keçmiş zamanda işlənir. Yəni baş cümlədəki xəbər keçmiş zaman şəkilçisi, yaxud idi hissəciyi qəbul etsə, budaq cümlədəki xəbər rolunda çıxış edən –sa, -sə şəkilçili feil şəkli də bu zamana müvafiq olaraq idi hissəciyi qəbul edir və keçmiş zamana aid olur. Məsələn: Mən onu görsəydim deyərdim. [6; s. 143]

Yuxarıda qeyd etdiyimiz nümunədən də aydın olur ki, əgər hərəkətin şərtiliyi keçmişə aid olarsa həm baş cümlənin, həm də budaq cümlənin xəbərləri keçmiş zamana aid əlamətlərlə düzələn feillərdən ibarət olur. Bu misallarda keçmiş zaman mənası yalnız –sa, -sə şəkilçilərinin köməyilə deyil, həm də keçmiş zaman əlaməti olan i(di) hissəciyi ilə də düzəlir. Bu zaman –sa, -sə şəkilçisinin əsas məqsədi ondan ibarətdir ki, hərəkətin icrası keçmişə aid olsa da belə o öz şərtilik məzmununu qoruyub saxlasın. Burada maraqlı məqam odur ki, keçmiş zaman məzmunu özünü iki dəfə (həm baş, həm də budaq cümlələrdə) əks etdirdiyi halda, şərt məzmunu bir dəfə (budaq cümlədə) və bir qrammatik əlamətlə (-sa, -sə şəkilçisi ilə) özünü əks etdirir. Qrammatik forma ilə zaman məfhumunun bu cür qarşılıqlı uyğunlaşması (həm baş cümlənin, həm də budaq cümlənin xəbərində feillərin keçmiş zaman forması olan idi hissəciyini qəbul etməsi) hal-hazırda Azərbaycan ədəbi dilində norma olaraq sabitləşir. Bu məqamla bağlı M.Ş.Şirəliyev Azərbaycan dialektologiyasının əsasları adlı elmi əsərində qeyd etmişdir ki, şərtilik keçmişə aid edilərsə baş cümlə ilə budaq cümlədəki xəbərlər -feillər arasında zaman baxımdan qrammatik uyğunluq (baş və budaq cümlənin xəbərində keçmiş zaman əlaməi olan -dı hissəciyinin olması), daha dəqiq desək budaq cümlədə xəbər vəzifəsində işlənmiş –sa, -sə şəkilçili feillərin idi hissəciyi qəbul etməsi müasir dövrdə ümumi bir qayda olaraq ədəbi dil norması kimi

formalaşması prosesi o qədər geniş yayılmışdır ki, hətta Azərbaycan dili dialekt və şivələrində də öz əksini tapmışdır. [7; s. 321-322]

M.Rəhimov belə bir sual ortaya qoyur ki, nəyə görə müasir dilimizdə budaq cümlənin xəbəri olan şərt şəkli ilə ifadə olunmuş feil keçmişə aid olduqda –sa, -sə ilə deyil, -saydı, -səydi (-sa idi, -sə idi) şəklində işlənməsi daha geniş yayılıb və bu ümumi hal almışdır? Cavabında isə demişdir ki, bu cür sabit formanın, normanın yaranmasının müəyyən daxili səbəbi, müəyyən amili vardır. Bu məqama aydınlıq gətirmək və suala izah vermək üçün şərt şəkli və onun –sa, -sə qrammatik əlamətinin xüsusiyyəti nəzərə alınmalıdır. Belə ki, ümumi şəkildə olsa da şərtiliyin özündə bir gələcək semantikası vardır və -sa, -sə şəkilçisi şərt şəklinin əlaməti olaraq özü-özlüyündə gələcək zaman məzmunu daşıyır. Buradan aydın olur ki şərt mənası və bu mənanın göstəricisi olan –sa, -sə şəkilçisi keçmiş zamana aid olunan hərəkəti bildirmək üçün öz gələcəklik mənası təsirsiz hala salınmalıdır. Qrammatik cəhətdən belə bir neytrallaşmanı həyata keçirmək üçün sadəcə baş cümlədəki predikatın-feilin keçmiş zaman şəkilçisi ilə düzəlməsi kifayət hesab olunmamış, budaq cümlənin xəbər vəzifəsində çıxış edən şərt şəkli (-sa, -sə) də keçmiş zaman hissəciyi ilə işlənmişdir. Nəhayət, şərt şəkli keçmiş zaman əlaməti ilə o qədər əhatələnir ki, bu –sa, -sə şəkilçili formanın onsuz da az dərəcədə malik olduğu zaman mənasından uzaqlaşmasına və sadəcə şərt mənasını bildirərək fəaliyyət göstərməsinə səbəb olur. Daha dəqiq desək, elə qrammatik məna məzmunu yaranır ki, -saydı, -səydi –sa idi, -sə idi birləşməsinin daxilində -sa, -sə şəkilçisi sırf şərt məzmunu üzrə, -dı əlaməti isə (budaq cümlənin xəbərində olan feildə) sırf zaman məzmunu əsasında təsir edir. Demək olar ki, şərt şəklinin formal olaraq zamana görə uyuşmasının ədəbi dil norması kimi formalaşması və getdikcə də sabitləşməsi dilin daxili inkişafının tələbi və qanunauyğunluğu nəticəsində olmuşdur. Keçmiş zamana aid şərt mənasını bildirmək üçün yazılı abidələrdə həm –saydı, -səydi, həm də -sa, sə şəkilçilərinin uzun müddət işlənməsi faktı göstərir ki, baş cümlədəki xəbərin, şərt budaq cümləsindəki xəbərlə qrammatik zamana görə formal olaraq uyğunlaşması prosesi qədim dövrdən başlamış və müasir inkişaf prosesində sabitləşmişdir. Təbii ki, əgər desək ki, müasir Azərbaycan dilində keçmiş zamana aid bildirmək üçün "–saydı, -səydi" hissəciyinin əvəzinə -sa, -sə şəkilçisinin işlənməsi tam aradan çıxmışdır, səhv etmiş olarıq. Çünki, ilk növbədə nəzərdə saxlamalıyıq ki, dildəki heç bir proses birdən-birə formalaşmır və heç bir dil hadisəsi birdəfəlik işləkliyini itirmir, hansısa formada özünü müasir dövrə qədər saxlayır. Buna görə də -saydı əvəzinə -sa –nın işlənməsinə bəzən indiki dövrdə də rast gəlmək olar. Əgər mənim köməyim lazım olsa, bir yol tapıb xəbər verərdi.[1; s. 129-130]

Belə bir xüsusiyyətin müasir dildə az da olsa qalmasını konkret olaraq belə izah etmək olar ki, -sa, -sə şəkilçili şərt şəklinin müstəqil olaraq dəqiq bir qrammatik zamanı yoxdur. Daha dəqiq desək, bu şəkil konkret olaraq dəqiq bir qrammatik zamanı bildirmir. Bu forma zaman baxımından o qədər asılı və elastikdir ki, cümlədə

əlaqədar olduğu əsas feil yəni baş cümlənin xəbəri həmin formanı asanlıqla özünə tabe edir və şərt mənasını özünün ifadə etdiyi dəqiq qrammatik zamana aid edir.

Ikinci əsas məsələ də odur ki, adətən cümlənin bir neçə xəbərində iştirak edən eyni formanın sonuncusundan əvvəlkiləri ixtisar olur. Mürəkkəb cümlənin şərt budaq cümləsində isə şərt məfhumu keçmiş zamana aid olduqda , həm baş cümlənin xəbərində, həm də budaq cümlənin xəbərində iştirak edən *-dı* şəkilçisi bir növ təkrar olunur. (müqayisə edək: gəlsəydi - görərdi, gəlsəydi - görəcəkdi və s.) Bunu da bilirik ki, həmcins xəbərlərin çox vaxt sonuncudan əvvəlkilərində *-dı* şəkilçisi ixtisar olunur. Məs: O, hər gün xəstəxanaya gələr, anasına baş çəkər, sonra gedərdi. [1; s. 131]

Müasir Azərbaycan dilində belə qrammatik hadisədən danışarkən bir xüsusiyyəti də vurğulamaq lazımdır ki, həm baş cümlədə, həm də şərt budaq cümləsində xəbərlik bildirən feillərdə *-dı* keçmiş zaman şəkilçisinin işlənməsinə baxmayaraq, cümlədə bütövlükdə gələcək zamanı bildirən hərəkət və ya hadisə ifadə olunur. Həm də əksər hallarda gələcək zaman mənası sözlərə -saydı, -ardı hissəciyi artırılaraq yaranır və əsasən arzu mənasını bildirir.

Məsələn: Bir az özünə gəlib; çay da <u>içsəydi</u>,lap yaxşı <u>olardı</u>.[8] Bu nümunədən də göründüyü kimi, arzu mənası təkcə -səydı –hissəciyinin köməyilə deyil, baş cümlədəki –ardı formasının birləşməsi, qarşılıqlı əlaqəsi vasitəsilə yaranır. Yəni şərt şəklinin gələcəyə aid arzu mənası –saydı, -ardı sxemi vasitəsilə hər iki formanın qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Maraqlı məqamlardan biri də odur ki, gələcək zamana aid arzu çaları yalnız budaq cümlədəki "–saydı" dan sonra baş cümlədə -ardı formasını tələb edir. –ardı formasını başqa formalar (-malı idi, -acaqdı, -əsiydi, -əydi və s.) əvəz etdikdə isə hərəkətin gələcək zamanda arzu mənası itir və keçmişə aid olur. Yuxarıdan göstərdiyimiz nümunəyə zaman zərfi artırdıqda məna da dəyişir. Yəni məsələn dünən gəlsəydi desək hadisə keçmiş zamana aid olur, sabah gəlsəydi desək hadisə gələcək zamana aid olur. Lakin baş cümlənin xəbəri vəzifəsində çıxış edən feil *–ardı* forması ilə deyil digər formalarla ifadə olunduqda zaman zərfi olmadan da hərəkət keçmişə aid olur. [1; s. 131-132]

Azərbaycan dilində şərt şəkli ilə əlaqədar digər maraqlı məqam isə odur ki, digər türk dillərində olduğu kimi bu dildə də baş cümlədəki xəbərin ifadə etdiyi feili şərtə bağlamaq üçün –sa, -sə şəkilçisi yalnız feilin kökünə və ya əsasına deyil, feilin şəkil əlamətlərindən sonra da əlavə edilir. Bu hal isə feilin şərt şəkli deyil, feil şəkillərinin şərti adlanır. Bu zaman <u>isə</u> hissəciyi və onun ixtisarı istifadə olunur. Feil şəkillərinin şərti ilə feilin şərt şəkli arasında oxşar və fərqli cəhətlər vardır. Bu iki quruluş arasında oxşar xüsusiyyətləri aşağıda qeyd etmişik.

1) Həm feil şəkillərinin şərti, həm də feilin şərt şəkli –sa, -sə şəkilçisi ilə düzəlir. Məsələn: yazsaq-yazmalıyıqsa, oxusa-oxuyarsa

2) Hər iki şəklin ifadə etdiyi feil budaq cümlənin xəbəri vəzifəsində çıxış edir və baş cümlədəki hərəkətin icrasını müəyyən şərtə bağlayır.

Hər iki nümunədən də göründüyü kimi, şərt şəkli və feil şəkillərinin şərti baş cümlədəki hərəkətin şərtini bildirir.

3) Hər iki forma sadə, müstəqil cümlənin xəbəri ola bilmir.

4) Həm şərt şəkli, həm də feil şəkillərinin şərti yalnız şərt budaq cümləli tabeli mürəkkəb cümlənin deyil, digər budaq cümlələrin də yaranmasında iştirak edir. Yəni xəbər, tamamlıq, mübtəda, təyin, zərflik və nəticə budaq cümlələrin xəbəri bu iki formadan birində işlənə bilər.

5) Həm feil şəkillərinin şərti, həm də şərt şəkli *əgər* bağlayıcısı ilə işlənərək mənanın daha qabarıq nəzərə çarpdırılmasına, daha da qüvvətlənməsinə səbəb olur.

6) Bu formalardan heç biri sual formasında olmur. [3; s.52-53]

Feilin şərt şəkli ilə feil şəkillərinin şərti arasındakı bu oxşar xüsusiyyətlərlə yanaşı, həm də istər qrammatik, istərsə də semantik baxımdan fərqli cəhətlər də mövcuddur. Fərqli cəhətlər bunlardır:

1) Feilin şərt şəkli –sa, -sə şəkilçilərini feilin kökünə və ya əsasına (eyni zamanda növ, təsirlik, inkarlıq şəkilçilərindən sonra) artırmaqla düzəlirsə, feil şəkillərinin şərti -sa, -sə (isə) şəkilçisini feilin lazım, xəbər, vacib şəkillərinə artırmaqla düzəlir. Məsələn: Feilin şərt şəkli – yazsa, yazdırsa,yazmasa, yazılsa. Feil şəkillərinin şərti: yazmaqdadırsa, yazasıdırsa, yazacaqsa, yazmalıdırsa və s.

2) Feil şəkillərinin şərtində şəxs şəkilçisi –sa, -sə şəkilçisindən əvvələ artırıldığı halda, feilin şərt şəklindən sonra artırılır.

3) Feil şəkillərinin şərtinin inkarı *deyil* sözünün köməyilə düzəldiyi halda, şərt şəklinin inkarı *–ma, -mə* şəkilçisinin köməyilə düzəlir. Məsələn: yazmalıyamsa – yazmalı deyiləmsə, yazsam – yazmasam və s. Yalnız xəbər şəklinin şərti bu qayda ilə düzəlmir. Feilin şərt şəklinin əsas məzmunu şərt olduğu halda, feil şəkillərinin şərtində bu hal bir qədər fərqlidir. Yəni şərt şəkli hərəkətin icra olunmasının zamanını, lazımlılığını,vacibliyini bildirmədən, digər hərəkətin icrasını müəyyən şərtə bağlayır. Feil şəkillərinin şərti isə hərəkətin icrasının vacibliyini, lazımlılığını və zamanını və s. qrammatik yolla ifadə edir.

4) Feilin şərt şəklini düzəldərkən –sa, -sə şəkilçisi ayrılıqda işlənə bilmir, lakin feil şəkillərinin şərtinin düzəldərkən –sa, -sə şəkilçisi ayrılıqda işlənə bilir.

5) Feilin şərt şəkli –sa, -sə şəkilçisinin yalnız feilin kökünə qoşularaq düzəldiyi halda, feil şəkillərinin şərtinin –sa, -sə şəkilçilərinin adlara qoşularaq da düzəlməsi mümkündür. [3; s. 53-54]

Ədəbiyyat:

1) Rəhimov M.Ş. Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1965, 267 səh.
2) Əzizxan Tanrıverdi. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, “Elm və təhsil” ,2012, II nəşr-464 səh.

3) Abdullayeva Gülarə Abdurahman qızı. Azərbaycan dilində -sa, -sə şəkilçisi, onun qramatik və üslubi xüsusiyyətləri [Mətn]; N.Tusi adına Ped. Döv. Un-ti.- B., 2000.- 141 s.
4) X.İ.Məmmədova, Ə.H.Cavadov. Tabeli mürəkkəb cümlələrin semantik-qrammatik xüsusiyyətləri. – Bakı: Mütərcim 2000. -76 səh
5) Azərbaycan dilinin qrammatikası [Mətn] /red. R. Ə. Rüstəmov, Z. İ. Budaqova ; Azərbaycan SSR EA Nizami ad. Ədəbiyyat və Dil İn-tu **I** hissə.- B.: Azərbaycan SSR Elmlər Akademiyası, 1960.- 334 s.
6) Müasir Azərbaycan dilinin morfologiyası [Mətn] : Azərb. SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Nazirliyi, V. İ. Lenin ad. Azərb. Döv. Ped İn-tu ; 1961, 189 səh.
7) Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı, Azərb. EA-nın nəşri, 1968, s.306.
8) http://anl.az/el/a/ar_zg.pdf

HÜSEYNOVA TÜRKAN ETIBAR

AZƏRBAYCAN DILINDƏ FEILIN ŞƏRT ŞƏKLI

XÜLASƏ

Felin şərt şəkli gələcəkdə yerinə yetiriləcək hərəkətin müəyyən şərtlə reallaşmasını bildirir. Şərt şəklinin morfoloji əlaməti ilə əmələ gələn cümlənin feli xəbəri müstəqil işlənə bilməz. Fel formalarının sintaktik mahiyyəti şərt şəklində daha aydın və canlıdır. Bütövlükdə şərt mənasını ifadə edən şərt şəklinin əlaməti ilə düzələn cümlə digər cümlənin məzmunu ilə, tabelilik əlaqəsi ilə bağlanır. İkinci hərəkətin icra edilməsi felin hansı şəkildə və hansı zaman formasında işlənməsindən asılı olmayaraq, yalnız birinci hərəkətin, şərtin icrasından asılı olacaqdır.

Şərt şəklinin iki zaman forması var: indiki və keçmiş zaman formaları. İndiki zaman şərti, keçmiş zaman isə fel şəkillərinin şərti adlanır. Şərti cümləsi bəzən baş cümlə ilə "əgər" bağlayıcısının köməyi ilə bağlanır və şərt mənasını daha da vurğulayır. Şərt şəkli əsasən mürəkkəb cümlələrdə işlənir.

Şərt mənası ifadə edən fellərdən başqa, əsas hərəkəti bildirən fellər də işlənir və həmin fellərin bir-biriylə qarşılıqlı əlaqəsi zamanı cümlənin əsas ideyası, fikri yaranır. Fikrimizi daha da dəqiqləşdirsək, baş cümlədə xəbər vəzifəsində iştirak edən əsas feilin icra olunub-olunmamasında əsas rolu budaq cümlədə xəbər vəzifəsində çıxış edən və şərt şəklində işlənən fel oynayır. Deməli belə bir nəticəyə gələ bilərik ki, bir cümlədə iki feil, yəni iki xəbər müəyyən subyektlərlə qarşılıqlı əlaqədə olaraq mürəkkəb cümlənin düzəlməsinə zəmin yaradır. Aydındır ki, baş cümlə olmasa budaq cümlə də olmaz. Yəni felin şərt şəklinin əlamətini qəbul etmiş feil cümlənin əsas hərəkəti ilə əlaqəlidir və o olmadan mövcud ola bilməz və icrasını hansısa şərtlə bağlayır. Belə ki, budaq cümlənin xəbəri rolunda çıxış edən şərt şəkli, baş cümlədəki feili məna baxımdan özündən asılı hala salır. Budaq cümlənin hərəkəti, işi imkan verdiyi zaman, baş cümlənin hərəkətinin icrasından söhbət gedə bilər.

HUSEYNOVA TURKAN ETIBAR

CONDITIONAL MOOD OF THE VERB IN AZERBAIJAN LANGUAGE

RESUME

The conditional mood of the verb indicates the realtion of the action performed in the future with certain condition. The verbal predicate of the sentence formed by the morphological feature of the conditional mood cannot be used independently. The syntactic nature of verb forms is more plain and vivid in the conditional mood. The sentence formed with the element of the conditional form, expressing the meaning of condition as a whole, is connected with the content of the next sentence, with the subordination. Regardless of which mood and tense form of the second action verb being used, fulfilment will depend only on the occurrence of the first action, the condition. The conditional mood has two tense forms: present and past tense forms. The present tense is called the conditional and the past tense is called the condition of the verb moods. The conditional clause is sometimes connected with the main clause with the help of the conjunction "if" and it makes the meaning of condition more emphatic. The conditional mood is mainly used in complex sentences. In addition to conditional verbs, verbs denoting the main action are also used, and when these verbs interact with each other, the main idea of the sentence is formed. To be more precise, the main role in the fulfillment of the main verb in the main clause is played by the conditional verb in the subordinate clause. Therefore, we can conclude that two verbs in one sentence, that is, two predicates in connection with certain subjects, form the basis for the formation of a complex sentence. Obviously, there is no subordinate clause without the main clause. That is, a verb that accepts the element of a conditional form of a verb is related to the main action of the sentence, and cannot exist without it, and connects its fulfillment with some condition. Thus, the conditional form, which acts as a predicate of the subordinate clause, makes the verb in the main clause dependent on itself according to the meaning. When the action of a subordinate clause allows, it is possible to talk about the fulfillment of the action of the main clause.

ГУСЕЙНОВА ТУРКАН ЭТИБАР

УСЛОВНОЕ НАКЛОНЕНИЕ ГЛАГОЛА В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Условное наклонение глагола указывает на реализацию совершаемого в будущем действия с определенным условием. Глагольное сказуемое предложения, образованное морфологическим признаком условного наклонения нельзя использовать самостоятельно. В условном наклонении

синтаксическая природа глагольных форм более простая и ярко выраженная. Предложение формируется при помощи условной формы, выражающей значение условия в целом, связанной с содержанием следующего предложения с подчинением. Вне зависимости от использования наклонения и времени второго глагола действия, выполнение будет зависеть только при наличии первого действия, условия. Условное наклонение имеет две формы времени: настоящее и прошедшее время. Настоящее время называется условным, а прошедшее - условием глагольных наклонений. Условное придаточное предложение иногда связано с главным предложением с помощью союза «если», который придает больше выразительности значению условия. Условное наклонение в основном употребляется в сложных предложениях.

Помимо условных глаголов используются также глаголы, обозначающие основное действие, и при взаимодействии этих глаголов между собой формируется основная идея предложения. Точнее, основную роль в исполнении главного глагола в главном предложении играет условный глагол в придаточном предложении. Следовательно, можно сделать вывод, что два глагола в одном предложении, то есть два сказуемых в связи с определенными подлежащими, образуют основу для образования сложного предложения. Очевидно, что без основного предложения не бывает придаточного предложения. То есть глагол, принимающий элемент условной формы глагола, относится к основному действию предложения, не может существовать без него и связывает его выполнение с некоторым условием. Таким образом, условная форма, которая действует как сказуемое придаточного предложения, делает глагол в главном предложении зависимым от самого себя по смыслу. Когда действие придаточного предложения позволяет, можно говорить о выполнении действия основного предложения.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya üzrə elmlər doktoru Kamilə Abdulla qızı Vəliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

AĞARZAYEVA QIZILGÜL RƏYIS QIZI
Azərbaycan Dillər Universiteti
roseagarzayeva@gmail.com

MƏTNDƏ İNTONASİYANIN FUNKSİONAL-KOMMUNIKATİV XÜSUSIYYƏTLƏRİ

Açar sözlər: mətn dilçiliyi, ümumi fonetika, xüsusi fonetika, intonasiya, ingilis intonasiyasının funksiyaları
Ключевые слова: лингвистика текста, общая фонетика, специальная фонетика, интонация, функции английской интонации.
Key words: text linguistics, General Phonetics, Special Phonetics, intonation, functions of the English intonation.

Müasir linqvistik tədqiqatlar sırasında XXI əsrdə ən ümdə məsələlərdən biri "insan mətnlə danışır" problemidir. Məhz nitq kommunikasiyasının formalaşmasında, mədəniyyətlər və ölkələrarası əlaqələrin formalaşmasında intonasiya dilin bir vasitəsi kimi çıxış edir.

Dilçilik elmi ümumi və xüsusi olaraq iki hissəyə ayrıldığı kimi, onun bir bölməsi olan fonetikanın da ümumi və xüsusi olaraq iki növü vardır. Ümumi fonetikanın mövzusuna səslərin ümumi akustik və fizioloji cəhətləri, eləcə də vurğu, heca, səs, fonem, səs sistemi, intonasiya, səslərin dəyişməsi və əvəzlənməsi kimi bir sıra məsələlər daxildir. Xüsusi fonetikada isə qeyd olunan bu məsələlər ayrıca olaraq bu və ya digər konkret bir dil əsasında tədqiq olunur və həmin dilin özünəxas olan cəhətləri müəyyənləşdirilir. Beləliklə, daha dəqiq desək, ümumi fonetikada ümumiləşdirilmiş halda verilmiş bir sıra məsələlər xüsusi fonetikada daha da dəqiqləşdirilir [3, s.8].

Belə ki, mətn dilçiliyinin həll olunmamış məsələlərindən biri də onun təşkil olunması problemidir. Mətnin formalaşmasında dilin müxtəlif vasitələri iştirak edir. Bunlardan biri də fonetika bəhsinə daxil olan intonasiyadır. İzahlı dilçilik terminləri lüğətində intonasiyaya bu cür tərif verilir: " İntonasiya dedikdə- nitqin ahəngi (səsin yüksəlməsi və ya enməsi), ritmi (uzun və qısa, vurğulu və vurğusuz hecaların növbəli əlaqəsi), nitqin tempi və ya sürəti (müəyyən vaxt ərzində sürətlə və ya yavaş zəifləməsi), məntiqi vurğusu kimi hadisələrin cəmindən ibarət mürəkkəb dil hadisəsi kimi başa düşülür" [5, s.240]. Ümumiyyətlə, intonasiya çox mürəkkəb, rəngarəng bir hadisədir. Danışarkən təkcə cümlənin məzmunu deyil, eyni zamanda həmin cümlənin nə məqsədlə söylənilmiş olması da cümlədəki sözlərin necə səslənməsinə təsir edir. Bu fikri belə izah etmək olar ki, biz danışarkən səs bəzən ucalır, bəzən əksinə alçalır, bəzən qısalır, bəzən daha da uzanır və s. Beləliklə də, cümlə boyu səslənmənin müxtəlif çalarlıqlı və fərqli kəmiyyətli dalğaları yaranır. İntonasiya ton, yəni səsin alçalması və ucalması, sürət, yəni nitqin sürətlə və ya yavaş cərəyanı, səsin gücü,

yəni, tələffüzün güclü və ya zəif olması, duyğu boyası, yəni qorxu, sevinc və daha belə hissi hallara görə fərqliliklərə uğraması kimi rəngarəng xüsusiyyətlərə malik bir hadisədir [3, s.135]. İntonasiya hadisəsi cümlə ilə bağlıdır. Bu hadisə əsasən səslənmənin cümlədə hərəkətidir. Elə buna görə də, bu hadisəyə avazlanma da deyirlər. Bu hadisəni bəzi fonetistlər cümlə və ya fraza vurğusu da adlandırırlar.

İntonasiya dil universalisidir. Dünyada monoton dil yoxdur. İntonasiyanın müxtəlif dillərdə fərqli funksiyaları vardır.

İngilis dilində intonasiyanın 4 əsas funksiyası var:

1) Kommunikativ funksiya; 2) Sintaktik funksiya; 3) Modal funksiya; 4) Məntiqi funksiya.

1) İntonasiyanın kommunikativ funksiyası. İntonasiya hazırkı situasiyada verilən cümlənin nəqli, sual, tələb, istək, əmr, və ya nida cümlələri olub olmadığını təyin edir. Beləliklə, intonasiya cümlənin kommunikativ növlərini müəyyənləşdirir:

a) Əmr cümləsi (əmr, xahiş, xəbərdarlıq və s.);
b) Nəqli cümlə (bütün növ cümlələr);
c) Sual cümləsi (sual cümlələri: ümumi, xüsusi, təkrarlanan cümlələr);
d) Nida cümləsi (hər cür nida cümlələri) [4, s.129].

İntonasiya insanlararası kommunikasiyanın ən güclü ifadə vasitəsidir və buna görə də, belə hesab olunur ki, kommunikativ funksiya intonasiyanın əsas funksiyasıdır. Kommunikasiyanın məqsədlərindən biri də insanlar arasında fikir mübadiləsidir. Məqalədə kommunikativ funksiyanın reallaşdığı 4 cümlə növünün izahı verilir və müxtəlif misallar əsasında bu funksiya dərindən təhlil edililir. Kommunikativ funksiyanın reallaşdığı birinci cümlə növü əmr cümləsi adlanır. Əmr cümləsində fikir əsasən ikinci şəxsə qarşıda durana, dinləyiciyə birbaşa olaraq çatdırılır. Əmr cümləsi dedikdə əmr, xahiş, xəbərdarlıq, nəsihət və s. bildirən cümlələr nəzərdə tutulur. Əmr cümləsi adında göründüyü kimi təkcə əmr ifadə etmir, bununla yanaşı, xahiş, tələb, istək, öyüd, nəsihət və digər başqa mənalar da ifadə edə bilir. Bu da şübhəsis əmr cümlələrinin işlənmə dairəsini genişləndirir. Bu cümlələrdə sözün əsl mənasında əmr ifadə etmək əsas götürüldüyündən və bu fikir özünü daha qabarıq büruzə verdiyindən həmin cümlələr "əmr cümləsi" deyə adlanır. Bir neçə dildə nümunələrə nəzər salaq. Azərbaycan dilində: *Uşaqlar, tez olun, süfrəni hazırlayın!,* İngilis dilində*: Take the pen!,* Alman dilində: *Mach das Fenster zu!*

Biz intonasiyanın funksiyalarını əasasən ingilis dili üzərindən izah etməyi qarşımıza məqsəd qoydumuz üçün bu dildə onu araşdırmağa daha çox diqqət yetiririk. Məhz buna görə də, əmr cümləsinin ifadə etdiyi digər mənaları da nümunələr əsaında izah edəcəyik. Bu tip cümlələr əmr verildiyi zaman qüvvətli vurğu ilə deyilir: *Don`t be late! (Gecikmə!).* Əmr cümləsi eyni zamanda xəbərdarlıq da ifadə edir. Əmr cümləsinin xəbərdarlıq formasına bariz nümunə kimi yol hərəkət qaydalarına aid tabelləri göstərmək olar. Məsələn: *Don`t cross the line! (Cızığı keçməyin!).* Əmr cümlələrindən məsləhət verərkən də istifadə olunur. Məsələn: *Do not drink alcohol! (Spirtli içki içməyin!).*Təlimat və yaxud izahat verərkən də

imperativ cümlələrdən istifadə olunur. Məsələn hər hansısa bir əşyanın və ya dərmanın istifadə vərəqəsindəki izahı buna misal göstərmək olar. Məsələn: *Firstly, open the packet, please and take out the device! Then put it on a flat place! (Zəhmət olmazsa, əvvəlcə paketi açın və cihazı götürün! Sonra düz bir yerə qoyun!).* Əmr cümlələrindən istək, xahiş bildirmək üçün də istifadə olunur. Bu məqsədlə ingilislər cümlənin əvvəlinə "please" yəni, zəhmət olmazsa sözünü artırırlar. Məsələn: *Please, help me! (Xahiş edirəm, mənə kömək edin!).* Please ifadəsindən eyni zamanda söylədiyin fikri daha nəzakətli formada çatdırmaq üçün də istifadə edilir. Məsələn: *Listen to me, please! (Mənə qulaq as, zəhmət olmazsa!).* Kiməsə məsləhət verən zaman da əmr cümlələrindən istifadə olunur. Məsələn*: Take a coat. İt`s cold today. (Paltonu geyin. Bugün soyuqdur).* İmperativ cümlələrdən kimdənsə bir şey xahiş etmək, təklif etmək üçün də istifadə olunur. Məsələn*: Pass the cheese, please! (Pendiri mənə ötür, zəhmət olmazsa!). Help yourself! (Qonaq ol!).* Əmr cümlələrindən birşeylər arzu etmək üçün də istifadə olunur: Məsələn: *Have a nice holiday! (Gözəl məzuniyyət arzusu ilə)* [5].

Əmr cümlələrinin əsas xüsusiyyətlərindən biri onun qısalıq tələb etməsindədir. Məhz buna görə də əmr ifadə edən cümlələr bəzən ixtisar edilmiş şəkildə olur və imperativ cümlədəki fikir feil çıxarılaraq digər nitq hissələrinə mənsub olan sözlər və birləşmələrlə ifadə edilir. Məsələn, C.Cabbarlının "Nəsirəddin şah" pyesindən bir parçaya diqqət yetirək. Pyesdə şah qulama "Sitarəni" deyə əmr edir. Burada Sitarəni məhz bir sözdən- isimdən ibarət olan əmr cümləsidir [1, s.99]. İngilis dilində əmr cümlələri enən intonasiya ilə deyilir.

İntonasiya cümlənin digər kommunikativ növünü də müəyyənləşdirir. Bu nəqli cümlədir. Nəqli cümlələrdə hər hansısa bir hadisə, əşya və s. haqqında məlumat verilir. Bu zaman məlumat nəql olunur, fikir ya təsdiq, ya inkar olunur. İngilis dilində də nəqli cümlələr təsdiq və inkar olmaqla iki hissəyə bölünür. Bu cümlələr bir neçə söz qrupundan ibarət ola bilər. Adətən uzun cümlələr bir neçə söz qruplarından ibarət olur. Cümlədə bu söz qruplarının miqdarı onun sintaktik mənasından, qrammatik quruluşundan və cümlənin stilindən asılıdır [4, s.137]. İngilis dilində nəqli cümlələr əsasən enən intonasiya ilə tələffüz edilir. Nəqli cümlələr dildə çox istifadə olunan, ümumi qaydalar əsasında qurulur. Hər bir dildə özünəməxsus söz sırası var. Bu söz sırası öz düzgün ifadəsini daha çox məhz bu cümlələrdə tapır. Azərbaycan dilinin cümlə quruluşuna əsasən mübtəda cümlənin əvvəlində, xəbər sonunda, digər cümlə üzvləri isə müəyyən sıralanmaya tabe olaraq xəbərdən əvvəl gəlir. Məsələn: *"Sən hələ də dünən baş verən hadisə haqqında fikirləşirsən".* İngilis dilində isə mübtəda cümlənin əvvəlində, xəbər ikinci yerdə, tamamlıq üçüncü yerdə, sonra isə qalan cümlə üzvləri gəlir. Digər cümlə növlərindən fərqli olaraq nəqli cümlələr adi danışıq tonu ilə deyilir. Belə cümlələrdə ifadə olunan fikrin müəyyən hissəsində ton qalxır, sona yaxın isə yenə adi vəziyyətə qayıdaraq enən intonsiya ilə deyilir. Yəni cümlədə məntiqi vurğu hansı sözün üzərinə düşürsə həmin sözdə ton yüksəlir. Bəzən elə olur ki, bir cümlədə bir neçə məntiqi vurğulu söz olur. Belə olan

halda onlar həmcinslik təşkil edir [1, s.84]. Məsələn: *Sən də, sənin bacın da, qardaşın da çox çalışqan tələbələrsiz.*

Beləliklə, nəqli cümlələr dildə istifadə olunan ünsiyyət vasitəsi hesab olunur və dildə ən çox işlədilən cümlə növü də məhz nəqli cümlədir.

İntonasiya vasitəsilə reallaşan digər cümlə növü isə sual cümlələridir. Bu tip cümlələrdən cavab almaq, məlumat almaq məqsədilə istifadə olunur. Sual cümlələrinin özünəməxsus sual intonasiyası olur. Saul cümlələri müxtəlif yollarla yaranır. Bu məqalədə intonasiya vasitəsilə əmələ gələn sual cümlələrindən danışmaq istərdik. Bu tip cümlələrdə sual bildirmək üçün sual intonasiyasından başqa heç bir qrammatik vasitə iştirak etmir. Məsələn: *Bu da mənimlə gedir?* Bu tip cümlələrin yeganə əlaməti məhz sual intonasiyasıdır. İntonasiya vasitəsilə yaranan sual cümlələri ilk baxışdan zahirən nəqli cümlələrdən fərqlənmir. İntonasiyanı dəyişməklə biz onu asanlıqla nəqli cümləyə çevirə bilərik. Yazıda isə cümlənin sonundakı sual işarəsini götürməklə onu asanlıqla nəqli cümləyə çevirə bilərik. Burada onu da qeyd etmək istərdik ki, nəinki cümlələr, eyni zamanda öz- özlüyündə predikativlik daşımayan sözlər və ifadələr də sual intonasiyasının köməyilə asanlıqla sual cümləsi kimi işlənə bilər. Sual cümlələri yaranış nöqteyi- nəzərindən digər bir şəxsdən cavab almaq məqsədilə istifadə olunub. Lakin zaman keçdikcə bu tip cümlələrdən başqa məqsədlər üçün də istifadə olunmağa başlanıb. Belə sual cümlələri heç vaxt sual məqsədilə işlədilmir və cavab tələb etmir. Ədəbiyyatşünaslıqda bu tip sual cümlələrinə bədii, ritorik suallar deyilir. Bu tip suallardan şair əsərin təsir gücünü artırmaq və oxucunu düşünməyə sövq etmək üçün istifadə edir [1, s.91]. Məsələn: "S.Vurğun və Aşıq Şəmşir dastanı"ndan bir hissəyə baxaq:

Köksündə eşitdik kəklik səsini,
Çəmənin-çiçəyin saldı bəhsini,
Car-car bulaqların şələləsini,
Görəndə halını soruşan hanı?

Nida cümlələri hər hansısa bir hissi, həyəcanı ifadə etmək məqsədilə istifadə olunur. İngilis dilində bu tip cümlələr "what" və "how" sözləri ilə başlayır. Nida cümlələrinin digər hissələri isə nəqli formada olur, heç bir inversiya baş vermir. İngilis dilində bu tip cümlələr adətən düşən intonasiya ilə deyilir. Bu tip cümlələr nəqli, sual və əmr cümlələri əsasında formalaşır. Belə ki, nida cümlələri həm danışanın hissini, həyəcanını, həm də başqa şəxsə və əşyalara olan emosional münasibətini ifadə edir. Nida cümlələri xüsusi yüksək pafosla deyildiyinə görə, dram əsərlərində, romantik şeirlərdə, əsərlərdə daha çox istifadə olunur [1, s.101].

İntonasiyanın sintaktik funksiyası isə cümlənin sadə və yaxud mürəkkəb olmasını müəyyənləşdirir. O, həm də cümlə üzvlərini və nitq hissələrini də müəyyənləşdirir. İntonasiya cümlədə homogen üzvlərin olub olmadığını təyin edir. Birbaşa nitqi müəllifin sözlərindən ayırır və s. İntonasiya bu funksiya ilə əsas üç məqsədi yerinə yetirir: a) cümlələrin intonasiya qruplarına bölünməsi; b) hər bir intonasiya qrupunda əsas aksentin yeri; c) hər bir qrupda istifadə olunan dəyişən söz.

İntonasiyanın modallıq funksiyası isə natiqlər vasitəsilə verilən nitqə münasibəti, eləcə də auditoriyaya və dinləyiciyə olan ruhi vəziyyəti ifadə edir.

İntonasiya eyni zamanda verilən cümlədə məntiqi vurğunun harada olduğunu da müəyyən edir. Beləliklə, bu funksiyada intonasiya məntiqi vurğunu hər hansı bir sözdən başqa bir sözə keçirərək əsas mənanı həmin sözdə cəmləşdirə bilər [4, s.129]. İntonasiyanın məntiqi funksiyası isə əsasən məntiqi vurğu ilə bağlıdır. Yəni, məntiqi vurğu verilən cümlədə, deyilən nitqdə ən vacib sözü ayırır. Məntiqi vurğunun düzgün qoyulmaması nitqdə fasilələrin, ahəngdarlığın pozulmasına gətirir. Məhz məntiqi vurğulu söz hansısa bir məqsəd daşıyıcısıdır və fikrimizi çatdırmaq istədiyimiz əsas söz üzərində cəmlənir. Məntiqi vurğulu söz cümlədəki bütün ağırlığı öz üzərinə götürəndir. Misal üçün:

1) *Sənin haqqında yuxarılara şikayət edəcəm.*
2) *Şikayət etmə, ona yazığın gəlsin.*

Hər iki cümlədə "şikayət etmə" ifadəsi var. Amma məntiqi vurğu qəbul edən məhz ikinci cümlədəki "şikayət etmə" ifadəsidir. Birinci cümlədə isə məntiqi vurğu "yuxarılara" sözündədir. Beləliklə, intonasiyanın məntiqi funksiyası dedikdə məhz tonun dəyişməsi hesabına yaranan məna dəyişməsi nəzərdə tutulur.

Beləliklə, bütün bu funksiyalar intonasiya növləri ilə reallaşan intonasiya qanunauyğunluqları ilə həyata keçirilir. Bu funksiyaların reallaşdığı cümlələr sadəcə modallıqla bir-birindən fərqlənirlər. Belə olan halda intonasiyanın üçüncü və dördüncü funksiyaları müxtəliflik, birinci və ikinci funksiyaları isə eyniyyət təşkil edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. IV hissə. Sintaksis. Bakı, "Şərq-Qərb", 2007, 424 s.
2. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri lüğəti. Bakı, "Elm və təhsil", 2020, s.240 (656 s.)
3. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. Bakı, "Şərq-Qərb", 2007, 256 s.
4. Babayev S.M., Garayeva M.G. English Phonetics. Bakı, "Maarif", 1999, 320 s.

İnternet resursları

5. https:// blog. azeringilisce.com
6. https:// www.getwordly.com

G.R.Agharzayeva

Summary

The Communicative and Functional Features of Intonation in the Text

The thesis studies the four main functions of intonation in the English language; namely:
the communicative, the syntactic, the modal and the logical functions of intonation.

A broad explanation of all these functions is given in this thesis. Intonation is considered to be one of the most powerful means of expression of interpersonal communication. That is why, the communicative function of intonation is extensively analyzed in the given study. It is also stated in the research that the main purpose of communication is exchange of ideas among people. This main function is realized in four sentence types like declarative, imperative, interrogative and exclamatory sentences.

Declarative sentences differ from other types of sentences. These types of sentences are pronounced in a usual spoken tone and they are mostly used in the language.

Another type of sentence is interrogative sentences. These types of sentences have their own peculiar intonation.

Exclamatory sentences are used to express any feeling, emotion and etc. These sentences are formed on the basis of other sentence types.

On the other hand, imperative sentences express not only command, but also request, necessity, desire, etc. One of the main features of these sentences is that they require brevity. Each of these types of sentences has different purposes and meanings.

Г.R.Агарзаева

Резюме

Коммуникативно- функциональные особенности интонации в тексте

Тезис изучает четыре главные функции интонации в английском языке, а именно:
коммуникативную, синтаксическую, модальную и логическую функции.

В данном тезисе дается подробное объяснение всех этих функций. Интонация является одним из сильнейших средств выражения межличностного общения. Поэтому, коммуникативная функция интонации подробно анализируется в работе. В исследовании также подчеркивается, что основная цель общения- это обмен идеями между людьми. Это основная функция реализована в 4 типах предложений: повествовательных, повелительных и вопросительных предложения и восклицательных предложениях.

Повествовательные предложения отличаются от предложений других типов предложений. Эти типы предложений произносятся обычным разговорным тоном и наиболее часто используются и языке.

Следующий тип предложений - это вопросительные предложения. У этих типов предложений есть своя особая интонация вопроса.

Восклицательные предложения используются для выражения любых чувств, эмоций и.т.д. Эти предложения формируются на основе других типов предложений.

С другой стороны, повелительные предложения выражают не только команду, но и просьбу, необходимость, желание и.т.д. Одна из главных особенностей этих предложений- это то, что они требуют краткости. Каждый из этих типов предложений имеет разные цели и значения.

Q.R.Ağarzayeva

Xülasə

Mətndə intonasiyanın funksional-kommunikativ xüsusiyyətləri

Tezisdə ingilis dilində intonasiyanın 4 əsas- kommunikativ, sintaktik, modal və məntiqi funksiyalarından bəhs olunur.

Bu funksiyaların tezisdə geniş izahı verilir. İntonasiya insanlararası kommunikasiyanın ən güclü ifadə formasından biri hesab olunur. Buna görə də, intonasiyanın kommunikativ funksiyası verilmiş tədqiqat işində geniş şəkildə araşdırılır. Tədqiqat işində eyni zamanda o da bildirilir ki, kommunikasiyanın əsas məqsədi insanlar arasında fikir mübadiləsidir. Bu əsas funksiya 4 cümlə növündə- nəqli, əmr, sual, nida cümlələrində reallaşır.

Nəqli cümlələr digər cümlə növlərindən fərqlənir. Bu tip cümlələr adi danışıq tonu ilə deyilir və dildə ən çox işlədilən cümlə növüdür.

Digər cümlə növü isə sual cümlələridir. Bu tip cümlələrin özünəməxsus sual intonasiyası olur.

Nida cümlələrindən isə hər hansısa bir hissi, həyəcanı və s. ifadə etmək məqsədilə istifadə olunur. Bu tip cümlələr digər cümlə növləri hesabına formalaşır.

Digər cümlə növü isə əmr cümləsidir. Əmr cümləsi təkcə əmr ifadə etmir, eyni zamanda xahiş, tələb, istək və s. mənaları da ifadə edir. Bu cümlə növünün əsas xüsusiyyətlərindən biri onun qısalıq tələb etməsidir. Bu cümlə növlərinin hər birinin öz məqsəd və mənaları vardır.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: f.e.d., dos. Bayramova Aytən Məhəmməd qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU MİRZƏYEVA
Azərbaycan Tibb Universitetinin
Azərbaycan dili kafedrasının müəllimi
e-poçt: Mrs.arzu1960@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ FEİLİ İDİOMLARIN STRUKTUR TİPLƏRİ

Açar sözlər: Sabit söz birləşmələri, idiomlar, frazeoloji vahidlər, obrazlı ifadə, tərcümə, leksik məna.

Key words: Fixed word combinations, phraseology, idioms, phraseological, unit, figurative, expression, translation, lexical meaning.

Ключевые слова: Такие комбинированные слова, фразеологизмов, идиом, фразеологические единицы, образное выражение, перевод, лексическое значение.

Azərbaycan dilçiliyində idiomların tədqiqinə 1950-ci illərdən sonra başlanmışdır. Bu haqda ilk məlumata prof. M.Hüseynzadənin 1954-cü ildə nəşr etdirdiyi "Müasir Azərbaycan dili" əsərində rast gəlirik. Müəllif bu əsərdə "Frazeologiya" başlığı altında frazeoloji vahidlərin əmələ gəlməsindən, onların sərbəst söz birləşmələrindən həm məna, həm də quruluşca fərqli cəhətlərindən danışır [1, 32-34].

Azərbaycan dilçiliyində idiomlardan bəhs edən digər əsər S.Murtuzayevin "M.F.Axundovun komediyalarının frazeologiyası" adlı tədqiqat əsəridir. Bu əsərdə M.F.Axundovun komediyalarında işlənmiş frazeoloji vahidlərin üslubi təsnifi, qrammatik bölgüsü və digər cəhətləri şərh olunur [2, 20].

S.Cəfərovun "Müasir Azərbaycan dilinin leksikası" əsərində isə idiomlardan daha geniş şəkildə bəhs olunur. Müəllif bu əsərdə "Frazeoloji birləşmələr" başlığı altında danışır [3, 40-50].

İdiomlardan ilk dəfə ətraflı şəkildə "Müasir Azərbaycan dilində söz birləşmələri" əsərində danışılmışdır. Bu əsərdə idiomlardan "Sabit söz birləşmələri" adı altında bəhs olunur. Burada sabit söz birləşmələrinin sərbəst söz birləşmələrinə oxşar və ondan fərqli cəhətləri işıqlandırılır, sabit söz birləşmələrinin əmələgəlmə yolları, mənaca növləri və başqa səciyyəvi xüsusiyyətləri açıqlanır [4, 92-145].

Söz birləşmələri üzərində uzun müddət uğurlu tədqiqat işi aparan prof. Y.Seyidov göstərir ki, söz birləşmələri dil sistemində çox mühüm yer tutur və dilin ümumi quruluşuna məxsus bir sıra xüsusiyyətləri özündə əks etdirir. Söz birləşmələrinin tədqiqi dilin qrammatik quruluşunun tədqiqi deməkdir. Söz

birləşmələrinin tədqiqi dilin inkişaf qanunlarını meydana çıxarmaq , onun milli orijinallığını müəyyən etmək deməkdir [7, 25].

"Azərbaycan dili frazeologiyasının əsasları" adlı tədqiqat işində də idiomlar geniş şəkildə təhlil olunur, onun struktur quruluşu və məna növləri işıqlandırılır [5, 15-20].

M.Mirzəliyevanın 1995-ci ildə çapdan çıxmış "Türk dilləri frazeologiyasının nəzəriproblemləri" adlı əsərində də frazeologiya məsələlərinin mühüm cəhətləri təhlil olunur.

Oğuz qrupu dillərinin (Azərbaycan, türk, türkmən, qaqauz dillərinin) faktik materialları əsasında yazılmış bu əsərdə frazeologiyanın bir sıra problemləri öz uğurlu həllini tapmışdır [6. 40].

Frazeologiyadan bəhs edən əksər dilçilər eləcə də bu əsərin müəllifi də frazeoloji vahidləri leksikanın obyekti kimi qəbul edirlər.

Beləliklə, idiomların tədqiqi Azərbaycan dilçiliyində daim diqqət mərkəzində olmuş və həmişəki kimi bu gün yenə aktualdır.

İdiomlar dilşünaslıqda sabit söz birləşmələri, frazeoloji birləşmələr, frazeologizmlər və s. adlar altında verilmişdir.

İdiom – idioma yunan mənşəli sözdür. Mənası özünəməxsus xüsusiyyətlərinə malik olan ifadə deməkdir. Bu termin həddindən artıq çoxmənalıdır. Həqiqi mənalı sözlərin qarşılığı olub onu məcazi məna ilə bildirən sabit söz birləşməsinə idiom deyilir. İdiomların ifadə etdiyi məfhum başqa söz birləşmələrinə nisbətən dah konkret olur. İdiomlar sözün ekvivalentini məcazi məna ilə verilən sinonimi kimi dildə özünü göstərir. Məsələn: sevinmək mənasında – **canına yayılmaq, qanad açıb uçmaq, dünyanı ona bağışlamaq**; istəmək mənasında – **ürəyi istəmək, könlündən keçmək, burnunun ucu göynəmək**; öyünmək mənasında – **mənəm-mənəm demək, ağzına çullu dovşan yerləşməmək, qabağından yeməmək, döşünə döymək**; əziyyət çəkmək mənasında – **kirpiyi ilə od götürmək, saçını süpürgə etmək, iynə ilə gor qazmaq, sümük sındırmaq, can qoymaq**; imtina emək mənasında – **boynundan atmaq, yaxasını kənara çəkmək**; hirslənmək mənasında – **cin başına vurmaq, cin atına minmək, özündən çıxmaq** və s.

İdiomlar hər bir xalqın kaloritini, adət-ənənəsini, dil sistemindəki özünəməxsus leksik-qrammatik formalarını əks etdirir. İdiomlardan istifadə insanlara öz fikirlərini qısa, dəqiq ifadə etmək imkanı verir. Onlar məfhumu dolayı yolla olsa da konkret ifadə edir. İdiomların əsas xüsusiyyətləri onların obrazlı, emosional ifadələri olmasıdır. Onlar hər hansı bir anlayışı ayrı-ayrı sözlərdən dəfələrlə təsirli və obrazlı əks etdirir.

İdiomlar milli xüsusiyyətə malik olduğuna görə hər bir xalqın dilindəki idiomları öyrənməklə həmin xalqın mədəniyyəti, tarixi və yaşayış tərzi ilə yaxından tanış olmaq mümkündür. İdiomların özünəməxsus kateqoriyaları onu dilin digər vahidlərindən fərqləndirir və müstəqil bir dil vahidi kimi səciyyələndirir. İdiomlar

özünün leksik mənasına, strukturuna və qrammatik xüsusiyyətlərinə görə dəyişə bilirlər. İdiomlar dilin orijinal vasitəsi, varlığı və zənginliyidir.

İdiomların bu cür maraqlı xüsusiyyətləri dilçiliyin müxtəlif sahələri ilə məşğul olan alimləri – leksikoqrafları, üslubiyyatçıları, qrammatikləri, folklorşünasları da çox düşündürmüş və onları elmi tədqiqat işlərinə cəlb etmişdir.

Azərbaycan dilində işlənən idiomlar iki böyük qrupa ayrılır: ismi və feili idiomlar.

İsmi idiomlar qrupuna morfoloji səciyyəsi, sintaktik vəzifəsi cəhətdən adlar sırasına daxil olan, nitq hissələrinin ekvivalenti ola biləcək sabit söz birləşmələri aid edilir. Bu bir ləşmələrdə əsas söz yerində aparıcı söz rolu oynayan isim, sifət, say kimi nitq hissələrindən biri işlənir ki, bu da həmin birləşmənin növünü müəyyənləşdirir. Bu xüsusiyyətlərinə görə ismi idiomlar üç qrupa bölünür: a) isim mənasında işlənən idiomlar; b) sifət mənasında işlənən idiomlar; c) say mənasında işlənən idiomlar.

İsim mənasında işlənən idiomlarda birləşmənin tərkibi təyin və təyin edilən sözdən ibarət olsa da əsas söz obyekti əşyanı göstərir, asılı söz isə onu təyin edir, mənasını açır: məsələn: **düşmən çəpəri, alın yazısı, dərd dağarcığı, qəm yuvası** və s.

Sifət mənasında işlənən idiomlar sifətin və feili sifətin birləşməsindən əmələ gəlir: məsələn: **ayağı ağır, ürəyi nazik, başı daşlı** və s.

Say mənasında işlənən idiomların tərkibində kiçik rəqəmlərdən tutmuş ta böyük rəqəmlərə qədər saylar iştirak edir: məsələn: **bir ayağı bu dünyada, o bir ayağı o biri dünyada, iki daş arasında, bir qarın çörəyə möhtac, altı-beş vurmaq, göyün yeddi qatına çıxmaq, yüz arxın suyunu bir arxa calamaq** və s.

Azərbaycan dilində işlənən idiomların böyük bir qismini feili birləşmələr təşkil edir. Bu birləşmələr feilin ekvivalenti kimi çıxış etdiyindən iş, hal, hərəkət, vəziyyət bildirir və cümlənin xəbəri vəzifəsində işlənir. Feili idiomların mənasının müəyyənləşməsində aparıcı rolu feil oynayır. Bu birləşmələrin dilimizdə çoxluq təşkil etməsinin səbəbi feillərin məna genişliyi ilə bağlıdır. Məsələn: **dişi bağırsağını kəsmək, dabanına tüpürmək, bir əldə iki qarpız tutmaq, ürəyi yanmaq, qulaqardına vurmaq** və s.

Feili idiomların başqa bir səbəbi də vardır ki, birləşmənin əsas tərkib hissəsi olan feil özünə xas olan bir sıra xüsusiyyətləri, yəni zaman, şəxs, kəmiyyət və inkarlıq kateqoriyalarını məsdər formasının növ və şəkil əlamətlərini özündə əks etdirir.

İnsanın zahiri görkəmi, onun davranışı və s. haqqında fikir formalaşdıran idiomlar çox zaman insanın bədən üzvlərinin adları ilə işlənir. Bunlar somatizmlər adlanır. İdiomların tərkibində çoxlu miqdarda somatizmlər işlənir. Məsələn: **baş, saç, qulaq, göz, qaş, burun, ağız, dil, dodaq, diş, boyun, bədən, çiyin, bel, qol, əl, barmaq, ayaq, diz, ürək, ciyər, bağırsaq, dəri** və s.. Bədən üzvlərinin adlarının iştirak etdiyi idiomlar dildə müəyyən qrup təşkil edir. Belə idiomlar müstəqil nitq vahidi kimi digər sözlərlə semantik – qrammatik əlaqədə olur. İdiomların

komponentləri bir-biri ilə əlaqələnir, qaynayıb qarışır, öz müstəqilliyini itirir, məcazi mənada olur.

Somatik frazeoloji birləşmələrin frazeologiyada ayrıca qrup təşkil etdiyini söyləyən Ə.Hacıyeva somatik frzeologizmlərin tərkibində 40-a qədər bədən üzvü bildirən sözün işləndiyini qeyd edir [8, 192].

İndi isə feili somatik idiomların yaranmasına nəzər salaq. Feili somatik idiomların bir qismi formal cəhətdən aşağıdakı qayda ilə düzəlir.

I.Mənsubiyyət şəkilçisi qəbul etmiş adların feillərlə birləşməsi yolu ilə: Məsələn: **ağlı kəsmək, başı çıxmaq, gözü düşmək.**

- Ağlı kəsmək – Bax mənim **ağlım belə kəsir** ki, o Hitler özü şeytandır, ancaq donunu dəyişib [1, 128]. Ərdəhanın **ağlı kəsən, ağlı kəsməyən** uşaqları da bəsdi deyincə gülüşdülər [11, 26].

Başı çıxmaq – Kənanın axırıncı atmacası mənə yaman yer eləyib: "heç şeydən **başı çıxmır..."** [13, 59]. Bu gün naçalnik olsam da yenə bənna işindən az-maz **başım çıxır** [11, 159].

Evdə işığımız yanmayanda qonşumuz dadımıza çatır. Onun belə şeylərdən **başı çıxır** [13, 59].

Gözü düşmək – Bəy, qonşunun qızına **gözüm düşüb** hərçi çalışıram zalım qızı məhəl qoymur [10a, 17].

II. Mənsubiyyət şəkilçisi qəbul etmiş müəyyən təsirlik halında olan isimlərin feillərlə birləşməsi yolu ilə: Məsələn: **başını itirmək, başını yemək, başını əkmək, başını saxlamaq, boynunu burmaq, könlünü almaq** və s.

Başını itirmək – Əgər anam olmasa biz bu kiçik şəhərdə çoxdan **başımızı itirərdik** [12, 134].

Başını yemək – Yox, saçıburma oğlanın özünü gürzə kimi çalmaq, bir nəfəsə **başını yemək** gərəkdir [12, 50].

Başını əkmək – Biz o Mehman Atamoğlanovun **başını** buradan **əkməsək**, o bizim **başımızı əkəcəkdir** [12, 302].

Başını saxlamaq – Bu qədər kluba gedirsən, bu dildən də öyrənmirsən ki, **bir başını saxlayasan** [12, 136].

Boynunu burmaq – Daha nöşün əl-qolunu döşünə çarpazlayıb, atasını yenicə itirən yetimsayağı **boynunu burusan** [11, 138].

Könlünü almaq – Mehman bu sözlərə cavab vermədən anasının **könlünü almağa** çalışdı [12, 45].

III. Mənsubiyyət şəkilçili yönlük haldakı adların feillərlə birləşməsi yolu ilə: Məsələn: **barmağına dolamaq, boynuna almaq, boynuna götürmək, döşünə döymək, başına çıxarmaq, ovucuna qoymaq, alnına yazılmaq** və s.

Barmağına dolamaq – Arvaddan bol bizdə nə var? Özün boyunduruğa girmək istəmirsən, bizi də **dolamısan barmağıva** [13, 137]. İndi ötənlərdə olduğu kimi, çöllünü **barmağına dolayıb** – "ay xoruz", "bay xoruz" – deyib rastbazar uzunu ağız-ağıza bağıran tacirlər yoxdur [12, 316].

Boynuna almaq – Boynuma almalıyam ki, heç mən də onun hansı sinifdə, necə deyərlər, neçəncidə oxuduğunu dolaşıq salırdım [11, 15].

Boynuna götürmək – Yox, yox bizim imanımız var, biz yalan-palan danışıb nə Salamatın babalını, nə də qızların ah-naləsini **boynumuza götürə bilmərik** [1, 92]. Sinif rəhbəri Rza müəllim və idman müəllimi Nüreddin dərnəyin işinə kömək etməyi **boyunlarına götürdülər** [13, 43].

Döşünə döymək – Bax, öz gözünün qabağında cinayət eləyir, **döşünə döyür** ki, mən həqiqətəm [12, 349]. Murtuzov isə güya həqiqəti tapdığına görə öz **döşünə döyür** [12, 349].

Başına çıxarmaq – Sən dünən yumurtadan çıxan bir cücəni mənim **başıma çıxarma** [12, 317].

Ovucuna qoymaq – Heç bir zaman hökm deyil ki, ərə gələn gündən hər sözü cütləyib kişinin **ovucuna qoyasan** [12, 337]. Qadınlar arasında gedən söhbətləri o öz bacısı Zərintac vasitəsi ilə toplayır, Kamilovun **ovucuna qoyurdu** [12, 133].

Alnına yazımaq – Bədbəxtlik ölənəcən **alnıma yazıldı** [12, 30].

IV. Qeyri-müəyyən təsirlik halında olan adların feillərlə birləşməsi yolu ilə: məsələn: **baş açmaq, baş aparmaq, baş dolandırmaq, baş vermək, baş vurmaq, baş qaldırmaq, baş tapmaq, baş tutmaq, baş çəkmək, baş çıxarmaq, qulaq asmaq, qulaq vermək, dil vermək, dil bulamaq, dil tökmək, di-ağız eləmək, qol qoymaq, əl çəkmək, əl tutmaq, əl atmaq, əl vermək, əl çatdırmaq, göz açmaq, göz dikmək, göz yummaq, göz olmaq, göz qoymaq, can vermək, sümük sındırmaq** və s.

Baş açmaq – Mühəndis də bir şeydir, ay qız? Gedirsən inlar işləyən yerə, **baş açmırsan**ki, gəhləsi kimdir, mühəndisi kim? [12, 10].

Baş aparmaq – Vahidov və Kamilovun yamanca **baş apardığını** görüb qayıdıb onun üstünə düşdü [12, 124].

Baş dolandırmaq – And olsun o bizi yaradana, əgər naz-qəmzə eliyəsən, mən səni qoymaram ki, bu kənddə **baş dolandırasan** [9, 11].

Baş vermək – Demək Balış səhnəyə gəlməmişsə, ciddi bir hadisə **baş vermişdir**, bəlkə də güman edildiyindən daha dəhşətli, faciəl bir hadisə **baş vermişdir** [12, 53]. Külfət yığcam olmayan yerdə nə desən **baş verər** [12. 61]. Doğrudu, məndən yaxşı əməl **baş verməz**, amma yenə sizi inandırıram ki, dünyada **baş verən** bəd əməllərin çoxundan nə mənim xəbərim var, nə də övladlarımın [10b, 180]. O kolxozlarda **baş verən** ayrı-ayrı cinayətlərdən, ictimai əmlaka uzanan əyri əllərdən danışıb nəfəsini dərdi [12, 113].

Baş vurmaq – Məmmədxan da hərdənbir bura **baş vurub** Şəhla xanımın qulluğunda hazır dayanır [12, 188]. Qaloşlu adam bazara **baş vurmadan** təngənəfəs özünü Məmmədxanın yanına saldı [12, 182].

Baş qaldırmaq – Ancaq çırpınan, döyünən atlanıb qaçmaq istəyən ürəyimdə bir sual **baş qaldırmışdır** [12, 272].

Baş tapmaq – **Baş tapmıram** hansı əsası deyirsiniz? [12, 118]. O nədir oğlum? Bayaq da adını çəkdin, **baş tapmadım** [12, 14].

Baş tutmaq – Ona elə gəldi ki, buradan qaçmaq üçün etdiyi ciddi-cəhd heç bir vəchlə **baş tutmayacaq** [12, 211]. İndi tamaşanın **baş tutmamağı** nəyinki axşamı, hətta sabahı, bütün günü danışığa səbəb olacaqdır [12, 193].

Baş çəkmək – Buna görə də o, sevimli tələbəsinə **baş çəkmək**, məsləhət vermək qərarına gəlmişdi [13, 32]. Mahiyyə qalxdı, məktubu yolda poçta vermək üçün özü ilə götürdü və Bahar xalaya həmişə **baş çəkəcəyini** söyləyib, əlini ona uzatdı [13, 120].

Baş çıxarmaq – Əlbəttə, yurist gərək yumurtadan da **baş çıxarsın** [12, 48].

Qulaq asmaq – Qabaqkı prokuror zalım oğlu Zalova da neçə dəfə dedim ki, onun-bunun sözünə baxıb, qanunu əymək olmaz, **qulaq asmadı** [12, 53].

Qulaq vermək – Vallahi, billahi, Məhəmmədhəsən əminin eşşəyinin itməkliyi bir qəribə əhvalatdı ki, nağıl edim, siz də **qulaq verib** ləzzət aparasınız [9a, 24].

Dil vermək – Belə ki, KərbəlayiHeydərin canı ağzından çxan kimi Xudayar bəy Zeynəbin yanına adam göndərdi ki, məbadə-məbadə özgəsinə **dil verə**, özgəsinə ərə gedə [9b, 105].

Dil bulamaq – Bəs niyə Ədalətə **dil bulamırsınız?** Ədalətə **dil bularam**, ancaq cəncələ yox [12, 23]. Hə, siz Allah, elə sən də, Züleyxa bacı da Mehman qağa evə gələndə bu işə **dil bulayın** [12, 242].

Dil tökmək – **Dil töküb** qabıqdan çıxsa da qonaqlar dayanmadılar [13, 55].

Dil-ağız eləmək – Respublika prokuroru professorun arvadı Zivər xanıma **dil-ağız edib**, hər cür tibbi yardım təşkil edəcəyini vəd etdi [12, 28].

Qol qoymaq - Bəs siz niyə təqdirə layiq təşəbbüsə **qol qoymursunuz?** [13, 42].

Əl çəkmək – Ancaq ayrı-ayrı düşmənlər də vardır ki, onlar öz düşmənçiliyindən **əlçəkmir**, bizim inkişaf təkərinin altına daş, qaya yumalayırlar [12, 113]. Bu telli Altay bəs niyə buradan **əl çəkmir**? [12, 151]. O nə qızından **əl çəkmək** , nə də burada qalıb sabahı açmaq istəyirdi [12, 343].

Əl tutmaq – Əlində maya düzəltmək üçün qədim dost və aşnalarına yönəlsə də heç kəs **əl tutmadı** [10b, 120].

Əl atmaq – Siz ömrünüzdə yıxılana **əl atmısınızmı**? [12, 238].

Əl vermək – Mən tacirəm, belə alış-veriş mənə **əl verməz** [9b, 121].Bərdə bazarında gördüm ki, aclıq mənə **əl erib**. Bu mahala neçə naçalnik gəlib-gedibdir hansı onu bəyənib, ona **əl veribdir** [**9b, 165**].

Əl çatdırmaq - Vahidovun "QAZ"ında gedən adama **əl çatdırmaq** olmaz [12, 251].

Göz açmaq – Mehman **göz açıb** ağlı kəsdiyi gündən öz təvazökar sadə ailəsində heç bir şeyi başqa cür ikiləşmiş görməmişdir [12, 305].

Göz dikmək – Zərintac hər yana səs salıb ki, Səlimə mənim bağçama**göz dikib** [12, 305].

Göz yummaq – Bir uşaq sadəlövhlüyü ilə o, ürəyini gizlətmədən öz nöqsan və kəsirlərinə **göz yummamışdır** [13, 30]. Atam çoxdan həyata **göz yummuşdur** [13, 131].

Göz olmaq – Öz tək oğluna **göz olmaq**, onu yava ağızlardan, şər və böhtanlardan qorumağı ana özü üçün vacibdən də vacib sayırdı [12, 56]. Xatun öz oğlu Mehmanın balasına yaxşı **göz olar** [12, 342]. İtdən küçük tutmuş olsaq da körpəyə özümüz **göz olarıq** [12, 343].

Göz qoymaq – Çox **göz qoymuşam**, toran çağı bir zorba kişi asta-asta o evə girir. Özüm də neçə vaxtdır kənardan da olsa **göz qoyub** baxmışam, sənin o qayınanan çox yamanca arvaddır [12, 180]. Biz şirin-şirin söhbət edirik, **göz qoyub** görürəm ki, Alim heç də nə kəşfiyyatına, nə də öz elmi nailiyyətlərinə bəsdi demək istəmir [13, 38].

Can vermək – Dostum sözlərini deyib susdu və daha danışmadı, şəfqət bacıları yetişənə qədər dizlrimin üstündə **can verdi** [13, 16].

Sümük sındırmaq – Elm elə bir şey deyil ki, öz-özünə gəlsin girsin adamın başına, elmi təhsil etmək lazımdır, **sümük sındırmaq** lazımdır [9a, 141].

V. Yönlük halındakı isimlərə köməkçi feilin əlavəsi ilə: məsələn: **başa gəlmək, başa vurmaq, başa düşmək, dilə tutmaq, üzə durmaq, üzə qaldırmaq, gözə vermək** və s.

Başa gəlmək – Xan, axı, siz xanların ədavəti fəqir-füqəraya, rəiyətə, rəncbərə qan bahasına **başa gəlir** [11, 49].

Başa vurmaq – Balış anbardakı sayı hesaba almadan öz rolunu ifa edib **başa vurdu** [12, 156].

Başa düşmək – Həlaku xan gəlini Ərmağanın gözlənilmədən üzə ağ olduğunu görüncə kobud hərəkət etdiyini **başa düşdü** [11, 74].

Dilə tutmaq – Adil, oğlum bu yayı mənimlə kurorta gedək – deyə ana oğluna kömək, ona istirahət – dinclik məqsədilə **dilə tutmağa** çalışdı [13, 61].

Üzə durmaq – Mən yüzdən yuxarı roman oxumuşam, sənin bu kitabxanan mənə lazım deyil – Züleyxa gözlərini süzə-süzə **üzə durmağa** başladı [12, 171]. Görürsənmi gəlin necə haqqına **üzə durub**? [12, 171].

Üzə qaldırmaq – Dil deyəndə, mən süpürcəkiyəm, bacı, ancaq gəlini elə **üzə qaldırmaq** olmaz [12, 172].

Gözə vermək – Elə bu zamandan o özünü mübariz ər kimi **gözə verir** [12, 215].

VI. Çıxışlıq halında olan isimlərə köməkçi feillərin əlavəsilə: Məsələn: **başdan çıxarmaq, əldən qoymaq, gözdən-qulaqdan qoymaq, gözdən keçirmək, əldən buraxmaq, əldən çıxarmaq** vəs..

Başdan çıxarmaq – Əlqərəz, Fikrət Cəvahiri başdan çıxarmışdı [13, 27].

Əldən qoymaq – Şəhla xanım və Katibə xala Mehmanı **əldən qoymurdular** [12, 46]. Müsamirə fasiləsində Katibə xala Mehmanı **əldən qoymadı**, onu bacısı Şəhla xanımla tanışetdi [12, 24]. Bu adam güclə kəndlinin başını qırxıb, bir şahı pulunu alıb **əldən qoyacaq** [9a, 201].

Gözdən-qulaqdan qoymaq – Bayırı **gözdən-qulaqdan qoymayan** Xatun mətbəxdən çıxıb: Sizə nə lazım ola, qardaş? – Deyə qəribə adamı ehtiyatla süzüb soruşdu [12, 59].

Gözdən keçirmək – Əbdürrəhman döndü ağaran saç-saqqalını **gözdən keçirtdi** [12, 63].

Əldən buraxmaq – Prokuror gərək Məmmədxan gədəninbu şər işində ədavəti **əldən buraxmasın** [12, 79].

Əldən çıxarmaq – Çalışırsan, çapalayırsan, adamları dara qısnayırsan, baxırsan ki, hərəsi balıq kimi bir yana şütüyüb quyruğunu **əldən çıxarır** [12, 247].

VII. Mənsubiyyət şəkilçili çıxışlıq halında olan adın feillə birləşməsi yolu ilə: məsələn: **boynundan atmaq, başından eləmək** və s.

Boynundan atmaq – Bəli susmaq, udmaq və **boynundan atmaq** deyə Şəhla xanım öz qızına möhkəm-möhkəm tövsiyə etmişdi [12, 339].

Başından eləmək – Yoxsa evinə gələn qonağı **başından eləyirsən?** [12, 145].

VIII. Təktərəfli müəyyən təsirlik halındakı isimlə təktərəfli yönlük halında olan isimlərin feillərlə birləşməsi yolu ilə: məsələn: **gözləri kəlləsinə çıxmaq, canını dişinə tutmaq** və s.

Gözləri kəlləsinə çıxmaq – Kamilov barışmaz, ağzından süd iyi gələn bir gənclə üz-üzə gəldiyini gördü, onun **gözləri kəlləsinə çıxdı** [12, 122]. O qızıl saatın zəncirini uzadıb hərləyə-hərləyə Mehmanın boğazına dolamaq, **gözləri kəlləsinə çıxana** qədər çəkmək, bizim əlbuyruqçumuz oluncaya qədər onu hövkələməkdir [12, 213].

Canını dişinə tutmaq – Qəbristana yolu düşəndə **canını dişinə tutub gedərdi** [13, 52].

IX. III növ təyini söz birləşməsinə feillərin əlavəsi ilə: məsələn: **gözünün odunu almaq, əlinin suyunu göstərmək** və s.

Gözünün odunu almaq – O sənin **gözünün odunu almaq** istəmişdir [12, 148]. Lap elə bu başdan qayınananın **gözünün odunu al** [12, 179].

Əlinin suyunu göstərmək – O indi sənə **əlinin suyunu göstərmək** istəmişdir [12,82].

Göründüyü kimi, bədii ədəbiyyatdan götürdüyümüz bu nümunələrdəidiomlar özləri-özlərini həm izah, həm təqdim, həm də təsdiq edir. Sadalanan somatik idiomların sayını artırmaq da olar, ancaq bu nümunələrdən biz nəinki yazıda, gündəlik danışığımızda da istifadə edirik. Bunlar xalq təxəyyülünün məhsuludur ki, nəsildən-nəslə keçərək bizim dövrümüzə qədər gəlib çıxmışdır.

İdiomatik ifadələrin bir hissəsi də cəmiyyətin tarixi ilə əlaqədardır. Cəmiyyətin inkişaf tarixi hər bir xalqın dilinin idiomatik fonduna spesifiktlik gətirmişdir. İdiomatik ifadələrdə inkişafın tarixi mərhələləri təyin olunur, xalqın keçmişi, indiki vəziyyəti və gələcəyi göstərilir.

Müasir dövrdə elə bir dil yoxdur ki, onun lüğət tərkibi yalnız öz frazeoloji birləşmələrindən, idiomlarından ibarət olsun. Hazırda elmin, texnikanın inkişafı ilə bağlıxalqlar elmi, mədəni, iqtisadi, siyasi cəhətdən çox əlaqəlidirlər. Bir dildən başqa dilə keçən müxtəlif xalqların bir-biri ilə sıx əlaqəsi nəticəsində əmələ gələn idiomlar beynəlxalq idiomlar adlanır. Məsələn, ingilis dilində idiomların çoxu Qədim Roma tarixindən Qədim Roma yazıçılarının əsərlərindən götürülmüşdür. Eləcə də Yunan tarixindən və digər əfsanələrdən, fransız dilindən və yazıçılarının əsərlərindən götürülmüşdür. Alman dilində ərəb dili ədəbiyyatından alınmış idiomlar "Min bir gecə nağılları"ndan, "Ələddinin sehirli çırağı"ndan tərcümə edilmiş idiomlardır. Amerika mənşəli idiomların müəyyən hissəsini Amerika bədii ədəbiyyatından alınmış idiomlar təşkil edir. Amerikalı yazışıların əsərlərindən alınmış idiomlar ingilis dilinin lüğət tərkibinə daxil olmuş hal-hazırda da ingilislər tərəfindən geniş istifadə olunur.

Ə D Ə B İ Y Y A T

1. M.Hüseynzadə. Müasir Azərbaycan dili. Bakı, 1954;
2. S.Murtuzayev. M.F.Axundovun komediyalarının frazeologiyası. Azərbaycan EA nəşri, Bakı, 1958.
3. S.Cəfərov. Müasir Azərbaycan dilinin leksikası. ADU nəşri, Bakı, 1958.
4. Müasir Azərbaycan dilində söz birləşmələri. Bakı, 1961.
5. Y.Seyidov. Azərbaycan ədəbi dilində söz birləşmələri. Maarif nəşriyyatı, Bakı,1966.
6. H.Bayramov. Azərbaycan dili frazeologiyasının əsasları. Maarif nəşriyyatı, Bakı, 1978.
7. M.Mirzəliyeva. Türk dilləri frazeologiyasının nəzəri problemləri. Bakı, 1995.
8. ƏşHacıyeva. İngilis və Azərbaycan dilində somatik frazeologizmlərin struktur semantik xüsusiyyətləri. Bakı, Nurlan, 2004.
9. Dünya uşaq ədəbiyyatı kitabxanası: a) C.Məmmədquluzadə, b) Ə.Haqverdiyevin əsərləri. Bakı, Gənclik, 1983.
10. Cənnətin qəbzi Ə.Haqverdiyevin əsərləri: a) Xortdanın cəhənnəm məktubları, b) Odabaşının hekayəsi. Bakı, Azərnəşr, 1986.
11. S.Rəhimov. Seçilmiş əsərləri 4-cü cild. Bakı, Azərnəşr, 1970.
12. S.Rəhimov. Seçimiş əsərləri 5-ci cild. Bakı, Azərnəşr, 1974.
13. G.Hüseynoğlu. Seçilmiş əsərləri 1-ci cild, Bakı, 1993.

АРЗУ МИРЗОЕВА

СОЗДАННАЯ ТАКИМ ОБРАЗОМ СЛОВЕСНЫЕ СОМАТИЧЕСКОЙ ИДИОМЫ НА АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Р Е З Ю М Е

Статья посвящена отражению специфики и особенностей культуры в языке на примере фразеологизмов азербайджанского языков. Темой основного исследования является изучение фразеологических единиц, с точки зрения нахождения правила структурных моделей, их семантических и функциональных особенностей.

В статье так же рассматриваются структурно – семантические особенности фразеологических оборотов и эквиваленты тоже самых фразеологических единиц в Азербайджанском языке.

Основные и ведущие формы, идиоматического выражения, связанные с семантикой являются на одинарными и неповторимые. И в связи с этим их невозможна заменить с другими лингвистическими, семантическими моделями. Идиомы используются в предложениях и контекстах а также они связаны между собой, для их использования требуется отличное знание языка.

В языковой системе идиоматические единицы занимают особое место. Каждое словосочетание в языковой системе вне парадигматической стороны, то есть оцениваются как коммунативные единицы идиоматического корпуса. Каждая идиоматическая единица образуется индивидуально и в таком виде входит в идиоматических состав языка. Идиоматические единицы как часть языка предполагают основные его стороны, особенности.

ARZU MIRZAYEVA

ESTABLISHED IN WAYS VERBAL IDIOMS OF SOMATIC IN AZERBAIJANI LANGUAGE

SUMMARY

The article looks at specifics and characteristics of culture language based on English and Azerbaijani phraseological units. The theme of investigation is the studying of phraseological units in the aspect of finding the rules of their structural modeling. Their semantic and functional peculiarities.

This article deals with the structural-semantic features of phraseological components and their equivalents in Azerbaijan language. The main purpose of the researches is helping English language teachers in grammar teaching process. In teaching lexicology, and in translating from English to Azerbaijanof from Azerbaijan to English. In this regard, learning theoretical and practical features of the

phraseological units and their components make easy to enlarge and to form English-Azerbaijani dictionaries and text books.

The main and leading features of phraseological units are associadet with their peculiar and unique semantics/ It is the reason that it is impossible to substitute them with any non-linguistic semantic models. Phraseologisms are used connected with the sentence, context and are related to them. Using them demands to possess excellent language skills.

The idiomatic units have the special place in the language system. Every word combination is available beyond the paradigmatic features in language system, namely it is assessed as the communicative units of idiomatic corps. Every idiomatic unit is formed individually and includes to the idiomatic content of language in this manner. Idiomatic units contain the main features and characteristics of language as the main part of it.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçilər: filologiya üzrə fəlsəfə doktoru, dosent: Xuraman Məhərrəmova tərəfindən çapa tövsiyə olunmuşdur

VALİDƏ ABIYEVA
AFƏT SƏFIXANOVA
AMU
sefixanovaafet@gmail.com

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSINDƏ ÇALIŞMALARIN TƏTBİQ YOLLARI

Xülasə

Müasir ingilis dilinin öyrədilməsində tapşırıqların və şifahi çalışmaların böyük rolu vardır. Çalışmalar hər hansı bir dilin təlimində müasir metodlara əsaslanır. Ənənəvi təlim metodunun əsasında formaya əsaslanan pedoqogika durur. Çalışmalar əsaslı dil təliminin tapşırıqyönümlü pedaqogikya, ünsiyyətə əsaslanan pedaqogikaya istinad edir. Bundan əlavə, ənənəvi təlim metodlarında dil sadəcə bir obyekt rolunu oynayır. Buradan irəli gəlir ki, müasir təlim metodlarında tələbə məfhumu "dil istifadəçisi" kimi qəbul edilir. Görkəmli metodist R.Ellisin fikrinə görə "dil və tələbə" fərqli xüsusiyyətlərə malikdr. Çalışmalar əsaslı dil təlimi bütün dillərin tədrisində əhəmiyyətli rol oynayır. Bu təlimin əsas məqsədi tələbələrdə xüsusi olaraq sərbəst ünsiyyət formalaşdırmaq və tədris prosesinin tapşırığa əsaslandırmaqdır. Çalışmalar ingilis dilinin tədrisi,öyrənilməsi və mənimsənilməsində xüsusi rola malikdir. Başlıca funksiyası kommunikasiya formalarına əsaslanır. Ənənəvi təlim metodikasında qrammatika da böyük rol oynayır. Bu metodlardan istifadə edən müəllimlər tələbələrdə hər iki vərdişi aşılamaq istəyirlər. Belə ki, tələbələr müəllimlərin köməkliyi ilə tələbələr tədricən kommunikativ bacarıqlara yiyələnirlər. Çalışmalardan tapşırıqlardan istifadə metodu müəllimyönlü deyildir,tələbəyönünlükdür.

Açar sözlər: innovasiya kommunikasiya, metod, dil, nitq.

Müasir zamanda ingilis dili ən geniş yayılmış dildir. Demək olar ki, ingilis dili dünyanın bir çox ölkələrində tədris olunur və danışıq kimi istifadə olunur. Dil fakultələrinin aşağı kurs tələbələrinə çalışmalardan danışarkən, binada tövsiyə edilən rəqəmlər qeyri-ixtisas fakultələrində ingilis dilini öyrənən tələbələr ilə müqayisədə daha yüksək olmalıdır. Ümumiyyətlə, dil fakultələrində təhsil alan tələbələrə tapşırıq verərkən müəllim onları düzgün izah etməlidir. Təlim prosesində keyfiyyət göstəriciləri əhəmiyyətli yer tutur. Müasir dövrümüzdə həm ali, həm də orta təhsil müəssisələrinin əsas məqsədi tənqidi və yaradıcı fikirlərə sahib olan, hər zaman dövrümüzün tələblərinə əsaslanan kadrların yetişdirilməsidir. Çalışmlardan istifadə edərkən qrammatikanı yaddan çıxarmaq olmaz. Dildə qrammatik mənanı analitik mənada ifadə etmək üstünlük təşkil edir. Leksikanı zənginləşdirmək üçün sözlərin mənalarına görə qruplaşması çalışmalarında geniş istifadə olunur. (Wiltis D and Willins I Darif Task- based Teaching Oxford University, 2007/ səh 12-15)

Hazırda ingilis dili dünyada diplomatiya, kommersiya dənizçilik, tibbdə elmi-texniki kütləviinformasiya dili kimi məşhurdur. Bu terminlərlə bağlı tapşırıqlar daha məqsədə uyğun olur. Çalışmalardan istifadə tələbələrdə intellekti daha zənginləşdirir. Tələbələr universitetlərdə ingilis dilindən daha çox istifadə etməlidirlər. Müasir dövrümüzdə təhsil müəssisələrində əsas məqsədi tənqidi və yaradıcı fikirlərə sahib olan, hər zaman dövrümüzün tələblərinə əsaslanan kadrların yetişdirilməsidir. Ali təhsil müəssisələrin də tələbələrin bilik, bacarıq və vərdişləri tapşırıqlar, çalışmalar vasitəsilə möhkəmlətmək olur. Çünki çalışmaların köməyi ilə bu vərdişlər uğurla həyata keçirilir. Ümumiyyətlə, çalışmalar tədris prosesinin ən əhəmiyyətli göstəricisidir. Çalışmaların həll edilməsi tələbələrin həm özlərini, həm də bu tapşırıqlardan əldə edilən biliklərini sınaqdan keçirirlər. Həmçinin, tapşırıqların tətbiq edilməsinin əsas məqsədi təhsilin müvəffəqiyyətli və məhsuldar olmasını təmin etmək eləcədə, tələbələrdə bilik, bacarıq və vərdişləri inkişaf etdirmək üçün əsasən öyrədici əhəmiyyət daşınmasıdır. Ellis tapşırıqlardan istifadə edərək tələbələrin intellektinin yüksəlməsini və tapşırıqların bir neçə etaplara bölünməsini göstərmişdir.

1. Tapşırıqlar sərbəst halda yerinə yetirilir. Hər bir tələbənin öz fərdi bacarıqları öyrənilir.
2. Tapşırıqlarda hər hansı məlum bir kontekstə əsaslanır.
3. Həmçinin müəllimlərin motivasiyası artır.
4. Tələbələrin dil bacarığı, bilikləri möhkəmlənir.
5. Çalışmalar birbaşa kommunikasiyaya xidmət etdiyi halda tapşırıqlar isə kommunikativ olmaya bilər.
6. Çalışmalarda ancaq bir bacarığın səviyyəsi yoxlanıla bilər. Tapşırığın mənası var, həm də məzmunu əsas götürülür. Çalışmalarda forma əsas götürülür. (Yaah E. and Ellis R. The effects of pre task planing" Oxford 2003 p 152, 153) çalışmalar dil təliminin əsas göstəricisi sayılır ki, bu da öyrənmə prosesində mühüm rol oynayır. Çalışmaların özü aşağıdakı növlərə bölünür.

1) Hissələrin birləşdirilməsi bu çalışma növündə hər hansı bir mətnin, hekayənin ayrı-ayrı hissələri tələbələrə çatdırılır. Hər bir informasiya haqqında məlumat verilir.
2) İnformasiya boşlıqları bu tip çalışmalar 2 qrupa bölünür. 1-ci qrupda informasiya yığını, 2-ci də informasiyanın tam özü tam bir şəkildə mövcud olur. Tapşırıqları həll edərək tələbələrdə fikir mübadiləsi əmələ gəlir. Tapşırıqlar əsasında tələbənin biliyi möhkəmlənir.

Dil ilə nitq arasındakı münasibəti zəiflik baxımdan dəqiq müəyyənləşdirmək uzun müddət diqqət mərkəzində olmuşdur.Hamıya məlumdur ki,ingilis dilində şifahi nitqin inkişafında tapşırıqlardan istifadə məqsədə uyğundur.İngilis dili xarici dil olduğu üçün onu tələblərə mütləq şəkildə tapşırıqlar,çalışmalar vasitələri öyrədilir.Çünki bu tələblərə çətin gələbilər,ona görə də bu fənni tədris edən müəllim

ilk növbədə tələbəyə dilin əhəmiyyətli şəkildə aşılaması,fənnə maraq oyatmalıdır.Yeni təlim üsullatı metodları bu işdə aparıcı rol oynayır.Müəllim unutmamalıdır ki,xarici dilin tədrisində əsas məqsəd dil öyrənənlərə dil öyrənənlərlə bu dildə dinləyib anlama vərdişlərinin inkişaf etdirilməsi təmin olunur.Xarici dilin tədrisində tapşırıqlar aşağıdakı modellərlə aparılır.

Dinləyib-anlama

Danışma

Oxu

Yazı

İngilis dilini tədris edən müəllimlər təlim prosesində bu dilin özünəməxsus xüsusiyyətlərinin olduğunu nəzərə almalı,müəyyən məsələləri izah edərkən diqqətli olmalıdır.Ona görə də ingilis dilinin lüğət tərkibinin zənglinliyi,qrammatikası,say sisteminin sadəliyi,formasının demokratikliyi kimi yaxşı xüsusiyyətlərindən başqa,bu dildə böyük çatışmazlıqlar da mövcuddur.İngilis dlinin tələffüz qaydalarını da tapşırıqlar vasitəsilə öyrətmək məqsədəuyğundur.(believe receive,tah doubt)bu kimi tapşırıqlara aiddir.Tədris zamanı müəllim bu kimi məqamlara xüsusi diqqət etməlidir.İngilis dilinin başlıca tələbləri tələbələrin lüğət ehtiyyatlarının genişləndirilməsi,monoloji və dialoji nitq kimi şifahi nitq vərdişlərinin möhkəmləndirilməsidir.Aktiv lüğətə yiyələnməklə bərabər,qrammatika,gündəlik nitq vərdişləri öyrədilir və inkişaf etdirilir.Korporativ iş tipinə üstünlük verilir.Tapşırıqların öyrədilməsi mətnlərinin işlənməsi,sözlərin lüğətlə və ya mənaya uyğun tapılmaqda əsas rol oynayır.Bundan əlavə,sürətli oxu vərdişlərinə yiyələnmək və inkişaf etdirmək,oxu vərdişlərinin möhkəmləndirilməsində şifahi çalışmaların rolu böyükdür.İstənilən xarici dil mətnlərinin dəqiq və hərtərəfli anlaşılmasına nail olunması da fənnin əhatə dairəsindədir.(İngilis səh. 33-35)üslubiyyatının əsasları haqqında məlumat verilir,durğu işarələri,söz,cümlə və cümlələrin düzgün seçilməsi kimi mövzular öyrədilir.Bu mövzular da tapşırıqlar üzərində öyrədilir.Əsasən,ingilis dilinin tədrisində müxtəlif funksional üslublar tapşırıqlar zəminində öyrədilir.Dildə müxtəlif ifadə vasitələri ilə tanışlıq və onların tək nəzəri cəhətdən deyil,həm də praktik təmayüllü tədrisi burada qarşıya qoyulan əsas məqsədlərdən biridir.Tələblərə dilin lüğət tərkibi,söz ehtiyatı əlaqəli şəkildə tələblərə aşılanır.

Tapşırıqları hazırlayarkən şifahi və nitq və yazı vərdişlərinə diqqət etmək lazımdır.Nitqin şifahi və yazılı növləri arasında əlaqə və bağlılıq var.Şifahi və yazılı formalaşmasında fizioloji amillərlə yanaşı,görmə,eşitmə kimi hiss üzvləri iştirak edir.Şifahi nitqin əsas xüsusiyyətləri aşağıdakılardır:

1.Şifahi nitq danışılır və eşidilir.

2.Şifahi nitq leksikasında ümunişlək sözlərə daha çox yer verilir.

3.Şifahi nitqdə cümlələr,əsasən qısa və sadə olur.

4.Şifahi nitqdə danışıq dilin xüsusiyyətləri mühafizə olunur.Şifahi nitqin axını sürətli olur.Bütün bu xüsusiyyətlər tapşırıqlarda öz yerini tapır.Monoji dialoji nitq də əsas götürülərək tapşırıq və çalışmalardan öz əksini tapır.Bu tip çalışmalar tələblərin

2. Qıpçaq M. Söz aləminə səyahət. Bakı: Bakı Universiteti nəşriyyatı, 2002, 242 səh.
3. Məmmədov İ.T. Azərbaycan dilinin semantikası. Bakı: "Xəzər" nəşriyyatı, 2006, 372 səh.
4. Tekin Talat. Karahanlılar dönemi. Türk şiiri. TD, sayı 409. Ocak 1986, s. 81-157.
5. Вешилова В.Ф. Глаголы ввижения в тюркских языках // Исследования по сравнительной грамматике тюркских языков. Ч. II . – Москва, 1962, с. 101-114.
6. Виноградов В.В. Русский язык. Москва – «Высщая школа», 1972, 614 стр.
7. Гумболт В. Язык и философия культуры. Москва: «Прогресс», 1985, 452 стр.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Dürdanə Nağıyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

TƏRANƏ ASLANOVA
fil.f.d., dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
XX əsr (sovet-dövrü) Azərbaycan ədəbiyyatı şöbəsi

taranaibadova@gmail.com

MÜHACİRƏT ƏDƏBİYYATINDA HEKAYƏ JANRI

Xülasə

Məqalə mühacirət ədəbiyyatında yazıb yaratmış həm siyasi, həm də elm xadimi M.B. Məmmədzadənin hekayə janrına həsr olunmuşdur. Yaradıcılığında digər janrlarla yanaşı hekayə janrına geniş yer ayıran müəllif kiçik həcmli hekayələrində insan talelərini, onların müxtəlifliyini, sevinc və kədərini ustalıqla qələmə almışdır. O, hekayələrində doğma xalqının milli istiqlal uğrunda mübarizəsini əks etdirərək onları yaratdığı obrazların dili ilə poetik şəkildə oxucuya çatdırır. Məqalədə xüsusilə qeyd olunur ki, sözün həqiqi mənasında M. B. Məmmədzadə özünü ilk növbədə istiqlal mücahidi sayırdı. Bu baxımdan onun "Vətən qaldı" hekayəsində baş verən hadisələr və yaratdığı baş qəhrəman sanki müəllifin özüdür. Vətən məhəbbətilə, vətən eşqiylə çağlayan baş qəhrəman baş verən bütün hadisələrin önündə gedərək müəllifin istək və arzularını, qələcəyə olan inamını özündə təcəssüm etdirir. Ədib nə edirsə, nə yaradırsa ancaq bu yüksək ideal naminə yaradır. Onun istər mühacirətdən əvvəlki, istər mühacirətdə yazdığı bədii əsərləri onu istedadlı söz ustası, dramaturq, nasir, publisist kimi tanıdır.

Açar sözlər: Cümhuriyyət, müstəgillik, vətən, mübarizlik, xadim, M. B. Məmmədzadə, siyasi, hekayə, qəhrəman, azərbaycançılıq

Milli fikir tariximizdə qüdrətli siyasi publisist, milli ruhlu tarixçi alim, türkoloq və ədəbiyyat tarixçisi kimi tanınan Mirzə Bala Məmmədzadə yaradıcılığının müxtəlif dövrlərində bədii əsərlər də yazmışdır. Onun ədəbi irsindən bəhs edərkən iki dövrü fərqləndirmək lazımdır. Milliyyətçi ədib mühacirətə qədər (1916-1923) sırf bədii əsərlər yazmağa daha artıq təşəbbüs göstərmişdir. Lakin mühacirətdən sonra

onun bədii əsərləri əsasən xatirə ədəbiyyatına məxsusdur ki, bu da bədii publisistika hesab olunur.

Mühacirətdən sonra Mirzə Bala qismən bədii əsərlər yazsa da, əsasən elmi-siyasi fəaliyyətlə məşğul olmuşdur. Bununla belə, onun istər mühacirətdən əvvəlki, istər mühacirətdə yazdığı bədii əsərlər onu istedadlı söz ustası, maraqlı müşahidə və düşüncələri olan dramaturq, şair, nasir, hekayəçi və publisist kimi tanıdır. Odur ki, M.B.Məmmədzadənin yaradıcı fəaliyyətini onun ədəbi-bədii yaradıcılığından kənarda təsəvvür etmək qeyri-mümkündür.

Ədibin 1930-cu illərə qədər yazdığı bədii əsərlər əsasən üç janrdadır: dram, şeir və hekayə. Aprel istilasından sonra Mirzə Bala bu janrlardan yalnız dram janrina müraciət etmir, çünki siyasi hadisələrin coşğun burulğanı onu ağuşuna götürüb aparır və siyasi problematikası onun bütün varlığına hakim kəsilirdi. M.Ə.Rəsulzadə kimi M.B.Məmmədzadə də yeri gəldikcə şeir yazmışdır. Bu şeirlərin bir qismi ədibin iştirak etdiyi mühacir dərgi və qəzetlərində, digər qismi Türkiyədə 1920-1930-cu illərdə çıxmış ədəbi məcmuə və toplularda nəşr olunmuşdur.

Ədəbi nəşrlər çap etmək, dünya ədəbiyyatından tərcümələr etmək niyyətlərini elan edən «Yaşıl qələm»in idarə heyətinə seçilən beş nəfərdən biri də Mirzə Bala Məmmədzadə idi. Onunla yanaşı Seyid Hüseyn Sadıq (sədr), Məhəmməd Ağaoğlu, Əli Yusif, Hənəfi Zeynallı da idarə heyətinə seçilmişdilər. İlk professional yazıçı təşkilatı olan ”Yaşıl qələm “ in rəhbərliyində gənc ədəbi qüvvələrə üstünlük verildiyi aşkar görünür.

Bəlkə də buna görə inqilabi epoxanın bədii təzahürü diqqətəlayiq bir hadisədir. Çünki belə zamanlarda gənclik həmişə öndə olur, xarüqələr göstərir, millətin ideallarını və əqidəsini təmsil etməyi daha fəal bacarır.

Bədii əsərlərin yaradılması baxımından 27 aprelə qədərki yaradıcılıq dövrü axtarış illəri sayılsa da, yorulmaz və çoxşaxəli fəaliyyəti ilə Mirzə Bala Demokratik Respublika ərəfəsinin və dövrünün milli gənclər hərəkatı baxımından tarixi işlər görmüş və yəqin ki, bununla Məmməd Əmin Rəsulzadənin diqqətini cəlb etmişdi. Güman ki, elə bunun nəticəsində o gənc müsavatçılar hərəkatının liderliyinə Cümhuriyyət rəhbərliyi tərəfindən tövsiyyə olundu. Məhz bu hadisədən sonra cavan ədibin sırf bədii yaradıcılığa meyli nisbətən zəifləyir və onun istifadə etdiyi əsas janr bədii publisistika, əsas mövzusu isə Demokratik Respublikanın tarixi olur.

Mirzə Bala Məmmədzadənin 27 aprel istilasından sonrakı yaradıcılığini üç dövrə bolmək mümkündür. Belə ki, 20-ci illərdə o əsasən milli mətbuatın və Demokratik Respublikanın tarixi ilə, 30-cu illərdə bütövlükdə Milli hərəkatın tarixi ilə, İkinci Dünya müharibəsindən sonra isə ədəbiyyatşünas, folklorçu və türkoloq kimi coşğun elmi fəaliyyətlə məşğul olmuşdur.

Mirzə Bala Məmmədzadənin ilk mətbu bədii nəsr əsəri sayılan kiçik həcmli «Əksinqilabçılar» hekayəsinin mövzusu da bu baxımdan çox simvolikdir, sanki onun bütün gələcək bədii nəsrinin ideya istiqamətinə işıq salır. Bu nümunə onun 1918-ci ilin mart qırğınından sonra bir neçə ay Tiflisdə yaşadığı gərgin hadisələrə təsadüf

edir. O, Tiflisdəki həmfikirləri ilə buraxdığı «Gənclər yurdu» jurnalını da 1918-ci il iyunun 28-də – Demokratik respublika elan ediləndən düz iki ay sonra cap etdirdi. Hekayə də elə Mirzə Balalanın redaktoru olduğu bu jurnalın birinci sayında çıxdı. Hekayə siyasi mövzuda idi – Demokratik respublikanın buxovlarına qarşı yazılmışdı. Beləliklə, istiqlalçı ədib ilk bədii nəsr əsərini də istiqlal mövzusuna, Azərbaycan xalqının demokratik ideallarına həsr etmişdi.

Elmi ədəbiyyatda nəsr anlayışı çox geniş qoyulur. Bəzən publisistika ilə nəsrin sərhədləri mübahisə doğursa da, bir cəhət elmi ədəbiyyatda şübhəsiz qəbul edilir: bədii publisistika konkret faktlara əsaslansa da, həyatı əks etməkdə, göstərməkdə bədii yaradıcılığa xas olan obrazlılıq prinsipindən istifadə edir. Nəticədə oxucuya faktın özü yox, onun yaradıcı qələmdən və fantaziyadan keçən bədii obrazı çatdırılmış olur.

Mirzə Bala Məmmədzadənin hekayələri də, bədii publisistikası da eyni yaradıcılıq qanunauyğunluğu əsasında yaradılır. Bunların hamısının əsasında milli istiqlal hərəkatının, Demokratik Respublikanın xadimlərinin, milli ordu zabitlərinin və döyüşçülərinin taleyi durur. İlk Cümhuriyyətin sadə və vəzifəli şəxslərinin öz əqidələri yolunda rast gəldikləri çətinliklər, məruz qaldıqları həbslər, zülmlər, sürgünlər Azərbaycan ədəbiyyatında boş qalmış mövzular ağ ləkələr kimi qalır. M.Ə.Rəsulzadənin qeyd etdiyi kimi, Demokratik respublikanın çökməsi və dağıdılması ilə öz taleyini bu quruma həsr etmiş bütöv bir vətənpərvərlər nəslinin həyatı qırılmış, qanı axıdılmış, cavan canları qurban verilmişdir.

Azərbaycan ədəbiyyatında bu mövzunun yeganə təmsilçisi öz gizli imzalarından birini «Daşdəmir» adlandıran M.B.Məmmədzadə olmuşdur. Məhz onun ədəbiyyatımızın qızıl fonduna layiq olan bu mövzudakı hekayələri, bədii oçerkləri, xatirələri Demokratik respublika dövründə ərsəyə gəlmiş istiqlalçı və milliyyətçi nəslin obrazlarını və qəhrəmanlığını sonrakı nəsillərə ötürür. Böyüməkdə olan nəslin Azərbaycanın milli mübarizələri ruhunda tərbiyə etmək, vətənin azadlığı və istiqlalı yolunda canını və qanını fəda etmiş milli qəhrəmanlarımızın nümunəsi elmimizin əxlaq xəzinəsinin inciləridir.

Belə nümunələrin bir neçəsini – «Vətən qaldı», «On dəfə öldürülən», «32-lərin dastanı» kimi nümunələri Mirzə Bala Məmmədzadə İrana mühacirət edəndən sonra yazmışdır. XI ordu və onun çekasının təhdid və təhlükələri ilə üzləşən ədib 27 aprel istilasından sonra 1923-cü ilə qədər qırmızı terror şəraitində gedən hadisələri, amansız həbs və qətlləri xatırlayır və bunları qələmə almaya bilmirdi.

M.B.Məmmədzadə bu mövzuları işləyən zaman öz inam və əqidəsinə əsaslanırdı: Demokratik Respublikanın əsasını qoyduğu işi, qaldırdığı bayrağı gələcək nəsillərin mütləq davam etdirəcəyinə inanırdı. Ədibin hekayə və oçerkləri məhz bu inamı qoruyub yaşatmaq, sonrakı nəsillərə çatdırmaq üçün qələmə alınmışdı. Eyni zamanda bu əsərlər M.B.Məmmədzadənin canından çox sevdiyi vətənin tarixi kimi qiymətli idi, ədibə görə bu tarixin ən şərəfli, ən örnək səhifələri idi və ədib bunları əbədiləşdirməklə tarixi bir xidmət göstərdiyini anlayır və duyurdu.

Bu yazılarda gələcək nəsillərə, Azərbaycan gəncliyinə aid olan müraciətlərin sıxlığı ədibin öz gördüyü işlərin əhəmiyyətini necə anladığını göstərməkdədir.

M.B.Məmmədzadə üçün milli məktəblər, milli ədəbiyyat, teatr və incəsənət, qabaqcıl Avropa xalqları içərisində mövqe – bir sözlə hər şey müqəddəs vətənin istiqlalına bağlı idi. Bu istiqlal uğrunda mücadiləni, qanından keçməyi, şəhid olmağı ədib hər bir yurdsevər insanın ali borcu, mənəvi vəzifəsi sayırdı. İstiqlalsız, milli dövlətsiz mövcud olan xalqı – saxta bir həyatla yaşayan insanlar yığnağı sayırdı.

M.B.Məmmədzadənin oçerkləri əks etdirdiyi konkret, canlı həyat faktlarına müvafiq olan sadə, yığcam üslubdadır. Həyat həqiqətinə, faktlara, konkret insan talelərinin həqiqətlərinə sadiq qalmaq, onları ümumiləşdirmək və vətənsevərlik hissiyyatları ilə yoğurmaq ədibin yazı tərzinə xas olan ümdə məziyyətlərdir. Məsələn, «Vətən qaldı» ideya-bədii xüsusiyyətlərinə görə diqqəti çəkən bir nümunədir.

Hekayə bilavasitə birinci şəxsin dilindən nəql edilir. Detallardan sezilir ki, bu elə Mirzə Bala Məmmədzadənin özüdür.

İlk baxışda iki mühacirin şikayət və ah-vay dolu söhbəti kimi diqqəti cəlb edən bu dialoqda böyük bir məna vardır. Bu mənanı duymaq və anlamaq üçün buradakı şəxs adlarına dəqqət yetirmək kifayetdir. Məsələn Fətəli Xan Xoyski Demokratik Respublikanın birinci hökumətinin sədri olmuwdur. Nəsib bəy Yusifbəyli Müsavat partiyasını yaradan və Milli hökumətə rəhbərlik edən ən mətin millətçilərdən biri idi. Süleyman Paşa Türk islam ordusunun o qism generallarından idi ki, ordu Azərbaycandan gedəndə Milli orduda qalıb XI qızıl orduya qarşı müqaviməti təşkil etmişdi. Digər adlar da Milli ordunun yüksək komandir heyətinə aid tarixi şəxsiyyətlərdir. Bu adların içində bir nəfər də olsun uydurma şəxsiyyət yoxdur. Onların adları da hekayədə əbəs yerə, təsadüfən çəkilmir. Beləliklə, müəllif bədii formada Demokratik Respublikanın tarixindəki qanlı terrorun gedişinə diqqəti cəlb edir.

M.B.Məmmədzadənin «Vətən qaldı» hekayəsi şəhid edilmiş onlarla milli hərəkat və hökumət liderlərinin xatirəsini əbədiləşdirən nadir ədəbi nümunələrdən biridir. Ədib hərbçilərin taleyinə görə xüsusilə narahat və göynəkli idi, çünki məhz onları, nizami və qüvvətli bir ordunu milli dövlətçiliyin və istiqlalın dayağı sayırdı. Hakimiyyətin təhvil verildiyi son parlament müzakirələrində M.Ə.Rəsulzadə başda olmaqla vətənpərvər müsavatçılar dəstəsi XI Ordunun Azərbaycana gəlişinə etiraz etmişdilər. Sonra isə milli ordunun parlamentin təslimçi qərarı ilə razılaşmayan komandirləri müqavimətə üstünlük vermişdilər. XI ordu məhz onlara ilk növbədə qanlı divan tuturdu.

M.B.Məmmədzadənin rəğbəti də mübariz hərbçilərə, Gəncədə, Zaqatalada, Cənub zonasında istilaya müqavimət göstərən Milli ordu hissələrinə idi. General Səlimovlara, general Haşım bəylərə, Süleyman paşalara yazıçının rəğbəti də buradan gəlirdi. Axı ordu millətin qılıncıdır, onu müdafiə edən qalxandır. Digər

tərəfdən isə yazıçı qanlı mübarizəsiz istiqlala inanmırdı və bütün varlığı ilə ümid edirdi ki, bolşeviklərin Azərbaycanda qurduqları rejim uzun sürməyəcək və mütləq süqut edəcəkdir. Elə ordu generalları və hərbi mütəxəssislər də bu zaman gərək olacaqdılar. Ədib həqiqi əqidə və vətən mücahidi kimi böyük ümid və planlarla yaşayan nikbin bir mübariz idi.

Mirzə Balanın maraqlı xatirə oçerklərindən biri də «32-lərin dastanı adlanır. Bu əsər istiqlal bədii publisistikası tarixində milli qüvvələrin qırmızı rus istilasına qarşı müqavimət hərəkatının şanlı səhifələrinə həsr olunmuş qiymətli nümunələr sırasında durmaqdadır. Rəsmi sovet tarixşünaslığı bütün vasitələrlə tarixi saxtalaşdırmağa, aprel istilasına qarşı bütün müqavimət faktlarını pərdələməyə, çalışırdı. O zaman Bərdə, Tərtər, Ağdam, Şuşa, Qaryagin, Gəncə qiyamlarının guya Nuru paşanın təhriki nəticəsində ortaya gəldiyini iddia edirdilər.

Belə saxtakarlıq hallarından, istiqlal mübarizələrinin tarixini ləkələmək təşəbbüslərindən xəbərdar olan M.B.Məmmədzadə bədii publisistikanın imkanlarından istifadə edərək xalqın tarixinin şanlı qəhrəmanlıq səhifələrinə kölgə və ləkə gətirən iftiralara tutarlı cavab verməyə çalışır. «32-lərin dastanı»nda da müəllifin əsas bədii niyyəti istiqlalçı müsavat hərəkatının yetirdiyi vətənpərvər Azərbaycan döyüşçülərinin bədii obrazını yaratmağa və xalqın bədii yaddaşına həmişəlik həkk etməyə çalışırdı. Sözü gedən bədii niyyət təsadüfi sayıla bilməzdi. Çünki mühacirətdə olsa da M.B.Məmmədzadə M.Ə.Rəsulzadə ilə yanaşı hərəkatın tarixini yazır, onun məğlubiyyətinin səbəbləri üzərində rahatlıq bilmədən baş sındırır, axtarışlar aparırdı.

Sözü gedən dastandakı hadisələri 1935-ci ilə çatdıran istiqlalçı ədib bu qənaətə gəlmişdi ki, Demokratik Respublikanın məhv edilməsi, qanlı rus çəkmələri altında əzilməsi zamanı ən böyük qurbanları, ən ağır zərbəni yeyənlər hərəkatın sıravi üzvləri, xüsusilə Milli Ordunun sıravi əsgərləri və zabitləri olmuşdu. Bu əsəri oxuyan hər kəs aydın şəkildə dərk edirdi ki, əgər qırmızı istilaya müqavimətdən söhbət gedirsə, bu müqavimətin əsas qüvvəsi yeni «ağalara», bolşevik cildindəki rus imperializminə tabe olmaq istəməyən milli ordu tərkibindəki vətənpərvər və cəsur Azərbaycan əsgərləri olmuşdu.

«32-lərin dastanı»nda Mirzə Bala məhz vətən, milli dövlət, xalqın müstəqilliyi üçün şüurlu ölümə gedən, bolşevik qoşunları ilə qeyri-bərabər döyüşə girən sadə əsgərlərin və cavan zabitlərin qəhrəmanlığını tərənnüm edir. Onlar qırmızı istilaya qarşı qəhrəmancasına müqavimət göstərmiş Milli Ordunun Şəki süvari alayından idilər. Bu alay qırmızı istilaçılara qarşı müqavimət hərəkatının tarixinə şanlı səhifələr yazmışdır. 1920-ci il mayın 21-də Tərtərə Milli ordu hissələrinin yerini tutmağa gələn Qızıl Ordunun 282-ci alayı Şəki süvari alayının atlarını götürmək istərkən əsgərlərin silahlı müqavimətinə rast gəlmişdi. Süvari alayı qırmızı ordunun 282-ci alayının əsgərlərinin çoxunu qırıb darmadağın etdi. Qızıl Ordu işğalçıları heç yerdə Şəki süvari alayından gördükləri sərt müqaviməti və hərbi məharəti görməmişdilər. XI Qizil Ordu komandanlığı Şəki alayını qan içində

boğmaq üçün tədbirlər görmüşdü. Qəhrəman süvarilərə Yevlaxa getmək əmri verildi. Yolda Gəncədəki qiyamdan xəbər tutan alayın komandiri Ehsan xan Naxçıvanski məlumatı dəqiqləşdirmək üçün kiçik bir dəstə ilə Yevlaxa tələsdi. Lakin qızıl ordunun əlinə keçdi, onu qərargaha gətirib dəstəsi ilə birgə güllələdilər.

Alayın əsgərləri tələyə düşdüklərini və Qızıl Ordu cəlladlarının onları pusduğunu duyanda dağılışmağa başladılar. M.B. Məmmədzadə yazırdı: Məşhur otuzikilər – İmam Hüseynin 72 silahdaşı kimi şüurlu surətdə döyüş mövqeyində qalıb vətənin müstəqilliyi yolunda, rus istilaçılarına müqavimət cəbhəsində ölümə razı olduqlarını elan etdilər və Bərdəyə tərəf çəkilib yerli partizanlarla birləşdilər. Nəticədə vətənin şərəfinin mərd müdafiəçiləri XI Qizl Ordunun Qarabağın içərilərinə doğru irəliləyişini xeyli yubatdılar, istilaçı orduya layiqli müqavimət göstərdilər. Yalnız işğalçıların komandanlığı Bərdəni təyyarələrdən bombalayacaqlarını bildirəndə şəhərin müdafiəçiləri Qarabağın şəhərlərinə tərəf çəkildilər.

XI Qizil Ordunun Bərdəni tutmaq üçün bütün həmlələri milli ordu əsgərlərinin dəqiq atəşi və mətin müqaviməti nəticəsində boşa çıxdı. M.B.Məmmədzadə bu oçerkdə bədii sözün gücü ilə göstərirdi ki, Milli Ordu müvafiq müdafiə tədbirləri görüldüyü, sərrast komandanlıq təmin edildiyi halda işğalçılara müqavimət göstərə bilərdi. Otuz ikilərin bir hissəsi Qarabağda rus qoşunlarının mühasirəsini yarıb İrana keçdi, istiqlal mübarizəsinin bu qəhrəman səhifəsinin xalqın yaddaşında və bədii fikri tarixində həmişəlik qalmasını təmin etdilər. Onların biri mühacirət mətbuatında bu barədə qiymətli xatirələrini də çap etdirmişdir. İstiqlalçı ədib bir sıra detalları məhz bu xatirədən götürdüyünü qeyd edir.

M.B.Məmmədzadənin nəsrində lirika, təbiət təsvirləri, sentimentallıq kimi üslubi əlamətlər demək olar ki, yoxdur. Bu isə heç də təsadüfi və ya yazıçı istedadının məhdudluğu və tərəfliyi kimi qiymətləndirilə bilməz. Ədibin nəsrinin üslubu onun bir qələm sahibi kimi yaradıcılıq prosesi qarşısında qoyduğu ali məqsədlə, yazıçı qayəsinin səciyyəsi ilə səciyyələnməkdədir. Sözün həqiqi mənasında M.B.Məmmədzadə özünü ilk növbədə istiqlal mücahidi sayırdı. Azadlıq ideallarına, bir gün Müstəqil Azərbaycan dövləti qurmaq arzularına xidmət onun bütün varlığına hakim idi. Ədib nə edirdisə, nə yazırdısa, ancaq bu yüksək ideal naminə yazırdı. M.B.Məmmədzadə nəsri də bu baxımdan istisna deyil. Ədib yazıçılığı, qəzetçiliyi, jurnalistikanı özünün istiqlal hərəkatında iştirakının bir şəkli və üsulu sayırdı.Dünya xalqlarının ədəbiyyatında bu nadir hadisə və ya istisna deyil. Bütün milli hüquqlar, istiqlal, milli dövlətçilik uğrunda mübarizə edən xalqlarda belə mübarizə ədəbiyyatı nümunələri olmuşdur. Mirzə Balanın nəsri də Azərbaycan istiqlal ədəbiyyatının inciləri sayıla bilər. O, doğma xalqının milli istiqlal uğrunda mübarizəsini bir tarixçi, firqəçi-müsavatçı, alim kimi yazmaqla kifayətlənmir, xalqımızın zəka xəzinəsi olan bu tarixi bədii obrazlar şəklində də ümumiləşdirib canlandırmağa çalışır, milli hərəkat tarixinin bədii salnaməçisi kimi də xidmətlərini əsirgəmirdi. Onun qələmindən çıxan «Otuz bir mart», «Muğanın qurtuluşu», «Çingiz

övladları» , «Kommunistlər və istila (istila xatirələri)», «İstiqlal zəfərinin dastanı» və s. bu qəbildən olan bədii oçerkləri fikir siqlətinə, bədii təsirinə, təsvir etdiyi həyat materiallarının ədəbiyyat tariximizdə az işlənməsi baxımından xüsusilə qiymətlidir ve özünəməxsus bədii əhəmiyyət kəsb edir.

İstifadə olunmuş ədəbiyyat

1. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsinin tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
2. Əlizadə M. Tarixin dərin qatlarına doğru // Azərbaycan, 1993, s. 129
3. Həsənova Aygün. XX əsrin birinci yarısında Azərbaycan mühacirləri. Bakı: "Bilik" nəşr-tı,1992, 165 s.
4. Nəbiyev Bəkir. Didərgin şair. Bakı: Yeni Nəşrlər evi, 2005, 119 s.
5. Rüstəmli Asif. Milli mətbuatımızın cəfakeş tədqiqatçısı // Ədəbiyyat qəzeti, 2004, 10 dekabr.

РЕЗЮМЕ
ЖАНР РАССКАЗА В ЭМИГРАЦИОННОЙ ЛИТЕРАТУРЕ

В статье анализируются рассказы писателя, политического и научного деятеля М.Б. Мамедзаде.

Автор в своем творчестве наряду с другими жанрами предоставил особое место жанру рассказа. В своих небольших рассказах он умело написал о людях, об их разнообразии, о радости и гордости своих героев. Он в своих рассказах подлинно отражает свою борьбу за национальную независимость и поэтично переводит их на язык читателей. В статье упоминается, что М.Б. Мамедзаде считал себя в первую очередь "моджахедом" за независимость. С этой точки зрения события, с произошедшие с главным героем в рассказе "Беда на родине" рассматривается как реальность, как будто это происходил с самим автором. Герой выступает в авангарде всех событий. Любовь к родине, сильное душевное волнение, трепетное отношение к родине отражает жажда свободы и уверенность автора в завтрашнем дне.

Все литературное наследие автора свидетельствует о том, что он талантливый писатель, драматург, издатель и публицист.

SUMMARY
THE STORY GENRE IN EMIGRATION LITERATURE

The research article was written and dedicated to the genre of the story in the literary creativity of political and scientific figure of M.B. Mammadzade. Along with other literary genres, the author, who has given a vast space to the genre of short stories, has skillfully developed human tales, their diversity, joy and sadness in his small-volume stories. In his stories he exposes his struggle for national independence and poetically translates them into the reader's language. The article emphasizes that M.B. Mammadzade considered himself primarily as an independence soldier. For that reason, the events that took place in his novel under the name "Trouble in the Homeland" and its main hero was composed as if it were the personally author himself. The strong homeland passion of the hero, and his love of native nation, in front of all events, reflects the author's wishes and desires and his confidence for the future.

All literary creativity of the author represents him as a talented and competent short story writer, playwright, publisher, and polemicist.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur

MƏLAHƏT SOLTAN QIZI QƏDIROVA
Filologiya üzrə fəlsəfə doktoru
Memarlıq və İnşaat Universitetinin nəzdində
İnşaat kolleci, Bakı, Azərbaycan
e-mail: melahet.soltanqizi@gmail.com

XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ BELARUS ƏDƏBİYYATI AZƏRBAYCANDA

.

Xülasə

Məqalədə XX əsrin 50-60-cı illərində Belarus ədəbiyyatının Azərbaycan dilinə tərcümə olunan nümunələrindən danışılır. İkinci Dünya Müharibəsində müharibə məkanlarından olan Belarusiya bütün çətinliklərə rağmən diğər ittifaqdaxili respublikalarla yanaşı Azərbaycan Respubikası ilə də ədəbi əlaqələri davam etdirmişdir.

XX əsrin 50-60-cı illərində Belarus ədəbiyyatının tanınmış yazıçı və şairlərindən Yanka Kupala, Pavel Nikiforoviç Kovalyov, Kastus Kireyenko, Arkadi Kuleşov, Fransişek Boquşeviç, Valentina Xamçuk, Petrus Ustinoviç Brovka və Yakub Kolasın yaradıcılığından dəyərli ədəbi nümunələr tərcümə olunaraq Azərbaycan mətbuatında çap olunmuşdur.

Ədəbi əlaqələrin müxtəlif formaları arasında birinci dərəcəli həlledici və aparıcı amil, şübhəsiz, bədii tərcümədir.

Sovetlər İttifaqı dövründə İttifaq daxilindəki Respublikalar arasında həm iqtisadi, həm mədəni, həm də ədəbi əlaqələr çox six inkişaf etmişdi.Xarici ölkələrdəki oxucuların sovet ədəbiyyatına marağı hədsiz idi.Sovet ədəbiyyatı bütün dünya xalqlarının ədəbiyyatına, poeziyasına təsir göstərmək qüdrəti qazanmışdır. Çünki SSRİ-nin tərkibinə daxil olan xalqlar öz milli məziyyətlərini inkişaf etdirməklə yanaşı, başqa xalqların mədəni nailiyyətlərinə də biganə qalmamışdır.

Açar sözlər: müstəqillik, ədəbi əlaqələr, tərcümə,poeziya, nəsr, yazıçı, dünya mədəniyyəti.

Böyük Vətən Müharibəsinin qanlı-qadalı illərindən böyük zərbələr almış Belarusiya əsas müharibə zonalarından biri omuşdur. Faşızmın amansız işgəncələrinə məruz qalan belaruslar üzün bir zaman içərisində xalqa dəyən maddi və mənəvi zərbələrin acısını yaşasa da, bu xalq müharibədən qalibiyyətlə çıxmışdı.Elə buna görə də xalq dağıntılara məruz qalmış şəhərin yenidən bərpası üçün var qüvvəsi ilə çalışırdı.Müharibə eyni zamanda Belarus mədəniyyət incilərinin—kitabxanaların, qədim tarixi abidələrin, məktəblərin, böyük təhsil ocaqlarının dağıntısına da səbəb olmuşdu. Az müddət ərzində bu mədəniyyət ocaqlarının bərpası mümkün olmasa da,

xalq tədricən yerlə-yeksan olmuş şəhəri yenidən qurmağa calışırdı.Böyük Vətən Müharibəsi SSRİ-nin tərkibinə daxil olan ölkələrin demək olar ki, hamısına bu və ya digər dərəcədə maddi və mənəvi ziyan vursa da, Belarusiya bu müharibədən daha çox zərbə almışdı.Cünki Belarusiyada müharibə dövründə yüzlərlə ailə bütövlükdə faşizmin işgəncələrinə məruz qalaraq diri-diri yandırılmış, qadınlar, uşaqlar müxtəlif işgəncələrlə öldürülmüşdü. "Xatın" adlı kənd bütün dünya bəşəriyyətinə məlum olan yandırılan kəndlərdəndir.

Müharibə istər-istəməz Azərbaycan-Belarus ədəbi əlaqələrinin zəifləməsinə də səbəb olmuşdu. Azərbaycanın bir qrup şair və yazıçıları əllərində silah birbaşa düşmənə qarşı döyüşür, digərləri isə mütəmadi olaraq cəbhələrə gedib, əsgərlərin yanında olub, hərbi müxbir kimi müharibə iştiraçıları haqqında həm bədii, həm də publisistik yazıları ilə müntəzəm olaraq mətbuatda çıxış edirdilər. Azərbaycanın tanınmış şair və yazıçıları— Hüseyn Arif, Nəbi Xəzri, Hüseyn Abbaszadə, Əbülhəsən Ələkbərzadə,Ənvər Əlibəyli, Bayram Bayramov, İsmayıl Şıxlı, Böyükağa Qasımzadə, İslam Səfərli, Zeynal Cabbarzadə Böyük Vətən Müharibəsi (1941-1945) illərində çox ağır döyüş yolu keçib. Səməd Vurğun,Süleyman Rüstəm,Osman Sarıvəlli, Məmməd Rahim, Rəsul Rza, Əli Vəliyev,İlyas Əfəndiyev kimi xalq yazıçı və şairləri daim cəbhənin müxtəlif bölgələrində, döyüşən əsgərlərin yanında olmuşdular. Yazıçı İsmayıl Şıxlının cəbhədə döyüşərkən yazdığı "Cəbhə gündəlikləri", Hüseyn Abbaszadənin II Dünya Müharibəsinin qəhrəmanlarından olan general Həzi Aslanova həsr etdiyi "General" romanı müharibənin qanlı-qadalı illərini bütün çılpaqlığı ilə özündə əks etdirir.Müharibə illərində S.Vurğunun "Ananın öyüdü",S.Rüstəmin "Ana və poçtalyon", "Gün o gün olsun ki", R.Rzanın "İntiqam" kimi şeirləri dillər əzbəri olmuşdur.

SSRİ-nin tərkibinə daxil olan respublikalar müharibə illərində yumruq kimi birləşib faşızmə qalib gəldilər və bu müharibə həmin və sonrakı dövrlər üçün ədəbiyyatda əsas aparıcı mövzulardan biri olaraq həm poeziyada, həm də nəsrdə yeni-yeni əsərlərin yaranmasına səbəb oldu.

XX əsrin ikinci yarısında Belarus yazıçılarının yaradıcılığında da müharibə mövzusu başlıca yer tuturdu. Roman janrında epik meyllərin güclənməsi M.Lınkovun "Unudulmaz günlər"(1948-1958) tetralogiyası və İ.Melejin "Minsk istiqaməti"(1949-1952) romanında öz əksini tapmışdır. 50-ci illərin ortaları, 60-cı illər Belarus ədəbiyyatında qəhrəmanlıq, mənəvi seçim, insanın şərə qarşı çıxa bilməsi mövzuları R.Borodulin,Q.Buravkin,V.Korotkeviç və V.Bıkovun yaradıcılığında geniş yer tuturdu.

XX əsrin 50-ci illərində Azərbaycan-Belarus ədəbi əlaqələri xeyli genişlənmişdi. Azərbaycan və Belarusiya ədəbiyyatında və mədəniyyətində baş verən hər bir yeni hadisə qarşılıqlı olaraq hər iki ölkənin mətbuatında işıqlandırılır, Azərbaycan ədəbiyyatının gözəl nümunələri Belarus dilinə, Belarus ədəbiyyatının dəyərli nümunələri Azərbaycan dilinə tərcümə olunaraq nəşriyyatlarda geniş tirajlarla çap olunurdu.

1950-ci ildə Abram Plavnikin "Azərnəşr" də rus dilində "Şeirlər" adlı 93 səhifədən ibarət kitabı nəşr olunmuşdur.

1951-ci ildə Uşaqgəncnəşr nəşriyyatında Y.Məmmədovun redaktorluğu və İsmayıl Şıxlının tərcüməsində Belarus yazıçısı Pavel Nikiforoviç Kovalyovun "Andreyka" adlı kitabı çap olunmuşdur. Kitaba müəllifin eyni adlı povesti daxil edilmişdir Əsərdə Böyük Vətən müharibəsi illərində Belarus xalqının sadə nümayəndələrinin faşistlərə qarşı mübarizədə partizan dəstələrinə köməyindən danışılır (1,50).

1952 -ci ildə Belorusiya SSR-nın Xalq şairi Yanka Kupalanın Azərbaycanda Uşaq Gənclər Nəşriyyatında şair Mirmehdi Seyidzadənin tərcüməsində uşaqlar üçün yazılmış şeirlərdən ibarət " Uşaq və təyyarəçi" adlı 16 səhifədən ibarət kitabı çap olunmuşdur.

1954- cü ildə Belarus şairi Kastus Kireyenkonun "Uşaqgəncnəşr" nəşriyyat evində şair Osman Sarıvəllinin redaktorluğu və Ə.Abasovun tərcüməsində "Alyonkanın məktəbi"adlı kitabı dərc olunub. Kitaba müəllifin eyni adlı poeması daxil edilmişdir (2,45).

1956-cı ildə ADU- nun nəşriyyatında ədəbiyyatşünas Pənah Xəlilovun tərtibatı və Süleyman Rüstəmin tərcüməsində "SSRİ xalqları ədəbiyyatı müntəxəbatı" kitabı çap olunub.Kitabda Belorus ədəbiyyatının görkəmli nümayəndələri Fransişek Boquşeviç (1840-1900),Yanka Kupala (1882-1942) və Yakub Kolasın (1882-1956) həyat və yaradıcılığı haqqında da məlumat verilmişdir. Müntəxəbatda Fransişek Baquşeviçin "Mənim daxmam","Kəndli qarğadan axmaqdır", "Allah bərabər bölmür" şeirləri dərc olunmuşdur. Müntəxəbatda Yanka Kupalanın həyat və yaradıcılığı haqqında qısa məlumatdan sonra şairin "Kəndli"(1905), "Yenə bahar olacaq"(1908), "Bütün xalq ilə", "Ana oğlunu yola saldı"(1934),"Kətan"(1935), "Yollar"(1939),"Ömrümüzü sevinclə qarşılayırıq hər gün"(1939),"Uşaq və pilot"(1935) adlı şeirləri yer almışdır.

Kitabda Yakub Kolasın "Kəndxuda" (1908), "Sosyalist" (1908), "Bunt" (1907),"Vasil Çurila" (1908) adlı hekayələri, "Düşmənlərə" (1906), "İnanmayın" (1907),"Biz qalib gələcəyik" (1908), "Kəndli" (1909), "Nəğməkara"(1910),"Əmək olsun"(1917), "Komsomolçulara"(1935),"Yeni torpaqda"(1938) adlı şeirləri dərc olunmuşdur**.** (3,69-104)

1957-ci ildə Belorusiyada Belarus xalq şairi Yanka Kupalanın anadan olmasının 75 illiyi münasibətilə böyük tədbir keçirilir.Bu münasibətlə şairin "Xalqım var olsun", "Kolxozçu nəğməsi" və "İnam"adlı şeirləri B.Qasımzadənin tərcüməsində həmin ildə Azərbaycan"jurnalının 07-ci sayında dərc olunmuşdur. "Xalqım var olsun" şeirində şair həmişə xalqının ən xoş və ən kədərli günlərini qələmə aldığını qeyd edir və inamla vurğulayır ki, vətənimin xoşbəxt gələcəyi var. Şair yeni quruluşu təqdir edir, artıq bütün zülmət dünyası arxada qalmışdır.

İllərlə ömrümü əzib çürütdü.
Min bir böhtan dolu zülmət dünyası

Bu günsə bir yeni aləmdəyəm mən
Açıqdır, aydındır onun səması.
Bu gün mən elə bir aləmdəyəm ki,
Başımdan çiçəklər, güllər tökülür,
Baxdıca qurduğum yeni dövrana
Qəlbim də, ruhum da, nəğməm də gülür.(4,168-169)

"Kolxozçu nəğməsi"adlı şeirində şair kolxoz tarlalarında çalışan əməksevər insanlardan yazır. Müxtəlif növ texnikaların tarlalara yol almasından danışır.Artıq xışa,kotana ehtiyac olmadığını, traktorların ucsuz-bucaqsız tarlalara səs saldığını, kolxozçuların min bir zəhmət bahasına gördüyü işlərin artıq traktorlara həvalə olunduğundan yazır. Sonda isə daha bol məhsul əldə edən kolxozçu bundan çox sevinir.

Y.Kupalanın "İnam"adlı şeirində adından göründüyü kimi şairin bir arzusu vardır ki, bu arzunun bir gün həqiqət olacağına inanır. İnanır ki, bütün xalqlar, millətlər—ağlar, qaralar bir gün bir al bayraq altında birləşərək yaşayacaqlar. Şair kommunizm arzusuyla yaşayır. İnanır ki, bir gün ölkələri bir-birindən ayıran sərhədlər söküləcək, sovetlər bayrağı bütün dünyada dalğalanacaq. Həmin ildə (1957) "Azərbaycan" jurnalının 11-ci sayında (səh.5) şair Nəbi Babayevin tərcüməsində Belarus şairi Arkadi Kuleşovun"Biz xalqın övladıyıq" adlı şeiri dərc olunmuşdur.Şeirdə şair Lenin komsomolunun bir gənclik məktəbi olduğunu vurğulayır.Yeddi bənddən ibarət olan bu şeirdə bu misralar təkrar olunur." Bizim gənclik məktəbi, Lenin komsomoludur"

1961-ci ildə Azərbaycan Uşaq Gənclər nəşriyyatında T.Bayraməlibəyli və Y.Məmmədovun tərcüməsində Belarus şifahi xalq ədəbiyyatı nümunəsi olan "Qızıl buynuzlu, şüşə gözlü keçi"adlı nağıl kitabı nəşr olunmuşdur.(5,14)

1962-ci ildə Belorusiyada Belorus xalq şairi Yanka Kupalanın anadan olmasının 80 illiyi münasibətilə böyük tədbir keçirilir. Bu münasibətlə həmin il "Azərbaycan" jurnalının 07-ci sayında Belorus xalq şairi Mixas Lınkovun "Yanka Kupala"adlı məqaləsi yer almışdır. Məqalədə şairin həyat və yaradıcılıq yolundan bəhs olunur. Yazıçı məqalənin əvvəlində Belorus xalqının çox keşməkeşli, məşəqqətli yollardan keçdiyini, buna baxmayaraq azadlıqsevən belorusların öz ana dilini, adət -ənənələrini, folklorunu, inanclarını qoruyub saxladıqlarını qeyd edir. Dərginin həmin sayında V.İvaşının "Yanka Kupalanın poeziyası"adlı məqaləsi yer almışdır. Məqalədə Yanka Kupalanın yaradıcılıq yoluna nəzər salınmış, onun lirik şeirləri, poeziyası, öz dövrünün həyat hadisələrini bədii çalarlarla əks etdirməsi, şairin həm bədii, həm də elmi fəaliyyəti haqqında danışılır (6,180-182). Jurnalın həmin sayında Yanka Kupalanın Əliağa Kürçaylı tərəfindən tərcümə olunmuş "Hələ çoxmu...", "Güclülər və gücsüzlər", "Nəğmə necə şən olsun?", "Təbrik"(1904-1917), "Bizim çöllərdə"(1934),"Biz azad insanlarıq"(1938) adlı şeirləri dərc olunmuşdur.

1964-cü ildə Azərbaycan nəşriyyatında M.Faiqin redaktorluğu və Əhməd Cəmilin tərcüməsində Belorus yazıçısı Petrus Ustinoviç Brovkanın şeirlər və

poemalardan ibarət 90 səhifəlik "Günlər keçir" adlı kitabı çap olunmuşdur.Həmin ildə "Azərbaycan" jurnalının 01-ci sayında (səh.25-30) şair Əhməd Cəmilin tərcüməsində Belorus xalq şairi Petrus Brovkanın "Həmişə Lenin ilə" (1956) adlı poeması dərc olunmuşdur. Şairin "Günlər keçir" adlı şeirlər kitabı 1962-ci ildə Lenin mükafatına layiq görülmüşdür."Həmişə Lenin ilə"poeması da həmin kitabdan götürülmüşdür.Poemada şair Leninin bütün xalqların azadlığa qovuşmaq istəyindən yazır. Leninin bayrağı altında yaranan Kommunist Partiyasının bulaq suyundan daha şəffaf olduğunu böyük inamla söyləyir.

Günəşin altında bərq vurub axan
Təmiz bulaq suyu nə qədər safsa,
Ey mənim vicdanım olan partiya
Sən bulaq suyundan daha şəffafsan.

Şeirin başqa bir yerində:

Dünya xalqlarını o birləşdirir,
Bu möhkəm ittifaq xalqa məxsusdur.
Hər xalqa doğmadır: Çində o çinli;
Bizim Minskdəsə, o belorusdur (7, 25-30).

1964-cü ildə Azərbaycan nəşriyyatında S.Tahirovanın redaktorluğu və Ə.Fətullayevin tərcüməsində Belorus yazıçısı Vasil Federoviç Xomçenkonun "Qiymətli hədiyyə" adlı kitabı (69 səhifə) nəşr edilmişdir.

1969-cu il "Ulduz" jurnalının 10-cu sayında şair Abbas Abdullanın tərcüməsində Belorus şairi Valentina Xamçukun "Həmişə görüşdə" adlı lirik şeiri dərc olunub. Şairə haqqında jurnalda qısa məlumat da verilmişdir.Müəllif kiçik həcmli lirik şeirində hara getsə də öz vətənindən uzaqda yaşaya bilmədiyini, Vətəni üçün darıxdığını qeyd edir:

Yollar məni yüz səfərə çağırsa da
Ağac torpaqsız yaşaya bilərmi,
Yaşaya bilərəmmi mən
Belorusiyasız dünyada?! (8,4)

Ədəbi əlaqələrin inkişafında ədəbiyyatların, xüsusən də bədii əsərlərin tərcüməsi xüsusi yer tutur. Bu ənənə XX əsrin sonrakı onilliklərində də uğurla həyata keçirilirdi. Dövlətlər arasında ədəbi əlaqələrin genişlənməsinin əsas səbəblərindən biri də yazıçıların, şairlərin qarşılıqlı səfərləri, səyahət zamanı yol qeydləri, səfər təəssüratları, gəzdikləri, gördükləri ölkə haqqında şeir, oçerk və publisistik yazılar qələmə almasıdır.

ƏDƏBİYYAT

1.Pavel Nikiforoviç Kovalyov. “Andreyka” Bakı, Uşaqgəncnəşr, 1951, 50 s. Tərcüməçi: İ.Şıxlı, redaktor:Y.Məmmədov.
2. Kastus Kireyenko. “Alyonkanın məktəbi”, Bakı, Uşaqgəncnəşr, 1954, 45s.Tərcümə edən: Ə.Abasov, redaktor: O.Sarıvəlli.
3. SSRİ xalqları ədəbiyyatı müntəxəbatı . Bakı, ADU-nun nəşriyyatı, 1956, 510 s., səh.69-104. Tərtib edən: Pənah Xəlilov,tərcümə edən: Süleyman Rüstəm.
4. Azərbaycan jurnalı. №7,1957-ci il, səh.168-169.
5.Belorus xalq nağılı. “Qızıl buynuzlu, şüşə gözlü keçi” Bakı, Uşaqgəncnəşr,1961, 14 s.
6. V.İvaşın “Yanka Kupalanın poeziyası”. Azərbaycan jurnalı // №7,1962-ci il, səh.180-182.
7. Petrus Brovka ”Həmişə Lenin ilə” Azərbaycan jurnalı // №1, 1964-cü il, səh.25-30.
8. Valentina Xamçuk. “Həmişə görüşdə” Ulduz jurnalı // №10, 1969-cu il, səh.4.

МАЛАХАТ СОЛТАН КЫЗЫ ГАДИРОВА

БЕЛОРУССКАЯ ЛИТЕРАТУРА В АЗЕРБАЙДЖАНЕ В 50-60-Е ГОДЫ XX ВЕКА.

РЕЗЮМЕ

В статье рассматриваются образцы белорусской литературы, переведенной на азербайджанский язык в 50-60-х годах XX века. Несмотря на все трудности, Беларусь, одна из военных зон Второй мировой войны, продолжала литературные отношения с Азербайджанской Республикой, а также с другими республиками Союза.

Ценные литературные произведения были переведены из произведений известных писателей и поэтов белорусской литературы 50-60-х годов Янки Купалы, Павла Никифоровича Ковалёва, Кастуся Киреенко, Аркадия Кулешова, Францишека Богушевича, Валентины Хамчук, Петруса Устиновича Бровки и Якуба Коласа.

Несомненно, первым решающим и ведущим фактором среди различных форм литературных отношений является художественный перевод.

В советское время экономические, культурные и литературные связи между республиками Союза развивались очень тесно. Интерес читателей к советской литературе за рубежом был огромен. Советская литература получила власть влиять на литературу и поэзию всех народов мира. Потому что народы СССР, наряду с развитием своих национальных достоинств, были неравнодушны к культурным достижениям других народов.

Ключевые слова: независимость, литературные связи, перевод, поэзия, издание, писатель, мировая культура.

MALAHAT SOLTAN QIZI GADIROVA

BELARUSIAN LITERATURE IN AZERBAIJAN IN THE 50S AND 60S OF THE XX CENTURU.

SUMMARY

The article deals with examples of Belarusian literature translated into Azerbaijani in the 50s and 60s of the 20th century. Despite all the difficulties, Belarus, one of the war zones of the Second World War, continued its literary relations with the Republic of Azerbaijan, along with other republics of the Union.

Valuable literary works were translated from the works of famous writers and poets of Belarusian literature of the 50s and 60s Yanka Kupala, Pavel Nikiforovich Kovalev, Kastus Kireyenko, Arkady Kuleshov, Francishek Bogushevich, Valentina Khamchuk, Petrus Ustinovich Brovka and Yakub Kolas.

Undoubtedly, the first decisive and leading factor among the various forms of literary relations is literary translation.

During the Soviet era, economic, cultural and literary relations between the republics of the Union developed very closely. The interest of readers in Soviet literature abroad was immense. Soviet literature gained the power to influence the literature and poetry of all peoples of the world. Because the peoples of the USSR, along with the development of their national merits, were not indifferent to the cultural achievements of other nations.

Key words: independence, literary relations, translation, poetry, prose, writer, world culture

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə tərəfindən çapa tövsiyə olunmuşdur

KƏMALƏ İSLAMZADƏ
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Dövlət Universiteti, Zahid Xəlilov 23
kemale_67@mail.ru

BƏZİ FOLKLOR ELEMENTLƏRİNİN NİZAMİ YARADICILIĞINDA OBRAZLAŞMASI
(«Şərəfnamə» əsasında)

Xülasə

Nizami Gəncəvinin öz yaradıcılığında bəhrələndiyi qaynaqlardan biri də folklordur. Məqalədə folklorun müxtəlif janrlarından bizə tanış olan simurq, əjdaha, humay quşu, çillə, mağara, quyu, div, ilan, buta, çövkən kimi elementlərin Nizami poemalarında obrazlaşması məsələsi araşdırılmışdır.

Şair bu elementlərdən gözlənilməz məqamlarda, fərqli kontekstlərdə istifadə etmişdir. Bu folklor mənşəli anlayışlar müəyyən əlamətləri əsasında təşbeh, epitet və metaforaların tərkib hissəsi kimi işlədilmişdir. Nizami dühasının qüdrəti ilə oxucu həmin elementləri tamamilə başqa rakurslardan görüb dəyərləndirir və emosional baxımdan da hədsiz zövq alır.

Yazıda atalar sözləri, fal, inanc, öncədəngörmə, əlamət kimi folklor janrlarının «İskəndərnamə»nin «Şərəfnamə» hissəsində necə ustalıqla tətbiq olunduğu konkret beytlər əsasında təhlil edilir. Müəllif belə qənaətə gəlir ki, dahi şair müxtəlif elementlərlə yanaşı folkloru və mifologiyanı da dərindən öyrənmiş, öz əsərlərində onlardan faydalanmışdır.

Açar sözlər: Nizami, folklor elementləri, çövkən, simurq, quyu, mağara, dünya modeli, çillə, buta

Giriş. Nizami irsini həm onun fitri istedadının, həm də folklordan aldığı məlumatların üzvi şəkildə birləşməsi hesab edə bilərik. Nizami kimi bir fenomenin yetişməsində bu qaynaqların hər birinin özünəməxsus payı vardır. Lakin bunların içərisində folklorun yeri əlahiddədir.

Şairin xalq ədəbiyyatından bəhrələnmə üsulları müxtəlifdir. Bəzən o, folklor elementini olduğu kimi, müstəqim mənasında təqdim edir. Bəzən də həmin elementin əlamətlərinə istinadən yeni, gözlənilməz obrazlar yaradır. Bu zaman müəllif öz məqsədindən asılı olaraq gah bir, gah da digər xüsusiyyəti qabardır, müqayisə və bənzətmələrini gah biri, gah da digəri əsasında qurur. Folklorda mənfi planda verilən bir obraz Nizaminin qüdrəti ilə dəyişə bilir, müsbət ştrixlərlə zənginləşir. Yaxud əksinə, daim məmnuniyyət hissi və xoş assosiasiyalar doğuran obrazlar qüsurlarını üzə çıxaran situasiyalara salınırlar. Çünki Nizami həyatda mütləq müsbət və mütləq mənfinin olmadığına əmindir. O, yaxşıda pisi, şərdə isə xeyiri görməyi bacarır.

Çövkan. 2013-cü ildə UNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş çövkan oyunu Nizaminin «Xosrov və Şirin» əsərində təfərrüatlı şəkildə təsvir olunmuşdur. Burada oyunun komandalar halında oynanılması, atlı iştirakçıların əllərindəki çövkan adlanan xüsusi alətlə yerdəki topa zərbə vurulması və s. bütün təfərrüatı ilə, poetik bir dillə nəzmə çəkilir [1, s.120-121]. «İskəndərnamə» poemasında isə çövkan tamamilə fərqli anlayışları ifadə edən bir obraza çevrilir. Məsnəvinin bir yerində şair çövkandan özünün qocalıb əldən düşdüyünü bildirmək üçün istifadə edir:

Çövkanlar atdığım yel ayaqlı at
Yüz çövkan vursan da tərpənməz, heyhat [2, s. 34].

Eyni əsərin başqa bir epizodunda çövkan tamamilə gözlənilməz şəkildə interpretasiya olunur. Belə ki, İskəndərə öz qasidi ilə çövkan və top göndərən Dara onu müharibədən çəkindirməyə çalışır. İran şahı demək istəyir ki, İskəndər Daranın yanında uşaqdır, onun müharibə edən vaxtı deyil, çövkan oynayan vaxtıdır:

Başladı çövkandan, topdan əvvəlcə:
«Uşaqsan, sənə top olsun əyləncə» [2, s. 116].

Lakin ən maraqlısı bundan sonra başlayır. İskəndəri aşağılamaq məqsədi ilə göndərilən çövkan və top onu nəinki təhqir edib özündən çıxarmır, əksinə, Rum qeysərində cahangirlik iddiası yaradır. Nizami o anda İskəndərin ağlından keçənləri belə ifadə edir:

Dünyanı sarsıdan böyük İskəndər
Gördü bu fallarda şanlı bir zəfər.
Bir məsəl çəkdi ki, qaçdığı zaman
Hər şeyi qarşıma çəkər bu çövkan.
Onunçun göndərmiş Dara çövkanı
Özümə çəkim bu köhnə dünyanı.
Yuvarlaq bu topu hər heyətşünas
Yerin kürəsiylə eyləmiş qiyas.
Şəhriyar onunçun göndərmiş bunu,
Çövkanla qazanım onun topunu [2, s. 116].

İskəndər yuvarlaq topu Yer kürəsinə bənzədir. Çövkanın sahibi topu qarşısına qatıb istədiyi səmtə yönəltdiyi kimi, İskəndər də bütün cahana hakim olub onu idarə etmək fikrinə düşür.

Mifoloji dünya modeli. Burada maraqlı məqamlardan biri də odur ki, Nizami həmin epizodda Yerin kürə forması ilə bağlı heyətşünasların (astronomların) fikrini ifadə etmişdir. Çünki əksər hallarda şair əsərlərində mifoloji dünya modelinin təsvirinə üstünlük verir, ondan obraz və bənzətmələrində istifadə edir. Mifoloji dünyagörüşünə görə, Yer suda üzən nəhəng balığın üzərində durmuş öküzün buynuzlarında qərar tutmuşdur. Balığın və ya öküzün tərpənməsi Yerdə zəlzələlərin, fəlakətlərin baş verməsinə səbəb olur. Nizami bu təsəvvürdən çox məhsuldar bir

şəkildə bəhrələnmiş, bir sıra poetik beytlərini məhz onun üzərində qurmuşdur. Məsələn:

Quruda, dənizdə kim çəksə zəhmət,
Balıqdan dürr alar, öküzdən sərvət [2, s. 44].

Şair bu beytdə əməyi vəsf edir. Bunun üçün mifik dünya modelindəki obrazlardan yararlanır. Beytin mənası belədir ki, zəhmət çəkməyi, çalışmağı özünə sənət etmiş şəxs öküzü öz üzərində daşıyan balığın qarnında da olsa dürr, buynuzlarında dünyanın bərqərar olduğu öküzün altında da olsa sərvət əldə etməyə qadirdir. Başqa bir beytdə həmin obrazlara müraciət tamamilə fərqli məqsəd daşıyır:

Coşdu toppuz, yağdı mancanaq daşı,
Əyildi öküzün, balığın başı [2, s. 75].

Bu misralarda Nizami müharibə meydanında döyüşün şiddətini göstərməyə çalışaraq deyir ki, toppuzların zərbindən, mancanaq daşlarının qüvvətindən yerin altındakı öküzün və balığın başı əyildi.

Aşağıdakı beytdə isə hər gün baş verən təbiət hadisəsi, yəni gündüzün gecə ilə əvəz olunması mifoloji dünya modelinin köməyi ilə oxucuya çatdırılır:

Ləli yer öküzü udduğu zaman
Pusqudan sıçradı qapqara aslan [2, s.75].

Günəşin qürub edərkən sözü gedən balığın üzdüyü suda batdığı düşünülürdü. Nizami günəşi lələ bənzədərək onun batmasını öküzün ləli udması kimi obrazlaşdırır. Öz növbəsində qaranlıq gecə də pusquda durmuş qara aslan kimi təsəvvür edilir. Yəni günəş batan zaman qaranlıq çökür.

Bütün bu nümunələr göstərir ki, Nizaminin astronomiya, Yerin forması ilə bağlı elmi biliklərdən məlumatlılığı, onun alimlərin mövqeyini qəbul etməsi poetik məqsədlər və sənət naminə həqiqətə uyğun olmayan mifoloji dünyagörüşündən də bəhrələnməsinə maneə deyildir.

Mağara və quyu. Folklorda paralel dünyalar arasında portal, keçid rolunu oynayan mistik məkanlar vardır ki, qəhrəmanların digərlərindən fərqlənməsi, qeyri-adiliyi məhz belə yerlərlə əlaqəsi olduğundandır. Müxtəlif folklor janrlarında rast gəldiyimiz (mağara) köhül, quyu məhz belə məkanlardandır. Folklor nümunələrində mağara və quyunun hansı məqamlarda süjetə daxil edildiyini xatırlasaq, bu məfhumların mistik xarakteri bir daha aydın olar. Dini-səmavi kitablarda nəql edilən bəzi rəvayətlərdə də quyu və mağara ilə bağlı maraqlı məlumatlar yer almışdır. Məsələn, «Əshabi-kəfv» möcüzəsi, Məhəmməd peyğəmbərin (s.a.v.) düşmənin təqibindən mağarada nicat tapması, Yusif peyğəmbərin öz qardaşları tərəfindən quyuya atılaraq ölümə tərk edilməsi dini mənşəli rəvayətlərin süjetləridir.

Folklorda isə «Məlikməmməd» nağılının qəhrəmanını kəndirlə quyuya salladan paxıl qardaşları onun ipini kəsib qəddarcasına arxalarını çevirərək gedirlər [3, s.174]. Şah İsmayıl eyniadlı dastanda zalım atası tərəfindən quyuya atılır [4, s. 154]. «Abbas və Gülgəz» dastanında Abbas birinci dəfə adi quyuya [5, s.142], ikinci

dəfə zəhər quyusuna atılaraq möcüzəli şəkildə - Şahi - Mərdan Əlinin köməyi ilə qurtulur [5, s. 148-151].

Eləcə də qədim uyğur türklərinin «Koç» dastanının İran mənbəsindəki variantında aylarla göydən üzərinə işıq düşən dağın böyüyərək aralanması və içəridəki mağaradan beş körpə uşağın tapılması, onlardan birinin sonradan hökmdar olması nəql edilir [6, s. 33]. «Qurbani» dastanının qəhrəmanı isə mağarada yatarkən yuxuda ona buta verilir [7, s. 41-42]. Bütün bu epizodlarda sanki bir qanunauyğunluq izlənilir. Belə ki, qəhrəmanların quyu və mağaradan dönüşü həmişə möhtəşəm olur. O, böyük müvəffəqiyyət, hakimiyyət və ya vergi qazanır.

Nizami quyu, mağara kimi məkanların dini və mifoloji təsəvvürlərdə qazandığı mistik əlamətlərdən təbii ki, xəbərdar idi. Şair məqsədinə uyğun olaraq poemalarındakı müəyyən hadisələrin cərəyan etdiyi yer kimi məhz bu məkanları seçmişdir. «İskəndərnamə» əsərində İskəndər Keyxosrovun məqbərəsini ziyarət etmək istədiyini bildirir. Qalabəyi və Bəlinasın müşayiəti ilə çətin, daşlı yollarla qayalıqda yerləşən mağaraya (farsca «köhül») gəlib çatır. İskəndəri xəbərdar etmişdilər ki, bura təhlükəli və qorxulu bir yerdir. Lakin İskəndərin istəyi o qədər güclü idi ki, heç bir təhlükə gözünə görünmürdü. Qəfildən köhülün dar və qaranlıq dəhlizindən alov qalxır, hər tərəfi işıqlandırır. Buraya girən alışıb yanırmış. Bəlinas İskəndərin tapşırığı ilə bu sirri açmağa çalışır. Alovun köhüldə yerləşən quyudan çıxdığını görüncə oraya enmək qərarına gəlir. Şair həmin hadisəni belə təsvir edir:

O igid belinə bağladı kəndir,
Bilsin ki, quyuda bu atəş nədir?
…İşarət verincə çıxdı quyudan,
Dualar edərək dedi: «Hökmüran,
Tələsmək lazımdır, göstərin tədbir,
Su deyil, quyudan çıxan atəşdir.
Kükürd mədənidir bu, alovlanır,
Kükürddən dörd yanı alışıb yanır.
Bu sirri bilirmiş köhüldə yatan,
Özünü kükürdlə məhv etmiş, inan» [2, s. 250].

Bəlinasın belinə kəndir bağlayıb alovların zəbanə çəkdiyi quyuya enməsi Məlikməmmədin yandırıcı quyuya düşməsini xatırladır. Bəlinas dərin elmi biliklərə sahib olduğundan alovun zəhərli kükürd qazının yanması nəticəsində qalxdığını və insan üçün həyati təhlükə yaratdığını anlayır. Keyxosrovun məhz belə bir yerdə öz ölümünə qovuşması da təsadüfi deyildir. Bizcə, bu da bir tapıntıdır. Nizami çox güman ki, quyudan çıxan, zəhər saçan alovları təsvir edərkən cəhənnəm atəşinə işarə vurur. Dünyanın fani olduğunu yada salır. Demək istəyir ki, taxt-tac əbədi deyil, hökmdar ölkəni ədalətlə idarə etməli, savab əməllərlə tanınmalıdır. Əks təqdirdə ölümündən sonra günahlarına görə cəhənnəm odunda yanacaq. Bütün bunlar İskəndərə bir eyhamdır. Göründüyü kimi, Nizami qələminin qüdrəti ilə quyu və

mağara sadəcə hadisələrin fonu olaraq qalmamış, funksionallıq qazanmış, obrazlaşmışdır.

Əsərin başqa bir yerində köhül (mağara) günahlarına görə cəzalandırmaq deyil, günahlarından arınmaq, tərki-dünya olub bir çox nemətlərdən imtina etmək, nəfsinə hakim kəsilmək üçün seçilmiş məkandır. Adətən, sufi dərvişlər belə yerlərdə tənhalığa çəkilib gününü ibadətlə keçirərək kamilləşməyə, yaradana qovuşmağa çalışırlar. Buna çilləyə çəkilmək də deyirlər. «Çillə» sözü hərfi mənada «çətinlik» «sıxıntı» deməkdir. 40 gün müddətində Zahidin mağarada xəlvətə çəkildiyini təsvir etməklə Nizami bu anlayışa bir müqəddəs məkan statusu qazandırır. Daha doğrusu, onun folklorda artıq mövcud olan funksiyasını bir daha aktuallaşdırır. Çünki zahid günahlarından tövbə edib meditasiyalarla tanrısı ilə əlaqə qurur.

Folklorda Novruz bayramından öncəki dövrdə qışın «böyük çilləsi» və kiçik çilləsi» deyilən mərhələləri olduğu məlumdur. Nizami çillənin sakrallığını nəzərə almaqla yanaşı, onu müstəqim deyil, məcazi mənada işlədir və bununla həmin məfumu öz poetik məqsədlərinə tabe edir. Məsələn:

Hər çillə qırx gündür, xəlvəti mindir,
Bu yerdən məclisə girmək çətindir [2, s.39].

Bu beytin birbaşa mənası odur ki, özünü cəmiyyətdən təcrid edib təklikdə ibadət, pəhriz və qənaət edən, əziyyət çəkən dərviş saray məclisində iştirak edə bilməz. Əslində isə şair dərviş deyərkən özünü nəzərdə tutur.

Belə ki, Nizami ömür boyu xəlvətə çəkilib elmlə, poeziya ilə məşğul olduqdan sonra saray şairinə çevrilməyi mümkünsüz hesab edir. O, öz hürriyyətini, azad söz demək imkanını hər şeydən üstün tutur.

Nizami bir çox nağıl və əfsanələrdən tanıdığımız əjdaha, div, simurq, humay quşu kimi mifoloji obrazları, həmçinin ilan, tovuz quşu kimi real təbiətdə də mövcud olan surətləri öz poemalarına gətirmiş, maraqlı, təkararolunmaz təşbeh, epitet və metaforalar yaratmışdır.

Əjdaha. Məlumdur ki, əjdaha folklorda adətən çayın qarşısını kəsib hər gün bir qız qurbanı müqabilində şəhərə su verən, simurq quşunun balalarını yeyən, ağzından od püskürən, bəzən üç, yeddi başlı, qanadlı təsvir olunan mifoloji bir varlıqdır. Adətən şəri təmsil edir və onu yenən qəhrəman inisiasiya mərasimini keçmiş hesab edilir, yeni status qazanır. Folklor örnəklərində qəhrəmanın əjdahanı məğlub etdikdən sonra onun xəzinəsinə sahibləndiyi də təsvir olunur. Bütün bunlar xalqımızın qədim xalçaçılıq sənətinə də yansımışdır. Belə ki, əjdaha və simurq quşu ornamentləri eyni xalçada təsvir olunduqda şər və xeyiri simvolizə edir. Xalçada əjdaha tək təsvir olunduqda isə var-dövlət rəmzi sayılır.

Nizami öz məqsədindən asılı olaraq əjdahanı fərqli hiss və anlayışların ifadəsi üçün nəzmə gətirmişdir. Məsələn, öz qoşununun önündə Daranın üzərinə gedən İskəndəri təsvir edərkən şair yazır:

Tərpəndi əjdaha heybət əskərlər,
Başında əjdaha peykər İskəndər [2, s.121].

Burada əjdaha – «heybətli», «qorxu və vahimə yaradan», «güclü» mənalarında işlənmişdir. Növbəti beytdə də əjdaha gücün, qüvvətin sinonimi kimi çıxış edir:

Bu yerdə dayanmaq yaramaz daha,
Gecikmək düşməni edər əjdaha [2, s. 255].

Başqa bir beytdə müəllif əjdahanın xəzinə ilə bağlı olduğuna işarə vurur, bu isə şairin folkloru gözəl bildiyindən xəbər verir:

Qaydadır, hər yerdə xəzinə vardır,
Yolunda qorxunc bir əjdaha yatır [2, s. 259].

Simurq. Adətən nağıllarda əjdahanın antoqonisti sayılan Simurqun dəstə şəklində deyil, tək, gözdən iraqda yaşamasına diqqət çəkən Nizami özünü ona bənzədərək yazır:

Simurqtək çəkilim xəlvət bucağa,
Şeirimdən nəşələr verim qulağa [2, s. 40].

Simurqun folklordan bildiyimiz daha bir xüsusiyyəti onun əlçatmazlığı, heç bir ovçunun toruna düşməməsidir. Mifik quşun bu əlamətindən Nizami pəyata keçməsi mümkün olmayan xam xəyalların ifadəsi üçün istifadə edir:

Nədir bu xam xəyal, bu xam tərpəniş?
Simurğu toruna kim sala bilmiş? [2, s.139].

Div. Folklorda div bəzən müsbət, bəzən də mənfi planda təsvir edilir. Bu, alimlər tərəfindən zərdüştilikdən əvvəl və sonra ona olan münasibətin fərqliliyi ilə əlaqələndirilir. Nizami divləri mənfi planda verir və şəri təmsil edən varlıq kimi göstərir. Məsələn, Allahın tərifinə həsr olunmuş bir parçada müəllif yazır:

Göydəki işığa bayraq tikəndir,
O qara divlərə qələm çəkəndir [2, s.283].

Bu beytdə işıq- qaranlıq təzadı yaradan şair divlərin şərə xidmət etdiyinə işarə vurur. Göydəki çırağını – günəşi yandırması ilə Allah qara divləri, yəni qaranlığı və şəri məhv edir.

Başqa bir beytdə Nizami dini rəvayətdən çıxış edərək insan xislətindəki naqis cəhətləri divlərlə eyniləşdirir. O yazır:

Divlərlə oturub dursa Süleyman,
Qalmaz barmağında üzüyü, inan [2, s.138].

Rəvayətə görə, Bilqeysə aşiq olan Süleyman peyğəmbər bütün sərvətini onun ayaqları altına tökməyə hazırkən qız ondan «Möhri-Süleymani» adı ilə məşhur olan üzüyünü istəyir. Süleyman dünyanı o üzük vasitəsilə idarə edirmiş. Eşqindən başını itirən Süleyman üzüyü Bilqeysə verir. Bilqeys isə üzüyü arxa atır.

Beytin mənası isə belədir ki, ehtiras, nəfs divləri ilə dostluq etsən, Suleyman kimi padşahlıq üzüyünü itirərsən.

Humay quşu. Türk xalqlarının mifologiyasında geniş yayılmış Humay adlı qanadlı ilahə sonradan transformasiyaya uğrayaraq Humay quşu şəklinə düşmüşdür. Bu quşun bəzən Qaf dağında tənha yaşadığı, bəzən də cənnətin sakini olduğu deyilir.

Nizami «Şərəfnamə»nin əvvəlində, özündən bəhs etdiyi hissədə belə bir beyt vermişdir:

Az bələdçilik et xalqa, dur kənar,
Humay az görünsə, humayın olar [2, s.39].

Mənası budur ki, nə qədər az görünsən, xəlvətə çəkilsən, bir o qədər qiymətli olarsan. Humayun – «padşahın malı» deməkdir. Padşahlar da rəiyyət içərisinə çıxmaz, əhali arasında görünməzlər. Bu, onları sirli, maraqlı edən cəhətdir. Humayı nağıllarımızdakı «dövlət quşu» və ya «şahlıq quşu» ilə də eyniləşdirirlər. Qədimdə hökmdarın tanrı tərəfindən seçilmiş şəxs olduğu güman edilir, padşah taxtına oturacaq bəxtəvərin başına qonan, yaxud üzərinə kölgəsini salan şahlıq quşunun göydən göndərildiyi hesab olunurdu. Bu məlumat Nizaminin başqa bir beytini izah etməyə imkan verir:

Səni bu idrakla görməyim, inan,
Bəxtiyar görünür humay quşundan [2, s. 210].

Bu sözlər İskəndərin dilindən Nüşabəyə ünvanlanmışdır. İskəndər Nüşabəyə onun himayəsi altına keçməyi təklif edir. Rum qeysəri bunun Bərdə hakimi üçün bir bəxtəvərlik olduğunu hesab edir. Sanki humay quşu («şahlıq quşu») öz kölgəsini Nüşabənin üzərinə salmışdır.

Başqa bir nümunəyə nəzər salaq:

Yaşıl donlu tovuz humay quşundan
Ağ, parlaq sümüyü qapdığı zaman [2, s. 251].

Aydındır ki, burada hadisənin baş verdiyi zaman kəsimi ifadə olunmuşdur. Əfsanəyə görə, humay quşu sümüklə qidalanır və ayaqları olmadığından heç bir yerə qonmadan daim uçur [8, s. 49]. Beytdə tovuz quşu – səmanın, asimanın, humay quşu – günəşin, ağ sümük isə sübhün metaforasıdır. Deməli, hadisə səhər çağı baş vermişdir.

Göründüyü kimi, Nizami poemanın üç müxtəlif yerində humay quşunun üç fərqli əlamətini bənzətmə və metaforalarda işlətmişdir: öncə onun tənhalığını, sonra bəxtəvərlik gətirən «şahlıq quşu» olduğunu, sonda isə sümüklə qidalandığını qabardaraq öz orijinal metaforalarını yaratmışdır.

Tovuz quşu. Elə bu beytdə yer almış digər canlı – tovuz quşu haqqında daha ətraflı bəhs etmək mümkündür. Folklor mətnlərində tovuz öz rəngarəng quyruğu ilə öyünən, lakin çirkin ayaqlarına görə utanan bir quş kimi təsvir olunur. Yəni hər gözəlin bir eybi olar. Nizami Nüşabənin tərifini verdiyi epizodda onu tovuzla müqayisə edərkən məhz quşun gözəlliyini nəzərdə tutur:

Erkəksiz yaşayan bu dişi ceyran
Gözəldi, göyçəkdi erkək tovuzdan [2, s. 204].

Diqqəti cəlb edən cəhət odur ki, şair tovuz quşunun dişisinin al-əlvan olmadığını, rəngarəng yelpiyəbənzər quyruğun məhz erkək tovuzlarda olduğunu, bunun əks cinsi cəlb etməyə və yaşıl təbiətdə qorunmağa xidmət etdiyini gözəl bilir. Ümumiyyətlə, Nizaminin şeirə gətirdiyi hər bir obyekt barədə maksimum

informasiya topladığını, onun haqqında dərin biliyə malik olduğunu müşahidə edirik. Poemanın başqa bir yerindən gətirəcəyimiz nümunə də bunu təsdiq edir:

Tovuzun qanadı olsa da rəngin,
Baxsana səsinə – pişikdən çirkin [2, s. 397].

Həqiqətən, tovuz quşunun səsi pişiyin məzlumcasına miyoldamasını deyil, çığırmasını xatırladır və eşidəni vahimələndirir.

İlan. Gerçək təbiətdə mövcud olan, sürünən heyvanlardan sayılan ilan folklorumuzun bir çox janrlarında fəal obrazlardandır. Ona münasibət də birmənalı deyildir. Adətən, ağ ilan müsbət, qara ilan mənfi planda verilir. Bir çox xalqların mifologiyasında məhsuldarlığın, suyun, ailə ocağının rəmzidir. Hətta belə bir inanc var ki, torpağa basdırılmış xəzinələrin üzərində qıvrılıb yatan, gün işığı, insan üzü görmədən yüz il qaranlıqda yaşayan ilan əjdahaya çevrilir, onun qanadları meydana gəlir. İlanın qədimdə totem olduğu, müqəddəs əcdad sayıldığı da bəllidir. Bütün bu məna və funksiyalardan xəbərdar olan Nizami fars folklorunda geniş yayılmış, lakin bizim ənənədə özünü göstərməyən bir məqamı oxucusunun nəzərinə çatdırır. Belə ki, İskəndər Çin türklərinin xaqanına yazdığı məktubda belə bir sualla ona müraciət edir:

Xəbər ver, hesabdan qalmayım geri,
Səbətdə ilandır, ya sümükləri? [2, s. 279].

Məsələ burasındadır ki, iranlılarda ilan ədavət, onun sümüyü isə dostluq rəmzidir. İskəndər xaqandan soruşur ki, «niyyətin müharibədir, yoxsa sülh?».

Buta. Məhəbbət dastanlarımızın süjetindəki əsas mərhələlərdən biri olan buta barədə çox danışılmışdır. Sözün özünün müxtəlif mənaları və fərqli şərhləri, onun bəzi mənbələrdə işlənmə məqamları, bir ornament kimi daşıdığı funksiya və s. haqqında xeyli tədqiqat aparılmışdır. Dastan qəhrəmanının yuxuda ona buta verən şəxslə dialoqu bir qayda olaraq belə qurulur:

«– Oğlum, niyə fikir dəryasına qərq olub, qəflət yuxusuna cumubsan? Al, bu badəni nuş elə, mətləbinə çatarsan.

Novruz diqqətlə dərvişə baxanda gördü ki, həm dərvişdən, həm badədən bir nur qalxıb, asimana bülənd oldu. Bu möcüzəyə məəttəl qalıb dedi:

– Ağa dərviş, bizlərdə o badə haram buyurulub. Biz şərab içmirik.

Dərviş Novruzun cavabında dedi:

Bala, bu badə o badələrdən deyil. Bu badə Yusifi Züleyxaya yetirən badədəndi.

Novruz badəni dərvişdən alıb nuş elədi. O saat sinəsi dəmirçi kürəsi kimi yanmağa başladı» [7, s. 171].

Məlumdur ki, bundan sonra gənc qız və oğlan bir-birinə göstərilir və qəhrəman qeyri-adi vergi ilə yuxudan oyanır. Ona haqdan şairlik və aşıqlıq təbi, həmçinin başqalarının görmədiklərini bəsirət gözü ilə görmək, qarşısındakının ürəyindəkiləri oxuyub fikirlərindən xəbərdar olmaq, olacaqları fəhmlə hiss etmək qabiliyyəti verilir.

Bütün bu xüsusiyyətlər təsəvvüfdən gəlmədir və sufi dərvişlərinin nəfsdən, dünya nemətlərinə aludəlikdən, günahlardan ibadət yolu ilə təmizlənib kamilləşərək

öz eşq obyektinə – Allaha qovuşmasını xatırladır. Nizami, «İskəndərnamə» poemasının yazılma səbəbindən bəhs edərkən buta adını çəkməsə də, onun əlamətlərini ifadə edən misralar yaratmışdır:

Aç dehqan küpünü, sən ey saqi, dur,
Badəmə şəkərdən şirin mey doldur.
Vermə o meydən ki, din etmiş haram,
Bir mey ver ki, ondan din olmuş tamam [2, s. 58].

Bu parçada sufi simvolikasına aid olan «saqi», «mey», «badə», «din» kəlmələri işlənmişdir. Həmin misralar məhəbbət dastanları qəhrəmanlarının yuxuda öz «ağa»sı ilə dialoqunu xatırladır.

Fal. Nizami «İskəndərnamə»də xalqın gündəlik həyatında özünə vacib yer tutmuş fal, öncədəngörmə, inanc, işarət, əlamət kimi folklor təzahürlərindən ustalıqla istifadə etmişdir. Adətən, müəyyən dərdi, problemləri, gələcəklə bağlı narahatlıqları olanlar müxtəlif əlamət və işarətlərə diqqət yetirir, yaxud birbaşa fal açırlar. Məsələn, Dara ilə döyüşə girmək məsələsində tərəddüd keçirən İskəndər təsadüfən iki kəkliyin vuruşmasının şahidi olur. Onlardan birini Dara, digərini özü kimi fikirləşərək fal açır, döyüşü izləyir. Daranı təmsil edən kəklik İskəndərin adına olan quşun əlində məhv olur. Sonra qalib quş qayaya doğru uçur və özü bir qartalın caynağına keçir. İskəndər bu gördüklərini Dara üzərində qələbə çalacağının, lakin sevincinin uzun sürməyəcəyinin işarəti kimi qəbul edərək həm sevinir, həm də sıxılır [2, s. 104-105]. Tam arxayın olmaq üçün İskəndər bir daha fal açmaq qərarına gəlir. Bu dəfə o, xalq arasında dəfələrlə sınanmış bir vasitəyə əl atır, möcüzəli dağdan soruşmağa qərar verir. Hər kəs həmin dağa müraciətlə diləyini söylər, müsbət və ya mənfi cavab alarmış. Rum qeysəri bunu bilici bir şəxsə tapşırır. Həmin bilici dağa belə sual edir:

Dünyanı alacaq böyük İskəndər?
Daranı əzərək çalacaq zəfər? [2, s. 105].

Dağ əks-səda verərək həmin sözləri təkrarlayır, yəni təsdiqləyir. Yalnız bundan sonra İskəndər Dara ilə savaşmağa qərar verir.

«İskəndərnamə»nin başqa bir yerində İran şahı Dara öz əyanlarından Rum qeysəri ilə müharibə etmək barədə məsləhət istərkən yaşlı pəhləvanlardan biri ona xatırladır ki, Keyxosrov öz gövhər camında İranı bir rumlu sərkərdənin tutacağını, atəşgədələri dağıdacağını və bunlarla kifayətlənməyib bütün cahanı fəth edəcəyini öncədən görmüşdü. Bəlkə də həmin sərkərdə elə İskəndərdir [2, s. 124].

Qeyd etməliyik ki, İran mifologiyasına görə, Keyxosrovun bir gövhər camı varmış, onda həm keçmiş, həm də gələcək hadisələr əks olunurmuş. Göründüyü kimi hökmdarlar da vacib qərarlar qəbul etməzdən qabaq mütləq fal açdırar, gələcəkdən xəbər verənlərlə məsləhətləşər, ulduz və bürclərin həmin an üçün vəziyyətini öyrənərdilər. Əslində bu, insan xislətindən, psixikasından qaynaqlanır. Onun hər şeylə maraqlanan təbiətindən, addımlarını hesablamaq istəyindən, plan qurarkən səhv etməmək arzusundan irəli gəlir. Nizami isə insan sərrafı, bəşər övladının düşüncə

tərzinə bələd olan bir söz ustası kimi bütün bu məsələləri əsərlərində işıqlandıra bilmişdir.

Atalar sözləri. Müdrik kəlamları, aforizmləri bu gün də aktual səslənən Nizami öz təsirli deyimlərini yaratmaqla yanaşı, müxtəlif xalqların atalar sözlərindən də bəhrələnmişdir. Onların bəzilərini olduğu kimi vermiş, bəzilərini isə bir kalka kimi ana dilindən farscaya çevirmişdir. Halbuki, farscada eyni situasiya zamanı tamamilə başqa məzmunlu, fərqli bənzətmə obyektlərinin iştirak etdiyi atalar sözləri işlədilir. Məsələn, Nizami aşağıdakı atalar sözünü ana dilindəki kimi farscaya tərcümə edib nəzmə çəkmişdir:

«Ol doğru miyançı, düzəlsin hər iş,
Ortada nə kabab yansın, nə də şiş» [2, s. 45].

Dilimizdə həmin atalar sözü «nə şiş yansın, nə kabab» şəklində işlənir və vəziyyətdən maksimum ziyansız çıxmaq, heç kəsi incitməmək, heç bir tərəfə zərər vurmamaq mənasındadır. Xalqımızda «Dabbaq sevdiyi dərini yerdən-yerə vurar» atalar sözü vardır. Deməliyik ki, dərinin aşılanması çətin və mürəkkəb prosesdir. Dəri aşılanmaya nə qədər çox məruz qalarsa, yəni ona nə qədər çox əziyyət verilərsə, nəticə də bir o qədər keyfiyyətli olar. Nizami bu atalar sözünü belə dəyərləndirmişdir:

Elə bir dabbaqlıq etdim bu gönə,
Mətanət göstərsin hər ağır günə [2, s. 69].

İskəndər bu sözləri özü haqqında söyləyir. Demək istəyir ki, mən müxtəlif məşqlərlə, məhrumiyyət və əziyyətlərlə bədənimi və ruhumu elə tərbiyə etdim ki, gələcəkdə bir ağır gün üz verincə dözə bilim.

Xalq arasında geniş yayılmış atalar sözlərindən biri də belə səslənir: «El ilə gələn bəla toy-bayram olar». Yəni elliklə gələn dərdi çəkmək daha asandır. Dərd nə qədər çox insan arasında bölünərsə, bir o qədər azalar. Nizami həmin atalar sözünü təxminən elə dəyişmədən işlətməklə yanaşı, beytin birinci misrasında bu hikmətli sözü yaradan doğma xalqına da bir tərif ünvanlayır.

Hər sözü ustası gözəl toxuyur:
«El ilə qara gün bayramdır, toydur» [2, s. 151].

Başqa bir Azərbaycan atalar sözü: «Hər yerin dovşanını o yerin tazısı tutar».

Bu deyim insanların yaxın ətrafdan zərbə almasının daha asan olduğuna, xəyanətin mövcudluğuna bir işarədir. Nizami həmin atalar sözünü İran sərkərdələri öz padşahları Daranı öldürəcəklərini İskəndərə söylədikləri epizodda işlətmişdir:

«Dovşanını hər bir yerin, — məsəl var, —
Yenə də o yerin tazısı tutar»[2, s. 147].

Azərbaycan atalar sözlərini farscaya tərcümə edərək verməsi Nizaminin hansı dildə düşündüyünü, milli mənsubiyyətini göstərən əlamətdir.

Beynəlxalq süjet və motivlər. Nizami dünya xalqları folklorunda yayılmış beynəlxalq süjet və motivləri də poemalarında işləyib yeni təfərrüatlarla zənginləş-

dirmişdir. Mənşəyi qədim mərasimə gedib çıxan «Qocaların öldürülməsi» süjeti müxtəlif xalqların folklorunda fərqli modifikasiyalarda özünü göstərir. Adətə görə, qədimdə insanlar qocalıb əldən düşmüş valideynlərini meşədə tək qoyub qurda-quşa yem edər, yaxud öldürüb qurban ətinə qataraq yeyərdilər. Çünki iqtidarsız olan həmin qocalar tayfa üçün bir buxova çevrilirdilər və təbiətin «yaşamaq uğrunda mübarizə» adlanan acı gerçəkliyi gəncləri bu cinayəti işləməyə məcbur edirdi. Müəyyən tarixi mərhələnin izlərini daşıyan həmin adətin əks-sədası olaraq qəbul etdiyimiz bir epizod «İskəndərnamə»də yer almışdır. İskəndər Şimala yürüş edərkən tapşırır ki, qocaları və xəstələri aparmasınlar. Çünki onlar ayaq altda qalıb orduya mane olarlar. Yunanlar zülmətlərə bürünmüş bir yerə gəlib çıxırlar. Göz-gözü görmədiyi bu yerdə birtəhər irəli getmək mümkün olsa da, geri qayıdarkən yolu tapmaq müşkül məsələ idi. İskəndər əmr edir ki, hər kəs buna çarə axtarsın. Orduda igid bir gənc vardı. 90 yaşlı xəstə atasını tək qoyub getməyə onun ürəyi gəlmir. Qocanı azuqə sandığının içində gizləyir. Hamı bu problemə çözüm axtararkən igid məsələni atasına danışır və yol göstərməsini xahiş edir. Qoca deyir ki, ilk dəfə doğacaq bir boğaz madyan tapıb onun balasını dünyaya gətirəcəyini gözləsinlər. Daylaq doğulduqda onun başını kəsib elə həmin yerdə qoysunlar. Anası balasını görüncə ürəyi yanacaq. Sonra padşah yürüşə başlasın. Madyan ordunun qarşısında getsin. Ordu geriyə dönərkən madyan bələdçilik edəcək. Çünki o, balasını qoyub getdiyi yerə tələsəcək.

Gənc oğul bütün bunları İskəndərə çatdırır. Rum qeysəri tədbiri bəyənir və anlayır ki, belə müdrik məsləhətin müəllifi bu təcrübəsiz gənc ola bilməz. Oğlana doğru söyləyəcəyi təqdirdə mükafat, yalan danışarsa, cəza vəd edir. Oğlan etiraf edir ki, sərkərdənin əmrinə baxmayaraq, xəstə atasını özü ilə götürmüşdür. Bunun müqabilində İskəndər deyir:

«Bilənlər padşahı olsa da, yenə
Bu gənclər möhtacdır qoca fikrinə.
Gənc budaqlarıyla oynardı qabaq,
Başını ucaldar bir köhnə budaq.
Bilikdə birinci olsa cavanlar,
Qocalar fikrinə ehtiyacı var» [2, s. 380].

Tarixdən məlumdur ki, «qocaların öldürülməsi» adətinin mövcud olduğu ölkələri zəbt edən İskəndər bu mərasimi həmin ərazilərdə qadağan etmişdi [9, s. 3]. Nizami həyatdan folklora keçmiş bu süjetdə müəyyən dəyişikliklər etmiş, yürüşə gedərkən qocaların aparılmaması ilə əvəz etmişdir. Lakin bu münasibətin kökündə duran səbəb, yəni onun mahiyyəti dəyişmir. Başqa sözlə, hər iki halda qocalar əl-ayağa dolaşıb mane olan, xəstəliyi və iqtidarsızlığı ilə gənclər üçün yükə çevrilən varlıqlar kimi görülür. Həm folklordakı «Qocaların öldürülməsi» süjetində, həm də onun Nizami interpretasiyasında sonda təqdim edilən əxlaqi-ibrətamiz nəticə eynidir: «Valideyn qocalıb əldən düşsə də, öz təcrübəsi, müdrik məsləhətləri ilə cəmiyyətə

xeyir verə bilər. Gənclərin həmişə onlara ehtiyacı var. Ahıllara hörmətlə yanaşmaq, qayğı göstərmək hər bir övladın borcudur».

Nizami bu süjetin tərkibinə qədim bir motiv olan «sandıqda gizlədilmə»ni əlavə etmişdir. Qurda-quşa yem etmək məqsədilə aparılarkən qocaların qoyulduqları «zənbil»i burada «sandıq» əvəzləmişdir. Qədim Misir mifində Osirisin sandığa qoyularaq Nil çayına atılması, Musa peyğəmbərin də həmin üsulla ölümə məhkum edilməsi, «Nart» eposunda qocaldığı üçün Urızmaqın öz istəyi ilə sandığa qoyulub qayadan dənizə yuvarladılması, «Tahir və Zöhrə» dastanında Tahirin gizlədildiyi sandığı axar suyun aparması və bu kimi bir çox misallar həmin motivin miflərdə, dini kitablardakı rəvayətlərdə və folklorda kifayət qədər işlək olduğunu göstərir. «Sandıq» folklorda qapalı məkanı, tabutu ehtiva etməklə ölümün metaforu sayılır.

Bu gün məişətimizdə müşahidə etdiyimiz, ilkin mənasını unutduğumuz bəzi inanc və adətlərin mənşəyini Nizami əsərlərində aşkarlamaq mümkündür. Məsələn, təsadüfən köynəyini tərs geyinmiş şəxsə «İşin avand olsun!» - deyirlər. «İskəndərnamə»dən isə öyrənirik:

Diləkçin kim köynək geysə tərsinə,
Duayla avanda çevirər yenə [2, s. 168].

Şərq adətinə görə, birinin Allahdan diləyi olduğu zaman köynəyini tərsinə çevirib geyər, arzusu həyata keçdikdən sonra yenidən avandına geyərmiş.

Şamaxı ərazisində tez-tez baş verən zəlzələlərin İskəndər xəzinəsi ilə əlaqələndirildiyini, bu barədə əfsanə və rəvayətlərin xalq arasında yayıldığını bilirik. Həmin mətnlərə görə, xəzinəni tapmaq cəhdləri olduqda o, torpağın altında yerini dəyişir. Zəlzələ də bu səbəbdən baş verir. İskəndər həqiqətdə Azərbaycana gəlməsə də, onun xəzinəsi barədə şayiələr gerçəkliyə əsaslanır. Yürüşləri zamanı bir-birinin ardınca ölkələri fəth edən Rum qeysəri və ordusu çox miqdarda qənimətlər əldə edirdilər. Həmin qənimətlər ağır olduğundan yola davam edərkən ordunun irəliləməsinə maneə törədirdi. Bu səbəbdən ordu üçün yükə çevrilmiş qənimətləri torpağa basdırmaq qərara alınmış və İskəndər daxil olmaqla ordunun hər bir əskəri öz qənimətlərini torpağa gömmüşdülər. Nizami bütün bunları İskəndərin məsləhətçisi olan Bəlinasın tədbiri kimi qələmə verərək yazır:

Xəzinə və yolun çətinliyindən
Söz açdı ona hər uzağı görən.
Bəlinas söylədi hey düşünərək:
«Xəzinə torpağa gömülsən gərək!
Ordu da padşahı təqlid eləsin,
Bir xarabalıqda malı gizləsin.
Bilinsin xəzinə gizlənən məkan,
Hər kəs öz varına qoysun bir nişan.
O uzaq yollardan qayıdan zaman
Hər kəs qoyduğundan tapsın bir nişan.
Tanısın qoyduğu nişanı hər kəs,

Etsin öz malını almağa həvəs» [2, s. 230].

Yəqin ki, İskəndər yürüşləri marşrutunda yaşayan xalqlara həmin məlumat haradansa sızmış, bütün regionda yayılaraq sonradan əfsanə və rəvayət formasında günümüzə gəlib çatmışdır.

Nəticə. Dünya şərqşünasları Nizami əsərlərinin həmişəyaşarlığı barədə fikirlərində yekdildirlər. Lakin bunu ilk dəfə deyən elə Nizaminin özü olmuşdur. Dini ədəbiyyatda və folklorda adı keçən, süjetə daxil olması ilə hadisələrin gedişatını dəyişən Xızır peyğəmbər Nizaminin əsərlərində həm ayrıca bir obraz kimi, həm də bədii təsvir vasitələrinin tərkibində çıxış edir. Nizami «İskəndərnamə»nin başlanğıcında Xızırın ona təlim keçməsindən bəhs edərkən yazır ki, onlar xəyalən, daxili səslə söhbət edirlərmiş. Bu zaman Xızırın şairə hansı sözlərlə müraciət etdiyinə nəzər salaq:

Ey tədbirlərimə xas bəndə olan,
Söz qədəhlərimdən dadımlıq alan,
Süsəntək bəndəlik ilini atan,
Dirilik suyundan rütubət tutan [2, s. 43].

Dini rəvayətlərdən Xızırın dirilik suyunu içmiş yeganə şəxs olduğu məlumdur. Yəni o, ölümsüzlük qazanmışdır. Nizami həmin sudan içməsə də, ondan rütubət tutmuş, nəm çəkmişdir. Başqa sözlə, dahiyanə əsərləri ona əbədi həyat bəxş etmişdir. Bu, Nizaminin özünə verdiyi ən böyük qiymətdir.

«Şərəfnamə»dən nümunə gətirdiyimiz folklorla bağlı nüanslar göstərir ki, Nizami xəyalının qeyri-adi pərvərişi, təsəvvürlərinin abstraktlığı, fantastik düşüncələrinin paradoksallığı, poetik ruhunun hüdud tanımaması onun xalq yaradıcılığı ilə sıx əlaqəsindən irəli gəlir.

Ədəbiyyat:

1. Gəncəvi N. Xosrov və Şirin. Bakı: Yazıçı, 1982, 401 s.
2. Gəncəvi N. İskəndərnamə. Bakı: Yazıçı, 1982, 690 s.
3. Azərbaycan nağılları. 5 cilddə, IV c. Bakı: Şərq-Qərb, 2005, 336 s.
4. Azərbaycan dastanları. 5 cilddə, III c. Bakı: Lider-Nəşriyyat, 2005, 328 s.
5. Azərbaycan dastanları. 5 cilddə, II c. Bakı: Lider-Nəşriyyat, 2005, 448 s.
6. Cəfərov N. Eposdan kitaba. Bakı: Maarif, 1999, 220 s.
7. Azərbaycan dastanları. 5 cilddə, I c. Bakı: Lider-Nəşriyyat, 2005, 392 s.
8. Pala İ. Ecel mihriban olur. Zülfe dair// «Türk edebiyyatı» dergisi, ekim, 1993, s.48-60
9. Шифман И.Ш. Александр Македонский. Ленинград: изд. Наука (Ленинградское отделение), 1988, 208 с.

Kamala Islamzadeh
PhD in Philology

Metaphorization of some folklore elements in Nizami's creation (based on "Sherefname")

Summary

Keywords: Nizami, folklore elements, chovgan, Simurg, well, cave, model of the world, chille, buta

One of the sources used by Nizami Ganjavi in his creation is folklore. The article deals with the problem of metaphorization of such elements as Simurg bird, dragon, Humai bird, chille (the torment to which hermits voluntarily condemn themselves), cave, well, div, snake, buta (beloved), chovgan (ancient eastern equestrian team game (modern equestrian polo) known to us from the various folklore genres in Nizami's poems. The poet uses these elements in the most unexpected situations, in the different contexts.

These folklore concepts based on their specific features are used as components of assimilations, epithets and metaphors. Thanks to the genius of Nizami, readers can see and appreciate these elements in completely different angles and take great pleasure in them from the emotional standpoint.

The proverbs, sayings, fortune-telling, beliefs, predictions as folklore genres skillfully used by Nizami in the "Sherefname" par of his poem

"Iskendername" are analyzed on the basis of the concrete couplets in the article. The author comes to the conclusion that the genius poet along with the various elements also deeply studied folklore, mythology and skillfully used them in his works.

Кямаля Исламзаде
Доктор философии по филологии

Метафоризация некоторых фольклорных элементов в творчестве Низами (на основе «Шерефнаме»)

Резюме

Ключевые слова: Низами, фольклорные элементы, човган, Симург, колодец, пещера, модель мира, чилле, бута

Одним из источников, используемых Низами Гянджеви в своём творчестве, является фольклор. В статье рассматривается проблема метафоризации таких элементов, как птица Симург, дракон, птица Хумай, чилле (муки, на которые добровольно обрекают себя отшельники), пещера, колодец, див, змея, бута (возлюбленная), човган (древняя восточная конно-спортивная командная игра), известные нам из различных фольклорных жанров, в поэмах Низами. Поэт использует эти элементы в самых неожиданных ситуациях, в различных контекстах.

Данные фольклорные понятия на основе их определённых признаков используются как составные части уподоблений, эпитетов и метафор.

Благодаря гению Низами читатели видят и оценивают эти элементы в совершенно иных ракурсах и получают от них огромное удовольствие с эмоциональной точки зрения.

В статье на основе конкретных двустиший анализируются пословицы, поговорки, гадания, верования, предсказания как фольклорные жанры, мастерски используемые Низами в части «Шерефнаме» его поэмы «Искендернаме». Автор приходит к такому выводу, что гениальный поэт наряду с различными элементами глубоко изучил также и фольклор, мифологию и мастерски использовал их в своих произведениях.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Səhər Orucova tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLNARƏ BABA QIZI ƏHMƏDOVA
Filologiya elmləri namizədi, dosent
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

gulnar.ahmadb@gmail.com

ONLAYN TƏHSIL NÖVÜNÜN YARANMASI VƏ INKİŞAFI

XÜLASƏ

Məqalədə onlayn təhsil tarixinə qısa baxış, üçüncü nəsil onlayn təhsilin yaranması, bu sistemə keçidi şərtləndirən amillər, xarici dillərin tədrisində texniki vasitələrin artan rolu araşdırılır. Onlayn, distant və elektron təhsil, onların növləri, üstün və mənfi cəhətləri nəzərdən keçirilir. Müasir elektron təhsilin meydana gəlməsi XX əsrin səksəninci illərinin sonuna təsadüf edir. Bu sahədə ixtisaslaşan tədqiqatçılar İnformasiya Dövrü adlandırdıqları mərhələni iki dövrə ayırmışlar. 1990-1999 illərə təsadüf edən birinci dövr, tarixə elektron texnologiyanın böyük sürətlə yayıldığı mərhələ kimi daxil olmuşdur. Onlayn təhsilin həyata keçirilməsi ilə yanaşı külli miqdarda tədqiqat, tədris, ixtira, elektron əyləncə növləri və bir çox yeni proqramlar tətbiqinin inkişaf etdirilməsinə imkan yaranmışdır.

2000-ci illərin əvvəli internetin dünyanın əksər şəhərlərinə nüfuz etdiyi İnformasiya Dövrünün ikinci mərhələsinin başlanması ilə səciyyələnir. İkinci İnformasiya Dövrünün bütün sahələrə əhəmiyyətli dərəcədə təsir etməsi tədqiqatçılar tərəfindən təsdiq olunsa da, əslində məhz 2020-ci il dünya tarixinə öz damğasını vurdu. Bütün sistemin köklü surətdə qlobal dəyişikliyə uğradığı məhz 2020-ci ilin Üçüncü İnformasiya Dövrünün başlanğıcı olmasını qətiyyətlə iddia edə bilərik. Belə ki, bütün dünya ölkələri cəmiyyətin hər bir sahəsində Covid-19-un təsirinə məruz qaldı. Onlayn təhsil sisteminə müxtəlif platformalardan istifadə edərək müvəqqəti olsa belə keçid, təhsilin davam etdirilməsini təmin etdi. Yeni texnologiyaların tətbiqi xarici dillərin səmərəli tədrisi üçün yeni imkanlar yaratmış, həddindən artıq qısa bir zamanda onlayn təhsilə keçid texnologiyadan istifadəyə kəskin tələbatın artması ilə nəticələnmişdir. Respublikanın ən ucqar kəndlərindən belə olan tələbələr internet vasitəsilə dərslərə qoşulmaq imkanı əldə etmişlər. Nəticə olaraq, əsas məqsəd, şagird və tələbələri dəstəkləmək və onların dil biliklərini artırmaq üçün yüksək səviyyəli onlayn tədris platformalarından və müxtəlif tədris metodlarından istifadə etməkdir.

Açar sözlər: Onlayn təhsil, İnformasiya dövrü, texniki vasitələr, texniki xarici dil, distant təhsil

2020-ci ilin əvvəlində Covid-19 Pandemiyasının həyatımıza gözlənilməz müdaxiləsi ilə bütövlükdə yaşam tərzimiz əsaslı şəkildə dəyişikliyə uğradı. Sözügedən epidemiya virusunun qəfil müdaxiləsi əvvəlcə hamıda çaşqınlıq hissi yaratsa da, tez bir zamanda yeni tərzdə işləmək, təhsil almaq və hətta yaşamaq

yollarını axtarmağa vadar etdi. Pandemiyanın təsirinə əhəmiyyətli dərəcədə məruz qalan sahə isə məhz təhsil sektoru oldu. Belə ki, bu xəstəlik bütün dünyada məktəb və universitetlərin bağlanması ilə nəticələndi. Virusun tüğyan etdiyi ilk vaxtlar dünya üzrə 1,2 milyarddan çox məktəbli və milyonlarla tələbə universitetlərin bağlanması səbəbindən dərsdən kənar qaldı. Bu bəla Azərbaycandan da yan ötmədi və təhsil sahəsində ağır izlər buraxdı. Lakin Azərbaycan Təhsil nazirliyi çevik reaksiya göstərərək bir neçə həftə ərzində əyani təhsili rəqəmsal platformalar əsasında distant təhsil ilə əvəz etmək qərarı verdi. Beləliklə respublikamızda onlayn təhsil sistemi bərqərar oldu. Bu isə öz növbəsində şagird, tələbə və müəllim ordusunun informasiya texnologiyaları bilikləri ilə silahlanmasını şərtləndirdi. Belə ki, kompüterlə işləmək səriştəsi olmadan bu prosesi həyata keçirmək qeyri-mümkün olardı. Bu səbəbdən təhsillə bağlı hər bir kəs öz işinin öhdəsindən gəlmək üçün texniki vasitələrlə işləmək bacarıqlarına yiyələnməli oldu ki, bu da elektron təhsilin kəskin yüksəlişi ilə müşayiət olundu.

Koronavirusun bütün dünyada yaratdığı fəlakətin qarşısını almaq üçün təcili tədbirlər görülməli olduğundan, virtual dərs, video konfrans vasitələri, onlayn tədris proqramlarının istehlakında və tətbiq olunmasında böyük yüksəlişin şahidi olduq. Bu məqamda ingilis dilində Education Technology (EdTech) adlanan, yəni Təhsil texnologiyasına daha dəqiq desək, təhsildən və texnologiyadan qaynaqlanan, müəllimlərin rəhbərliyi altında təhsilin inkişafı, şagirdlərin nəticələrinin yaxşılaşdırılması və təhsilə dəstək olmaq üçün hazırlanmış proqram təminatından bəhs edən bu layihəyə ayrılan qlobal sərmayə miqyasını qeyd etmək kifayətdir. EdTech -ə qoyulan qlobal sərmayə 2019 -cu ildə 18.66 milyard ABŞ dollarına çatacaq qədər yüksək olsa da, 2025 -ci ilədək bu investisiyanın 350 milyard ABŞ dollarına qədər artacağı nəzərdə tutulmuşdur. Bu miqyasda investisiya məbləği təhsil sahəsindəki yeni texnoloji tətbiqlərin əhəmiyyətini bir daha sübut edir. Ümumiyyətlə, təhsil ocaqlarını interaktiv proyeksiya ekranları, auditoriya üçün planşetlər, ağıllı lövhə və masalarla təchiz etməklə EdTech-in əsas məqsədi şagirdlərin biliklərini artırmaq, fərdi təhsili təkmilləşdirmək və müəllimlərin işini daha səmərəli etməkdir. Bu fəaliyyət özünü pandemiya dövründə tələbə və şagirdlər təhsil ocaqlarına gedə bilmədiyi təqdirdə təlimçi və müəllimlərə mühazirə oxumaq, seminar keçirmək, vebinar və sorğular təşkil etmək və s. imkanlar yaratmaqla bariz şəkildə göstərdi. Müəllimlər dərslərini həm evdən, həm də təhsil ocaqlarından keçə bildilər. Evdə qalmaq məcburiyyəti təhsilin davam etdirilməsinə əngəl ola bilmədi və dərslərin onlayn olaraq keçirilməsi ilə çıxış yolu tapıldı. Beləliklə, Zoom, WebEx, Microsoft Teams, və s. kimi bir çox yeni platformalar, qısa müddətdə geniş yayıldı və bu da problemin həllində müəllimlərə böyük dəstək oldu.

Müasir dövrdə distant təhsil, elektron təhsil və onlayn təhsil kimi tez-tez istifadə olunan ifadələr bir-birinə bənzəsə də, əslində tamamilə fərqli modellərdir. Təhsilin bu üsulunun tədqiqatına qısa bir baxış, onlayn təhsilin meydana çıxması ilə bağlı diqqətçəkən faktları üzə çıxarır. [2,səh.188]. Distant təhsilin tarixi 1728 -ci il, ABŞ-

ın Massaçusets ştatının Boston şəhərində poçtla göndərilən tapşırıqlar vasitəsilə intensiv təhsil almaq niyyətində olan tələbələr üçün həftəlik dərslər təşkil etmək cəhdlərindən başlanır. İngilis dilini tədris edən müəllimlərin marağına səbəb ola biləcək maraqlı fakt ondan ibarətdir ki, müasir mənada distant təhsil adlandırılan ilk kurs dərsləri 1840-cı illərdə ingilis dili müəllimi Isaac Pitman tərəfindən yaradılmışdı. Tarixə "Pitman stenoqrafiyası" kimi düşən bu metodun mahiyyəti tələbələrə göndərilən mətnlərin transkripsiyasını yazmaq tapşırığından, daha sonra isə onların səhvlərini düzəliş edib geri göndərməkdən ibarət idi. Verilən suallara cavabların göndərilməsi öz dövrü üçün yazışma sistemində diqqətəlayiq bir yenilik sayılırdı.

XX əsrin səksəninci illərinin sonu və doxsanıncı illərin əvvəllərində ilk elektron təhsil formasının meydana gəlməsi ilə kompüter əsaslı təlimin (Computer –Based Training qısa olaraq CBT), yəni bugünkü elektron təhsilin təməl daşı qoyuldu. CBT sistemində fərdi kompüter hər hansı bir multimedia vasitəsinə bağlanmaqla aktivləşdirilir.

Onlayn təhsil sistemi nisbətən yaxın keçmişdə, 1985 -ci ildə ABŞ -ın Florida ştatındakı Nova Cənub-Şərq Universitetinin ilk akkreditə olunmuş onlayn magistr proqramını təklif etməklə meydana çıxdı, halbuki əvvəlki təhsil sistemi tamamilə "qapalı şəbəkədən" ibarət idi. O vaxtdan bəri onlayn dərslər digər dünya universitetləri arasında yayılmağa başladı. Bu sahədə ilk dəfə olaraq qabaqcıl tədqiqatların və ali təhsilin təşviqinə yönəlmiş yeni bir kompüter şəbəkəsi Milli Elm Vəqfi Şəbəkəsi – NSFNET (The National Science Foundation Network) yarandı. NSFNET-in əsas funksiyası super kompüter mərkəzlərinə çıxışı təmin edən bir mərkəz kimi xidmət etməkdən ibarət idi. Daha sonra 1986-cı ildə Elektron Universitet Şəbəkəsi tərəfindən təqdim edilən DOS istifadəsi üçün ilk kurs, ABŞ-ın Arizona ştatının Feniks Universiteti tərəfindən onlayn dərəcə proqramının açılması ilə davam etdirildi.

Lakin internetin ticarət perspektivlərinin kök salmağa başladığı İnformasiya Dövrü adlanan 1990-1999 illər tarixə texnologiyanın böyük sürətlə yayılan ilk mərhələsi kimi daxil oldu. Onlayn təhsillə yanaşı digər şirkətlər yeni növ əyləncə, tədris, tədqiqat və ixtira üsullarına öncülük etmək üçün internetdən istifadə etməyə başladılar. Onlayn təhsil tarixinə qısa bir nəzər bir neçə faktı ortaya çıxarır, yəni 1991-ci ildə yaranan WWW (World Wide Web - dünya şəbəkəsi), bu gün istehlak etdiyimiz internet istifadəsinə və onlayn təhsilə imkan verdi. Bir il sonra Elektron Universitet Şəbəkəsi America Online vasitəsilə PhD doktorantura proqramını təklif etdi. Artıq Avropa ölkələrinin hətta ən ucqar yerlərindən belə İnternetə qoşulmaq imkanı təmin olunmuşdu.

İnternetin Bakı da daxil olmaqla dünyanın əksər şəhərlərində geniş vüsətlə yayıldığı İnformasiya Dövrünün ikinci mərhələsi 2000-ci illərə təsadüf edir. Tədqiqatçılar ikinci İnformasiya Dövrünün bütün aləmə əhəmiyyətli dərəcədə təsir etdiyini iddia etsələr də, əslində məhz 2020-ci il dünya tarixinə öz damğasını vurdu.

Bütün sistemin köklü surətdə dəyişikliyə uğradığı 2020-ci ilin Üçüncü İnformasiya Dövrünün başlanğıcı olmasını qətiyyətlə iddia edə bilərik. Belə ki, Covid-19-un həqiqətən də seysmik təsirinə Azərbaycan da daxil olmaqla bütün dünya ölkələri məruz qaldı və bu mərhələ öz fəna nəticələri ilə tarixə düşdü. İnsanlar onlayn ünsiyyət vasitəsinin kəskin sıçrayışı ilə nəticələnən onlayn təhsil almaq, ticarət etmək, ümumiyyətlə işləmək məcburiyyəti ilə üzləşdilər. Məktəb, kollec və universitetlərdə dərslər müxtəlif platformalardan internet vasitəsilə qoşularaq davam etdirildi. Nəticədə, kompüterdən istifadə bacarıqları bir qədər az olan müəllimlər, dərslərini onlayn şəkildə keçirmək üçün yeni texnologiyaları öyrənmək məcburiyyətində qaldılar.

Respublikanın bir sıra təhsil ocaqları kimi Azərbaycan Dövlət Neft və Sənaye Universiteti onlayn təhsil sistemini təşkil etmək məqsədilə öz seçimini təkmilləşdirilmiş ünsiyyət və əməkdaşlıq platformasına malik olan Microsoft Teams üzədində dayandırdı. Məhz bu platforma mühazirə oxumaq, praktik məşğələ dərslərini keçirmək, video və təqdimat, dərs prosesi zamanı istifadə olunan şəkil, cədvəl, slayd, video, xəritə və s. nümayiş etdirmək, iclas və işgüzar danışıqlar aparmaq, vebinarlar təşkil etmək və digər fəaliyyət növlərini həyata keçirmək üçün daha etibarlı və səmərəli olduğunu sübut etdi. Zoom platforması ilə müqayisədə Microsoft Teams-ın digər əhəmiyyətli üstünlüyü dərs müddətinə məhdudiyyət qoyulmaması, dərsin mühüm məqamında vaxtın bitəcəyi və əlaqənin kəsiləcəyi qorxusunun olmamasıdır. Universitet qrupları, müəllim və tələbə heyəti bu tədris platformasına İnformasiya Texnologiyaları inzibatçısı və ya təlimatçısı tərəfindən yaradılan əlaqə vasitəsilə qoşularaq dərs keçirdilər. Hər bir qrup üçün yaradılmış dərs cədvəli sayəsində tələbələr nəqliyyata vaxt sərf etmədən, müdhiş xəstəliyə yoluxmaya məruz qalmadan dərslərdə iştirak edirdilər. Hal-hazırda tələbə sıxlığını aradan qaldırmaq məqsədilə növbəli şəkildə onlayn qoşulan tələbələr dərsləri canlı olaraq izləmək və fəal iştirak etmək imkanına malikdirlər.

Funksiyaları ətraflı şəkildə izah edən təlimatlandırıcı videolar canlı yayım zamanı yaranan çətinlikləri aradan qaldırmağa imkan verir. Əsas məqsədi tələbələrin bilik səviyyəsini yüksəltmək olan texnoloji təhsil, bütün təhsil sisteminin inkişafına gətirib çıxarır. Sənayenin inkişafı təhsildə texniki imkanların tətbiqinə geniş imkanlar yaradır və onun səmərəliliyinin bariz nümunələri danılmazdır. Müasir texniki avadanlıqla təchiz olunmuş web auditoriyalar məlumatların dərhal axtarışını təmin edir, əlavə olaraq həm müəllimlər, həm də tələbələr öz tədqiqat işlərini, təqdimat, tapşırıq və s. bölüşmək imkanına malikdirlər. Texniki Universitetlərdə ESP, Xüsusi Məqsədlər üçün İngilis dili tədris olunur. Yeni texnologiyalardan istifadə etməklə EPP - Professional məqsədlər üçün İngilis dili kursunu daxil etmək tələbələrin dil biliklərini təkmilləşdirməyə yardım edir. Bütün elmi yeniliklər ingilis dilində təqdim olunduğundan, gənc nəslin onlardan xəbərdar olması dil bilgisi olmadan mümkün deyil. Nəticə etibarilə, xarici dilin yüksək səviyyədə tədrisi və

öyrənilməsi müasir texniki yardım olmadan qənaətbəxş olmadığı fərziyyəsi artıq özünü doğrultmuşdur.

Fərdi, cüt və komanda şəklində təşkil olunan tapşırıqlar interaktiv metodun yeni növlərinin yaranmasına səbəb oldu. Yeni termin və ifadələrin öyrənməsi texniki ingilis dilinin ayrılmaz hissəsidir. İngilis dilindən alınma və ya Latın mənşəli terminlərdən əksəriyyəti beynəlxalq söz statusuna malik olduğundan Azərbaycan dili daxil olmaqla əksər dünya dillərinə tərcümə olunmur. Məsələn, dilçilik baxımdan cəlbedici olan brauzer, konqlomerat, konsensus, korporativ, komisyon və xeyli miqdarda digər sözlər ayrı-ayrı sahələrdə işləndiyi üçün onların geniş izahı və şərhinə ehtiyac duyulur [1,3]. Bu məqamda texnoloji vasitələrlə təchiz olunmuş auditoriyada keçilən dərslər keyfiyyət baxımından şübhəsiz ki, daha yüksək səviyyəyə çatır. Araşdırılan yeni sözün yalnız tərcüməsi deyil, həmçinin törəmələri, söz birləşmələri, tərifi, izahlı şərhi, sinonim, homonim və antonimlərinin, etimologiya və tarixinin, müxtəlif nitq hissələri kimi işlənməsinin, cümlə nümunələrinin daha rəngarəng, effektli və hərtərəfli təqdim olunmasına imkan yarandı. Bir sıra hallarda öyrənilən terminin hərtərəfli izahından əlavə, bütün prosesi vizual izləməyə ehtiyac duyulduğu təqdirdə video filmlərin nümayiş etdirilməsi baxımından internetin köməyi əvəzolunmazdır. Məsələn, təhlükəsizlik sistemləri, plastikdən hazırlanan məhsulların qəliblənməsi, neft və qaz hasilatı, qaynaq prosesi, gen cihazının funksiyası, neft buruqlarının quruda və dənizdə qurulması və digər proseslərin geniş spektri onlayn videolarda detalları ilə göstərildikdə bütün texnoloji prosesin daha ətraflı təhlil olumasına, qavranılmasına və yaddaşda saxlanmasına səbəb olur. [5, 6]

Yeni texnologiyalar dil vərdişlərinin ayrılmaz hissəsi olan dinləmə və video materiallarının şagird və tələbələrə ötürülməsində əhəmiyyətli rol oynadığını sübut etdi. Ali məktəb müəllimləri dilin qrammatikasını mükəmməl bilən, müəyyən lüğət ehtiyatına malik olan, lakin tələffüzü və nitqi zəif, bəzi hallarda hətta anlaşılmaz dərəcədə olan tələbələrlə dəfələrlə qarşılaşmışlar. Bir tərəfdən test sisteminin, digər tərəfdən isə ucqar bölgələrdə texniki avadanlığın olmaması ilə şərtlənən vəziyyət həmin tələbələrin nə müəllimin, nə də həmyaşıdlarının xarici dildə nitqini anlamaması ilə nəticələnmişdir. Təcrübə göstərir ki, cəmi bir ay ərzində audio və video materiallarından yararlanan tələbələr tələffüzlərini inkişaf etdirir və nitq qüsurlarından qismən bəzi hallarda isə tamamilə azad olurlar. Bu fakt dərsdə audio materialları dinləməyin əhəmiyyətini bir daha sübut edir. Yeni texnologiyalar sayəsində eyni mətn üç sürət rejimində (yavaş, normal və sürətli) istənilən qədər dinlənilə bilər. Nəticə etibarilə, bu, bilik səviyyəsi müxtəlif olan tələbələrə onlara uyğun və ya arzu etdikləri tezliyi seçmə imkanı verir və tədricən daha sürətli səviyyəyə hazırlayır. Dərslər onlayn keçirildikdə belə müəllim tələbələrə nəinki tədris planına uyğun dinləmə materialları verə bilər, həm də tələbələrin istəklərinə uyğun olaraq onları seçilmiş audio tapşırıqlarla təmin edə bilər ki, bunun da

əhəmiyyəti danılmazdır. Maraq üzərində qurulan təhsilin akademik müvəffəqiyyət qazanmanın əsas mahiyyətini təşkil etməsi təkzibolunmaz amildir.

İnternetlə təchiz olunmuş auditoriyalar müxtəlif oxu materialları və texniki məqalələri əldə etmək üçün geniş imkanlar açdı. Mətndən seçilmiş terminləri mənasına görə ayrılmış boşluqlara yerləşdirmək, cümlələri və ya abzasları məna ardıcıllığına riayət edərək mövqeyini dəyişmək, mətn qurmaq, hər bir abzasa yarımsərlövhə seçmək kimi tapşırıqlar texniki mətnlərin dərindən qavranılmasına kömək olur. Və burada kompüterin üstünlüyü ondan ibarətdir ki, proqram təchizatı sərlövhələrə uyğun mətnin hissələrini birləşdirərkən səhv ardıcıllığı düzəltmək üçün verilən variantları dəfələrlə sınaqdan keçirməyə imkan verir. Tədqiqatlar nəticəsində eyni oxu materialının kompüter vasitəsi ilə təqdim edildikdə çap olunmuş versiyası ilə müqayisədə daha cəlbedici və əyləncəli olması, tələbələrin bu prosesdə iştirak müddətinin xeyli uzanması, müzakirə olunan mövzuya daha dərin maraq göstərilməsi; tapşırıqların daha qısa müddətdə yerinə yetirilməsi məlum olmuşdur.

Texnoloji nailiyyətlərin gətirdiyi yenilik və üstünlüklərlə yanaşı onların sağlamlığa vurduğu zərbəni də nəzərdən qaçırmaq olmaz. Kompüterdən asılılığın onurğa əyriliyi, görmə zəifliyi, emosional gərginlik və digər fəsadlara gətirib çıxarması danılmaz amildir. S.R.Esteras və E.M.Fabre kompüterdən istifadə zamanı erqonomika, yəni avadanlıqdan iş zamanı təhlükəsiz və səmərəli şəkildə istifadə qaydalarına düzgün riayət məsələlərinə müfəssəl aydınlıq gətirirlər. Dərs zamanı və ya işləyərkən mütəmadi olaraq tənəffüs etmək, kompüter arxasında oturarkən monitorla göz arasındakı məsafəni qorumaq, onurğanı düz tutmaq, kətili uyğun hündürlükdə tənzimləmək qaydalarına riayət sağlamlığın rəhnini şərtləndirən mühüm amillərdir. Kompüterin monitorunu göz səviyyəsində və ya azacıq aşağıda yerləşdirərək ondan 40-80 sm aralı oturmaq, radiasiya şüalanmasını xeyli dərəcədə azaldan maye kristal monitordan istifadə etmək sağlamlığa vurulan zərəri xeyli azalda bilər. Bu sahədə müəllimlərin şagird və tələbələri maarifləndirməsi ümdə məsələlərdən biridir.

Onlayn təhsilin daha bir mənfi cəhəti dərs zamanı şagird və tələbələrin verilən sualın cavabını bir sıra mənbələrdən istifadə edərək asanlıqla tapmasıdır. Bunu müəyyənləşdirmək çətin olduğundan biliyin qiymətləndirilməsi tam obyektiv olmaya bilər.

Müasir texnologiyalar nitq qabiliyyətini inkişaf etdirmək üçün bir çox imkanlar təqdim edir. Müxtəlif saytlar bütün səviyyələr üçün nəzərdə tutulmuş nitq təmrinləri, situasiya, sual-cavab və s. fəaliyyət növləri təklif edir. Burada proqram təchizatı dil öyrənənin səsini qeydə alır, daha sonra düzgün nitqlə müqayisə edərək əyani şəkildə dinləyiciyə nümayiş etdirir. Doğrudur, kompüter ünsiyyət üçün hələlik canlı bir müsahibi tam olaraq əvəz edə bilməsə də, bu çatışmazlıq saysız -hesabsız çalışma növləri, müxtəlif mövzu, tematik situasiya və dialoqlarla kompensasiya olunur. İngilis dilinin ikinci dil kimi, bir sıra tədris ocaqlarında isə üçüncü dil olaraq tədris olunduğu bir vaxtda həmin müasir proqram təminatlarının rolu əvəzsizdir.

Hal -hazırda müxtəlif saytlar xarici dil öyrənənlər üçün lüğət və qrammatik göstərişlər daxil olmaqla oxu, yazı, dinləmə, nitq vərdişlərini aşılayan saysız-hesabsız tədris video filmləri, audio kitab, qrammatik qaydaların izahı, düzgün tələffüz nümunələrindən ibarət tədris materialları təqdim edir. Bütün bu vasitələrdən ənənəvi və onlayn dərslər zamanı səmərəli şəkildə istifadə etməklə dil dərslərinin daha yüksək səviyyədə tədrisini təmin etmiş olarıq.

Ədəbiyyat

1. Business Vocabulary in Use Intermediate, B.Mascull, Cambridge University Press, UK, 2010
2. Hubackova S., History and Perspectives of E-learning. Procedia-Social and Behavioral Sciences, 2015, p 189
3. Professional English in Use, ICT for Computers and the Internet, S. R. Esteras, E.M.Fabre, Cambridge University Press, UK, 2007
4. Santiago Remacha Esteras Infotech English for Computer Users Cambridge, 2009
5. Technical Aid in Science and engineer: Passbooks Study Guide. National Learning Corporation, 2014
6. Technical English 3,4. D. Bonamy, Pearson Longman, 2011
7. Штурба Я. Ю. Филологические науки. Вопросы теории и практики Тамбов: Грамота, 2012. № 7 (18)

Gulnara Baba Ahmadova

ORIGIN AND DEVELOPMENT OF ONLINE EDUCATION

SUMMARY

The article reviews the history of online education, the emergence of the third-generation online education, the factors leading to this education system, the growing role of technical facilities in teaching foreign languages. Online, distance and e-learning, their types, advantages and disadvantages have been reviewed. The origin of modern e-learning dates back to the late eighties of the twentieth century. Researchers specializing in this field have divided the Information Age into two periods. The first period, which concurred on 1990-1999, went down in history as a period of rapid spread of technology. Along with the implementation of online education, there emerged an opportunity to develop a large number of various research and educational work, inventions, e-entertainment and many other new applications.

The early 2000s that is marked with the beginning of the second phase of the Information Age, is the period when the Internet penetrated most cities all around the world. Although researchers have confirmed that the Second Information Age has a significant impact on all areas, in fact, it is the year 2020 that has left its trace on world history. We can confidently claim that 2020 is the beginning of the Third Information Age, when the whole system has undergone a crucial transformation. Thus, all the world countries have been affected by Covid-19 in every sphere of society, including education. The transition to an online education system using a variety of platforms has allowed education to proceed, albeit temporarily. The introduction of new technologies having created new opportunities for the effective teaching of foreign languages, and the transition to online education in a very short period of time has resulted in a sharp increase in the consumption of technology. Students from even the most remote villages of the country have had the opportunity to join classes via the Internet. Consequently, the main goal nowadays is to use high-level online learning platforms and various teaching methods to support pupils and students and increase their language skills.
Keywords: Online learning, Information age, technical facilities, EdTech, distance learning

Гюльнара Баба кызы Ахмедова

ПРОИСХОЖДЕНИЕ И РАЗВИТИЕ ОНЛАЙН ОБРАЗОВАНИЯ
РЕЗЮМЕ

В статье рассматривается история онлайн-образования, третье поколение онлайн-образования, факторы, приводящие к этой системе образования, растущая роль технических средств в обучении иностранным языкам. Рассмотрены онлайн, дистанционное и электронное обучение, их виды, преимущества и недостатки. Зарождение современного электронного обучения датируется концом восьмидесятых годов двадцатого века. Исследователи, специализирующиеся в этой области, разделили информационный век на два периода. Первый период, пришедшийся на 1990–1999 годы, вошел в историю как период стремительного распространения технологий. Наряду с внедрением онлайн-образования появилась возможность разработать огромное количество различных исследовательских и образовательных работ, изобретений, электронных развлечений и многих других новых приложений.

Начало 2000-х годов, ознаменованное началом второго периода информационной эры, является периодом, когда Интернет проник в большинство городов по всему миру. Хотя исследователи подтвердили, что Второй информационный век оказывает значительное влияние на все области,

на самом деле именно 2020 год оставил свой след в мировой истории. Мы можем с уверенностью утверждать, что 2020 год является началом Третьей информационной эпохи, когда вся система подверглась решающему преобразованию, так как, во всех сферах жизни общества, включая образование все страны мира пострадали от Covid-19. Переход к системе онлайн-образования с использованием различных платформ позволил хотя и временно продолжить обучение. Внедрение новых технологий, открывшее новые возможности для эффективного обучения иностранным языкам, и переход к онлайн-обучению за очень короткий период времени привели к резкому увеличению потребления технологий. Студенты даже из самых отдаленных деревень страны имели возможность присоединиться к занятиям через Интернет. Следовательно, основной целью в настоящее время является использование платформы онлайн-обучения высокого уровня и различные методы обучения для поддержки учеников и студентов и повышения их языковых навыков.

Ключевые слова: онлайн-обучение, информационный век, технические средства, техническое образование, дистанционное обучение

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Lalə Məsimova tərəfindən çapa tövsiyə olunmuşdur

ŞAKİR CƏFƏROV,
filologiya üzrə fəlsəfə doktoru
ceferov.shakir@yandex.ru

MİR CƏLALIN HEKAYƏ VƏ ROMANLARI HƏYATI PROBLEMLƏR QALDIRAN TƏRBIYƏVI ƏSƏRLƏRDIR

Xülasə

Mir Cəlal çox gözəl realist yazıçı idi. Onun özünəməxsus, bənzərsiz fərdi üslubu, yazı tərzi var idi. Bu mənada onu kimsəyə bənzətmək mümkün deyil. Amma Mir Cəlalı ədəbi prinsipinə, həyatı təsvir üsulu və metodlarına görə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev kimi XX əsr realistlərinin davamçısı saymaq olar. Ədib əsərlərin başlıca bədii məziyyəti ondan ibarətdir ki, hansı quruluşda yazılmasından asılı olmayaraq, həyat həqiqətini ifadə edir və xalqının rəğbətini qazanmışdır.

Azərbaycan romanının inkişafında, məzmun və formaca zənginləşməsində onun da xidmətləri az olmamışdır. Romanlarından üçünün mövzusu keçmiş, üçününkü isə müasir həyatdan alınmışdır. Mir Cəlalın əsas hekayə və romanları həyati problemlər qaldıran, mənəvi-əxlaqi və ictimai-sosial məsələlər əks etdirən oxunaqlı, məzmunlu, tərbiyəvi əsərlərdir. Yaradıcılığının digər aparıcı qolunu elmi və tənqidi fəaliyyəti təşkil edir. O, bu sahədə də heç kəsə bənzəməyən üslubu ilə seçilmiş, özünəlayiq önəmli yer və mövqe tutmuşdur.

Mir Cəlalın əsas hekayə və romanları həyati problemlər qaldıran, mənəvi-əxlaqi və ictimai-sosial məsələlər əks etdirən oxunaqlı, məzmunlu, tərbiyəvi əsərlərdir. Ümumiyyətlə, folklordan, xüsusən, onun bu "aforistik təfəkkür" növündən Mir Cəlal da çox şey öyrənib faydalanmışdır. Bir çox atalar sözü və məsəllər ədibin bəzi əsərlərinin bir növ ideya özəyini təşkil edir. Məsələn, "Oğul" hekayəsində "Kölgədə bitən ağacın kölgəsi olmaz" kəlamı epiqraf kimi götürülüb, hər kəsin öz zəhməti, qabiliyyəti sayəsində ucalması, hörmət və şöhrət qazanması, xalq və cəmiyyət üçün faydalı olması fikri əks etdirilir. "Yalan ayaq tutar, yeriməz" aforizmi "Yalan yeriməz" hekayəsinin meydana gəlməsinə səbəb olmuşdur. "İbrətli sözlər" silsiləsindən "Pul tapmışdım" hekayəsinin əsasında "Haram pul ev dağıdar", "Xatalı adam"da isə "Çağırılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə" hikməti dayanır və s

Açar sözlər: realist yazıçı, dəyərli hekayələr, başgirləyən müəllimlər, lakonik forma, istedadlı romançı

XX əsr Azərbaycan ədəbiyyatında Mir Cəlal hekayə və romanlar müəllifi kimi tanınmışdır. Yazıçının hekayələrində həyatın dərin qatlarına enilir, köhnəliklə yeniliyin mübarizəsi, inkişafa mane olanların tənqidi önə çəkilir. Kəskin tənqidi-satirik ruhu ilə seçilən və sənətkarlıq baxımından qüvvətli "Açıq kitab" romanında isə dövrün əsas qüsuru kimi "gəldiyevçilik" əsl bədii fəlsəfi ümumiləşmə səviyyəsində ifşa olunur.

Mir Cəlal çox gözəl realist yazıçı idi. Onun özünəməxsus, bənzərsiz fərdi üslubu, yazı tərzi var idi. Bu mənada onu kimsəyə bənzətmək mümkün deyil. Amma Mir Cəlalı ədəbi prinsipinə, həyatı təsvir üsulu və metodlarına görə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev kimi XX əsr realistlərinin davamçısı saymaq olar. Ədib əsərlərin başlıca bədii məziyyəti ondan ibarətdir ki, hansı quruluşda yazılmasından asılı olmayaraq, həyat həqiqətini ifadə edir və xalqının rəğbətini qazanmışdır. 30-cu illərdə ədəbiyyata "Mirzə", "Həkim Cinayətov", "Mərkəz adamı", "Kağızlar aləmi","Təzə toyun nəzakət qaydaları", "Bostan oğrusu", "Kələntərovlar ailəsi", "Anket Anketov" tipli dəyərli hekayələr gətirmiş Mir Cəlal tənqid oxunu hədəfə qarşı cəsarətlə yönəldə bilirdi.

Mir Cəlalın yaradıcılığında başlıca tədqiq və inikas obyekti, hər şeydən əvvəl, insandır. Onun mənəvi dünyası, fikri hissi həyatı,mübarizə və fəaliyyətidir. Ədibin əlvan, zəngin sənət qalereyasında yaddaqalan surətlər az deyil. Bəbir bəy, Qədir, Qumru ("Dirilən adam"), Mərdan, Bahar, Sona, Hacı İbrahim Xəlil ("Bir gəncin manifesti"), Vahid, Sadıq kişi, Kərim Gəldiyev, Rübabə ("Açıq kitab"), Kərimzadə Səlim, Nəriman ("Yaşıdlarım"), Yunis ("Təzə şəhər"), Sabir, Əntiqə, Bəndalı ("Yolumuz hayanadır") və başqaları həmin yolla yaradılmışdır.

Mir Cəlalın əsas hekayə və romanları həyati problemlər qaldıran, mənəvi-əxlaqi və ictimai-sosial məsələlər əks etdirən oxunaqlı, məzmunlu, tərbiyəvi əsərlərdir. Ümumiyyətlə, folklordan, xüsusən, onun bu "aforistik təfəkkür" növündən Mir Cəlal da çox şey öyrənib faydalanmışdır. Bir çox atalar sözü və məsəllər ədibin bəzi əsərlərinin bir növ ideya özəyini təşkil edir. Məsələn, "Oğul" hekayəsində "Kölgədə bitən ağacın kölgəsi olmaz" kəlamı epiq kimi götürülüb, hər kəsin öz zəhməti, qabiliyyəti sayəsində ucalması, hörmət və şöhrət qazanması, xalq və cəmiyyət üçün faydalı olması fikri əks etdirilir. "Yalan ayaq tutar, yeriməz" aforizmi "Yalan yeriməz"hekayəsinin meydana gəlməsinə səbəb olmuşdur. "İbrətli sözlər" silsiləsindən "Pul tapmışdım" hekayəsinin əsasında "Haram pul ev dağıdar", "Xatalı adam"da isə "Çağırılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə" hikməti dayanır və s. Yaradıcılığının digər aparıcı qolunu elmi və tənqidi fəaliyyəti təşkil edir. O, bu sahədə də heç kəsə bənzəməyən üslubu ilə seçilmiş, özünəlayiq önəmli yer və mövqe tutmuşdur.

XX əsr Azərbaycan ədəbiyyatında Mir Cəlal hekayə və romanlar müəllifi kimi tanınmışdır. Yazıçının hekayələrində həyatın dərin qatlarına enilir, köhnəliklə yeniliyin mübarizəsi, inkişafa mane olanların tənqidi önə çəkilir. Kəskin

tənqidi-satirik ruhu ilə seçilən və sənətkarlıq baxımından qüvvətli "Açıq kitab" romanında isə dövrün əsas qüsuru kimi "gəldiyevçilik" əsl bədii fəlsəfi ümumiləşmə səviyyəsində ifşa olunur. Mir Cəlal çox gözəl realist yazıçı idi. Onun özünəməxsus, bənzərsiz fərdi üslubu, yazı tərzi var idi. Bu mənada onu kimsəyə bənzətmək mümkün deyil. Amma Mir Cəlalı ədəbi prinsipinə, həyatı təsvir üsulu və metodlarına görə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev kimi XX əsr realistlərinin davamçısı saymaq olar. Ədib əsərlərin başlıca bədii məziyyəti ondan ibarətdir ki, hansı quruluşda yazılmasından asılı olmayaraq, həyat həqiqətini ifadə edir və xalqının rəğbətini qazanmışdır.

Yazıçı özünəməxsus realist qələmlə savadsız mirzələri, başgirləyən müəllimləri, cinayətkar həkimləri, "mərkəz adamı" Əntərzadələri, arvad alıb boşamaqla varlanan Balaxanları, mənəviyyatca pozulub "murdar cənazə"yə çevrilən Səadət xanımları, "nəzakət" pərdəsi altında çirkin simalarını gizlədənləri, bürokrat Anket Anketovları vəziyyət və şərait konkretliyində rüsvay edib, oxucuya tanıdırdı.

Yumoristik və satirik əsərlərində lirika olduğu kimi, lirik əsərlərində də çox vaxt mənalı gülüş, tənqidi ruh vardı. "Qonaqpərəst", "Dost görüşü", "Vicdan əzabı"və "Müalicə"dən ibarət "Həkim hekayələri" (1938-1939) silsiləsində yazıçı yalnız mənəviyyatca yox, fiziki cəhətdən də sağlam adamlar yetişdirməyi vacib sayır, bədii əyaniliklə zərərli vərdiş, yanlış etiqad və əxlaqi naqislik hallarına qarşı çıxırdı. Mir Cəlalın müxtəlif səciyyəli çoxlu hekayələri içərisində realizmi səthi olanları da var. Amma ədib çox zaman çalışırdı ki, dərinə nüfuz etsin, ziddiyyətləri araşdıranda dolaşıq və dumanlı təsvirlərə uymasın, təmiz, sadə və aydın dildə yazsın. Sənətin, yeri gələndə işarə və simvollarla danışmaq səlahiyyətini də unutmurdu. Mir Cəlal uzunçuluğu, sözçülüyü xoşlamır, yığcam, konkret və təbii yazırdı. Bu, onun üslub xüsusiyyəti idi. Bütün bunları başqalarına da tövsiyə edir, imkan düşdükcə öyrədir, müzakirə və redaktə zamanı köməyini əsirgəmirdi. Təsadüfi deyil ki, akademik Məmməd Arif Mir Cəlalın əsərlərindən aldığı xoş, güclü, unudulmaz təəssüratın başlıca səbəbini, hər şeydən əvvəl, onun üslubundakı səmimiyyət, sadəlik və təbiiliklə bağlayır, bu cəhəti ən yaxşı yazıçılara xas keyfiyyət kimi yüksək qiymətləndirirdi. Mir Cəlal həm də istedadlı romançı idi; qələmindən "Dirilən adam" (1934-1935), "Bir gəncin manifesti" (1939), "Açıq kitab" (1941), "Yaşıdlarım" (1946-1952), "Təzə şəhər" (1948-1950), "Yolumuz hayanadır" (1952-1957) kimi romanlar çıxmışdır.

Azərbaycan romanının inkişafında, məzmun və formaca zənginləşməsində onun da xidmətləri az olmamışdır. Romanlarından üçünün mövzusu keçmiş, üçününkü isə müasir həyatdan alınmışdır. Maraqlı süjet qurmaq, hadisələri və obrazları təbii məcrada qələmə almaq, mətləbi yığcam, konkret və lakonik formada ifadə etmək bacarığı bu əsərlərin hər birində özünü göstərir.

"Açıq kitab" satirik roman olsa da, lirik və dramatik məqamları da az deyil. Mir Cəlal həyatı əks etdirdiyi, həyatın təzadlarını açdığı, nsan münasibətlərinin kon-

kret vəziyyət və şərait daxilindəki xarakterini, gözəllik və çirkinliyin mahiyyətini göstərdiyi üçün həmin cəhətlər çox vaxt əlaqəli şəkildə real təzahürünü və bədii təcəssümünü tapmışdır.

Mir Cəlalın yaradıcılığında başlıca tədqiq və inikas obyekti, hər şeydən əvvəl, insandır. Onun mənəvi dünyası, fikri-hissi həyatı, mübarizə və fəaliyyətidir. Ədibin əlvan, zəngin sənət qalereyasında yaddaqalan surətlər az deyil. Bəbir bəy, Qədir, Qumru ("Dirilən adam"), Mərdan, Bahar, Sona, Hacı İbrahim Xəlil ("Bir gəncin manifesti"), Vahid, Sadıq kişi, Kərim Gəldiyev, Rübabə ("Açıq kitab"), Kərimzadə Səlim, Nəriman("Yaşıdlarım"), Yunis ("Təzə şəhər"), Sabir, Əntiqə, Bəndalı ("Yolumuz hayanadır") və başqaları həmin yolla yaradılmışdır.

Mir Cəlalın əsas hekayə və romanları həyati problemlər qaldıran, mənəvi-əxlaqi və ictimai-sosial məsələlər əks etdirən oxunaqlı, məzmunlu, tərbiyəvi əsərlərdir. Ümumiyyətlə, folklordan, xüsusən, onun bu "aforistik təfəkkür" növündən Mir Cəlal da çox şey öyrənib faydalanmışdır. Bir çox atalar sözü və məsəllər ədibin bəzi əsərlərinin bir növ ideya özəyini təşkil edir. Məsələn, "Oğul" hekayəsində "Kölgədə bitən ağacın kölgəsi olmaz" kəlamı epiqraf kimi götürülüb, hər kəsin öz zəhməti, qabiliyyəti sayəsində ucalması, hörmət və şöhrət qazanması, xalq və cəmiyyət üçün faydalı olması fikri əks etdirilir. "Yalan ayaq tutar, yeriməz" aforizmi "Yalan yeriməz" hekayəsinin meydana gəlməsinə səbəb olmuşdur. "İbrətli sözlər" silsiləsindən "Pul tapmışdım" hekayəsinin əsasında "Haram pul ev dağıdar", "Xatalı adam"da isə "Çağırılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə" hikməti dayanır və s.

Yaradıcılığının digər aparıcı qolunu elmi və tənqidi fəaliyyəti təşkil edir. O, bu sahədə də heç kəsə bənzəməyən üslubu ilə seçilmiş, özünəlayiq önəmli yer və mövqe tutmuşdur. (Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384 səh.)

Əhəd Hüseynovun Mir Cəlalın bədii nəsrinə marağının əsasında yazıçının hekayə yaradıcılığı dayanır. Lakin bu, ədəbiyyatşünas alimin görkəmli yazıçının romanları haqqında öz elmi mövqeyini ortaya qoymağa mane olmur. “Sadəlik və səmimilik” məqaləsində **(“Azərbaycan”, 1958, №4)** Mir Cəlalın bədii nəsri janr müxtəlifliyi kontekstində araşdırılaraq ümumiləşdirilmiş, sənətkarın oçerkdən hekayəyə, hekayədən romana qədər gələn yaradıcılıq yolunun ideya - tematik və estetik qanunauyğunluqları üzə çıxarılmışdır. Məlumdur ki, Mir Cəlalın roman yaradıcılığında ilk iki romanının müstəsna mövqeyi vardır. “Bir gəncin manifesti”nin “30- cu illərdə yaranmış bədii nəsrimizin ən yüksək mərhələsi” (M.Hüseyn) hesab edilməsi də tam obyektiv qiymətləndirmənin nəticəsidir. Ə.Hüseynov da bu qənaətdədir. “Mir Cəlalın “Dirilən adam” və “Bir gəncin manifesti” romanlarında inqilabın tərənnümü” adlı məqaləsi də bu qənaətin elmi açılışına həsr olunmuşdur **(Təyyar Salamoğlu. “Mir Cəlal nəsri və müasirlik”, Bakı.”Orxan” NPM,**

2018,136s.) ; (Əhəd Hüseynov. Mir Cəlaln bədii nəsri. Bakı, "Elm və təhsil", 2011, s.196)

Mir Cəlal hekayələrini xalqdan gələn, insan davranışlarında milli keyfiyyətlərin çoxluğu, dioloqların təbiiliyi, hekayədə təsvir olunan lövhələrin inandırıcılığı, sətirləri birbirinə birləşdirən məhəlli kalorit yaradır. Mir Cəlal hekayələrində xalq yaradıcılığına bağlılıq vardır. Yazıçının istifadə etdiyi xalq ifadələri, atalar sözləri, ibarə, məsəl, alqış, aforizm və s yığıb toplasaq həcmli bir kitab alındıra bilərik. Sanki bunlar yazıçının bədii fikrini bəzəyir, əsərin ideyasını cazibədar, canlı eləyir. Yazıçının hekayələrini birləşdirən və fərqləndirən xüsusiyyətlər vardır. Mözu dairələri, ifadə tərzləri, gülüş, lirizm, satira ünsürləri bu hekayələri fərqləndirməyə şərait yaradır. Hekayələri birləşdirən cəhətlər zəngin dil materialları, obrazların canlılığı, artıq fikirlərin olmaması, yəni lakonizm başlıca xüsusiyyətlərdəndir.

Mir Cəlalın hekayələri səmimidir,inandırıcıdır. Bu səbəbdən də oxunaqlıdır. Bütün hekayələrin digər böyük janrlar kimi fabulası, hadisələrin inkişafı, kulminasiyası və finalı vardır. Bu hekayələr rahat oxunaqlı və ömürlük hafizələrdə qalan hekayələrdir. Ədibin bir çox hekayələri müəyyən zaman kəsiyində xalqın dünyagörüşünə, savad səviyyəsinə uyğun olaraq maarifləndirmək xarakteri daşıyır. Bu cəhət yazıçının yalnız hekayələrinə deyil, bütün yaradıcılığına xasdır.

Mir Cəlalın hekayələrinin mövzu aləmi rəngarəng, janr xüsusiyyətləri, surətlər aləmi əlvandır. Hekayələrində həyatın müxtəlif sahələrindən götürülmüş maraqlı mövzular aləmi, vətənpərvərlik motivlər, ailə-məişət məsələləri, adi real həyatda baş vermiş əhvalatlar öz əksini tapır.

Mir Cəlal hansı mövzuda yazmasından aslı olmadan öz hekayələrində həyatın dərin qatlarına nüfuz etməyi, baş vermiş hadisələrin daxili mahiyyətini açmağı bacarmışdır. Mir Cəlal hekayələrinin əhatə dairəsi genişdir. Yazıçı kiçik hekayəni öz yaradıcılığının müəyyən zamanı ilə bağlı, təsadüfi janr seçməmiş, onunla uzun zaman, müntəzəm məşğul olmuşdur. Bu cəhətinə görə o, özünün müasiriləri olan hekayəçilərdən hər zaman seçilmişdir.

Ədəbiyyat

1. Mir Cəlal. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005, 384 səh.
2. Təyyar Salamoğlu. "Mir Cəlal nəsri və müasirlik", Bakı."Orxan" NPM, 2018, 136s.
3. Əhəd Hüseynov. Mir Cəlaln bədii nəsri. Bakı, "Elm və təhsil", 2011, s.196.

Шакир Джафаров

Rezюme

Рассказы и романы Мир Джалала - это просветительские произведения, поднимающие жизненные проблемы

Мир Джалал был прекрасным писателем-реалистом. У него был уникальный, неповторимый личный своеобразный и стиль письма. В этом смысле его невозможно ни с кем сравнивать. Но Мир Джалали можно считать последователем реалистов XX века, таких как Джалил Мамедгулузаде, Абдуррахим бек Хагвердиев, по литературному принципу, методам и приемам описания жизни. Главное художественное достоинство литературных произведений состоит в том, что независимо от структуры, в которой они написаны, они выражают правду жизни и завоевали симпатию народа.

Он также способствовал развитию азербайджанского романа, обогащению его содержания и формы. Три его романа о прошлом, а третий - о современной жизни. Основные рассказы и романы Мир Джалала поднимают жизненные проблемы,

Это удобочитаемые, содержательные и обучающие работы, отражающие моральные и социальные проблемы. Другой ведущей областью его творчества является его научная и критическая деятельность. И на этом поприще он отличился своим неповторимым стилем, занял достойное место и положение.

Основные рассказы и романы Мир Джалала представляют собой читаемые, содержательные, просветительские произведения, поднимающие жизненные проблемы, отражающие моральные и социальные проблемы.

В целом Мир Джалал тоже многому научился у фольклора, особенно у этого типа «афористического мышления».

Многие пословицы и притчи составляют основу некоторых произведений автора. Например, в рассказе «Сын» фраза «нет тени дерева, растущего в тени», является эпиграфом. Считается, что все встают благодаря своему труду и способностям, завоевать уважение и известность, быть полезным людям и обществу.

Афоризм «Мы не ходим, мы не ходим» из рассказа «Мы не лжем» вызвало образование. Из серии «Пословицы» «Деньги». «Деньги харам разрушают дом»,

«Не тот человек» по мотивам рассказа «Я нашел» но мудрость «не стыдись того, куда ты призван, и не стыдись того, к чему ты не призван» и так далее.

Ключевые слова: писатель-реалист, ценные рассказы, запутанные учителя, лаконичность формы, талантливый романист

Şakir Jafarov

Summary

Mir Jalal's stories and novels are educational works that raise life problems

Mir Jalal was a wonderful realist writer. He had a peculiar, unique personal style and writing style. In this sense, it is impossible to compare him with anyone. But Mir Jalali can be considered a follower of realists of the XX century, such as Jalil Mammadguluzadeh, Abdurrahim bey Hagverdiyev, according to the literary principle, methods and techniques of describing life. The main artistic merit of literary works is that, regardless of the structure in which they are written, they express the truth of life and have won the sympathy of the people.

He also contributed to the development of the Azerbaijani novel, its enrichment of content and form. Three of his novels are about the past, and the third is about modern life. Mir Jalal's main stories and novels raise life problems, They are readable, meaningful and educational works reflecting moral and social issues. Another leading branch of his work is his scientific and critical activity. In this field, too, he was distinguished by his unique style and took a worthy place and position.

Mir Jalal's main stories and novels are readable, meaningful, educational works that raise life problems, reflect moral and social issues. In general, Mir Jalal also learned a lot from folklore, especially from this type of "aphoristic thinking".

Many proverbs and parables form the core of some of the author's works. For example, in the story "Son", the phrase "there is no shadow of a tree growing in the shade" is an epigraph.taken as a result of everyone's exaltation due to their hard work and ability, to gain respect and fame, to be useful to the people and society. The aphorism "We do not walk, we do not walk" of the story "We do not lie" caused the formation of. From the series "Proverbs" "Money "Haram money destroys the house", "Wrong man" based on the story "I found" but the wisdom of "do not be ashamed of what is called, and do not be ashamed of what is not called" and so on.

Keywords: realist writer, valuable stories, confusing teachers, laconic form, talented novelist**.**

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Filologiya elmlər doktoru, professor Himalay Qasımov tərəfindən çapa tövsiyə olunmuşdur

QƏDİM İGİD OGLU RUFULLAYEV
filologiya üzrə fəlsəfə doktoru, dosent
qedim73@mail.ru
Lənkəran Dövlət Universiteti

SALMAN MÜMTAZIN "XALQ ƏDƏBİYYATI HƏYATDAN DOĞAR" ADLI MƏQALƏLƏRİNDƏ XƏLQİLİK MƏSƏLƏLƏRİNİN İFADƏSİ

Xülasə.

Məqalə görkəmli şair, tədqiqatçı alim Salman Mümtazın ədəbiyyatşünaslıq fəaliyyətinə həsr edilmişdir. Burada göstərilir ki, Salman Mümtaz bu sahədəki araşdırmalarını daha çox iki istiqamətdə aparırdı. Halbuki, bu alimin əsas hədəflərindən biri idi; birincisi, klassik Azərbaycan ədəbiyyatını və onun inkişaf mərhələlərini, onu yaradan ədəbi şəxsiyyətlər barədə elmi ictimaiyyətə müfəssəl məlumat vermək. İkincisi, əsrlər boyu xalqın yaddaş süzgəcindən süzülüb gələn zəngin ağız ədəbiyyatı nümunələrini toplamaq, nəşr etdirmək, itib-batmaqdan qorumaqla gələcək nəsillərə olduğu kimi çatdırmaq.

Məqalədən aydın olur ki, böyük tədqiqatçı qarşıya qoyduğu məqsədlərə nail olmuş, araşdırdığı sahələr üzrə iki yüzdən artıq elmi məqalə və kitabların nəşrini həyata keçirmişdir. Salman Mümtaz yazılı ədəbiyyatın tədqiqi ilə yanaşı Azərbaycan folklorunun öyrənilməsi işinə də maraq göstərmiş, yüksək nəticələr əldə etmişdir. Böyük alim Azərbaycan aşıq ədəbiyyatı, habelə dastan yaradıcılığı və digər folklor nümunələrinin tədqiqi və yaranması ilə bağlı maraqlı araşdırmaların müəllifidir. O hətta yazılı ədəbiyyatda olan yazıçı və şairlərin yaradıcılığında folklor elementlərini tədqiqata cəlb edirdi. Salman Mümtazın XIX əsr Azərbaycan şairi Baba bəy Şakir yaradıcılığında xəlqilik məsələlərinin araşdırılması da görülən işin məntiqi davamı idi.

Salman Mümtaz bu kimi araşdırmalarını "Xalq ədəbiyyatı həyatdan doğar" başlığı altında nəşr edirdi.

Açar söz: məqalə, yazılı ədəbiyyat, elmi araşdırma, xalq yaradıcılığı

Hələ gənc yaşlarından Mirzə Ələkbər Sabir və Cəlil Məmmədquluzadənin yaradıcılıq üslubunu izləyən və sonradan onların təsiri ilə bədii əsərlər yaradan Salman Mümtaz həm də istedadlı mətnşünas və tədqiqatçı idi. O, klassik Azərbaycan ədəbiyyatını dərindən mütaliyə etməklə bu uğura imza atmışdı. Tanış olduğu ədəbi şəxsiyyətləri araşdırır və onların əsərləri, buradakı yenilikləri, sənətkarlıq xüsusiyyətləri haqqında mətbuatda çıxış edirdi. Zaman keçdikcə, bu araşdırmalar öz miqyasını daha da genişləndirir, xarici və milli ədəbiyyat, eləcə də folklor barədə tədqiqatları onu ədəbiyyatşünas bir alim səviyyəsinə yüksəldir.

Salman Mümtazın ədəbiyyatşünaslıq fəaliyyətinə nəzər saldıqda aydın olur ki, o daha çox iki istiqamətdə araşdırmalarını aparırdı, halbuki, bu alimin əsas hədəflərindən biri idi; birincisi, klassik Azərbaycan ədəbiyyatını və onun inkişaf mərhələlərini, onu yaradan ədəbi şəxsiyyətlər barədə elmi ictimaiyyətə müfəssəl məlumat vermək. Əvvəlki araşdırmalarda məlumat verdiyimiz kimi, o bunun öhdəsindən yüksək səviyyədə gəlmiş və "qısa bir zamanda, artıq ötən əsrin 20-ci illərin sonunda 200- dən artıq kitab, məqalə və əlyazmaların toplanması və nəşrini həyata keçirə bilmişdi"(5, 27). İkincisi, əsrlər boyu xalqın yaddaş süzgəcindən süzülüb gələn zəngin ağız ədəbiyyatı nümunələrini toplamaq, nəşr etdirmək, itib-batmaqdan qorumaqla gələcək nəsillərə olduğu kimi çatdırmaq. Qeyd edək ki, bu sahədə də onun araşdırmaları fayda vermiş, bununla o, təkcə öz elmi yenilikləri ilə yadda qalmamış, Azərbaycan folklorşünaslığının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur.

Göründüyü kimi, Salman Mümtazın Azərbaycan yazılı ədəbiyyatına aid elmi araşdırmaları onun yaradıcılığının mühüm bir qolunu təşkil edir. Nəticədə, Qədim dövr Azərbaycan ədəbiyyatının ən parlaq simalarından tutmuş müasiri olduğu zamana qədər bir çox ədəbi şəxsiyyətlərin yaradıcılıqlarını ya ilk dəfə, ya da bu vaxta qədər ədəbi ictimaiyyətə məlum olan bilgilərə yeni faktları əlavə edərək daha dolğun şəkildə təqdim etmişdir.

Salman Mümtaz yazılı ədəbiyyatın tədqiqində qazandığı nailiyyətləri folklorşünaslığın inkişafında atdığı addımları ilə sərgiləyə bilmişdir. Böyük alim Azərbaycan aşıq ədəbiyyatı, habelə dastan yaradıcılığı və digər folklor nümunələrinin tədqiqi və yaranması ilə bağlı maraqlı yanaşmaları ilə diqqəti çəkməkdədir. O, Azərbaycan sifahi xalq ədəbiyyatı nümunələrini toplayıb nəşr etdirməklə yanaşı, yazılı mənbələri də araşdırarkən ağız ədəbiyyatına, xalqımızın adət və ənənələrinə söykənən və ondan qaynaqlanan məqamları diqqətdə saxlamağa çalışırdı. Bu, Salman Mümtazın xalq yaradıcılığına, onun mədəniyyət tarixinə, incəsənətinə olan sevgisindən, ehtiramından irəli gəlirdi. O tam doğru olaraq düşünürdü ki, yazılı mənbələr xalq ədəbiyyatından yan keçməmişdir. Yazılı ədəbiyyatın zaman-zaman inkişaf etməsində, hər dəfə yeni biçimdə ortaya gəlməsində folklorun "əməyi" misilsiz olmuşdur. Çünki folklor hər zaman üçün yeni və müasirdir, sehrli və heyranedicidir. O, insanları əhatə edən həyat hadisələrinə və onların fəaliyyət sahələrinə yaradıcı münasibətin ifadəsidir. Folklor insanların həyatabaxışlarının, adət və ənənələrinin, istək və arzularının, qara qüvvələrə qarşı mübarizə əzminin və üsulunun daşıyıcısıdır. Folklor həm də tərbiyə məktəbidir. İnsan övladının həyat hadisələrinə yanaşmaqda zaman-zaman sınaqlardan çıxmış mütərəqqi və məqsədyönlü münasibətin ifadəsidir. Folklorun təsirindən, xalq yaradıcılığı ənənəsindən qaynaqlanaraq ərsəyə gələn hər bir əsər həm əbədi olaraq sənət zirvəsində qərar tutmuş, həm də onun müəllifinə başucalıq gətirmişdir. "Az yaradıcı sənətkar tapmaq olar ki, onun əsərləri xalq dilindən, bu dilin şəhdini-şəkərini şərtləndirən folklor qaynaqlarından qidalanmasın"(1, 6**).**

Böyük tədqiqatçı, folklorşünas alim Salman Mümtaz yaradıcılığında folklora, xalq ədəbiyyatına yer ayıran, onun zəngin xəzinəsindən bəhrlənən sənətkarlara da xüsusi qayğı ilə yanaşırdı. Əsərlərini araşdırır, mətbuat vasitəsilə oxuculara, elmi ictimaiyyətə təqdim edirdi. Görkəmli alimin "Xalq ədəbiyyatı həyatdan doğar" başlıqlı silsilə məqalələri, məhz, xalq ədəbiyyatı ilə nəfəs alan bu kimi şairlərə həsr olunmuşdur.

"Xalq ədəbiyyatı həyatdan doğar" adlı bu araşdımalar Salman Mümtazın nəşr etdirdiyi və bir çox sənət adamları haqqında mühüm bilgilər verən məşhur "Unudulmuş yarpaqlar" silsiləsinə daxildir. Xatırladaq ki, "Unudulmuş yarpaqlar"da 23 məqalə vardır. Onlardan 15-i "Xalq ədəbiyyatı həyatdan doğar" başlığı altındadır.

Böyük ədəbiyyatşünas alimin- Salman Mümtazın bu ad altında tədqiq etdiyi və əsərlərində xalq həyatı ilə əlaqəsi olan, xalq təəssübkeşliyini əks etdirən bir çox sənətkarlar barədə məqalələr yazmış və mətbuatda işıqlandırmışdır. Onlardan biri də Baba bəy Şakir idi.

Mir Möhsüm Nəvvabın təzkirələrində, habelə Firudin bəy Köçərlinin əsərlərində "Mehribanlı Baba bəy" kimi təqdim olunan Baba bəy Şakir XIX əsr Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən biri idi.

Qarabağ xanı Pənahəli xanın qardaşı nəvəsi olan, Böyük Azərbaycan şairi Qasım bəy Zakirlə dostluq edən və Qasım bəy Zakirin öz müəllimi adlandırdığı Baba bəy Şakirin (1769-1844) ədəbiyyatımızın inkişafı, xalqımızın maariflənməsi üçün mühüm işlər görmüşdür. Aşıq yaradıcılığının və ictimai satiranın görkəmli nümayəndəsi kimi öz dövrünün məşhur simalarından biri olmuşdur. Şair bütün yaradıcılığı boyu xalqı ilə nəfəs almış, onların düşündüyü, narahat etdiyi məsələləri dilə gətirməyə çalışmışdır. Əsasən satira üslubunda yazdığı əsərləri ilə xalqı incidən "fitnəkar bəyləri, mövhumat və cəhalət yayan şeyx və mollaları, rüşvətxor hakimləri, zülmkar komendantları, hətta qubernator və canişin kimi yüksək rütbəli çar hakimlərini kəskin satira gülüşü ilə qırmanclamışdır"(3, 196). Əlbəttə, öz bədii yaradıcılığı ilə xalqın arzu və istəklərini, həyatabaxışlarını dilə gətirən, bununla xalqının xidmətində olduğu Baba bəy Şakir haqqında müəyyən fikir bildirmək indiki məqam üçün heç də çətin deyildir. Ancaq XX əsrin əvvəllərində xalqın taleyüklü məsələlərini öz əsərləri vasitəsilə dilə gətirən Baba bəy Şakirin ədəbi irsi və buradakı əsas məfkurə barədə danışmaq elə də asan deyildi. Çünki müəyyən səbəblərdən bir çox sənət adamları haqqında məlumatlar ya itib-batmış, ya da onlar bilərəkdən yoxa çıxarılmışdı. Əsrin əvvəllərində Azərbaycanda və onun mərkəzi olan Bakıda özünüifadə imkanları məhdud idi. Çar rusiyasının tərkibində olan ölkəmizdə imperiya siyasəti ilə yanaşı, o zaman paytaxtda müəyyən mövqe qazanan erməni maraqları da ədəbiyyatımızın və buna bərabər digər dəyərlərimizin təbliğinə mane olurdu. Nəticədə ya sənətkarlar haqqında olan məlumatlar yanlış təqdim edilir, ya da xalqımıza, ədəbiyyatımıza aid olan materiallar özgələrinin adına verilirdi. Dövrün tələbinə əsasən fars dilində yazan sənətkarlarımızın milli ədəbiyyatımıza aid edilməməsi cəhdi də məhz bu kimi məsələlərdən idi.

İyirminci yüzilliyin astanasında ədəbiyyatımızda milliözünüdərkin formalaşmasına yardım edən əsərlərin və onların müəlliflərinin təbliği, şübhəsiz ki, imperiyanın və onların yerlərdəki havadarlarının maraqlarına cavab vermirdi. Buna baxmayaraq, bir çox sənətkarlarla yanaşı, Baba bəy Şakir haqqında ilk böyük araşdırmaları, məhz xalq sənətinə, incəsənətinə, ədəbiyyat və onun daşıyıcılarına bağlı olan Salman Mümtaz tərəfindən böyük çətinliklə həyata keçirilmiş, əldə olunmuş məlumatlar onun vasitəsilə elmi ictimaiyyətə təqdim edilmişdir.

Göründüyü kimi, Salman Mümtaz bu addımı ilə xeyirxahlıq edərək, əvvəla, XIX əsrin əvvəllərində Azərbaycanı işğal edər çar rusiyasının xalqımıza olan mövqeyini ifadə etmiş və onların bu "münasibətindən" nəticə çıxarmağımıza şərait yaratmış, ikincisi, ədəbiyyatımızı sevən, onun inkişafında xidmətləri olan, habelə əsərləri ilə xalqa və onun mariflənməsinə xidmət edən şəxsiyyətləri üzə çıxarmışdır. Baba bəy Şakir məhz belə sənətkarlardan biri idi.

Salman Mümtazın Baba bəy Şakirin ədəbi irsi barədə mətbuatdakı çıxışları elə bir dövrə təsadüf edirdi ki, o zamanlar müxtəlif siyasi baxışların təsirindən böyük sənətkarlarımız haqqında qəzet və jurnal səhifələrində heç də xoş olmayan məlumatlar getməkdə idi. Bu sənətkarların ədəbi görüşlərini gizlətmək və ya onların fəaliyyətlərini ədəbi və elmi ictimaiyyətin gözündən yayındırmaq üçün müxtəlif səpkidə olan şaiyələrin dolaşması, yaxud bu şairlərin yalnız güldən, bülbüldən yazmalarına ironik yanaşan insanların yanlış münasibətləri fonunda Salman Mümtaz həmin şairlərə cavab kimi özünün məqalələr toplusu olan "Unudulmuş yarpaqlar"ı təqdim edir. Burada Azərbaycan şairlərinin əsərlərində, şeirlərində xalq həyatı və həyatabaxışlarının, arzu və istəklərinin dolğun şəkildə ifadə olunduğuna diqqəti çəkir. O, qeyd etmək istəyir ki, Azərbaycan şairləri yeri gəldikcə, təbiətin gözəlliklərini vəsf etməklə bərabər, həm də xalqın vəkilləridir. Xalqın deyə bilmədiklərini şairlər müxtəlif bədii imkanlar vasitəsilə ifadə edirlər. "Əhaliyə rəva görülən zülmləri riştеyi-nəzmə çəkən qəhrəman şairlərimiz bu münasibətlə öz adlarını əbədi olaraq tarix ədəbiyyatımızda qalmalarına bais oldular. Bu isə böyük xoşbəxtlikdir"(6,190).

Salman Mümtaz "Unudulmuş yarpaqlar"da böyük şairi təqdim etməzdən əvvəl, məqalənin girişində Azərbaycan xalqının XIX əsrdəki durumu haqqında məlumat verir: "Nazənin yurdumuz və şanlı vətənimiz olan Azərbaycan çar hökuməti tərəfindən quberniyalara bölünəndən sonra murovlar, naçalniklər və digər hökumət məmurları tərəfindən əhaliyə, xüsusən, kəndlilərə artıq dərəcədə zülmlər olunurdu. Bu zülmlərin çoxu rus dilini, qaydasına, qanununa nabələd olan bisavad mühərrirlərə və zəhmətkeş əkinçilərə rəva görülürdü. Vətəndaşlarımızın xəvas namı isə kəndlilərə görə bir dərəcəli və bir əndazə dilli-ağızlı olduqlarından özlərini hərdən bir məmurlardan müdafiyə edə bilirdilər... təbii ki, elə bir vaxtda əlsiz-ayaqsızla daha məzlum bir vəziyyətdə idilər. Çünki onları himayə edən yox dərəcəsində idi. Onların yeganə hamiləri, yeganə müdafiyələri fəqət şair idi.. O zaman şairlərin mövzun şeirləri, iti həcvləri füqəranın pasibanı (qoruyucusu) idi.. Şairlər bunca zülmlərə, dərdlərə laqeyd qala bilmirdilər. Onlar hər bir cəzanı qəbul edərək uca səslə ən

səmimi qəlbdən çığıraraq haqsızlıqlara qarşı öz nifrətlərini izhar edirdilər. Ərizə səbkində, mözusunda nəzmə çəkdikləri mənzumələri, şikayətnamələri qubernatora, sərdara və yaxud padşahın sarayına qədər yürütməyə səy edirdilər və bu məqsədə müvəffəq olmaq üçün hər dürlü vəsilələrə də əl atırdılar"(6, 189).

Salman Mümtazın fikrincə, Baba bəy Şakirin yaradıcılığı xalq ədəbiyyatı qədər qiymətlidir. Şifahi ədəbiyyatda nümunələr az və yığcam olmaqla bərabər böyük məna tutumuna, tərbiyəvi əhəmiyyətə malikdir. Burada ümummilli ideyalar öz ifadəsini tapır. Baba bəy Şakirin əsərləri də məhz bu mərtəbəyə layiqdir. Çünki burada bir şairin, sənətkarın düşüncələri əksini tapmamış, bütöv bir elin ürək çırpıntıları əks olunmuşdur. "Xalq ədəbiyyatı həyatdan doğar"başlığı məhz bu mənada əhəmiyyət daşıyır. Məqalədə Baba bəy Şakirin iki şeiri təqdim olunur. O zamankı azərbaycanlıların ictimai vəziyyətindən bəhs edən ilk mənzuməni təqdim edərkən müəllif yazır: "Baba bəy Şakir o vaxtkı ədəbiyyatımızı gözəlləşdirən və məzlumların imdadına qoşan cəsur, qəhhar bir şairimizdir" (6, 190). Rus padşahına şikayətnamə şəklində yazılan həmən mənzuməni oxuduqca Azərbaycan xalqına qarşı XIX əsrdə edilən haqsızlıqlar göz önünə gəlir. Burada təqdim olunan hadisələr və ona qarşı ucalan etiraz səsləri bir şairin deyil, müasirlərinin, bütöv bir xalqın üsyanıdır:

Quberniya bina olandan bəri,
Oğrunun hər biri bir xanə dönüb.
Yox yetişib ərzə divan eyliyən,
Dağılıb vilayət viranə dönüb.

.. Əlindən qulağımız batıb atlının,
Kimdir yetə fəryadına kəndlinin?
Küllühüm Qarabağ, Boy Əhmədlinin,
Əlində bəndeyi-fərmanə dönüb.

Belə məlum, ədalətli padşah,
Deyil burda olan işlərdən agah.
Xalqın fəryadına yetişsin allah,
Bu dövran özgə bir dövranə dönüb. (6,192)

Sonrakı nümunə də eyni məzmundadır. Bu əsər Qarabağın bir müddət divanbəyi olan erməni Gəncum ağaya ərizə şəklində yazılmışdır. Görünən odur ki, hələ şairimizə ədalətli görünən divanbəyi digər havadarları hesabına xalqımıza divan tuturmuşlar. Ancaq üzdə ədalətli olan bu "cənaba" şair deyirdi:

Gəncum ağa, vilayətin dərdini,
Əlbəttə sahibkarə ərz eylə.

Biz burda qorxudan deyə bilmirik,
Sən utanma, aşikarə ərz eylə.

Qapının ağzında günorta çağı,
Soyurlar adamı yoxdur yasağı.
Geyinib müstəğərq, minib qısrağı,
Çəkiliblər bir kənarə ərz eylə. (6,192)

Xalq ədəbiyyatında xalqla rəiyyət arasında mövcud olan ziddiyyətlər, onların aradan qaldırılması istiqamətində görülən ictimai işlər, habelə dövrün ağıllı, müdrük adamlarının önə çıxması və ya mübarizə aparması məsələsi aparıcı mövzulardan biridir. İstər xalq nəsrində və istərsə də, digər ədəbi növlərdə problemin həlli istiqamətində yaranan əsərlər kifayət qədərdir. Təkcə "Koroğlu"dastanını misal gətirmək bəs edər ki, fikrimizi əsaslandıraq. Salman Mümtazın bizə təqdim etdiyi Baba bəy Şakirin məlum mənzumələri və buradakı əhvalatlar yazılı ədəbiyyatda da bu ənənənin kifayət qədər aktual olduğunu göstərir. Yeri gəlmişkən, qeyd edək ki, sözügedən mənzumələr N.Gəncəvinin "Sirlər xəzinəsi" əsərində "Sultan Səncər və qarı hekayəsini xatırladır. Əgər Baba bəy Şakir bu nümunələrdə əsərin qəhrəmanı kimi dövrün ağrı-acılarına və haqsızlıqlarına üsyan edərək zülümkar hakimlərə qarşı etiraz edirsə, Nizami xalqın adından danışan qarının ifasında bunun öhdəsindən gəlir:

Haqsızlığın odunda bir qarı yandı oda.
Səncərin ətəyindən yapışdı bir gün o da:
"Zülm əlindən qalmışam mən zarıya-zarıya,
Zülmün divan tutdurur bir köməksiz qarıya.

Kefli-kefli qapımın ağzını kəsdi darğan,
Təpiklədi doyunca, o ki var, əzdi darğan.
Bir günahım olmadan çölə atdı daxmadan,
Sürüklədi saçımdan fəryadıma baxmadan

Mən zülmün zindanında qansız gördüm yağını,
Ürəyimə, canıma basdı zülmün dağını.
..Sən dadıma çatmasan, şah demərəm adına,
Qiyamətin günündə çatmasınlar dadına. (4, 85)

"Sirlər xəzinə"sindəki hekayələrdə əksini tapan hadisələr və bu hadisələrə olan münasibət təkcə N.Gəncəvi təxəyyülünün məhsulu deyil. Müəllif özü də "müxtəlif qaynaqlardan bəhrələnmək yolu ilə çağdaş olduğu şahlara, əyanlara müsbət təsir etməyə çalışmışdır"(2, 22).Yəni zülmkarlara qarşı barışmazlıq ideyası nağıl və

dastanlarımızın, xalq ədəbiyyatımızın əsas qayəsinə söykənir. Zülümkarların tənqidi və tərbiyə edilməsi ənənəsi folklordakı mövzulardan biridir. Ağız ədəbiyyatında dolaşan bu kimi əhvalatlar, şübhəsiz ki, Nizamiyə qədər bir çox sənət adamların müraciət etdiyi mövzulardan biri olmuşdur. "Sultan Səncər və qarı", "Zalım padşahla zahidin dastanı", "Bir şahzadənin hekayəsi" və digər hekayə və məqalətlərdə Nizami Gəncəvi xalqın adından danışır. Burada əksini tapan etirazlar məhz "xalq qəzəbinin və narazılığının poetik inikası idi" (7, 91).

Salman Mümtaz da məhz bu mənada, araşdırdığı və üzə çıxardığı bir çox sənət adamlarının, o cümlədən Baba bəy Şakir yaradıcılığında xalq həyatının izlərini, el ədəbiyyatının görüşlərini xüsusi vurğu ilə göstərməyə çalışırdı. Bu, əslində, onun təqdim etdiyi ədəbi şəxsiyyətlərin, doğrudan da, böyük bir irsə sahib olması anlamını ifadə edirdi.

İstifadə olunmuş ədəbiyyat

1. Hacıyeva M. Ədəbi qaynaqlar. Bakı: Elm və Təhsil, 2014, 242 s.
2. Xalisbəyli Tağı. Nizami Gəncəvi və Azərbaycan qaynaqları. Bakı, Azər nəşr, 1991, 296 s.
3. Qasımzadə. F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif,1974, 488 s.
4. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: "Yazıçı", 1981, 195 s.
5. Rufullayev G.I.Salman Mumtaz's literature –study activity. Евразийский Союз Ученых.Том 5№3(84)/2021, с.27
6. Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları Bakı: Yazıçı, 1986, 445 s.
7. Səfərli Ə., Yusifli X., Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı; Maarif, 1982, 385 s.

Rufullayev Gadim

THE EXPRESSION OF NATIONAL ISSUES IN SALMAN MUMTAZ'S ARTICLES UNDER THE TITLE OF "FOLK LITERATURE IS BORN OF LIFE"

SUMMARY

The article is dedicated to the literary activity of the prominent poet, research scientist Salman Mumtaz. Here is shown that Salman Mumtaz conducted his research in this field in two directions. However, this was one of the main goals of the scientist; first, to provide the scientific community with detailed information about classical Azerbaijani literature and its stages of development, and the literary personalities who created it.

The second is to collect, publish, and pass on to future generations - the rich examples of oral literature that have been passed through the memory of the people for centuries. It is clear from the article that the great researcher achieved his goals and published more than two hundred scientific articles and books in this field. Along with the study of written literature, Salman Mumtaz also had shown interest in the study of Azerbaijani folklore and achieved high results. The great scientist is the author of interesting research on the Azerbaijani ashug literature and the creation of epic and other examples of folklore. He even explored the elements of folklore in the works of writers and poets in written literature.

The study of national issues in the works of a 19th-century Azerbaijani poet Baba bey Shakir was a logical continuation of the work done. Salman Mumtaz was publishing such researches under the title of "Folk literature is born of life"

Keywords: article, written literature, scientific research, folk art

Руфуллаев Гадим

ЛЯНКАРАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ ОТРАЖЕНИЕ НАЦИОНАЛЬНЫХ ПРОБЛЕМ В СТАТЬЯХ САЛМАНА МУМТАЗА ПОД ЗАГОЛОВКОМ «НАРОДНАЯ ЛИТЕРАТУРА РОЖДАЕТСЯ ИЗ ЖИЗНИ»

Резюме

Статья посвящена литературной деятельности выдающегося поэта, ученого-исследователя Салмана Мумтаза. Здесь показано, что Салман Мумтаз проводил свои исследования в этой области в двух направлениях. Однако это было одной из главных целей ученого; Во-первых, предоставить научному сообществу подробную информацию о классической азербайджанской литературе и этапах ее развития, а также о литературных деятелях, создавших ее. Второй - собрать, опубликовать и передать будущим поколениям богатые образцы устной литературы, которые веками передавались в памяти людей. Из статьи видно, что великий исследователь достиг своих целей и опубликовал более двухсот научных статей и книг в этой области.

Наряду с изучением письменной литературы Салман Мумтаз также проявил интерес к изучению азербайджанского фольклора и добился высоких результатов. Великий ученый является автором интересных исследований азербайджанской ашугской литературы, создания эпоса и других образцов фольклора. Он даже исследовал элементы фольклора в произведениях писателей и поэтов в письменной литературе.

Исследование национальных проблем в творчестве азербайджанского поэта XIX века Баба бека Шакира стало логическим продолжением проделанной работы. Салман Мумтаз публиковал такие исследования под названием «Народная литература рождается из жизни».

Ключевые слова: статья, письменная литература, научное исследование, народное творчество.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya elmləri doktoru, professor Səhər Orucova tərəfindən çapa tövsiyə olunmuşdur

Z.N.NURİYEVA
BDU-nun dosenti
zoya.nuriyeva@mail.ru

XIX ƏSRDƏ BOLQARISTAN MİLLİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

XÜLASƏ

Məqalədə bəhs olunan dövrün bolqar xalqının həyatında tarixin yeni bir mərhələsi kimi qiymətləndirilməsinə həsr olunmuşdur. Bu dövr həm də əsrlər boyu davam edən bolqar millətinin formalaşması kimi də qəbul edilir. Ölkənin sosial-iqtisadi inkişafındakı müxtəlif dəyişikliklər, milli burjuaziyanın formalaşması milli bolqar dövlətinin yaranması ideyasını sürətləndirdi. Bolqar xalqı kütləvi surətdə siyasi, dini zülmdən azad olmaq və zəngin mədəniyyətini qorumaq uğrunda milli xarakterli mübarizənin fəal iştirakçısı olmuşdur. XlX əsr incəsənətin çiçəklənməsi, milli dirçəliş əsri idi. Bu dövrdə Bolqarıstanda ana dilində təhsil inkişaf etməyə başladı, ədəbiyyat tədricən yeni xüsusiyyətlər qazandı.Müstəqil teatr yaranır, təsviri sənətin əsaı qoyulur.Bütövlükdə incəsənət həyata yaxınlaşır və xalq kütlələrinə əhəmiyyətli təsir vasitəsinə çevrilir.Bu amillər bolqar xalqının formalaşmasında və milli özünüdərkin inkişafında mühüm rol oynayır.Milli,siyasi və mənəvi zülm şəraitində xalq təhsilində ciddi uğurlar əldə edildi. Bolqar mədəni-maarif hərəkatının yolu son dərəcə çətin idi.Mədəni yüksəliş, öz növbəsində, ölkədə sosial münasibətlərin inkişafına təsir göstərdi.XlX əsrdə Rusiya ilə intensiv və çoxşaxəli mədəni ünsiyyət ədəbiyyatın, incəsənətin, elmin inkişafı milli məktəbin formalaşması üçün faydalı nəticələr verdi. Bolqarıstan ziyalılarının yetişməsində Pusiyanın köməyi çox təsiredici idi Mədəniyyətin yüksəlişi yeni sinfə bilik və qüvvə verir, yetişmiş məsələlərin həlli uğrunda mübarizədə istifadə olunur.Ümumiyyətlə, XlX əsrdə maarifçilik hərəkatı Bolqarıstanda dirçəlişin inkişafında böyük bir addım atmışdı.

Açar sözlər: dirçəliş, xalq maarifi, mədəniyyət, yaradıcılıq, təhsil, ədəbi dil, milli ədəbiyyət, siyasi, əlaqə, incəsənət, elm

Məqalə bəhs olunan dövrün bolqar xalqının həyatında tarixin yeni bir mərhələsi kimi qiymətləndirilməsinə həsr olunmuşdur. Bu dövr həm də əsrlər boyu davam edən bolqar millətinin formalaşması kimi də qəbul edilir. Ölkənin sosial-iqtisadi inkişafındaki müxtəlif dəyişikliklər, milli burjuaziyanın formalaşması milli bolqar dövlətinin yaranması ideyasını sürətləndirdi. Bolqar xalqı kütləvi sürətdə siyasi, dini zülmdən azad olmaq və zəngin mədəniyyətini qorumaq uğrunda milli xarakterli mübarizənin fəal iştirakçısı olmuşdur.

XIX əsrdə Bolqarıstanda kapitalist münasibətlərinin inkişafı, sosial-siyasi, mədəni-maarif, incəsənətin müxtəlif sahələrində baş verən yeniliklər bolqar

millətinin formalalaşmasında əhəmiyyətli rol oynayırdı. Milli dövlətçiliyini itirmiş bolqar xalqı həmin dövrdən etibarən yenidən müstəqil dövlət quruculuğunu möhkəmləndirməyə başlayır. Kapitalist münasibətlərinin inkişafı, milli burjuaziya və mədəniyyətin formalaşması, milli-azadlıq hərəkətının yüksəlməsi bolqar dövlətinin müstəqilliyinin barız nümünələridir. Bu dövr həm də bolqar mədəniyyətinin, incəsənətinin çiçəklənməsi kimi xarakterizə edilir. Qədim slavyan ədəbiyyətı olan bolqar ədəbiyyatının dəfələrlə yadelli işğallar nəticisində tənəzüllə uğramasına baxmayaraq milli intibah, inqilabçı demokratlar, ziyalılar Bolqarıstanın azad olunmasına, milli müstəqilliyinə can atırdılar.(12,123)

Bolqar dirçəlişinin ideoloqu Paisi Xilendarski "Slavyan bolqar tarixi" adlı məşhur əsəri ilə bolqar mədəniyyətinin inkişafına öz tövhəsini vermişdir. Paisi öz çağrışı ilə milli süurun oyanmasına, xalqı bolqar məktəbinin yaradılmasına, mədəniyyətin inkişafını yüksəltməyə, ana dilini qorumağa səsləmişdi.Onun bolqar milli mənlik şüurunun oyanması, milli özünə məxsusluğunu təsdiq etməsi kimi – "Bolqar öz soykökünü və dilini bil!" şuarı xalq kütlələri arasında geniş yayılmışdır. Məhz onun kitablarının yayılmasından sonra avropalılar bolqarlarla bağlı geniş məlumatlar əldə etmişdilər. Xarici müdaxiləçilər bolqar xalqının mədəni inkişafına maneələr törətmələrinə baxmayaraq xalqın lap qədimdən mövcüd olan mədəni-maarif ənənələrini tamamilə məhv edə bilməmişdirlər. Əksinə milli şüurun mədəniyyətin formalaşmasında ilk növbədə maarifin inkişafına böyük ehtiyac olmuşdur.(10,119)

Həmin dövrün bir çox tanınmış maarifçiləri, tədqiqatçıları da bu məsələ ilə bağlı öz fikirlərini bildirmişlər. Məşhur bolqar tarixçisi Natan Jak öz əsərlərində kapitalizmin inkişafını Bolqarıstanın tarixində irəliyə doğru təsirini göstərməklə bərabər daxili və xarici siyasəti milli azadlıq hərəkatını milli mədəniyyətin yüksəlişi ilə əsaslandırmışdı. Bolqarıstanın tanınmış tarixçisi D.Kosev də öz mühazirələri əsasında apardığı tədqiqatlarında kapitalist münasibətlərinin inkişafı ilə bağlı bolqar burjuaziyasının meydana gəlməsi, mədəni-maarifçilik hərəkatı və s. məsələlər barədə ətraflı məlumatlar vermişdir.(5,123) Rus bolqar münasibətlərinin tanınmış tarixçisi K.Poqlubko bolqar burjua mühacırlərinin fəaliyyətindən, Rusiyaya təhsil almağa göndərilən bolqarların azadlıq uğrunda mübarizə aparan bolqarlara göstərdiyi qayğıdan böyük ruh yüksəkliyi ilə bəhs etmişdir.(14,193) K.Liluaşvili öz tədqiqatlarında XIX əsrdə Bolqarıstanın avropa və rus dövlətləri ilə əlaqələrindən, eyni zamanda Bolqarıstanın mədəni həyatı ilə bağlı maraqlı faktlara əsaslanmışdı.(8, 79) Ümumilikdə Bolqarıstan tarixində kapitalizmin bərpərar olması, iqtisadi inkişaf, azadlıq hərəkatının yüksəlişi, xarici siyasətin təhlili və başqa məsələlərlə yanaşı bolqar burjuaziyasının formalaşmasının siyasi həyatda rolundan, eynilə mədəniyyət məsələləri geniş şəkildə öz əksini tapmışdır.(3,87)

Məlumdur ki, XIX əsrin birinci yarısında bolqar maarifi yunanların təsiri altında olmuşdur. Eyni zamanda bolqarlar avropa mədəniyyəti ilə maraqlanmağa səy göstərirdilər. Təhsilə olan tələbatın maarifin gələcək inkişafına zəruriliyini nəzərə

alaraq bir tərəfdən də yunan və bolqar burjuaziyasının mübarizəsi yeni bolqar təhsil sisteminin yaradilmasını tələb edirdi. Tədqiqatlar göstərir ki, əsrlər boyu Bolqarıstan maarifinin yeganə tədris ocağı kilsə nəzdində yerləşən dini məktəblər olmuşdur. Hələ milli oyanış illərindən xeyli əvvəl kilsələrin həyətində dini məktəblər mövcüd olmuşdur. Müəllimləri rahib və keşişlərdən ibarət olan məktəblərdə şagirdlərə yalnız kilsə-slavyan əlifbası öyrədirdilər. Deməli orada təhsil alan şagirdlər kilsə-slavyan əlifba yazıları, kilsə qaydalarını mənimsəyirdilər. Məktəbi bitirdikdən sonra kilsə qaydalarına uyğun olaraq dini kitabları oxumağı və yazmağı bacarırdılar. Maarifin mərkəzi kimi Troyanski kilsəsi fəaliyyət göstərmişdi, lakin tədricən köhnə dini məktəbləri yeni proqramlarla tədris olunan dünyavi məktəblərlə əvəz etmək lazım idi.(6,121) Ölkədə iqtisadi irəliləyiş şəhərlərin inkişafı yeni məktəblərin açılmasını tələb edirdi. Yeni məktəblərin açılması təhsil sistemin inkişafında dəyişikliklərə səbəb olmaqla yanaşı həm də mədəni-maarif hərəkatının milli və dünyavi xarakter daşımasında əhəmiyyətli rol oynamalı idi.

Dini təhsil sistemin XIX əsrin 30-cu illərinin ortalarına qədər davam etdiyi göstərilsə də bir çox şəhərlərdə əsrin sonuna kimi fəaliyyətini davam etdirmişdi. Bolqarıstanda məşhur olan böyük bir ziyalı dəstə-milli oyanış dövrünün görkəmli maarifçiləri Sviştov şəhərində fəaliyyət göstərmişdilər. Yeni şəhərlərin inkişafı ilə bağlı yeni açılan məktəblər bolqar təhsil sisteminin inkişafında irəliyə doğru atılan addımdır.(4,238) Bu dövrdə inqilabçı demokratlar qanadının rəhbərləri mili müstəqilliyə can atır, ölkənin yadelli zülmundən azad edilməsi uğrunda mübarizə aparırdılar. Bu mübarizə nəticəsində milli mədəniyyət böyüyür və yeni bolqar ədəbiyyatı inkişaf idirdi. Paisi ideyasından bəhrələnən və onun şagirdi olmuş, dövrünün görkəmli yazıçısı Stoyko Vladislav (Safroni Vracanski) öz əsərlərində kitab ədəbi dilini ana dilinə yaxınlaşdırmağa çalışırdı.(1,315)

XIX əsrin əvvəllərində iki dilli yunan-bolqar məktəbləri fəaliyyət göstərirdi. Vaxtilə yunan məktəblərində təhsil almış bolqar müəllimləri hər iki dildə dərs aparırdılar. Sonralar Bolqarıstanın iri şəhərləri olan Ruse, Vidin, Plovdiv, Tırnov və başqalarında dünyavi təhsil verən məktəbkər fəaliyyətə başladı. Bolqar mədəni-maarif hərəkatının bəzi nümayəndələri yunan təhsilinin təsiri altında Bolqarıstanda "ellin-bolqar" məktəbləri açmışdılar. Tırnov, Kotel, Sliven, Sviştov, Odrin və başqa şəhərlərdə yunan məktəbləri də fəaliyyət göstərirdi.(8,93) Dünyavi ədəbiyyata tələbatı nəzərə alaraq S.Vraçanski bir çox ölkələrin siyasi tarixi ilə maraqlanaraq yunan dilində olan əsərləri bolqar dilinə tərcümə etməklə bərabər, çoxlu sayda publisist və digər əsərlərin muəllifi olmuşdu. Bolqar tarixşünaslığında Q.Rakovski, A.Aprilov, M.Drinov, Y.Venelin, D.Voynikov, N.Palauzov və başqaları tarixi mövzularla çıxışları ilə fərqlənmişlər. Mədəni həyatın müxtəlif sahələrində, xüsusilə də dərs vəsaitlərinin hazırlanıb çap edilməsində A.Aprilov, N.Bozveli, P.Beron, S.Vracanski və b. xidmətləri olmuşdur. A.Boqorov hətta bolqar dilinin qrammatikasını tərtib etmişdir. (8,95)

Bolqar təhsilinin, maarifinin inkişafında mühum rolu olan P.Beron Bolqarıstana maarifçilik tarixində mühum hadisə olan və 1824-cu ildə nəşr edilən ilk bolqar əlifbasını tərtib etmişdir. Kiçik ensiklopediya xarakteri daşıyan və ilk dünyavi dərslik olan bu əlifba dəfələrlə nəşr edilərək məktəblərdə çevriliş etmiş və təhsilin inkişafına yenilik gətirmişdi. Orta əsrlərin köhnəliyindən ayrılaraq dərslər bolqar dilində tədris olunmağa başlamış, dindən dünyəvi ədəbiyyata dönüş yaranmış, bütünlüklə ədəbi dilin formalaşması prosesi öz əksini tapmışdır.(7,231) Əhalisi demək olar ki, təmiz bolqardan ibarət olan Qabrov şəhərində maarifçilik fəaliyyətinin inkişafı uğrunda mübarizə gedirdi. Bolqar maarifçisi V.Aprilovun təşəbbüsü və köməkliyi ilə Qabrov şəhərində 1835-ci ildə sonralar da gimnaziya kimi onun adını daşıyan qarşılıqlı təhsilli ilk dünyəvi məktəb açıldı.(5,102) Elə həmin ildə Samokovda əvvəlcə gizli, sonradan türk dövlətinin razılığı ilə ilk bolqar mətbəəsi, 1838-ci ildə isə Salonikada nəşriyyət işləməyə başladı. Eyni zamanda 40-ci illərdə Samokov və Konstantinopolda bolqar dilində kitab çapı üçün xüsusi mətbəənin əsası qoyuldu və milli ənənələrə xas olan əsərlər tərcümə edilməyə başladı.

Beləliklə demək olar ki, XIX əsrin ikinci rübündə mədəni hərəkatın inkişafının əsas əlamətlərindən biri bolqar dövrü mətbuatının yaranması ilə səciyyələnir. 30-50-ci illərdə də ana dilində kitab və dövrü mətbuatın buraxılışının genişləndiyi göstərilir. Həmin illərdə maarifçi K. Fotunov, Y.Boqorov, B.Petkov, N.Qerov, P.Slaveykov, Y.Konstantinov və b. milli azadlıq mübarizəsini əks etdirən mövzuya müxtəlif ideya mövgeyindən yanaşırdılar.(5,191)

Tanınmış maarifçilər Aprilov, Rilski, Palauzov, P.Slaveykov, Xristaki Pavloviç Qabrovo şəhərində, varlı və zəngin kimi tanınan Çalikov qardaşları Koprivştic şəhərində, P.Slaveykov, xeyriyyəci Hacı Stoyan Nikolovun təşəblüsü ilə Sevliev şəhərində yeni bolqar məktəbləri yaratmışlar. Qabrovo məktəbinin ardınca Sopot, Karlov, Tırnov, Kazanlık, Sviştov, Sofiya, Kotel, Elen, Pazardjik, və başqa şəhərlərdə bütövlükdə 50-dən çox məktəb açılmışdı.(6,73; 17,48)

Bolqar təhsilinin inkişafında ilk yeni tipli sinif məktəbi maarifçi Nayden Qerov tərəfindən 1846-ci ildə ticarət və sənətkarlıq şəhəri olan Koprivşticdə açılmışdı. Onlar şagirdlərin yaş səviyyəsinə əsasən siniflərə bölündüyünə görə sinif məktəbləri adlanırdı.50-ci illərdə Qabrov, Karlov, Sliven, Tırnov, Şumen, Sopot, Plavdiv və digər şəhərlərdə də sinif məktəbləri açılmışdır. Həmin məktəblər sonralar orta məktəb və gimnaziyalarla əvəz edilmişdir. İqtisadi baximdan inkişaf etmiş şəhərlərdə açılan yeni-yeni məktəblərin əksəriyyəti dünyəvi milli, demokratik xarakter daşıyırdı. Özləri tacır olan Fotunovun Smirnedə, Aprilov və Palauzovun Qabrovda yaratdıqları məktəblərdən aydın olur ki, ilk qarışıq təhsili və sinif məktəbləri əsasən sənətkarlıq və manufakturanın, iqtisadiyyatın inkişaf etdiyi ticarət mərkəzlərində meydana gəlirdi. Deməli bolqar sənətkarlığının inkişafı milli maarifçiliyin, müstəqil bolqar kilsəsinin yaradılmasında rolu olmuşdur. Ticarətin inkişafı burjuaziyanın formalaşması milli məsələlərin həllini qarşıya məqsəd kimi qoymuşdular. Məhz iqtisadi yüksəliş bolqar xalqının mədəniyyətinin, ölkənin siyasi müstəqilliyinin, milli

formalaşması prosesində əsas qüvvə olmuş və kütləvi sürətdə maarifin, ədəbiyyatın, kilsənin siyası azadlığının əldə edilməsi uğrunda mübarizə aparılmışdı.(18,589)

Qeyd etmək lazımdır ki, bolqar maarifinin inkişafı yunan təbliğat nümayəndələrini daha da qıcıqlandırmış və onların qəzəbinə səbəb olmuşdur. Hətta bolqar mədəniyyətinə qarşı acıq təbliğata keçərək məktəblərin açılmasına mane olurdular. Bir çox şəhərlərdə, yaxın kəndlərdə məktəblərin yaradılması istiqamətində yunan və bolqar burjuaziyası arasında mütamadi olaraq mübarizə gedirdi. Vəziyyət o qədər kəskinləşmişdir ki, yunan və bolqar burjuaziyası arasında Makedoniyada mədəni maarif fəaliyyətinə rəhbərlik uğrunda uzun sürən mübarizə davam etmişdir. Bu ondan irəli gəlirdi ki, Bolqarıstanda milli-maarif, milli-kilsə, siyasi azadlıqlar uğrunda aparılan mübarizə bolqar və makedoniyalıların ümumi işi hesab olunurdu. Makedoniyada milli-azadlıq, milli-maarifçilik hərəkatının görkəmli nümayəndələri həm də bolqar maarifi uğrunda qorxmaz mübarizə aparırdılar. Onlardan Dimitri və Konstantin Miladinov qardaşları, Y.Djinot, Kirill Peyçinovic və bir çoxları bolqar milli mədəniyyətinin inkişafının qabaqcıl nümayəndələri olmaqla bərabər, bolqar mədəniyyətinin inkişafının təbliği ilə də məşğul olurdular.(6,11) Bolqar mədəni-maarif hərəkatı qonşu Balkan ölkələri, hətta avropa xalqalarının mədəniyyəti ilə müqayisədə çox çətin bir yol keçməsinə, göstərilən təzyiqlərə baxmayaraq yeni-yeni tədris müəssisələri yaradılır, maarifinin, mədəniyyətinin inkişafı uğrunda mübarizə aparılırdı.

XIX əsrin birinci yarısında olduğu kimi ikinci yarısında da milli mədəniyyət əhəmiyyətli dərəcədə inkişaf etmiş, ictimai-siyasi qruplar arasındaki mübarizə nəticəsində böyüyür və genişlənirdi. Milli mədəniyyətin ən iri mərkəzlərindən olan Plovdiv şəhəri xalq maarifinin əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir. Demokratik xarakterli və dünyəvi təhsil verən məktəblərin sayı artmışdı. Demək olar ki, həmin məktəblərdə işləyən müəllimlərin əksəriyyəti Rusiyada təhsil almışdılar. Rusiyada təhsil alan bolqar tarixçiləri P.Slaveykov, S.Palauzov belə hesab edirdilər ki, yalnız maariflənmə yolu ilə xalq azadlıq əldə edə bilər.(3,105)

Milli və mədəni şəraitin yüksəlişi nəticəsində mədəni-maarif sahəsində böyük rol oynayan nəşriyyat, kitabxana, oxu qıraətxanaları yaranırdı. Sviştov, Konstantinopol və digər şəhərlərin kitabxanası mədəni-maarif, müxtəlif fəaliyyətlərin mərkəzi toplanti yeri hesab olunurdu. Moskva universitetini bitirmiş məşhur bolqar alimi, milli tarixşünaslığın banisi Marin Drinov çoxlu sayda mənbələrin tənqidi təhlilinə əsaslanaraq vətən tarixinin öyrənilməsinə elmi-nöqteyi nəzərdən yanaşmış, indiyə qədər də əhəmiyyətini itirməyən cənub slavyanların erkən orta əsrlər dövrünü tədquq etmişdir.(9,101)

XIX əsrin ikinci yarısını bolqar mədəniyyəti tarixində dövrün tələblərinə cavab verən əhəmiyyətli nailiyyətləri ilə qeyd olunan əsas mərhələ hesab etmək olar. Mədəniyyətin tərəqqəsi əsasında bolqar ədəbiyyatının müxtəlif janrları yaranırdı. Ana dilinin təsirinin güclənməsi sayəsində incəsənətin bütün sahələrinin təməli möhkəmlənirdi. Bolqar xalqının çoxəsrlik mədəni tarixində incəsənət öz zənginliyi,

varlığı, mürəkkəbliyi həm də çoxşaxəliliyi ilə fərqlənmişdi. Bütün bunlara əsaslanaraq demək olar ki, milli şüurun inkişafında, bolqar xalqının yüksəlişində milli ədəbiyyat və incəsənət öz əhəmiyyətli rolunu oynayırdı.(2,271) Nəşr işinin genişlənməsi dövrü mətbuatın artması da bədii ədəbiyyatın inkişafı üçün geniş imkanlar yaradırdı. Milli mədəniyyətin formalaşmasının birinci mərhələsindən keçən dövr ərzində ədəbiyyat azadlıq hərəkatından bəhrələnərək daha da genişlənmişdi. Y.Karavelov, N.Rilski, V.Drumer, Y.Boqorov, V.Aprilov və başqaları öz əsərlərində siyasi mübarizə, tərbiyəvi xarakterlər yaratmaqla bərabər oxucuları öz vətənini, xalqını sevməyə çağırırdılar. Sonralar maarifçi, tarixçi kimi tanınan, həm də bolqar ədəbi dilinin yaradıcılarından olan X.Botev, Y.Vazov, G.Rakovski ədəbiyyata böyük tövhələr vermişlər. 1869-ci ildə Brail şəhərində akademiya nəzdində yaradılan Bolqar ədəbi cəmiyyətində təcrübəli maarifçi-ədəbiyyətçilar P.Slaveykov, Y.Karavelov, V.Drumev, D.Voynikov, Q.Pirliçev, X.Botev, N.Qerov və b. milli mədəniyyətin inkişafında öz xidmətlərini göstərmişlər.

XIX əsrin ortalarında qadın məktəblərinin sayının artması qadın təhsilinin genişlənməsinə səbəb oldu. Feodal münasibətlərinin ağalığı dövründə qadınların məktəbə getməsi qəbahət sayılırdı. Qadınlar azadlıqdan məhrum olmaqla bərabər, ölkənin ictimai, mədəni həyatında iştirak etmək hüququna malik deyildilər. Həm də yunan və bolqar burjuaziyası arasında ziddiyətlərin kəskinləşməsi nəticəsində tədricən yunan mədəniyyətindən rus mədəniyyətinə meylin artması halları özünü biruzə verirdi. Rus dərsliklərinin, ədəbiyyatlarının geniş şəkildə yayılması, bir çox bolqar müəssisələrinə ilk növbədə qız məktəblərinə maddi kömək göstərilməsi, xüsusilə də Rusiyaya oxumağa gedən bolqar tələblərinə təqaüd verilməsi və s. Rusiya dövlətinin tam düşünülmüş formada məqsədyönlü siyasət aparmasını göstərirdi.(13,129;15,231)

Bolqarıstanın tarixində XIX əsrin ikinci yarısı tarixi inkişaf baxımından böyük əhəmiyyət kəsb edir.Həm də bu dövr rus-bolqar xalqlarının çoxsahəli mədəni əlaqələrinin inkişaf dövrüdür. Bolqar xalqının qədim zəngin mədəniyyəti həmişə Rusiyanın marağında olmuşdur. Eyni zamanda bolqar xalqı da mədəni quruculuğun çoxsahəli məsələlərinin genişləndirilməsində Rusiyanın köməyinə arxalanırdı. Qalibiyyətli gənclər və qızlar Rusiyanın Moskva, Odessa, Peterburq, Kiyev şəhərlərinə göndərilir və onlara maddi köməklik göstərilirdi. Rusiyaya təhsil ocaqlarına oxumağa gedənlərin sayı artdıqca bolqar gənclərinin qəbul olunduğu tədris müəssisələri də genişləndirilirdi. Onlar da vətənə geri döndükdən sonra mədəni-maarifçilik sahəsində öz fəaliyyətlərini davam etdirir, formalaşmış bolqar ziyalılarının əhəmiyyətli hissəsini təşkil edir, milli-mədəniyyətin inkişafının fəal iştirakçısı kimi təmsil olunurdular. Beləliklə rus-bolqar mədəni əlaqələrinin əsas tərkib hissəsini bolqar gənclərinin Rusiyada təhsil alması təşkil edirdi. Rusiya hökuməti də yeritdiyi mədəni siyasətlə bolqar mədəniyyəti üzərində öz təsirini gücləndirməyə can atırdı.(16,209)

Beləliklə demək olar ki, XIX əsrin ikinci yarısında ölkədə ictimai münasibətlər anlayışında tam çevriliş oldu. Milli şüurun, humanitar elmlərin eləcə də ədəbiyyat və incəsənətin inkişafına xüsusi diqqət yetirilirdi. Bu münasibətlər də incəsənətin müxtəlif sahələrinin inkişafına səbəb olurdu. Həmin dövrdə bolqar mədəniyyətinin inkişafına təsir edən ümummilli institutlar - Breildə Bolqar ədəbi cəmiyyəti, Venedə Proqress cəmiyyəti, Qadın xeyriyyə və maarifçilik cəmiyyətləri, ümumtəhsil məktəbləri, müxtəlif mədəni mərkəzlərlə bərabər 1870-ci ildə müstəqil bolqar kilsəsin yaradılması mədəni inkişaf məsələlırinin həllində böyük maraq oyatmışdı. Demək olar ki, XIX əsrin son rübündə Bolqarıstan hökuməti elmin inkişafına xüsusi diqqət yetirirdi. Orta tədris müəssisələri Rusiyanın sinif və gimnaziyaları formasında yaradılırdı. 1888-ci ildə açılmış Sofiya dövlət gimnaziyası 1889-ci ildə Ali məktəbə çevrilmişdi. 1895-ci ildə vətən tarixinin nəşri barədə qərar qəbul edilir. 90-cı illərdə isə bolqar dilində vahid orfoqrafiya lüğəti genişləndirilmişdi. Artıq bolqar xalqı dünyanın bir sıra milli hərəkatlarının iştirakçısı olan ziyalı kadrlara sahib olmuş, ilk bolqar alimləri öz vətənin hüdudlarından kənarda müxtəlif ölkələrdə təhsil almış və işləmişlər.(17,95)

Beləliklə göstərilən dövrdə maarifin inkişafı, müxtəlif tipli təhsil müəssisələrinin açılması ilə bağlı maarifçilik ideyasının yayılması dünyavi məzmunlu, milli ruhda mədəniyyəti yüksək səviyyədə təbliğ edən ədəbiyyatların yayılmasına ehtiyac artırdı. Deməli tədris-maarifçilik ədəbiyyatlarının, dərs-vəsaitlərinin hazırlanıb çap edilməsində təcrübəli maarifçilrinin xidmətləri olmuşdu. Bolqarıstanda qarşılıqlı təhsil, sinif məktəbləri şəbəkələrinin yaradılması, elm və mədəniyyət inkişafı, milli-azadlıq hərəkatının genişlənməsinə, bolqar xalqının siyasi azadlığı uğrunda mübarizəsinin güclənməsinə səbəb olmuş, xüsusilə də mədəniyyətin inkişafı sosial-iqtisadi münasibətlərin inkişafına təsiri böyük olmuşdur.

ƏDƏBİYYAT

1. Забунов И.Д. Болгары юга России и национальное болгарское возрождение в 50-70 гг. XIX в. Кишинев, Штиинца, 1981, 160 с.
2. История и культура Болгарии. М., Наука, 1981, 351 с.
3. История на Болгарии XV-XIX век. К.Анубис. София, 2006, 283 с.
4. История южных и западных славян. М., Московский Университет, 2008, 687 с.
5. Косев Д. Новая история Болгарии. Курс лекций. М., Иностр. лит. 1952, 524 с.
6. Константинов П. Сокровища Болгарии. София, Любородие, 2003, 225 с.
7. Краткая история Болгарии. С древнейших времен до наших дней.М., Наука, 1987, 568 с.
8.Лилуашвили К.С. Национально – освободительная борьба болгарского народа против фанариотского иго и Россия. Тбилиси, Тбилисский университет 1978, 220 с.

9. Məmmədov N. Bolqarıstan tarixi. Bakı, Elm və təhsil, 2009, 271 s.
10. Натан Жак. Болгарское возрождение. М., Иностр. лит. 1949, 319 с.
11. Национальное возрождение и формирование славянских литературных языков. М., Наука, 1978, 355 с.
12. Никитин С.А. Паисий Хилендарский и современная ему южно-славянская историография. Сборник статей и материалов славянского источниковедение. М., Наука, 1965, 323 с.
13. Никитин С.А. Очерки по истории южных славян и русско-балканских связей в 50-70-е годы XIX в. М., Наука, 1970, 328 с.
14. Поглубко К.А. Из истории болгаро-российских культурных связей 40-70 годов XIX в. Кишинев, Штиница, 1976, 179 с.
15. Русско-болгарские фольклорные и литературные связи. В 2-х томах, т. 1. Л., Наука, 1976, 375с
16. Ровняков А.А. В борьбе за свободу Болгарии: Национально–освободительное движение болгарского народа и деятельность Георгия Раковского 30-60-е годы XIX века. Л., Наука, 1980, 207 с.
17. Степанова Л.И. Вклад России в подготовку болгарской интеллигенции в 50-70-е гг. XIX в. Кишинев, Штиница, 1981, 214 с.
18. Франтишек Дворник. Славяне в европейской истории и цивилизации. М., Языки славянской культуры, 2001, 799 с.

З.Н.НУРИЕВА

ФАКТОРЫ ПОВЛИЯВШИЕ НА РАЗВИТИЕ БОЛГАРСКОЙ КУЛЬТУРЫ В XIX ВЕКЕ

РЕЗЮМЕ

Статья посвящена оценке рассматриваемого периода как нового этапа в жизни болгарского народа. Этот период также считается временем формирования болгарской нации, продолжавшимся веками. Различные изменения в социально-экономическом развитии страны, формирование национальной буржуазии ускорили идею создания болгарского национального государства. Болгарский народ в массовом порядке был активным участником национальной борьбы за освобождение от политического и религиозного угнетения и за сохранение своей богатой культуры. XIX век был веком расцвета искусства национального возрождения. В этот период в Болгарии начинает развиваться просвещение на родном языке, литература постепенно приобретает новые черты.

Появляется самостоятельный театр, закладываются основы изобразительного искусства. В целом, искусство сближается с жизнью и становится значительным средством воздействия на народные массы. Эти факторы сыграли значительную роль в становлении болгарской народности и

развитии национального самосознания. В условиях национального, политического и духовного гнета были достигнуты серьезные успехи в деле народного образования. Путь болгарского культурно-просветительского движения был чрезвычайно трудным. Культурный подъем в свою очередь оказал влияние на развитие социальных отношений в стране. Интенсивное и многостороннее культурное общение с Россией в XIX веке имело благотворные последствия для развития литературы, искусства, науки, становления национальной школы. Помощь России в подготовке болгарской интеллигенции была весьма внушительной. Подъем культуры дает новому классу знания и силу, которые используются в борьбе за разрешение назревших вопросов. В целом, просветительское движение XIX века сделало большой шаг в развитии болгарского возрождения.

Ключевые слова: возрождение, народное просвещение, культура, творчество, образование, литературный язык, национальная литература, политика, связь, искусство, наука

Z.N.NURIYEVA

FACTORS INFLUENCING THE DEVELOPMENT OF BULGARIAN CULTURE IN THE XIX CENTURY

SUMMARY

The article is devoted to the assessment of the period under consideration as a new stage in the life of the Bulgarian people. This period is also considered the time of the formation of the Bulgarian nation, which lasted for centuries. Various changes in the socio-economic development of the country, the formation of the national bourgeoisie accelerated the idea of creating a Bulgarian national state.

The Bulgarian people en masse were an active participant in the national struggle for liberation from political and religious oppression and for the preservation of their rich culture. The XIX century was the heyday of the art of national revival. During this period, education in the native language begins to develop in Bulgaria, literature gradually acquires new features. An independent theater appears, the foundations of fine art are being laid. In general, art comes closer to life and becomes a significant means of influencing the masses. These factors played a significant role in the formation of the Bulgarian nationality and the development of national identity. In the conditions of national, political and spiritual oppression, serious successes have been achieved in the field of public education.

Way of bulgar cultural-educational proqmation was very difficult. The cultural upsurge, in turn, influenced the development of public relations in the country. Intensive and multifaceted cultural communication with Russia in the 19th century had beneficial consequences for the development of literature, art, science, and the

formation of a national school. Russia's assistance in training the Bulgarian intelligentsia was very impressive. Cultural development gives a new class knowledge and strength, which they used in the struggle of solution questions. In general, the educational movement of the 19th century made a big step in the development of the Bulgarian revival.

Key words: revival, folk education, culture, creativity, education, literary language, national literature, political, relations, art, science

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: tarix üzrə fəlsəfə doktoru, dosent Abutalıb Cəlilov tərəfindən çapa tövsiyə olunmuşdur

ŞIXƏLİ ƏLİYEV
AZ1001, Azərbaycan Respublikası, Bakı ş., İstiqlaliyyət küç., 53.
info@litmuseum.science.az
sheyxali77@gmail.com

CAHİLİYYƏT POEZİYASININ HƏQİQİLİYİ MƏSƏLƏSİ

Xülasə

Ərəb şeirinin həqiqiliyi, onun dəqiq tarixinin müəyyənləşdirilməsi məsələsi ərəb ədəbiyyatı nəzəriyyəsinin, dilçiliyinin və tarixinin öyrənilməsi üçün böyük əhəmiyyət daşıyır. Cahiliyyət poeziyasının həqiqiliyi ilə bağlı müzakirələr hələ XIX əsr Avropa şərqşünaslığında başlamazdan çox əsrlər qabaq, miladi VIII əsrin sonu, xüsusilə IX və X əsrlərdə ərəb mənbələrində öz əksini tapmışdır. Qədim ərəb müəllifləri Cahiliyyət poeziyasının mövcudluğu faktını tamamilə inkar etməsələr də, Cahiliyyət şeirində təhriflərin olduğunu qəbul etmişlər. XIX əsrin altmışıncı illərindən bəri Cahiliyyət poeziyasının həqiqiliyi məsələsinə münasibətdə iki təsəvvürün formalaşdığını görürük. İslamaqədərki dövrdə poeziyanın mövcudluğunu ümumiyyətlə inkar edən, onu islamdan sonrakı əsrlərin yetirməsi hesab edən təsəvvürlə yanaşı, qədim ərəb şeirinin təhriflərdən xali olmadığı, amma bu nöqsanların onun həqiqiliyini şübhə altına almaq gücündə olmadığını bildirən təsəvvürlər vardır. Məqaləmizdə bu fikirlər və onların tərəfdarları haqqında araşdırma aparılmış, problemin yaranma səbəbləri və tarixi barədə danışılmışdır. Məqalədə Qərb şərqşünaslığında bizə gəlib çatmış Cahiliyyət poeziyasının həqiqiliyini şübhə altına alan alimlərdən biri, bəlkə də birincisi alman alimi Teodor Nöldekenin, keçən əsrin birinci çərəyində yazdığı “The origins of Arabic poetry” adlı məqaləsi ilə tədqiqatçıların diqqətini bu mövzuya çəkmiş D.S. Marqolius, rus şərqşünasları İ.Kraçkovski və İ.M. Filştinski, Taha Hüseyn, J.T.Monro və digər tədqiqatçıların fikirləri qeyd edilmişdir.

Açar sözlər: Taha Hüseyn, D.S.Marqolius, İmrul-Qeys, Cahiliyyət şeiri, J.T.Monro

Ərəb şeirinin həqiqiliyi, onun dəqiq tarixinin müəyyənləşdirilməsi məsələsi ərəb ədəbiyyatı nəzəriyyəsinin, dilçiliyinin və tarixinin öyrənilməsi üçün böyük əhəmiyyət daşıyır. Cahiliyyət dövrü poeziyası nəhv və sərfin (sintaksis və morfologiya) inkişaf meyillərini öyrənmək, çətin sözlərin izahını tapmaq, dilçilik problemlərinin həlli üçün tez-tez müraciət edilən tükənməz qaynaqdır. Bu mənbə islamaqədərki ərəb tarixi barədə zəngin informasiya ehtiva edir. Ona görə də ərəb şeirinin tarixi ədəbiyyat tənqidçiləri ilə yanaşı, dilçilər və tarixçiləri daim düşündürmüşdür.

Cahiliyyət poeziyasının həqiqiliyi ilə bağlı müzakirələr hələ XIX əsr Avropa şərqşünaslığında başlamazdan çox əsrlər qabaq, miladi VIII, xüsusilə IX və X əsrlərdə ərəb mənbələrində öz əksini tapmışdır. Həmin dövrlərin ərəb müəllifləri bu poeziya nümunələrinin İslam dövründə yazıya köçürülərkən təhriflərə, əlavələrə məruz qaldığını qeyd etmişlər. İslamaqədərki dövrün şeiriyyatında təhrifləri ilk üzə çıxaran alim Məhəmməd bin Sallam əl-Cuməhi "Tabaqat əş-şuara" əsərində yazırdı ki, uydurulmuş, sonradan əlavə edilmiş, eləcə də çoxlu saxta şeirlər vardır ki, onların heç bir faydası yoxdur [9, s. 26-27].

Əl-Cuməhi təhriflərə, uydurmalara görə ayrı-ayrı ravilərin məsuliyyət daşıdığını bildirir [9, s.34-35]. Əl-Cuməhinin yazdıqlarından belə məlum olur ki, Cahiliyyət şeirinin başına gətirilən bu təhriflərin miqyası geniş olub. Tənqidçiyə görə, yazmadıqları şeirləri məşhur şairlərə mənsub etmək, şairliyi barədə dəlil olmayanlara beytlər aid etmək, hətta müəyyən beytləri Ad, Səmud, Himyərə aparıb çıxarmaq bu qəbil təhriflərdəndir [9, s.28].

Əl-Cuməhi təhriflərin səbəblərindən biri kimi İslam gələndən sonra ərəblərin müharibələrlə, fəthlərlə məşğul olması, nəticədə şeirdən uzaq qalması və şeirləri yadda saxlayan böyük bir nəslin bu müddət ərzində dünyadan köçməsi ilə şeirlərin unudulma ehtimalının çox olduğunu bildirir [9, s.34]. Fikrimizcə, yalnız böyük təbii fəlakət nəticəsində insanların kütləvi ölümü Cahiliyyət poeziyasının ötürülmə silsiləsinin qırılmasına səbəb ola bilərdi. Nəzərə alsaq ki, ərəblər arasında şeiri əzbərdən bilən gənclərin, ravilik edənlərin sayı çox idi, hətta onların müəyyən qədərinin müharibələrdə həlak olması "bir neçə əsrlik xəzinənin" səssiz-səmirsiz itməsinə gətirib çıxara bilməzdi. Düzdür, bu ədəbiyyat nümunələrinin çox hissəsi unudularaq yazıya köçürülməmişdir və bizə gəlib çatmış şeirlər o xəzinədən qalanlardır. Bu barədə Bəsrə rəvayət məktəbinin nümayəndələrindən biri Əbu Əmr bin əl-Əla belə deyir: *"Ərəblərin dediklərindən sizə çox az hissəsi gəlib çatıb. Əgər kifayət qədəri çatsaydı, onda sizdə (onlarla bağlı) çoxlu bilik və şeir olardı"* [9, s.34]. Eləcə də Himyər hərfləri ilə, amma ərəbcə yazılan şeirlərin, yazılı kitabların olduğunu qeyd edirlər. İbn Sallam təhrif məsələsində bəzi qəbilələrin təəssübkeşiyini də səbəb kimi göstərirdi [9, s.29] .

Əl-Cuməhi ravi Həmmad ər-Raviyənin şairlərə çoxlu şeirlər mənsub etdiyini ("intihal"), şeirlərini artırdığını deyir [9, s.40]. Bununla belə, bildirir ki, şeirlərin rəvayətinin mötəbərliyi barədə alimlər arasında fikir ayrılığı olsa da onların son yekdil rəylərindən heç kəs kənara çıxmırdı [9, s.33-34].

Təbiidir ki, insan yaddaşı qüsursuz deyil, şeirlərin yazıya alınmasında da səhvlər, əlavələr olmuşdur. Amma bu, Cahiliyyət poeziyasının varlığını sual altına almaq gücündə deyil. Köçürülmə zamanı ravilər arasında baş verən rəqabət şeirlərin bu və ya digər şairlərə nisbət edilməsi hadisəsi (intihal) baş vermişdir. Bütün bunlar sonradan şərqşünaslar və ərəb alimləri tərəfindən də üzə çıxarılmışdır. Lakin , qeyd etdiyimiz kimi, bunlar böyük bir poeziyaya kölgə sala bilməz. Cüzi söz fərqi ilə eyni beytlərin varlığı da ravilərin köçürmə zamanı səhvlərə yol verməsindən xəbər verir.

Digər tərəfdən, şifahi ənənənin özü təkrarların geniş yayılması ilə müşahidə olunub. Təkrarlanan motivlər Cahiliyyət poeziyasının həqiqətən də şifahi söylənilib yayılmasına dəlalət edir. Şeirlərdə ahənglə uyuşmayan bəzi sözlərin mövcud olması əl-Xəlil bin Əhməd və şagirdləri tərəfindən əruz qafiyələri, qaydaları ortaya qoyularkən özünü aydın şəkildə büruzə vermişdir. Əruz elmində zihafların, illət qəliblərin yaranmasını bu səhvlərlə bağlayan dr. İbrahim Ənis [10, s.294] vurğulayır ki, rəvayət zamanı buraxılan səhvlərin nəticəsi, birincisi, bu zihaflardır. Şübhə yoxdur ki, illət qəliblər birincilərdən yaranıb. Zihaflar şeirin musiqisi ilə heç bir şəkildə uyuşmur: *"Şeir vəzninin ümumi ruhu və ümumi nəğməsi var, qədim şairlərin şeirlərinin çoxunda və dövrümüzə gəlib çatmış sonrakı bütün şeirlərdə buna riayət olunduğunu görürük. Yalnız qədim şairlərin az qismində şeirin ümumi harmoniyasından və nəğməsindən kənara çıxmalar olub* [10, s.294]".

XIX əsrin altmışıncı illərindən bəri Cahiliyyət poeziyasının həqiqiliyi məsələsinə münasibətdə iki təsəvvürün formalaşdığını görürük. Bu şeiriyyatın ümumiyyətlə İslam dövründə uydurulduğunu iddia edənlərlə yanaşı, rast gəlinən təhriflərin və "intihal" hallarının bu ədəbi nümunələrin qədimliyinə kölgə salmadığını deyənlər müasir elmi-tənqidi metodlarla, multidisçiplinar araşdırmalarla fikirlərini əsaslandırmağa çalışırlar.

Cahiliyyət poeziyasının həqiqiliyini Qərb şərqşünaslığında şübhə altına alan alimlərdən biri, bəlkə də birincisi alman alimi Teodor Nöldeke olub. 1861-ci ildə nəşr etdirdiyi araşdırmasında qədim ərəb mənbələrini, qədim Yəmən yazılarını, Yunan ədəbiyyatını müqayisə edərək gəldiyi nəticələr, demək olar ki, əl-Cuməhinin bu barədə qeyd etdiklərindən fərqli olmamışdır. T.Nöldeke ərəb filoloqunun fikirlərini dərinləşdirilmiş, başqa qeyri-ərəb mənbələri ilə müqayisəli şəkildə təqdim etmişdir. T.Nöldeke əlavə etmişdir ki, Cahiliyyət dövrü poeziyasında İslamla bağlı ifadə və sözlərin olması onun qədimliyi ilə bağlı şübhələri artırır [11, s.26]. Tənqidi fikirlərini və şübhələrini qeyd etdikdən sonra, alman şərqşünas məqaləsinin sonunda qədim ərəb poeziyası barədə heyrətini gizlətməyərək bildirir ki, *"Cahiliyyət şeirlərinin məruz qaldıqları təhriflər, əlavələr nə qədər ciddi olsa da, o şeirlərin rəvayəti nə qədər qarışıq olsa da bu parçalardan həyatverici bir ruh yayılır, bu ruh ona dəlalət edir ki, bədəvi ərəb şeirinin gücü və gözəlliyi yox olmayıb. Homerin poemaları nə qədər dəyişikliyə uğrasa da mənalarının çətin anlaşılmasına baxmayaraq, hələ də onlardan saf insanlığın baharı hiss olunur...Həmçinin Beovulf və Nibelunqlar haqqında poemalar nə qədər təhrif olunsalar da, anlamı çətin olsa da, onlar bizim qədim alman bütpərəstliyinin ruhuna dərindən nəzər salmağımıza imkan verir. Qədim ərəb qəsidələri ilə də biz qədim ərəblərin nöqsanları və fəzilətləri, əzəmətləri və məhdudiyyətləri ilə birlikdə canlı obrazını öyrənirik... Bu şeirlərin əsas vəzifəsi həyatı və təbiəti reallıqdakı kimi vəsf etməkdir. Lakin onlar öz çərçivəsində böyük və gözəldir..."* [11, s. 40].

T.Nöldekenin bu fikirlərindən aydın olur ki, o da əl-Cuməhi kimi islamaqədərki ərəb poeziyasında təhriflərin olduğunu vurğulasa da, ümumilikdə o

dövrdə ərəblərdə şeir sənətinin varlığını inkar etmir, əksinə güclü və gözəl şeir ənənəsindən xəbər verir. T.Nöldekenin bu məqaləsində irəli sürdüyü bəzi məsələlər, bu şeirləri şifahi xalq yaradıcılığı nümunələrindən olan Homer poemalarına, Nibelunqlar haqqında dastana bənzətməsi sonralar Cahiliyyət poeziyasına yeni fərqli yanaşmanın yolunu açmışdır. Qədim dövr ərəb poeziyasını şifahi xalq yaradıcılığı nümunəsi kimi nəzərdən keçirən bu istiqamət barədə irəlidə məlumat verməmişdən qabaq digər alman şərqşünası B.Alvardtın bəhs etdiyimiz mövzu barədə fikirlərini qısaca qeyd etmək istərdik. O da "intihal" və təhriflər barədə orta əsr ərəb filologlarının irəli sürdükləri tezisləri, faktları müasir elmi yanaşmalarla öyrənərək bu qənaətə gəlib ki, qədim ərəb poeziyasının bəzi nümunələri həqiqi olsa da, bir hissəsi qeyri-səhih və digərləri isə şübhəlidir. Alim bu mövzuda qəti fikir bildirməkdən çəkinərək, bunun üçün vasitələrin məhdud olduğunu qeyd edib [11, s.86].

İngilis ərəbşünası D.S. Marqoliusun keçən əsrin birinci çərəyində "The origins of Arabic poetry" adlı məqaləsi [5, s.417-449] çıxdıqdan sonra bu mövzu tədqiqatçıların diqqətini özünə cəlb etməyə başlayıb. D.S. Marqolius ümumiyyətlə, İslam əsrinin başlanmasına qədər ərəblərdə poeziyanın olmadığını vurğulayır. Onun fikrincə, Cahiliyyət dövrü poeziyası kimi təqdim olunanlar sonrakı dövrlərdə uydurulub [5, s.419-426].

Fransız şərqşünası Regis Blaşer ümumiyyətlə islamaqədərki poeziya nümunələrinin həqiqiliyi məsələsində qəti fikir söyləməyin və uydurulmuş şeirlərin üzə çıxarılmasının çətin olduğunu bildirir. Əlavə edərək deyir ki, sonradan Cahiliyyət şeirlərini təqlid edən şeirlər orijinaldan daha yaxşıdır. Bunları əsl Cahiliyyət dövrü şeirindən fərqləndirmək üçün doğruluğuna şübhə edilməyən əsərlər olmalıdır ki, onlar bu işdə meyar kimi istifadə edilə bilsin. Alimin fikrincə, bu hələ mümkün deyil [20, s.186].

Lakin bütün Cahiliyyət dövrü poeziyasının sonrakı əsrlərdə uydurulduğunu qəbul etmək mümkün deyil. Məşhur rus şərqşünası İ.Kraçkovski islamaqədərki poeziyanın bir hissəsinin sonradan təhriflərə məruz qaldığını bildirsə də onun bütünlüklə uydurma olduğunu iddia etməyin mümkünsüzlüyünü deyir [1, s.246-266]. Qədim ərəb şeirində identiklik problemini qəti şəkildə həll etməyin çətin olduğunu deyən digər rus şərqşünası İ.M. Filştinski orta əsr filologları tərəfindən bəzi Cahiliyyət şairlərinin adlarının "uydurularaq" onlara şeirlər nisbət edilməsini, hər birinə tərcümeyi-hal yazılmasını, onların həyatlarının real-tarixi coğrafi hadisələrlə bağlanmasını, hər bir "uydurulmuş" şairin böyük tarixi mədəni, sosial psixoloji və bioqrafik materialla aralarında heç bir ziddiyyət olmadan zəngiləşdirilməsini təsəvvür etməyin mürəkkəbliyini qeyd edir [2, s.40]. Bu işin çətin tərəfi ondadır ki, yaradıcılıqlarından hər hansı nümunə olmadan qədim şairlərin "ruhunda" şeirlər yaratmaq ağlabatan deyil.

Cahiliyyət şeirinin ümumiyyətlə mövcud olmadığını, İslam dövrlərində uydurulduğunu ərəb alimlərindən ilk dəfə deyən Taha Hüseyn özünün "Fiş-şeiril-

cahiliyyi" (Cahiliyyət şeiri haqqında) əsərində İmrul-Qeys, Tarafa, İbn Kulsum, Əntərə və başqa islamaqədərki dövr şairlərinin poeziyasının, əslində dilçilərin, ravilərin yaradıcılığının məhsulu hesab edir [12, s.284]. Taha Hüseynin bu və digər "Fil-ədəbil-arabiyyi" (Ərəb ədəbiyyatı haqqında) kitablarının işıq üzü görməsi ilə mövzu ətrafında müzakirələrə ərəb alimləri də cəlb edilmişdir.

Cahiliyyət poeziyasının varlığını qismən və tam şəkildə şübhə altına alan alimlər iddialarını əsaslandırmaq üçün ərəblər arasında yazı ənənələrinin olmamasını, şeirlərin sonrakı əsrlərdə yazıya alınmasını, əruz vəznində belə mükəmməl nümunələrin islamaqədərki dövrdə yaranmasının mümkünsüzlüyünü, Quranla həmin şeirlərin dili arasında yaxınlığı, eyni şeirinin bir neçə variantının mövcudluğunu və s. səbəb kimi göstərirlər. Şübhəçilərin digər iddialarına da ərəb alimləri maraqlı cavablar veriblər. İraq alimi Abdulilah əs-Saiğ bu mülahizələrə cavab verərək bildirir ki, Quran dili ilə Cahiliyyət şeirinin dili arasında oxşarlıq ikincinin uydurulduğuna kafi dəlil deyil. Əksinə, bu oxşarlıq şeirin həqiqiliyinə dəlil ola bilər. Quran və Cahiliyyət şeirləri Qureyş ləhcəsindədir [13, s.182-183].

Başqa ərəb alimi Mustafa Nasif Cahiliyyət poeziyasının əvvəllər səthi, bədəvi poeziya olduğunu, yalnız ərəblər başqa xalqlarla qarşılaşandan sonra inkişaf etdiyini iddia edən müəlliflərə qarşı çıxır [14, s.50]. Alim bu poeziyaya dini dəyərlər nöqteyi-nəzərindən yanaşaraq mənfi qiymət verənlərə, onun əhəmiyyətini azaldanlara da etirazını bildirir [14, s.48] və qeyd edir ki, yaxşı oxunduğu halda, onun başqa ədəbiyyatlarla rəqabət apara bilən, dərin bir ədəbiyyat olduğu, bəzilərinin dediyi kimi, *"çoxlu qumlar içərisində az mirvarilər"* olmadığı görünər [14, s.36].

Cahiliyyət poeziyasında təkrarlanan qəliblərin işlənməsi xüsusiyyətindən çıxış edərək, bəzi alimlər identiklik probleminin həlli üçün yeni yanaşma ortaya qoymuşdur. Amerikalı alim J.T.Monro O, 1972-ci ildə nəşr etdirdiyi "Oral Composition in Pre-İslamic Poetry" adlı məqaləsində göstərir ki, Cahiliyyət poeziyası sonradan uydurulmuş olsa belə, o mövcud olmuş, lakin itmiş forma, model əsasında uydurulub. J.T.Monro M.Parri və A.B.Lordun "şifahi poeziya" nəzəriyyəsindən çıxış edərək qədim ərəb qəsidələrinin "şifahi formullar" (qəliblər) əsasında formalaşdığına diqqəti cəlb edir [6, s.11-13]. O, "şifahi formulların" qədim ərəb şeirinin ravilər tərəfindən asanlıqla yadda saxlanmasına və sonradan bədahətən deyilməsinə kömək etdiyini bildirir. J.T.Monroya görə, şeir yazmaq ənənəsinin olmaması, eləcə də şeirlərdə təkrar qəliblər (sözlər, sintaktik formalar), mövzuların oxşarlığı qədim ərəb poeziyasını şifahi xalq yaradıcılığına yaxınlaşdırır. Bu zaman şeirlərin müəlliflik problemi də aradan qalxır.

Bu nəzəriyyənin tərəfdarları "intihal" (uydurulma) və təhrif problemini "kökündən" həll edirlər. Belə ki, bu şeirlərin Cahiliyyət dövrünə aidliyi inkar edilmir, amma onlar folklor nümunəsi kimi hər hansı şairə mənsub deyil.

Bütün bunlara əlavə olaraq onu deyə bilərik ki, Cahiliyyət poeziyasının nümayəndələrinin şeirləri VIII əsrdə yazıya alınanda müxtəlif dilçilik məktəblərinin nümayəndələri olan məşhur ravilər əl-Mufaddal əd-Dabi, Əbu Əmr bin əl-Əla, əl-

Əsməi və başqaları sağ idilər və onlardan heç biri bu şeirlərin Cahiliyyət dövrünə aid olmadığını qeyd etməyiblər. İslamaqədərki şairlərin Homer və başqa şifahi xalq ədəbiyyatı personajları ilə müqayisə edilməsi də düzgün deyil. Belə ki, Homerdən fərqli olaraq, birincilərin əsil-nəsəbi, doğum və ölüm yeri müfəssəl şəkildə mənbələrdə qeyd olunub. Bundan başqa, şairlərin təsvir etdikləri məkanlar və hadisələr real faktlara uyğundur.

Ümumiyyətlə, uzaq keçmişdən gələn şifahi xalq ədəbiyyatı nümunələrinin və şeirlərin yazıya alınarkən, nüsxələri köçürülərkən təhriflərə uğraması, zamanın tələbinə uyğunlaşdırılması halları ilə təkcə ərəb şeiri qarşılaşmayıb. Qiymətli Oğuz-Azərbaycan tarixi-ədəbi abidəsi "Kitabi Dədə Qorqud"un mətnləri eyni taleyi yaşamışdır. Nümunə üçün deyək ki, misirli tarixçi, əslən səlcuq türklərindən olan Əbu Bəkr bin Abdullah bin Aybək əd-Davadarinin (vəfatı miladi 1335-ci ildə) Misir kitabxanasında (Dər əl-kutubi-l-qavmiyyə) 2605 saylı şifrəsində saxlanılan "Durər ət-tican va ğurar tavarix əz-zaman" adlı əlyazmasının 1932-ci ildə köçürülmüş surətində türklərin Oğuznamə adlı kitabından danışarkən Təpəgöz hekayəsinə toxunması [15, s.537] Dədə Qorqud dastanının boylarının hələ XVI əsrdə bir kitabda cəm edilənədək XIII əsrə qədər yazılı şəkildə mövcud olduğundan xəbər verir. Bunun özü də boyların XVI əsrdə toplanıb yazıya köçürülərkən sonradan uydurulması haqqında olan iddiaları alt-üst edir. Bu misalların sayını artırmaq olar. Amma bütün bunlara baxmayaraq, istər qədim ərəb şeirindən, istərsə də Dədə Qorqud dastanının bizə gəlib çatan yazılı nüsxələrindən onların yaradıcısı olan xalqların qədim ənənələrini, nüsxəyə köçürüldüyü zamanın konyunkturasına uyğun olmayan adətlərini, məişətini öyrənmək olur.

Beləliklə, deyə bilərik ki, qədim və müasir ərəb tədqiqatçılarının, alimlərinin əksəriyyəti bütövlükdə Cahiliyyət poeziyasının həqiqiliyini şübhə altına almırlar, sadəcə olaraq bu ədəbiyyatda "intihal" şeirlərin olduğunu bildirirlər. Onlar yaxşı anlayırlar ki, belə zəngin ədəbi xəzinəni öz dövründən ayırıb tamamilə "yox etmək" ərəb dilçiliyini və tarixini, Quranla bağlı elmləri mühüm mənbədən məhrum etmək deməkdir.

İslamaqədərki poeziya yazıya köçürülərkən onun yarandığı tarixin müəyyən edilməsi məsələsi də ortaya çıxmışdır. Bu məsələ də Cahiliyyət poeziyasının həqiqiliyi problemi ilə əlaqəlidir. Bu poeziyanın tarixini İslamdan sonrakı əsrlərə aparıb çıxaran və bununla da onun həqiqiliyini şübhə altına alan alimlərin əksinə olaraq, erkən orta əsr ərəb filoloqları Cahiliyyət dövrü poeziyasının yaranma tarixi barədə konkret fikirlər bildirmiş, onun tarixini İslamdan qabaqkı dövrlərə bağlamışlar.

İti hafizələrin sayəsində müəyyən hissəsi yazıya köçürülərək bizə gəlib çatan qədim ərəb poeziyasının formalaşma dövrünü təyin etmək üçün ilk Cahiliyyət şairinin kimliyi və yaşadığı zaman müəyyən olunmalıdır. Bu barədə müxtəlif rəvayətlərin mövcudluğu işi çətinə salan amildir. Rəvayətlərdə ərəb dilində şeirin tarixinin başlanğıcı Adəm peyğəmbərə, Ad, Səmud, Əmaliqə qövmlərinə [9, s.28]

aid edilir. Əbu Zeyd əl-Qurəşi əbəs yerə "şeir elə bir cövhərdir ki, onun mənbəyi tükənmir" demir [16, s.44]. Bu cəhdlər bir tərəfdən Qurani-kərimdə ərəb dilinə verilən statusla bağlı idisə, digər tərəfdən ərəblərin xilafətə daxil olmuş başqa xalqlar qarşısında üstünlüyünü göstərmək istəyindən irəli gəlirdi. Şeir ərəblərin salnaməsi hesab edildiyi üçün onun tarixi yükü və məsuliyyəti də böyük idi.

Qəbilə təəssübkeşliyi (asabiyyə) ilk şairin müəyyən olunması məsələsində də öz sözünü demişdir. Ömər bin Şəbbədən nəql olunur ki, hər bir qəbilə öz şairinin birinci olduğunu iddia etdiyindən bu məsələ alimlər arasında da fikir ayrılığına səbəb olmuşdur. İbn Şəbbəyə görə, burada iki-üç beyt yazanlar nəzərə alınmırdılar. Bu beytləri şeir hesab etmirdilər. O, sözünə davam edərək bildirir ki, yəmənlilər İmrul-Qeysi, Bəni Əsəd qəbiləsi Abid bin əl-Abrası, Təğlib qəbiləsi əl-Muhəlhili, Bəkr qəbiləsi Əmr bin Qamiəni və əl-Muraqqaş əl-Əkbəri, İyad qəbiləsi də Əbu Duadı birinci hesab edirdilər. Bəziləri isə əl-Afvah əl-Avdini bunlardan daha əvvələ çəkirdilər. Şeirdə birinci olduqları iddia olunan bu şairlər eyni dövrdə yaşayıblar. Bəlkə də onların arasında ən birincisi hicrətdən 100 il və ya təxminən o qədər müddət qabaq yaşamışdır [17, s.477]. Sələb əl-Əsməidən rəvayət edir ki, 30 beytdən ibarət ilk qəsidəni əl-Muhəlhil deyib, sonra Zueyb bin Kəb, sonra Bənu Kinanədən Zamra, sonra əl-Adbat bin Qurey gəlir. Bunlarla İslam arasında 400 il var. İmrul-Qeys bunlardan çox sonradır [17, s.477]. İbn Sallam qəsidəni ilk nizama salan şəxsin əl-Muhəlhil bin Rəbiə olduğunu qeyd etməklə Cahiliyyət şeirinin onun adı ilə başlanmalı olduğuna işarə edir [9, s.32].

Buna baxmayaraq, əksər orta əsr müəllifləri İmrul-Qeysi ərəb qəsidəsini formalaşdıran, sonralar daha da inkişaf edən ərəb şeir ənənələrinin banisi hesab edirlər. Əbu Osman əl-Cahiz İmrul-Qeysin və dayısı əl-Muhəlhil bin Rəbiənin poeziyasına, tərcümeyi-halına əsaslanaraq şeirin yaranma tarixini İslamdan 150-200 il əvvələ aparıb çıxarır. Əl-Cahiz bu barədə "əl-Hayavan" əsərində deyir: *"Ərəb şeirinə gəlincə, o, yeni yaranmışdır, yaşı azdır. Onu ilk dəfə qaydaya salan, ona aparan yolu açanlar İmrul-Qeys bin Hucr və əl-Muhəlhil bin Rəbiədir... Şeirin ortaya çıxdığını aydınlaşdırarkən, bunun Allahın İslamı gətirməsindən 150 il, daha dəqiq desək, ən çoxu 200 il qabaq olduğunu görürük"* [18, s.74]

Cahiliyyət dövrü barədə qiymətli mənbələrdən biri olan İbn Quteybənin "əş-Şer vaş-şuara" əsərində şair İmrul-Qeysin həyatı barədə məlumatlar əl-Cahizin ərəb şeirinin tarixi haqqında dediyi fikri, demək olar ki, təsdiq edir. Mənbələrdə şairin doğum və ölüm tarixi barədə məlumat verilməsə də, İbn Quteybə təqdim etdiyi bəzi faktlarla şairin yaşadığı dövr haqqında müəyyən təsəvvür yaratmağa çalışır. "Əş-Şer vaş-şuara"da İmrul-Qeysin əcəm (Sasani) şahı Ənuşirvanın (vəf.579) zamanında yaşadığı bildirilir [19, s.125]. Müəllif fikrini əsaslandırmaq üçün belə bir faktı diqqətə çatdırır ki, İmrul-Qeysin yaraq-əsləhəsini (Bizansa gedərkən yəhudi dininə etiqad edən Samvaəl bin Adiyənin yanında qoymuşdu) ələ keçirmək istəyən əl-Haris bin Əbi Şəmir əl-Ğəssani (əl-Haris əl-Əkbər) Munzir bin İmrul-Qeysin (şairlə qarışdırılmamalı!) qatilidir. Həmin Munzirin də Ənuşirvan tərəfindən Hirəyə hakim

təyin edildiyini deyən İbn Quteybə, təqdim etdiyi faktlar arasında paralellər apararaq, şairin Ənuşirvan zamanında yaşadığı fikrini əsaslandırmağa çalışır.

"Əş-Şer vaş-şuara"nın müəllifi daha sonra Ənuşirvanın hakimiyyətə gəlişindən İslam peyğəmbərinin doğulduğu tarixə qədər keçən dövrü müəyyən etməyə çalışır və qeyd edir ki, bu iki hadisəni bir-birindən 40 il ayırır [19, s.125]. Beləliklə, İmrul-Qeysin də Ənuşirvan zamanında yaşaması ilə bağlı deyilmiş fikirlə razılaşsaq, yuxarıda yazılan tarixə istinad edərək bildirmək olar ki, şair Məhəmməd peyğəmbərin (s.a.s) doğumundan təxminən yarım əsrdən də az vaxt əvvəl yaşamışdır. İbn Quteybə bu fikirlərini əsaslandırmaq üçün Cahiliyyət dövrü ilə İslam dövrü arasında "canlı körpü" də qurmağa çalışır. İmrul-Qeysin vaxtilə öz şeirlərində ərəblərin ən yaxşı atıcısı kimi vəsf etdiyi uzunömürlü (deyilənə görə 150 il yaşayıb) Əmr bin əl-Musəbbih ət-Tainin ərəb qəbilələrinin nümayəndə heyəti tərkibində Məhəmməd peyğəmbərlə (s.a.s) görüşmək üçün Mədinəyə gəldiyini və İslamı qəbul etdiyini xatırladır [19, s.125]. Bununla İbn Quteybənin şairlə İslam dövrü arasında xronoloji bağlantı yaratmaq cəhdi aydın görünür. Ümumiyyətlə, ərəb tarixində hər hansı dövrü bildirmək üçün uzunömürlülərdən "xronoloji isnad körpüsü" kimi istifadə ənənəsi vardır.

Cahiliyyət poeziyasının İslam dövründə uydurulduğunu deyən tədqiqatçılar istisna olmaqla, bu şeirlərin həqiqiliyini qəbul edənlərin fikirləri əl-Cahizin gəldiyi nəticəyə yaxındır. Rus şərqşünası İ.M.Filştinski qeyd edir ki, orta əsr antologiyaları İslamdan qabaq yaşamış 100-dən çox şairin adlarını ehtiva edir. Onların yaradıcılığı təxminən 150 ili – V əsrin sonu -VII əsrin ortalarına qədər dövrü əhatə edir [2, s.36]. Avropa şərqşünası Çarlz Lyalla görə isə, Cahiliyyət ərəblərinin işlətdikləri bəhrlərin çoxluğu və mürəkkəbliyi, vəzn və qafiyə ilə bağlı möhkəm qaydalar, qəsidələrdəki eyni üslub şeir sənətinin əvvəllər uzun formalaşma mərhələlərindən keçdiyini, ərəb ədəbi dilinin imkanlarını göstərir [4, s. xvi]. Eyni mövqeyi Reynold Nikolson da bölüşür [7, s.75-76]. Kliment Huart hazırda bizə məlum olan ilk ərəb şeir nümunələrinin tarixinin miladi VI əsrdən uzağa getmədiyini qeyd edərək bundan qabaqkı şeirlərin şifahi yaddaşlardan silindiyini iddia edir [3, s.7].

Qədim ərəb tarixi üzrə görkəmli mütəxəssis İrfan Şahid ərəb poeziyasının başlanğıcını müəyyən etmək üçün yunan salnaməçisi Sozomenin kilsə tarixindən bəhs edən əsərinin və Namara yazısının kömək edə biləcəyini yazıb. Alim bunlara əsasən ərəb şeirinin yaranış tarixinin miladi IV əsrdən hesablana biləcəyini bildirir. Qeyd edir ki, artıq mükəmməl qəsidə yazmış şairin doğum tarixi 480-ci il götürülsə, ondan təxminən bir əsr qabağı ərəb şeirinin ortaya çıxma tarixi hesab etmək olar [8, s.444]. IV-V əsrlər arasında yaşamış Sozomon qeyd edir ki, ərəblər hökmdarları Maviyənin Roma imperatoru Valensinin qoşunları üzərində 380-ci ildə qələbələrini hərb nəğmələri oxumaqla bayram edirdilər və bu nəğmələr V əsrin ortalarında da dillərdən düşməmişdi. Daha sonra İ.Şahid bildirir ki, qadın hökmdar Maviyənin Roma imperatorunun qoşunları ilə döyüşü "əyyamul-arab" nümunəsi kimi qeyd edilə bilərdi. Belə ki, Sozomon bu barədə döyüşün baş verdiyindən təxminən 75 il sonra

məlumat verir, bu da Maviyənın qəhrəmanlıqlarının xalqın yaddaşında hələ də qaldığını göstərirdi [8, s.444]. Bununla, İ.Şahid Sozomonun fikrinin bu kontekstdə araşdırılmasının ərəb şeiri tarixinin müəyyən edilməsinə töhfə verəcəyini bildirir. Ümumiyyətlə, müharibə ilə ərəb poeziyası arasında sıx əlaqə vardır. Qeyd etdiyimiz kimi, ərəblər qəhrəmanlıqlarını şeirlə vəsf edir, şeirdən bir növ hərbi marş kimi istifadə edib əsgərləri döyüşə həvəsləndirirdilər. Bununla bağlı "həmasə" janrında yazılmış şeirlər geniş yayılmışdı. Bu şeirlər isə nəğmə ilə oxunurdu. Ona görə də, İrfan Şahidin bu mülahizəsi maraqlıdır.

Doğrudan da, qədim ərəb poeziyasında normativlik və ənənəvilik müəyyən poetik məktəbin olmasından xəbər verir. Orta əsr ərəb filoloqlarının əsərlərində, xüsusilə əsası Aus bin Həcər (təxminən 530-620) tərəfindən qoyulan Aus poetik məktəbinin adı qeyd edilir [2, s.37].

Şeir uzun prosesin gedişində formalaşır, püxtələşir. Bizə məlum olan Cahiliyyət poeziyasının nümunələrini, bəlağətli şəkildə desək, ərəb şeirinin şəcərəsinin ilk cücərtisi deyil, hələ çox qol-budaq atmayan, amma gələcək iri ağacın gövdəsinə çevriləcək pöhrəyə bənzətmək olar. Əksər tədqiqatçılar da bu fikirdədirlər ki, İmrul-Qeysin dövrünə qədər şeir hazırlıq və formalaşma mərhələlərdən keçmiş, sonra isə İmrul-Qeys qəsidəni, vəznlərini, mövzularını mükəmməl hala gətirmişdir.

İstifadə edilmiş ədəbiyyat

1. Крачковский И.Ю. Избранные сочинения / И.Ю. Крачковский. – Москва - Ленинград: Издательство Академии наук СССР, том 2, - 1956. – 703 стр.
2. Фильштинский, И.М. История арабской литературы V - начало X века / И.М. Фильштинский. – Москва: Наука, –1985. – 531 стр.
3. Huart, C.A. History of Arabic Literature / C.A. Huart. – London: - William Heinmann , - 1903, - pp. 478
4. Lyall, C.J. Translations of Ancient Arabian Poetry / C.J. Lyall. – London: - 1885
5. Margoliouth, D. S. (1925). The Origins of Arabic Poetry// Journal of the Royal Asiatic Society of Great Britain & Ireland, - 57(03), p.417–449.
6. Monroe, J.T. (1972). Oral Composition in Pre-İslamic Poetry \\ Journal of Arabic Literature. Brill. Vol. 3, pp. 1-53 (53 pages)
7. Nicholson, A. R. A Literary History of the Arabs / A. R. Nicholson. – England: Curzon Press Ltd. – 1995. - 506 pp
8. Shahid, I. Byzantium and the Arabs in the Fourth Century / I.Shahid. - Washington D.C: Dumbarton Oaks research library and collection, - 2006, - 632 pages
9. محمد بن سلام الجمحي. طبقات فحول الشعراء، تحقيق جوزف هل، دار الكتب العلمية، بيروت – لبنان، 2001، 226 ص.
10. ابراهيم أنيس. موسيقى الشعر، مكتبة الأنجلو المصرية، القاهرة، 1952، 317 ص.

11. دراسات المستشرقين حول صحة الشعر الجاهلي. ترجمها د.عبد الرحمن بدوي، دار العلم للملايين، بيروت، 1979، 328 ص.
12. طه حسين. في الشعر الجاهلي، تقديم ودراسة وتحليل سامح كريِّم. الدار المصرية اللبنانية، القاهرة، 2010، 420 ص.
13. عبد الإله الصائغ. الادب الجاهلي وبلاغة الخطاب. دار الفكر المعاصر، صنعاء، 1999-2000، 581 ص.
14. مصطفى ناصف. قراءة ثانية لشعرنا القديم، دار الأندلس، بيروت، لبنان، 187 ص.
15. الدوادارى أبو بكر بن عبد الله بن أيبك، درر التيجان وغرر تواريخ الازمان، نسخة من مخطوطة رقم 2605، 318 ورقة، كتبه حسن رشيد
16. ابو زيد القرشي. جمهرة أشعار العرب في الجاهلية والإسلام، تحقيق علي محمد البيجاوي، مج1، نهضة مصر، القاهرة، 1981، 816 ص.
17. السيوطي جلال الدين. المزهر في علوم اللغة وأنواعها. شرح محمد احمد جاد المولى بك وغيره، الجزآن، منشورات المكتبة العصرية، صيدا – بيروت، الجزء الثاني 1986، 659 ص
18. ابو عثمان الجاحظ. كتاب الحيوان، 8 اجزاء، الجزء الأول، تحقيق وشرح عبد السلام محمد هارون، مطبعة مصطفى البابي الحلبي واولاده، مصر، 1965، 428 ص.
19. ابن قتيبة. الشعر والشعراء، تحقيق احمد محمد شاكر، جزءان، الجزء الاول، دار المعارف، القاهرة، دون تاريخ.
20. بلاشر. تاريخ الادب العربي. ترجمة ابراهيم الكيلاني، دار الفكر، دمشق، 1956، 193 ص

Ш.Г. Алиев

Вопрос подлинности поэзии Джахилии (доисламского периода)

Резюме

Вопрос о подлинности арабской поэзии и определении ее точной истории имеет большое значение для изучения теории арабской литературы, лингвистики и истории. Дискуссии о подлинности поэзии Джахилии еще за много веков до становления европейского востоковедения XIX века, отражены в арабских источниках конца VIII века, особенно IX-X вв. Хотя древние арабские писатели не полностью отрицали существование поэзии Джахилии, они признавали, что в ней были искажения. Начиная с 1860-ых гг. мы наблюдаем формирование двух представлений о подлинности поэзии Джахилии. Помимо мнения о том, что поэзия Джахилии появилась позже в ранний исламский период, есть и другое мнение, что она все-таки является продуктом доисламского периода, при этом содержит искажения и недостатки, которые не должны бросать тень сомнения на ее подлинность. В нашей статье мы исследовали эти идеи и их сторонников, поведали о причинах и истории возникновения проблемы. В статье, приведено исследование немецкого ученого Теодора Нельдеке «Истоки арабской поэзии» первой четверти XX века, который одним из первых в западной ориенталистике подверг сомнению подлинность поэзии периода Джахилии. Также в статье представлены взгляды

D.S.Марголиуса, русских востоковедов И.Крачковского и И.Фильштинского, Таха Хусейна, Монро и других исследователей, внимание которых привлекла тема исследования Теодора Нельдеке.

Ключевые слова: Таха Хусейн, Д.С.Марголиус, Имру ал-Кайс, поэзия Джахили, Дж. Т. Монро

Sh.H.Aliyev

The authenticity problem of pre-Islamic poetry

Summary

The question of the authenticity of Arabic poetry and the determination of its exact history is of great importance for the study of the theory, linguistics and history of Arabic literature. Discussions about the authenticity of pre-Islamic poetry were reflected in Arabic sources in the late eighth century AD, especially in the ninth and tenth centuries, many centuries before the European orientalists began to study it (in the 19th century). Although the Arab philologists did not completely deny the existence of the pre-Islamic poetry, they acknowledged that there were some distortions in the Jahili poetry. Since the sixties of the nineteenth century, we see the formation of two ideas about the authenticity of the Jahili poetry. There are those who deny categorically the existence of the poetry in pre-Islamic times and say that it was created after Islam. There are those who say that ancient Arabic poetry was not free of distortions, but these did not cast doubt on its authenticity. Our article researched these ideas and their supporters, talked about the causes and history of the problem. D.S.Margoliouth, I.Krachkovsky and I.M.Filshtinsky, Taha Hussein, J.T. Monroe and other researchers were noted in our article.

Key words: Taha Hussein, D.S.Margoliouth, Imru' al-Qais, Jahili poetry, J.T. Monroe

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Filologiya üzrə elmlər doktoru, professor Aida Qasımova tərəfindən çapa tövsiyə olunmuşdur

ARZU HÜSEYNLI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Üzeyir Hacıbəyli küçəsi, 68
huseynovaarzu@mail.ru

VİLYAM ŞEKSPİR YARADICILIĞI

XÜLASƏ

Məqalə böyük ingilis şairi və dramaturqu Vilyam Şekspirin yaradıcılığından bəhs edir. Dünya şöhrətli şairin yaradıcılığı intibah dövrünə təsadüf etmişdir. Təxminən 22 illik ədəbi fəaliyyəti dövründə Vilyam Şekspir 37 pyes, 5 poema və 154 sonet yazmışdır. Dünya ədəbiyyatı tarixində Şekspir, əsasən, faciə ustadı kimi tanınır. Təqdim olunmuş məqalədə şairin yaradıcılığının fərqli mərhələlərə ayrıldığı qeyd olunmuşdur. Şekspir yaradıcılığının ilk illəri üçün nikbin əhval-ruhiyyəli əsərlər xarakterikdir. Bu əsərlərə yalnız komediyalar deyil, eyni zamanda, tarixi-xronoloji pyeslər və faciələr də aiddir.

Şekspir, eyni zamanda, sonet müəllifi kimi də şöhrət qazanmışdır. Bu janrın İtaliyada yaranaraq bütün Avropada yayılmasına baxmayaraq, sonetlərdən bəhs edildikdə, ilk xatırlanan məhz Şekspirin sonetləri olur. Sekspir sonetləri ilə sələflərini, müasirlərini və xələflərini də kölgədə qoymuşdur. 1590-1600-cü illəri əhatə edən dövr ədibin yaradıcılığının ən məhsuldar dövrü olmuşdur. Ədəbi fəaliyyətinin ən yüksək zirvəsi isə ikinci dövrə (1601-1608) təsadüf edir. Şekspirə dünya şöhrəti qazandırmış faciələr bu illərdə yazılmışdır: “Hamlet”, “Otello”, “Kral Lir”, “Maqbet” və s. Görkəmli dramaturq ədəbi fəaliyyətinin son illərində (1609-1612) tragikomediyalar yazmışdır.

Vilyam Şekspir öz ölməz əsərləri ilə nəinki ingilis ədəbiyatını zənginləşdirmiş, həmçinin ingilis dilinə yeni sözlər, frazeoloji birləşmələr də daxil etmişdir ki, onlar indiki dövrdə də istifadə olunur.

Açar sözlər: faciə, komediya, sonet, insan, humanizm, cəmiyyət, romantika, ədalət, əhval-ruhiyyə, optimizm.

İngilis dramaturqu Vilyam Şekspir dünyanın ən böyük dühalarındandır. 400 ildən çoxdur ki, qərb və şərq aləmində Şekspir adına dərin məhəbbət bəslənilir. Zaman keçdikcə aydın olur ki, Şekspir tükənməzdir. Avropada intibah dövrünün ən parlaq nümayəndələrindən olan Şekspir öz dərin humanizmi, xəlqiliyi, həyatsevərliyi ilə bütün xalqların, bütün qabaqcıl bəşəriyyətin qəlbinə hakim olmuşdur. “Böyük qəlb ustası” adlandırılan Şekspir, həqiqətən, insan qəlbinin bütün sirlərini dərindən bilən söz ustadı idi. Dahi Höte Vilyam Şekspirin əsərlərini “insan taleləri kitabı”

adlandırmışdır. Karl Marks demişdir: "Şekspir və onun əsərlərində canlanan həyat səhnələri və insan xarakteri öz əlvanlığı, dolğunluğu və yetkinliiyi ilə sarsıdıcı təsir bağışlayır".

Böyük faciə ustası, məşhur şair Şekspir ingilis ədəbiyyatını yeni zirvəyə qaldırmışdır. Antik dövr dramaturqiyasından söz düşəndə dilə ilk gələn Esxil, Evripid, Sofokl adları olursa, İntibah dövrünün dram sənəti zirvəsində qeyd-şərtsiz görkəmli ingilis dramaturqu Vilyam Şekspirin adı çəkilir. İnsan ləyaqətinin ucalığı, insanpərvərlik, məhəbbət ülviliyi, dərin həyatilik, mənəvi yüksəkliyə əsaslanan Şekspir yaradıcılığı ümümbəşər mənəvi sərvətində elə bir zirvədir ki, coğrafi sərhədlər, milli psixologiyalar məhdudluğu tanımır və zamana sinə gərir.(1, s.2)

Şekspirin istedadı iki ədəbi janrda- lirik və dram janrlarında öz əksini tapmışdır. O, 154 sonetin müəllifidir. Şekspir yaradıcılığının tədqiqatçılarının fikrincə, ədib yalnız sonetlər yazmış olsaydı belə, dünya ədəbiyyatında görkəmli şair kimi şöhrət qazana bilərdi. Lakin teatra olan maraq dünyaya Şekspir simasında dahi dramaturqu bəxş etdi. Vilyam Şekspir 37 dram əsərinin, 5 poemanın müəllifidir. Pyesləri faciə, komediya və tarixi-xronoloji janrda yazılmışdır. (7)

Vilyam Şekspir 21 yaşında doğma şəhəri Stratfordu tərk edərək, Londona gəlir. O, ədəbi məclislərədə iştirak edir, teatrda çalışır. Eyni zamanda, o öz əsərlərini də yazmağa başlayır. 1592-ci ildə Şekspir artıq İngiltərədə qüdrətli şair və dramaturq kimi tanınırdı.. Şekspirin yaradıcılığının tədqiqatçıları onun zəngin ədəbi irsini üç dövrə bölürlər:

1. Nikbin dövr -1590-1600-cı illər
2. Bədbin dövr- 1601-1608-ci illər
3. Romantik dövr- 1609-1612-ci illər.

Ədibin yaradıcılığının birinci dövrü məhsuldar olmuşdur. Şair poemalarını, komediyalarının əksəriyyətini, sonetləri, əksər tarixi-xronoloji əsərləri bu dövrdə yazmışdır. Bu dövr üçün nikbin əhval -ruhiyyə, ədalətin zəfərinə və humanist ideallara inam səciyyəvidir. Şekspirin ilk əsərlərindən olan "III Riçard" və üç hissədən ibarət olan "VI Henri" 1590-cı illərdə- tarixi dramların dəbdə olduğu dövrdə yazılmışdır. Kraliça I Elizabet dövrünün dramaturqlarının əsərlərinin Vilyam Şekspir yaradıcılığına təsiri olmuşdur. Bu dramaturqlara nümunə olaraq, Tomas Kid və Kristofer Marlonu göstərmək olar. (5)

Bu dövrdə "Romeo və Cülyetta" ," Yuli Sezar" faciələri yazılmışdır . "Romeo və Cülyetta" faciəsi dünya ədəbiyyat incilərindən biri sayılır. Əsərin qəhrəmanları feodal adət-ənənələrinə, köhnə dünyanın qanunlarına qarşı çıxırlar. Bu mübarizədə onlar həlak olurlar, lakin iki ailə arasında olan düşmənçiliyə son qoymağa müvəffəq olurlar. Romeo və Cülyetta həyatlarını itirsələr də, onların pak məhəbbəti feodalizmə xas prinsiplərə qalib gəlir. Bunu nəzərə alaraq, bəzi tədqiqatçılar "Romeo və Cülyetta" əsərini nikbin faciə hesab edirlər.

1590-cı illərin ortalarında Sekspirin istehza xarakterli komediyalardan romantik əsərlərə keçidi nəzərə çarpır. "Yay gecəsində yuxu" romantikanı, sehrlı möcüzələri

və aşağı səviyyəli cəmiyyətin həyatını özündə birləşdirir. "Venesiyalı tacir" komediyası Elizabet dövründə ingilislərin qərəzli irqi mövqeləri öz əksini tapmışdır. (1. s 10)

İntibah dövrünün ingilis poeziyasının zirvəsini, eləcə də dünya poeziyasının ən mühüm mərhələsini Şekspirin sonetləri təşkil edir.1592-1598-ci illərdə yazılmış sonetlər 1609-cu ildə nəşr olunmuşdur. 16-cı əsrin axırlarında ingilis poeziyasında sonet əsas janr idi. Şekspirin sonetləri öz fəlsəfi dərinliyinə, lirikliyinə , dramatiziminə görə o dövr sonet janrının inkişafında görkəmli yer tutur.

Birinci dövrdə yazılmış əsərlər:

"Kral VI Henri" I, II,III hissələr (1590-1591), "Səhvlər komediyası" (1592), "Tit Andronik" (1592) , "Şıltaq qızın yumşalması" (1593), "Venera və Adonis" (1593), "İki veronalı centlmen" (1594), "Məhəbbətin əbəs səyi" (1594), "III Riçard" (1595), "Romeo və Cülyetta"(1595), "Yay gecəsində bir yuxu" (1595), "Kral Con" (1596), "Venesiyalı tacir" (1597), "Kral IV Henri" (1598), "Vindzorlu şən qadınlar"(1598), "Heçnədən hay-küy"(1598), "Kral I Henri" (1598), "Yuli Sezar" (1599), "Necə istəyirsinizsə" (1599), "On ikinci gecə "(1600)

Vilyam Şekspir yaradıcılığının ən yüksək zirvəsini təşkil edən ikinci dövr (1601-1608-ci illər) –"bədbin dövr", əsasən, faciə janrında yazılmış əsərlərlə zəngindir: "Hamlet", "Kral Lir", "Otello", "Maqbet", "Antoni və Kleopatra", "Afinalı Timon", "Karolian". Əzəmətli faciələr dövrü həm Şekspir, həm də İntibah realizminin ən böyük qələbəsidir. Bu dövrdə şair komediyalar da yazmışdır, lakin onlar birinci dövrdı yazılmış komediyalardan fərqlənir. Belə ki, bu dövrdəki komediyalarda şən əhval, həyatsevərlik, nikbinlik hiss olunmur. Bu əsərlərdə müəyyən qədər faciəli notlar nəzərə çarpır: "Troil və Kressida", "Tədbirə qarşı tədbir", "Xeyirlə bitən iş yaxşı olar.", "Perikl". (2. s 7)

Şekspirin faciələri dəhşətli və qanlı hadisələrlə doludur. Onun qəhrəmanları həlak olurlar.Bu faciələrdə hüzn, kədər qüvvətlidir. Ən yüksək ideyalar, arzular, mənəvi keyfiyyətlər sarsıntıya uğrayır, tapdanır, böhran keçirir. Lakin bütün bunlara baxmayaraq, Şekspir faciələrində tam ümidsizlik yoxdur. Bunun səbəbi isə humanizm ideyalarının rəddedilməz bir qüvvəyə malik olmasıdır. Faciələrdə Şekspir öz humanist idealından nəinki uzaqlaşmır,əksinə, bu ideal haqqında təsəvvürü daha da dərinləşdirir, insana məhəbbət və inamın gücünü artırır. Hamletin dili ilə Şekspir insan haqqında öz fikirlərini izah edərək deyir: " İnsan! Təbiətin möcüzəsi, xeyirxah düşüncəli, sonsuz qabiliyyətli, mütənasib əndamlı , heyrətamiz davranışlı insan! Hərəkəti ilə mələklərə, kamalı ilə allaha bənzəyən insan! Bütün yaranmışların, bütün canlı varlığın tacı insan! Belə bir insan yaratmaq, sevmək, işləmək üçün doğulmuşdur." Dahi ədibin rəyincə, insan cəmiyyəti məhəbbətə əsaslanmalıdır. İnsanlar bir-birini sevməli, qanun isə bu sevgini, sədaqəti, vəfanı qorumalıdır. Qanunun mahiyyəti qanuna məhəbbətdir. "Kral Lir" faciəsində qoca kral insanların bolluq içində yaşamasını təkidlə arzu edir. Bolluq olmalıdır ki, insan praktiki həyatın hər cür məhdudiyyətindən azad ola bilsin. İnsanı diğər canlılardan ayıran başlıca fərq

bundadır ki, insan istedada, sonsuz imkana malikdir. O zəngindir və bu zənginlik onu azad edir, insan sərbəst olaraq özünü maddi sərvətə qarşı qoyur. Kral Lir deyir: "Miskin bir dilənçi belə, ona lazım olanda artığına malikdir. Biz təbiəti ancaq lazım olanlarla məhdudlaşdırsaydıq, heyvan dərəcəsinə enərdik**.".** Bu faciədə kral Lir əsərin əvvəlində və sonunda iki fərqli insan kimi təsvir olunmuşdur. Taxt-tac sahibi olan Lir zülmkar, qəzəbli, feodal əxlaq normalarını üstün tutan bir hökmdardır. Əsərin sonunda çətinliyə düşən kral xalqa yaxınlaşır. Xalqın acınacaqlı vəziyyətini görən hökmdarda əsl insani hislər baş qaldırır. "Kral Lir" faciəsində müəllif cəmiyyətin müxtəlif təbəqələri arasındakı fərqi göstərmişdir. (2. s 7)

Faciəvi komediyalar olan "Simbelin", "Qış Nağılı", "Fırtına" Şekspir yaradıcılığının üçüncü dövrünə (1608-1612) aiddir. Bu əsərlərdə alleqoriya və fantaziya meydana gəlir. "Qış nağılı"-nın süjetinin Robert Qrinin 1588-ci ildə nəşr olunmuş "Pandosto" romanından götürüldüyü güman edilir. Şekspir qəhrəmanların və hadisələrin baş verdiyi yerlərin adını, eləcə də süjeti bir qədər dəyişdirmişdir. Romandan fərqli olaraq, pyesin sonunda əsas qəhrəmanlar olan Hermiona və Leontes sağ qalır və barışırlar. (4)

Şekspir ingilis dilinə 1700-2000-ə yaxın söz əlavə etmişdir. Bunlara nümunı olaraq "accomodation, amazement, assasination, bloody, cold-blooded, dawn, excitement, generous, gloomy,gossip, green-eyed, hurry, lonely, majestic, noiseless, ode, road, suspicious, varied, worthless" sözlərini göstərmək olar.

Oksfordun "Qanadlı sözlər" lüğətinə görə, ingilis dilində ən çox təkrarlanan sitatların onda biri Şekspirin payına düşür. Vilyam Şekspirin yaratdığı bir çox ifadələr, idiomlar hal-hazırda da ingilis dilində işlənir.

1. green-eyed monster"("Otello" əsərində)- qısqanclıq
2. It's all Greek to me. ("Yuli Sezar" faciəsi)- anlaşılmayan bir şey
3. Love is blind. ("Venesiyalı tacir")- sevərkən eyibləri görməmək
4. A heart of gold ("Henry V")- çox mehriban, təmiz qəlbli insan
5. Break the ice. ("Şıltaq qızın yumşalması") – söhbətə başlamaq, ünsiyyət yaratmaq
6. Catch a cold ("Simbelin")- xəstələnmək, soyuqlamaq
7. Apple of my eye ("Yay gecəsində yuxu")- çox istədiyin bir kəs
8. What's done is done. ("Maqbet")-Olan oldu, keçən keçdi.
9. All that glisters isnt gold. (("Venesiyalı tacir")- Hər parlayan qızıl deyil.
10. Salad days ("Antoni və Kleopatra") – sadəlövhlüklə, təcrübəsizliklə səciyyələnən gənclik dövrü

Şekspir bugünün, gələcəyin- bütün zamanların şairidir. Ədibin ös əsərlərində toxunduğu mənəviyyat məsələləri bədii estetik dəyərinə, fikir dolğunluğuna, ictimai mahiyyətinə görə bugün də bəşəriyyəti düşündürür. Dahi şair xalq qarşısında öz sənətkar missiyasını şərəflə yerinə yetirmiş, dünya mədəniyyətinə, teatrına, ədəbiyyatına çox böyük irs, qiymətli sərvət qoyub getmişdir. Onun ölməz əsərləri bunu deməyə haqq verir.

ƏDƏBİYYAT

1. Vilyam Şekspir. Seçilmiş əsərləri. I cild. “Öndər nəşriyyat”, Bakı, 2004.
2. AR Mədəniyyət Nazirliyi:Dünya ədəbiyyatının iftixarı olan Şekspir-Bakı, 2019
3. “King Lear” wikipedia
4. Peter Ackroyd**:** Shakespeare: The Biography , London. 2005
5. Ismixan Rəhimov: Mühazirələr
6. https://renesans.ru/poema/16_02.shtml
7. (r-book.club. zarubezhnye-pisateli)

РЕЗЮМЕ
ТВОРЧЕСТВО УИЛЬЯМА ШЕКСПИРА

В статье рассматривается творчество великого английского поэта и драматурга Уильяма Шекспира. Выдающийся поэт жил и творил в эпоху Воэрождения. За 22 года литературной деятельности Уильям Шекспир написал 37 пьес, 5 поэм и 154 сонетов. В истории мировой литературы Шекспир известен, прежде всего, как великий мастер трагедии. В данной статье указаны разные периоды творчества поэта. Первый период творчества Шекспира характеризуется оптимистическим настроением. В этот период были написаны не только комедии, но также историко-хронологические пьесы и трагедии.

Шекспир также известен как автор сонетов. Несмотря на то, что жанр сонетов появился в Италии и был широко распространён в Европе, этот жанр ассоциируется с именем Шекспира. Своими сонетами Шекспир затмил не только своих предшественников и современников, но и последователей.1590-1600-е годы считаются самым плодотворным периодом в творчестве великого поэта. Но вершиной литературной деятельности Шекспира называют второй период (1601-1608), когда были написаны всемирно известные трагедии: «Гамлет», «Отелло», «КорольЛир», «Макбет» и др. В последние годы деятельности (1609-1612) великий драматург написал трагикомедии.

Уильям Шекспир не только обогатил английскую, в том числе и мировую литературу своими бессмертными произведениями, но также ввёл в английский язык новые слова, фразеологические выражения, которые используются и в настоящее время.

Ключевые слова: трагедия, комедия, сонет, человек, гуманизм, общество, романтика, правосудие, настроение, оптимизм

SUMMARY
THE CREATIVE ACTIVITY OF WILLIAM SHAKESPEARE

The article deals with the creation of the great English poet and dramatist William Shakespeare. The poet lived and created in the Renaissance period. During 22 years of literary activity Shakespeare wrote 37 plays, 5 poems and 134 sonnets. Shakespeare is known as the master of tragedies. Different periods of the poet's creation are indicated in the article. The first period is characterized as optimistic time. The poet wrote not only comedies, but also historical-chronological plays and tragedies.Shakespeare is also famous for his sonnets. Though this genre has its origins in Italy and was widely spread in Europe, this poetic form is associated with the name of Shakespeare. With his sonnets, Shakespeare eclipsed not only his predecessors and contemporaries, but also his followers. The period of 1590-1600 is considered as the most significant. However, the works written during the second period (1601-1608) brought world-wide fame to the poet. The tragedies "Hamlet", "Othello", "King Lear", "Macbeth" and others were written in these years. In 1609-1612 Shakespeare wrote tragicomedies.

William Shakespeare enriched English and the world literature with his immortal works. Moreover, the poet created new words and idioms which are used so far.

Key words: tragedy, comedy, sonnet, human being, humanism, society, romantism, justice, mood, optimism

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: f.ü.f.d, dosent Məmmədova Svetlana Nəsib qızı (ADPU) tərəfindən çapa tövsiyə olunmuşdur

VÜSAL MƏMMƏDZADƏ
Bakı Dövlət Universiteti,
Jurnalistika fakültəsi
mail.for.vusal@gmail.com

PLATFORMAYA UYĞUN KONTENT VƏ ONUN MULTİMEDİA JURNALİSTİKASI DÖVRÜNDƏ ƏHƏMİYYƏTİ

XÜLASƏ

Müasir media mühiti üçün xarakterik olan "multiplatform" anlayışı informasiyanın mübadiləsi prosesinə ciddi təsir göstərib. Artıq media qurumları eyni vaxtda bir neçə platforma vasitəsilə yayım həyata keçirirlər. Təbii ki, hər platformanın öz tələbləri var. Buraya həm texniki tələblər, həm də yaradıcılıq baxımından tətbiq olunan qaydalar daxildir.

Müasir tələblər iş prosesində yeni meyllər yaradıb. Xəbər otaqlarının strukturunun dəyişməsi, eləcə də, jurnalistlərin fəaliyyətində meydana gələn yenilikləri bu meyllərə misal göstərə bilərik. Kontent istehsalı prosesində də yeni qaydalar tətbiq olunmaqdadır. Bunlar informasiya mübadiləsində ortaya çıxan yeni texniki imkanların nəticəsi kimi yaranıb. Müasir auditoriyanın tələbləri də kontentin formatı, təqdimat üsulu və digər məsələlərə təsir edən məqamlardandır.

"Platformaya uyğun kontent" anlayışı da informasiya mübadiləsində yeni tendensiyaların nəticəsi kimi ortaya çıxıb. Əlində fərqli texniki imkanlara sahib yayım platformalarını birləşdirən media qurumları hər platformanın tələblərini nəzərə alaraq kontent istehsal etməyə çalışırlar.

Təqdim olunan məqalədə bu tendensiyadan bəhs olunub. Elmi yazıda, həmçinin, platformaya uyğun kontent istehsalının multimedia jurnalistikası dövründə əhəmiyyəti araşdırılıb. Məqalənin hazırlanması prosesində fərqli platformalardan götürülən nümunələr təhlil edilib. Əldə olunan nəticələr mövzu ilə bağlı beynəlxalq mənbələrdəki qeydlərlə müqayisə olunub.

Açar sözlər: Multimedia, Multimedia jurnalistikası, Multimedia jurnalisti, Universal jurnalist, Yeni media, Platformaya uyğun kontent

Multimedia jurnalistikasına inteqrasiya dövründə məzmun istehsalının mərkəzində platformaya uyğun kontent dayanır. Bu gün auditoriya fərqli platformalara parçalanıb. Hər platformanın isə öz xüsusiyyəti var. Bu xüsusiyyətlərdən asılı olaraq istehsal olunan kontentin də emal prosesi və təqdimat üsualları dəyişir.

“BBC”nin sənədli filmlər üzrə mütəxəssisi Darren Lauford öz təcrübəsindən yazır: “Fövqəladə hallarda sağ qalan insanlar barədə hər biri bir saat olmaqla 4 sənədli film hazırladıq və TV-də təqdim etdik. Mən bu filmlərin müzakirəsinin vacib olduğunu fikirləşdim. Buna görə, həmin filmlərin onlayn platformada yayımı

haqqında düşündüm. Bir saatlıq filmlər onlayn platformalar üçün uyğun deyildi. Buna görə də, həmin filmlərdən üç dəqiqəlik kiçik videoçarxlar hazırladım və internetə yüklədim". (1)

Darren Laufordun bu işi məzmunun fərqli platformalarda təqdimatına gözəl nümunədir. İnternet istifadəçiləri kompüter monitoru arxasında bir saatlıq sənədli filmə baxmaqdansa, kiçik videoçarxları izləməyi üstün tuturlar.

Multimedia jurnalistikasında hər platformaya fərdi yanaşmaq lazımdır. Məqalənin davamında multimedia jurnalistikasında ən çox istifadə olunan platformalar üçün məzmun istehsalı və təqdimatının əsas xüsusiyyətlərindən danışacağıq.

Əvvəlcə multimedia jurnalistikası dövründə istifadə olunan platformaları müəyyənləşdirək:

Ənənəvi media platformaları	Yeni media platformaları
TV	Veb saytlar
Radio	Sosial media
Mətbuat	Məzmun platformaları

Cədvəl 1. Multimedia jurnalistikası dövründə istifadə olunan platformalar.

Müasir televiziya və radio üçün uyğun kontentin hazırlanması. Rasmus Klis Nilsen və Riçard Sembrukun hazırladığı "Televiziya xəbərlərinə nə olur?" başlıqlı hesabatda hazırda televiziyanın qızıl əsrini yaşadığı yazılır. (2; 2) Müasir TV üçün əyləncə formatında hazırlanan verilişlər, seriallar və bədii filmlər daha çox izlənildiyi bildirilir (8) və qeyd olunur ki, bu prosesin əksinə olaraq TV-də xəbər proqramları reytinqini sürətlə itirir. Məsələn, 2016-cı ilə aid Birləşmiş Krallıq auditoriyasının tələbatı əsasında hazırlanan statistikada auditoriyanın xəbəri onlayn platformalardan almağı daha üstün tutduğunu görürük.



Cədvəl 2. Birləşmiş Krallıqda auditoriya xəbəri hansı qaynaqlardan alır? (2; 4)

Böyük televiziya şirkətləri xəbər proqramlarını da baxımlı etməyin yollarını axtarırlar. Bu məqamda multimedia elementləri köməyə gəlir. Son dövrlərdə xəbər buraxılışlarında kompüter qrafikasının tətbiqi məsələsinə xüsusi diqqət yetirilir.

2018-ci ilin sentyabr ayında "Weather Channel" tərəfindən təqdim olunan və qasırğanın hansı fəsadlara səbəb ola biləcəyini özündə əks etdirən qrafik böyük maraqla qarşılandı. Sosial şəbəkə istifadəçiləri bu buraxılışı öz profillərində paylaşdılar. Təqdim olunan qrafik, həm də tamaşaçıları daha yaxşı məlumatlandırmaq baxımından da uğurlu oldu. (9)

Multimedia jurnalistikasına inteqrasiya prosesində xəbər buraxılışlarının yaxşı izlənməsini təmin etmək üçün, həm də yeni media platformalarının köməyinə arxalanmaq olar. "Qardian"da yayımlanan məqalədə Böyük Britaniyada aparılan bir neçə sorğunun nəticələri təqdim olunub. Statistik göstəricilərə əsasən, smartfon istifadəçilərinin 80%-i, tablet işlədənlərin 81%-i, noutbuk istifadəçilərinin isə 73%-i cihazlarını televizor qarşısında nəyəsə baxarkən istifadə edir. Onların 41%-i isə izlədikləri proqram barədə düşüncələrini sosial şəbəkə hesablarında paylaşırlar. (3) Bu məqamda heştəqlərin əhəmiyyəti ön plana çıxır. İzləyicilər öz fikirlərini proqramda təqdim olunan heştəqlər vasitəsilə bölüşməklə həmin proqramı izləyənlər arasında böyük bir şəbəkə yaradırlar. Proqramı izləməyənlər isə sosial şəbəkələrdə həmin paylaşımlar vasitəsilə verilişin məzmunu ilə tanış olduqdan sonra televizoru yandırıb onu izləyirlər. Bu, həm izləyicilər arasında informasiya mübadiləsinə şərait yaradır, həm də proqramdan xəbəri olmayanları həmin proqrama baxmağa səsləyir.

Bu gün radio da multimedia jurnalistikasına inteqrasiya edir: yeni vasitələr, yeni forma və üslubları meydana gətirir. Artıq radionu, həm smartfonlar, həm kompüter, həm də digər vasitələrlə dinləmək mümkündür. Radionun fərqli platformalarda yayımlanması ənənələrin də dəyişməsinə səbəb olub. "Radio mədəniyyəti həmişə səslə bağlı olub. Ancaq bu gün yeni radio kontenti, həm də mətn, video, veb sayt kimi vizual elementlərlə də bağlıdır. (4) Təsadüfi deyil ki, bu gün dünyanın böyük radio şirkətləri öz veb səhifələrini yaradırlar. Burada onlayn yayım həyata keçirməklə yanaşı, podkastlar da yayımlayırlar. Son vaxtlar radio verilişlərinin onlayn platformalarda (məsələn, YouTube, Facebook və s.) canlı videoyayımının da həyata keçirildiyinin şahidi oluruq. Bütün bunlar müasir auditoriyanın tələbləri əsasında meydana çıxır və ənənələri dəyişir.

Fikrimizi ümumiləşdirsək, deyə bilərik ki, müasir radio haqqında danışarkən onu yalnız radioqəbuledicidə səslənən proqramlar, radio teatrı, və ya musiqilər kimi başa düşmürük. Buraya, həm də radionun elektron platformalarda yayımladığı podkastlar və verilişlərin canlı videoyayımı aiddir.

Müasir çap mediası üçün uyğun kontentin istehsalı. Müasir çap mediasında da radiodakı kimi ənənə dəyişikliyi yaşanmaqdadır. Artıq insanların avtobus və metrolarda kağız qəzetlər oxuduğu dövr geridə qalıb. İndi hamı smartfon işlədir. Buna görə də, çap mediası da veb səhifələr vasitəsilə yayımlanır. Multimedia jurnalistikası dövründə media şirkətləri məzmunu bir neçə platforma vasitəsilə

çatdırmağa çalışır. Məsələn, “Qardian” 20 il öncə yalnız qəzet istehsal edirdisə, bu gün internet vasitəsilə videolar, podkastlar, qrafiklər və s. yayımlayır. Bununla yanaşı, media şirkəti fərqli sosial media hesabları vasitəsilə sosial şəbəkələr üçün də kontentlər hazırlayır. Sosial media platformaları üçün uyğun kontent istehsalı ilə bağlı danışacağıq. Əvvəlcə, veb saytlar üçün məzmun istehsalı ilə tanış olaq.

Veb saytlar üçün uyğun kontentin istehsalı. Şübhəsiz, müasir medianı veb səhifələr olmadan təsəvvür etmək mümkün deyil. Əvvəlcə də bildirdiyimiz kimi, multimedia jurnalistikası dövründə bütün media şirkətləri, həm də veb səhifələr vasitəsilə auditoriyaya xidmət göstərməyə çalışır. Bu, iki baxımdan əhəmiyyətlidir:

1. Daha geniş auditoriyaya çatmaq;
2. İnteraktivlik yaratmaq.

Bu gün hamı televizora baxmır. Amma çox insan gününün böyük hissəsini internetdə keçirir. Buna görə də, bu gün internet auditoriya üçün daha əlçatandır. Bu baxımdan, istər televiziya kanalları, istərsə də digər media şirkətləri istehsal etdikləri məzmunları, həm də veb saytlarda yayımlayırlar. Bəs, multimedia jurnalistikası dövründə veb sayt üçün uyğun kontent necə olmalıdır?

“News in a new century” kitabında veb sayt üçün məzmun hazırlayan jurnalistlərə tövsiyyə olunur ki,

1. Mətnin uzunluğu kompüter ekranının ölçüsündən çox olmasın;
2. Mətnə keçidlər əlavə edilməsin;
3. Müxtəlif media elementləri eyni ekranda birlikdə görünsün. (5)

3-cü tövsiyədə də qeyd olunduğu kimi, bu gün bir neçə media elementinin, yəni multimedianın veb saytlar üçün hazırlanan məzmunda əhəmiyyəti böyükdür. Müasir elektron mediada mətn, ən azından, şəkillə müşaiyət olunur. Mətnə video, səs, qrafika kimi elementlərin də əlavə edilməsi, həm məzmunu oxunaqlı edir, həm də auditoriyanın məlumatı qavramasını asanlaşdırır.

Mətnin uzunluğu məsələsi də, bu gün üçün əsas məsələlərdəndir. İnternet və yeni texnologiyalar sahəsində bir çox tədqiqatlar aparmış Kara Pernice "Veb məzmunun "F" şəklində oxunması" adlı məqaləsində istifadəçilərin psixoloji məqamları barədə bəzi fikirlər qeyd olunub: "İstifadəçilər əvvəlcə veb məzmunun ilk abzasını sonadək oxumağa çalışırlar. Əksər hallarda ilk 1-2 sətir sonadək oxunur. İkinci abzasın cümlələri daha sürətlə, adətən yarıyadək oxunur. Sonrakı abzasların isə ilk sözləri nəzərdən keçirilir. Beləliklə, xəyali olaraq "F" şəkli ortaya çıxır". (https://www.nngroup.com/articles/f-shaped-pattern-reading-web-content/)

Aşağıdakı şəkildə isə veb məzmunun "F" şəklində oxunmasına bəzi nümunələr göstərilib.



Şəkil 1. Veb məzmunun "F" şəklində oxunması.

Digər tərəfdən, veb saytların texniki baxımdan müasir auditoriyanın istəklərinə uyğun olması məsələsinə də diqqətlə yanaşılır. Təsadüfi deyil ki, bütün platformalar üçün (kompüter, mobil, tablet və s.) uyğun dizaynlar tətbiq edilir. Bu dizaynlar istifadəçinin daxil olduğu platformaya əsasən ölçüləri müəyyənləşdirir və özü platformaya uyğunlaşır. Belə dizaynlar "uyuşan" ("responsive") adlanır.

Sosial media platformaları üçün uyğun kontent istehsalı. İnternetdə müxtəlif formalarda məlumat paylaşmağa imkan yaradan, müxtəlif interaktiv alətlərdən təşkil olunan sosial media jurnalistlər üçün "mənbə tapmaq, ictimaiyyətin nəbzini tutmaq, xəbər istehsal etmək kimi fərqli fəaliyyətləri icra etməkdə" vacib əhəmiyyət kəsb etməyə başlayıb. (5) Yəni, bu gün jurnalistlər sosial mediadan, həm xəbər əldə etmək, həm də paylaşmaq üçün istifadə edirlər. Xüsusilə, son 10 ildə jurnalistikada aktiv istifadə edilməyə başlanılan sosial medianın rolu gündən-günə artır. Bu gün insanlar ayrı-ayrı saytları gəzmək əvəzinə, öz sosial media hesablarına vaxtaşırı nəzər yetirirlər. 2017-ci ilə aid statistikada internet istifadəçilərinin böyük hissəsinin mobil vasitələrdən istifadə etdiyi bildirilib. (10) Buna görə də, bu gün böyük media şirkətləri sosial mediadakı fəaliyyətdə bu məqamı nəzərə alaraq təqdim olunan məzmunun formasını mobil platformaların tələblərinə uyğunlaşdırırlar. Son dövrlərdə bu mənada "multimedia" kimi də adlandırılan sosial media videoları haqqında danışmaq lazımdır.

Sosial media videoları bu gün informasiyanın çatdırılmasında ən əlverişli üsullardan hesab olunur. Bu gün, əsasən, iki ölçü formasından istifadə edilir:



Şəkil 2. Sosial media videoları üçün ən uyğun ekran ölçüləri.

Hər iki format "Facebook", "Instagram", "Twitter" kimi platformalara uyğundur. 9x16 ölçülü videolar, əsasən, "Instagram" hekayələrində istifadə olunmaqdadır. Bununla yanaşı, bəzi media qurumları öz veb saytlarında da bu ölçüdə videolar yayımlayır. 9x16 ölçülü videolar mobil telefonların ekranını tam tutduğuna görə, bu gün onlayn mediadan fəaliyyət göstərən bir çox xəbər yayımı şirkətinin ən çox istifadə etdiyi formatına çevrilib. Belə videoların həcmi, adətən, bir dəqiqədən, və ya dəqiqəyarımdam çox olmur. Statistikaya görə, Facebook istifadəçilərinin 85%-i videoları səssiz izləyir. (11) Buna görə də, videolar subtitrlarla təqdim edilir. Bu, videoya səssiz baxan istifadəçilərin mövzu ilə bağlı məlumat ala bilməsinə şərait yaratmaq üçündür. Sosial mediada geniş istifadə edilən başqa bir fotmat isə infoqrafikadır. Aydın məsələdir, sosial şəbəkə istifadəçiləri uzun yazıları oxumaq marağında deyillər. Buna görə, təqdim olunan xəbərlərdə foto və video kimi vizual vasitələrlə birlikdə, infoqrafikaların da əhəmiyyəti böyükdür. Multimedia jurnalistikası dövründə infoqrafikalardan çox istifadə olunur. Hətta, bəzən, məlumat mətn olmadan, yalnız infoqrafika vasitəsilə çatdırılır.

Şəkil 3. "Anadolu" Agentliyi İstanbul Marafonu ile bağlı bəzi məlumatları "Twitter" hesabında paylaşdığı infoqrafika ilə təqdim edir. (12)

Multimedia jurnalistikası dövründə məzmun platformalarının əhəmiyyəti. Sosial paylaşma platformaları istifadəçilərin şərikli platformadan istifadə edərək öz fikir və düşüncələrini yaza, foto və video kimi fərqli multimedia kontentlərini bölüşə bildikləri onlayn məkanlardır. (7) Məzmun platformaları və sosial şəbəkələr sosial paylaşma platformaları kimi ümumiləşdirilir. Ancaq biz bəzi fərqli xüsusiyyətinə, ümumiyyətlə, fərqli təbiətinə görə bu yazıda məzmun platformalarını sosial şəbəkələrdən ayırmışıq.

Məzmun platformaları istifadəçilərə multimedia kontentləri paylaşmağa imkan verən saytlardır. (13) "YouTube", "Flickr", "Slideshare" ve başqa bu kimi saytları məzmun platformalarına aid edə bilərik. Multimedia jurnalistikası dövründə bu platformaların əhəmiyyəti böyükdür. Əvvəla, multimedia kontenti hazırlanarkən bu saytlardan mütəmadi istifadə olunur. Məsələn, hansısa veb sayt üçün multimedia kontenti hazırlamaq və ona video əlavə etmək istəyiriksə, həmin videonu "YouTube"a yükləyirik, sonra isə linklə hazırladığımız kontentdən videoya keçid veririk.

Digər tərəfdən, bu saytlar multimedia jurnalistikasında məlumat və məzmun bazası rolunu oynayır. Bu gün xəbər saytları həvəskarlar tərəfindən çəkilən videolardan tez-tez istifadə edir. Həvəskar çekilişləri isə video bloggerlər öz bloqlarında paylaşırlar. Xəbər saytlar bu cür videolardan öz saytlarında mütəmadi istifadə etməkdədir. Bu, vətəndaş jurnalistikasının da əhəmiyyətinin böyük olduğunu sübut edən amillərdəndir.

Bununla yanaşı, son illərdə sosyal məzmun platformaları da meydana gəlib. Bu platformalar sosial media və məzmun platformaları arasında keçid hesab oluna bilər.



Şəkil 4. Sosial məzmun platformalarının sosial media və məzmun platformaları ilə müqayisədə yeri.

Sosial media platformalarına misal olaraq Türkiyədə fəaliyyət göstərən "Onedio.com" saytını misal göstərmək mümkündür. Belə saytlarda kontent istifadəçilər tərəfindən hazırlanır. Hər istifadəçinin şəxsi bloq səhifəsi olur.

Həmişə elmi-texniki tərəqqinin gətirdiyi yeniliklərdən bəhrələnən jurnalistika elektron media dövründə də multimedia elementlərinin təsirinə məruz qalıb. Bu gün, istər xəbər, istərsə də digər məzmunların hazırlanması prosesində multimedia elementlərinin tətbiqi ön plandadır. Bununla yanaşı, media şirkətləri məzmunu bir neçə platformada yayımlayırlar. Bu isə multimedia jurnalistikası dövründə platformaya uyğun kontent anlayışını gündəmə gətirib. Hazırda hər bir media şirkəti fəaliyyət göstərdiyi hər platformanın texinki imkanlarını öyrənmək, bu imkanlara uyğun kontent hazırlamağa çalışır. Platformaya uyğun kontentin istehsalı ve fərqli platformalarda yayımı müasir media mühitində çox vacibdir. Bu gün auditoriya fərqli platformalara yayılıb və kim daha çok platforamda mövcuddursa, o da daha çox insanın diqqətini çəkə bilir və nəticə etibarilə, daha böyük izləyici sayına sahip olurlar.

Ədəbiyyat siyahısı

1. Lawford, D. (2009). Delivering Multiplatform: Journalism to the Mainstream, The Future of Journalism. London: BBC College of Journalism. s. 56.
2. Nielsen, R. K. ve Sambrook, R. (2016). What is happening to television news? University of Oxford.
3. Dredge, S. (2012, Ekim). Social TV and second-screen viewing: the stats in 2012. TheGuardian. https://www.theguardian.com/technology/appsblog/2012/oct/29/social-tv-second-screen-research
4. Gazi, A., Starkey, G. ve Jedrzejewski, S. (2011). Radio Content in the Digital Age: The Evolution of a Sound Medium. Bristol: Intellect. s. 10.
5. Lanson, J. ve Fought, B. (1999). News in a new century. London: Pine Forge Press. s. 112.
6. Kurt, H. (2014). Gazetecilik Pratiği ve Sosyal Medya. Gaziantep University Journal of Social Sciences. S. 13(4), s. 823.
7. Bulunmaz, B. (2013). Postmodern Dünyanın Gerçeküstü Mekânları: Sosyal Paylaşım Siteleri. İstanbul: Beslenme Saati Yayınları. s. 13-38.

İnternet resursları

8. https://www.statista.com/statistics/289568/binge-viewing-content-type-us/
9. https://www.youtube.com/watch?v=K-rimfCe9NU
10. https://www.statista.com/topics/1145/internet-usage-worldwide/
11. https://digiday.com/media/silent-world-facebook-video/
12. https://twitter.com/aa_spor/status/1061224597910179840
13. https://serc.carleton.edu/NAGT Workshops/undergraduate_ research/ community.html

ВУСАЛ МАМЕДЗАДЕ

СООТВЕТСТВУЮЩИЙ ПЛАТФОРМЕ КОНТЕНТ И ЕГО ЦЕННОСТЬ В ЭПОХЕ МУЛЬТИМЕДИЙНОЙ ЖУРНАЛИСТИКИ

РЕЗЮМЕ

Понятие «мультиплатформа» характерный для современной медиа среды оказал значительное влияние на процесс обмена информацией. Медиа организации уже способны вести трансляции на нескольких платформах одновременно. Конечно, каждая платформа имеет свои требования. Наряду с техническими требованиями сюда относятся также правила, которым следуют в творческом процессе.

Современные требования привели к возникновению новых течений в процессе работы. Примерами этих течений могут быть изменения в структуре новостных комнат, а также нововведения в деятельности журналистов. Новые правила применяются и в процессе генерации контента. Они появились как результат новых технических возможностей, возникших в процессе обмена информацией. Спросы современной аудитории также являются фактором, влияющим на формат контента, приемы презентации и на другие аспекты.

Понятие «Соответствующий платформе контент» тоже возник как результат новых тенденций в процессе обмена информацией. Медиа организации, объединяющие вещательные платформы, которые располагают различными техническими возможностями, стремятся генерировать контент принимая во внимание спросы каждой из платформ.

В данной статье говорится об этой тенденции. В научной работе исследуется также значение генерации соответствующей платформе контента в эпохе мультимедийной журналистики. В процессе работы над статьей анализировались примеры, взятые из разных платформ. Результаты сравнивались с данными зарубежных источников по этой теме.

Ключевые слова: Мультимедиа, Мультимедийная журналистика, Мультимедийный журналист, Универсальный журналист, Новая медиа, Совместимый контент

VUSAL MAMMADZADA

COMPATIBLE CONTENT FOR PLATFORM AND ITS IMPORTANCE IN THE AGE OF MULTIMEDIA JOURNALISM

SUMMARY

The concept of "multiplatform", which is characteristic of the modern media environment, has had a significant impact on the process of information exchange. Media outlets already broadcast on several platforms simultaneously. Of course, each platform has its own requirements. This includes both technical requirements and creative rules.

Modern requirements have created new trends in the work process. Changes in the structure of newsrooms, as well as innovations in the activities of journalists, can serve as an example of these trends. New rules are also applied in the process of content production. These are the result of new technical opportunities in the exchange of information. The requirements of the modern audience are also factors that affect the format of the content, the method of presentation and other issues.

The concept of "platform-appropriate content" has also emerged as a result of new trends in the exchange of information. Media organizations that combine broadcasting platforms with different technical capabilities try to produce content that takes into account the requirements of each platform.

This article discusses this trend. The paper also examines the importance of platform-appropriate content production in the era of multimedia journalism. During the preparation of the article, samples taken from different platforms were analyzed. The results were compared with notes from international sources on the subject.

Key words: Multimedia, Multimedia journalism, Multimedia journalist, Universal journalist, New media, Compatible content

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: : filologiya elmləri doktoru, professor Q.M.Məhərrəmli tərəfindən çapa tövsiyə olunmuşdur

SƏDİYYƏ XANLAROVA
EA-nın Əlyazmalar İnstitutunun elmi işçisi.
E-mail: xanlarovasada@gmail.com

NİZAMİNİN SÖZ DÜNYASININ İDRAKI MAHİYYƏTİ

Xülasə

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Nizami Gəncəvinin yubileyləri həmişə dövlət səviyyəsində tənytənə ilə qeyd olunub. Dünya durduqca yaşayacaq Nizami öz əsərlərində həyatın, insanlığın, elmin bütün cəhətlərinə nüfuz etmiş, onların mahiyyətini açmışdır. Nizaminin əsərlərində elm, idrak, ona yiyələnməyin faydaları haqqında çoxlu misallar vardır. Məqalədə də dahi sənətkarın əsərlərində elm, idrak məsələləri araşdırılmışdır.

Nizami Gəncəvi söz sənətinin hökmdarıdır. Onun söz sənətini müxtəlif aspektlərdən araşdırmaq olar. Filoloji aspektdən Nizami lazimi qədər tədqiq olunmuş və layiqli qiymətini almışdır. Onun əsərlərinin söz dünyasının insana təsiri, mənəvi tərəfləri bütün dövrlər üçün aktualdır. Bunu Nizami Gəncəvinin bizə gəlib çatan əsərləri sübut edir. İnsana, insanlığa hörmət Nizami əsərlərinin süjet xəttini təşkil edir.

Lakin Nizami Gəncəvinin əsərlərinin hikmətini idraki mənada araşdırsaq onun söz dünyası daha da mükəmməlləşdirir. Nizami öz əsərlərində həyatın, insanlığın, elmin bütün cəhətlərinə nüfuz etmiş, onların mahiyyətini açmışdır. Nizaminin əsərlərində elm, idrak, ona yiyələnməyin faydaları haqqında çoxlu misallar vardır. Belə bir əsərləri yalnız bütün elmlərə sahib, dərin dünyagörüşə malik alim yaza bilərdi. Nizami Gəncəvi də belə alimlərdən idi.

Nizaminin hikmət dünyasını müxtəlif mövqelərdən araşdırmaq olar: hökmdarların elmə, alimə münasibəti, bilik əldə etməyin yolları, bilik və biliksizliyin insana təsiri, idraka çatmağın yolları və s. Hər şeyi öyrənməyi məsləhət bilən Nizami elmin də bir həddi olduğunu göstərirdi. O, bu həddən kənarda elmin mümkünsüzlüyünü irəli sürürdü. Nizami anladırdı ki, Yerin, görün sirlərinə tam bələd olmaq, hər şeyi yaratmaq yalnız Allaha məxsusdur. İdrakdan kənarda dərketmə yoxdur.

Nizaminin o dövrdə elmi şəkildə əsaslandırdığı əvvəl kainatın, təbiətin, canlı aləmin, sonra isə şüurlu insanın yaranması fikri bu gün də öz əhəmiyyətini itirməmişdir. Nizami həyatın əmələ gəlməsini hərəkətlə bağlayırdı, elə bir hərəkətlə ki, istər yerin, istərsə də canlıların mövcudluğu məhz onunla bağlıdır. Hərəkət yoxdursa, həyat da yoxdur. Bu fikirlər böyük həyati məna daşıyır. Belə ki, tənbəl, ətalət sevən insanların həyatda yaşaması çətin olur, heç kim tərəfindən sevilmirlər.

Çevik, hərəkətdə olan insan isə əksinə, əməksevər, yaradıcı və hamı tərəfindən sevilən olurlar.

Açar sözlər: Nizaminin əsərləri, elm, idrak,təbiət, canlı aləm, şüurlu insan.

Nizami Gəncəvinin yubileyləri həmişə dövlət səviyyəsində tənytənə ilə qeyd olunub. Görəsən, dahi Nizamiyə bu şərəfi verən nədir? Nədəndir, o, dünya durduqca yaşayır və yaşayacaqdır? Bu sualların cavablarını onun ölməz irsinə bələd olmadan, əsərlərini oxumadan cavablandırmaq mümkün deyildir. Nizami öz əsərlərində həyatın, insanlığın, elmin bütün cəhətlərinə nüfuz etmiş, onların mahiyyətini açmışdır. Nizaminin əsərlərində elm, idrak, ona yiyələnməyin faydaları haqqında çoxlu misallar vardır. Belə əsərləri yaradan dahi özü də dərin elmi biliyə və zəngin dünyagörüşə sahib olmuşdur. O, öz dövrünün elm adamlarının əsərlərindən xəbərdar idi. Bununla birlikdə öz dövründə elmlərin sirlərinə dərindən bələd olmuşdur. Ona görə də Nizami elmin insan həyatında rolunu başa düşmüş, onu qiymətləndirmiş və insanları elm, bilik sahibi olmağa, idraka çatmağa çağırmışdır. "İsgəndərnamə" əsərində Nizami Gəncəvi bildirirdi:

Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! Başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri-
Hamıdan ucadır alimin yeri!
Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan....

Nizami hökmdarlara elm adamları ilə ünsiyyət edərək cəmiyyəti idarə etməyi məsləht görürdü. Məsələn, Nizami "İsgəndərnamə" əsərində İsgəndərin dünya fatehi olmasına səbəb kimi onun elm adamları, böyük filosoflardan məsləhət almasında görürdü. Hökmar həmişə elmə, elm adamlarına qiymət qoyur, dövlətin elmlə ucaldığını bildirirdi:

Aciz qaldığını özü görəndə
Axtardı əlacı müəllimində.
Gedib özü oldu ustada təslim,
Başladı almağa həvəslə təlim. (1,səh.55).

Nizami Gəncəvi insanlara dünyada mövcud olan elmlərin sirlərinə bələd olmağı təklif edirdi:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı...
Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkini, daşı, heyvanı....

Hər şeyi öyrənməyi məsləhət bilən Nizami elmin də bir həddi olduğunu göstərirdi. O, bu həddən kənarda elmin mümkünsüzlüyünü irəli sürürdü. Nizami

anladırdı ki, Yerin, görün sirlərinə tam bələd olmaq, hər şeyi yaratmaq yalnız Allaha məxsusdur. "İsgəndərnamə" əsərinin "Nizaminin dedikləri" parçasında deyilir:

Böyük yaradıcı, nə olsa, ancaq,
Hər nə yaratdısa hündür, ya alçaq,
Ən əvvəl, şübhəsiz, əqli yaratdı,
Onu öz nuruyla o, aydınlatdı.
Hər nəqşə çəkdisə qadir Yaradan,
Əqlin nəzərindən etmədi nihan!

Bəzən düşünürsən ki, indiki yaşadığımız dövrdə elm və texnikanın ən yüksək inkişaf etmiş bir mərhələsində olan insan özünə güvənərək böyük elmi nailiyyətlər əldə edir, hər gün yeni bir kəşvlərə imza atır. Lakin insan elmi kəşvlərin sayı artdıqca bəşəriyyətin daha böyük təhlükələr qarşısında qaldığının indiyə qədər fərqində deyildi. Hazırda Qlobal Pandemiya dövründə artıq hər bir kəs Yer kürəsinin ən böyük təhlükələrlə üz-üzə qaldığını bağa düşdü, ekoloji tarazılığın necə pozulduğunun şahidi olduq. Artıq fəlakətlərin nəticələri qarşısıalınmazdır. İnsan gözü görmədiyi, ünü yetmədiyi qalaktikaları kəşf edir və bununla fəxr edirdi. Hələ yüz illər bundan əvvəl Nizaminin dedikləri bu günümüzdən xəbər vermirmi?

Qeyb yolu əqldən hədsiz uzaqdır,
Əql ora nə sayaq yol tapacaqdır?
Əqlli adamdır dünyada o kəs-
Gözü görməyəni qəbul eyləməz! (1, səh.107)

Nizami Gəncəvi irsindən belə qənaətə gəlmək olar ki, insanın əldə etdiyi ən böyük var-dövlət onun həyatda bilik əldə etməsidir. Elm insana baş ucalığı gətirir, onu vüqarlı edir. Biliksiz insanı məğlub etmək asan olur. Nizami əsərlərində insan zəkasına sığan, real elmlərin öyrənilməsini məqsədəuyğun hesab edirdi:

Qələmə gərəkdir eylə söz almaq,
Şüurdan, ağıldan olmasın uzaq.
Parlaq inci kimi düzülən sözlər,
Ağıla sığmasa yalana bənzər...
Görünməz bir şeyi təsəvvür etsən,
Əlbət ki, hər zaman yanılarsan sən... (1, səh.107).

Nizaminin əsərlərində aləm, canlı təbiət, şüurlu insan, onun yaranışı, idarə olunması kimi idraki məsələlər araşdırılmışdır. Şair "Leyli və Məcnun" əsərində sualı belə qoyur:

Görək kim yaratmış bu təbiəti,
O kimdir, işinin nədir hikməti....
Hər şey öz-özünə necə düzəldi,
Bax, nə cür kainat əmələ gəldi...

Belə suallar Nizaminin başqa əsərlərində də verilmişdir. "İsgəndərnamə" əsərinin "İsgəndərin yeddi alimlə xəlvətə çəkilməsi" hissəsində dünya fatehi İsgəndər yeddi filosofa müraciət edərək dünyanın necə yarandığını soruşur. O

filosoflara ki, onların adları bu gün də elmdə hörmətlə çəkilir: Ərəstun, Fales, Bəlinas, Sokrat, Fərfuryus, Hürmüz və Əflatun. Ərəstun dünyanın mövcudluğunu hərəkət edən cismin küləyin yaranması ilə, Fales su və od ilə, Bəlinas torpağın, Sokrat bulud, yağışın, Fərfuryus su və torpağın birinci yaranması ilə izah etmişlər. Hürmüz tərəddüdlə tüstü pərdəsində ulduzlarin birinci yarandığını desə də sonda - bilmirəm nə sayaq olmuş ilk xilqət, söyləmişdir. Əflatun isə varlığın yaranmasını Allahın adı ilə bağlamışdır:

Yoxdan yaranmış bütün varlıqlar,
Vardan yaratsaydı varı yaradan,
Əbədi qalardı mayə hər zaman. (1, səh.105)

Belə qənaətə gəlmək olar ki, Nizaminin o dövrdə elmi şəkildə əsaslandırdığı əvvəl kainatın, təbiətin, canlı aləmin, sonra isə şüurlu insanın yaranması fikri bu gün də öz əhəmiyyətini saxlayır. Nizami həyatın əmələ gəlməsini hərəkətlə bağlayırdı.

Biliklərə tələbat insanın əsas xüsusiyyətlərindən biridir. Bütün insanlığın tarixi inkişafı biliklərin dəqiqləşdirilməsinin – daş alətlərin düzəldilməsindən, alovun əldə edilməsindən başlayaraq kompüter şəbəkəsində informasiyaların istifadə edilməsinə qədər sürətli bir inkişaf yolu keçmişdir. İnformasiya cəmiyyətində biliklərin dəyəri və onların əldə olunması metodları durmadan dəyişir.

Nizami öz əsərlərində həyatın, insanlığın, elmin bütün cəhətlərinə nüfuz etmiş, onların mahiyyətini açmışdır. Nizaminin əsərlərində elm, idrak, ona yiyələnməyin faydaları haqqında çoxlu misallar vardır. Belə əsərləri yaradan dahi özü də dərin elmi biliyə və zəngin dünyagörüşə sahib olmuşdur. O, öz dövrünün elm adamlarının əsərlərindən xəbərdar idi. Bununla birlikdə öz dövründə elmlərin sirlərinə dərindən bələd olmuşdur. Ona görə də Nizami elmin insan həyatında rolunu başa düşmüş, onu qiymətləndirmiş və insanları elm, bilik sahibi olmağa, idraka çatmağa çağırmışdır. "İsgəndərnamə" əsərində Nizami Gəncəvi bildirirdi:

Alimdir gözümdə ən əziz insan!
Elmlə, hünərlə! Başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Rütbələr içində seçilir biri-
Hamıdan ucadır alimin yeri!
Bağlı bir qapıya açar axtarsan,
Ancaq alimlərdə axtar, taparsan....

Nizami hökmdarlara elm adamları ilə ünsiyyət edərək cəmiyyəti idarə etməyi məsləht görürdü. Məsələn, Nizami "İsgəndərnamə" əsərində İsgəndərin dünya fatehi olmasına səbəb kimi onun elm adamları, böyük filosoflardan məsləhət almasında görürdü. Hökmar həmişə elmə, elm adamlarına qiymət qoyur, dövlətin elmlə ucaldığını bildirirdi:

Aciz qaldığını özü görəndə
Axtardı əlacı müəllimində.
Gedib özü oldu ustada təslim,

Başladı almağa həvəslə təlim. (səh.55).

Nizami Gəncəvi insanlara dünyada mövcud olan elmlərin sirlərinə bələd olmağı təklif edirdi:

İnsana arxadır onun kamalı,
Ağıldır hər kəsin dövləti, malı...
Sən çalış yaxşıca öyrən dünyanı,
Bəşəri, bitkimi, daşı, heyvanı....

Öyrənmə, əsasən, müəllim tərəfindən idarə edilir. Təlim materialının mükəmməl öyrədilməsi məhz müəllimin səyi ilə həyata keçirilir və bununla da uşaqlarda əqli və yaradıcı qabiliyyətlər inkişaf edir. Öyrənənlərə hər hansı bir məlumatı verərkən və yaxud qarşısına çıxan problemi həll etməyi, situasiyadan çıxmağı təklif edərkən müəllim onun dünyagörüşünü genişləndirir, sosial, ideoloji, əqli keyfiyyətlərini formalaşdırır. Ona görə də öyrənmə həm də tərbiyəvi xarakter daşıyır. Nizami Gəncəvi irsindən belə qənaətə gəlmək olar ki, insanın əldə etdiyi ən böyük var-dövlət onun həyatda bilik əldə etməsidir. Elm insana baş ucalığı gətirir, onu vüqarlı edir. Biliksiz insanı məğlub etmək asan olur.

Nizaminin əsərlərində aləm, canlı təbiət, şüurlu insan, onun yaranışı, idarə olunması kimi idraki məsələləri araşdırılmışdır. Şair "Leyli və Məcnun" əsərində sualı belə qoyur:

Görək kim yaratmış bu təbiəti,
O kimdir, işinin nədir hikməti....
Hər şey öz-özünə necə düzəldi,
Bax, nə cür kainat əmələ gəldi...

Belə suallar Nizaminin başqa əsərlərində də verilmişdir. "İsgəndərnamə" əsərinin "İsgəndərin yeddi alimlə xəlvətə çəkilməsi" hissəsində dünya fatehi İsgəndər yeddi filosofa müraciət edərək dünyanın necə yarandığını soruşur. O filosoflara ki, onların bir çoxunun adları bu gün də elmdə hörmətlə çəkilir: Ərəstun, Fales, Bəlinas, Sokrat, Fərfuryus, Hürmüz və Əflatun. Ərəstun dünyanın mövcudluğunu hərəkət edən cismin küləyin yaranması ilə, Fales su və od ilə, Bəlinas torpağın, Sokrat bulud, yağışın, Fərfuryus su və torpağın birinci yaranması ilə izah etmişlər. Hürmüz tərəddüdlə tüstü pərdəsində ulduzlarin birinci yarandığını desə də sonda -bilmirəm nə sayaq olmuş ilk xilqət, söyləmişdir. Əflatun isə varlığın yaranmasını Allahın adı ilə bağlamışdır:

Yoxdan yaranmış bütün varlıqlar,
Vardan yaratsaydı varı yaradan,
Əbədi qalardı mayə hər zaman. (1, səh.105)

Belə qənaətə gəlmək olar ki, Nizaminin o dövrdə elmi şəkildə əsaslandırdığı əvvəl kainatın, təbiətin, canlı aləmin, sonra isə şüurlu insanın yaranması fikri bu gün də öz əhəmiyyətini saxlayır. Nizami həyatın əmələ gəlməsini hərəkətlə bağlayırdı, elə bir hərəkətlə ki, istər yerin, istərsə də canlıların mövcudluğu məhz onunla

bağlıdır. Hərəkət yoxdursa, həyat da yoxdur. Nizamiyə görə hərəkət dəyişmələrindən həyat yaranmışdır:
Qeybdən səs gəldi: - Nizami, dayan!
Boş-boşuna deyil bunca hərəkət,
Bir məqsədi vardır, onların əlbət.
Hər bir hərəkəti törədən vardır,
Ağıllı insana bu aşikardır.
Məqalənin aktuallığı: məqalənin elmin, insanın idraka çatmasının həyat üçün əhəmiyyətindən bəhs etməsi mövzunun aktuallığını şərtləndirir.
Məqalənin elmi yeniliyi: Nizami əsərlərinin dünyanın elmi cəhətdən dərk edilməsinin müasir mövqedən araşdırılması məqalənin elmi yeniliyini təşkil edir.
Məqalənin nəzəri və praktik əhəmiyyəti: məqalədən magistrantlar, müəllimlər və bakalavriat səviyyəsində təhsil alanlar faydalana bilərlər.

Ədəbiyyat

1. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, 2004. 256 səh.
2. Nizami Gəncəvi - Sirlər Xəzinəsi. Bakı, 2004. 79 səh.
3. Hüseynov X. Nizaminin “Sirlər Xəzinəsi”, Bakı, 1983. 171 səh.

Резюме

Мир слов Низами познание сущност

В 2021 году будет отмечаться 880-летие со дня рождения великого поэта и мыслителя Низами Гянджеви. Юбилеи Низами Гянджеви всегда отмечали на государственном уровне. Низами, который будет жить до тех пор, пока мир стоит на месте, в своих произведениях проник во все стороны жизни, человечества и науки, раскрывая их сущность. В работах Низами есть много примеров о науке, познании и пользе их освоения. В статье также рассматриваются научные и познавательные вопросы в творчестве великого поэта.

Низами Гянджеви - властитель искусства речи. Его словесное искусство можно изучать с разных сторон. С филологической точки зрения Низами был достаточно исследован и получил достойную оценку. Влияние мира слов на мир людей, духовные аспекты его произведений актуальны во все времена. Об этом говорят дошедшие до нас произведения Низами Гянджеви. Уважение к человеку и человечеству - сюжетная линия произведений Низами.

Однако, если мы изучим мудрость произведений Низами Гянджеви в познавательном смысле, его мир слов станет еще более совершенным.В своих произведениях Низами проник во все стороны жизни, человечества и науки, раскрыл их сущность. В работах Низами есть много примеров о науке,

познании и пользе их освоения. Такие произведения мог написать только ученый со всеми науками и глубоким мировоззрением. Низами Гянджеви был одним из таких ученых.

Мир мудрости Низами можно изучать с разных точек зрения: отношение правителей к науке, ученый, способы получения знаний, влияние знания и невежества на человека, способы достижения понимания и так далее. Посоветовав всему учиться, Низами также показал, что у науки есть свои пределы. Он утверждал, что дальше этого наука невозможна. Низами объяснил, что полностью осознавать тайны Земли, видеть, создавать все принадлежит только Богу. Нет восприятия вне восприятия.

Идея о том, что тогда Низами научно обосновал создание Вселенной, природы, живого мира, а затем и сознательного человека, не потеряла своей актуальности и сегодня. Низами связывал становление жизни с действием таким образом, что с ней связано существование как земли, так и живых существ. Если нет движения, нет жизни. Эти идеи имеют огромное жизненное значение. Таким образом, ленивым, ленивым людям трудно жить жизнью, их никто не любит. С другой стороны, гибкие и активные люди трудолюбивы, креативны и любимы всеми.

Ключевые слова: произведения Низами, наука, познание, природа, живой мир, сознательный человек.

The Conscious Essence of Nizami's Poetic World

Summary

In 2021, the 880th anniversary of the birth of the great poet and thinker Nizami Ganjavi will be celebrated. Nizami Ganjavi's anniversaries have always been celebrated at the state level. Nizami, who will live as long as the world stands still, has penetrated all aspects of life, humanity and science in his works, revealing their essence. There are many examples in Nizami's works about science, cognition, and the benefits of mastering it. The article also examines science and cognitive issues in the works of the great artist.

Nizamis opinions have not lose its importance with based on excisting the word firstly lively nature late on conscious man in scientific way at that time. Nizami connected the creating life with action, which excistng the life not only the earth but also the living ones. If there is no action, there is no life. These thoughts have a great deep meaning, So the lazy men, who love sloth are not loved by everyone? and they are hardworking ? diligent and creative men.

Howerev while researching wisdom Nizami's works in reasonable way we can see improvement of his poetry in his works. Nizami went through all aspects of lives, mankind, science and opened their meaning. There are many examples of science,

judiciousness and the advantages of mastering them. Only a scientist could write such literary works who had a great knowledge and broad mind in all science Nizami Gandjavi was such a kind of scientists.
We can research Nizami's wisdom world in different sides: kings' attitudes to science, scientists? the ways getting knowledge, the influence of knowledge to the persons, the ways reaching the mind and so on while advising learning every thin g Nizami pointed out a certain extent of science. He claimed impossibility of the science overstepping certain limit Nizami realized that understanding all mysteries of the world, creating the whole things belongs to only Allah. There is understanding without judiciousness.
Keywords: Nizami's works, science, cognition, nature, living world, conscious man.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filolgiya elmləri doktoru, professor İsmayıl Kazımov tərəfindən çapa tövsiyə olunmuşdur

ƏFSANƏ ƏSGƏROVA AYDIN QIZI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
e.asgerova126@mail.ru

MÜASİR TƏLİM VASİTƏLƏRİNİN 2020-2021-Cİ İL COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ TƏLİM-TƏDRİS PROSESİNDƏ ƏHƏMİYYƏTLİ ROLU

Xülasə

Texnologiyanın günü-gündən inkişaf etdiyi bir dövrdə yaşayırıq. İnnovasiyalar hər bir sahədə, xüsusilə də təhsil sahəsində həm təhsilalanlar, həm də təhsilverənlər üçün yeni imkanların yaradır. Əlavə olaraq, yeni texnologiyalar mövcud imkanların genişlənməsinə də böyük təkan vermiş olur. Bildiyimiz kimi, ötən il bütün dünyanın COVID-19 virusu ilə mübarizə apardığı bir dövr idi. Belə bir vəziyyətdə müasir vasitə və texnikalar vasitəsilə dərslər onlayn (distant) təşkil edildi. Nəticədə, təhsildə davamlılıq təmin olundu. Əlavə olaraq, infeksiyanın daha geniş kütləyə yayılmamasının qarşısı alındı. Müasir təlim vasitələri hansılardır? Onların təhsildə əhəmiyyəti nədən ibarətdir? Bu vasitələr bizə hansı üstünlükləri qazandırır? İnnovativ texnologiyalarla tədris prosesi necə aparılır? Ənənəvi tədris vasitələri ilə innovativ texnologiyaların fərqi nədən ibarətdir? İnteraktiv təlimin mahiyyəti nədir? Ölkəmizin COVID-19 pandemiyası ilə mübarizə apardığı belə bir çətin zamanda bir sıra müasir təlim-tədris vasitələri təhsilə necə dəstək vermiş oldu? Bu məqaləmdə mən, bu mövzuya toxundum. Eyni zamanda, bir sıra müasir tədris vasitələrinin xüsusiyyətlərindən bəhs etdim. Yazdığım məqalədə günümüzün aktual məsələlərinin və innovasiyalarının təhsillə qarşılıqlı-əlaqəsini və təsirini əks etdirmək istədim.

Açar sözlər: *müasir tədris vasitələri, distant təhsil, "Ağıllı" lövhələr, interaktiv təlim.*

2019-cu il Çində naməlum pnevmoniyanın başlaması ilə əlaqədar Ümumdünya Səhiyyə Təşkilatına məlumat daxil oldu. 2020-ci il yanvar ayından etibarən isə virusun ilk ocağı hesab olunan Uhan şəhərində karantin rejiminin tətbiqinə başlanılması ilə bağlı məlumat verildi. Qısa müddət sonra Çinin digər şəhərlərində də yoluxma halları qeyd olunduğu və yoluxma halları kəskin şəkildə artdığı düçün digər şəhərlərdə də karantin rejimi tətbiq olunmağa başladı. Çox az zaman keçməsinə baxmayaraq, virusun sürətlə yayılması beynəlxalq narahatlıq doğuran təcili vəziyyət olaraq COVID-19 pandemiyası olaraq elan edildi. Bütün dünya ölkələri mövcud vəziyyətin qarşısını almaq və ondan ən az zərər və itki ilə çıxa bilmək məqsədilə müxtəlif profilaktik tədbirlər görməyə və qərarlar qəbul etməyə başladılar. Təqdirəlayiq haldır ki, ölkəmiz pandemiyaya qarşı tədbirlər həyata

keçirən ən çevik ölkələrdən biri oldu. Belə ki, 2020-ci il fevral ayından etibarən ölkəmizdə təcili və təxirəsalınmaz bir sıra tədbirlər həyata keçirilməyə başlandı və eləcə də virusun yayılmasının qarşısını almaq məqsədilə əhali arasında geniş maarifləndirmə işlərinə başlanıldı.

Pandemiya digər sahələrlə yanaşı, təhsil sahəsinə də təsirsiz ötüşmədi. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədilə ölkənin bütün təhsil müəssisələrində tədris prosesləri və digər əlaqəli fəaliyyətlər dayandırıldı, dezinfeksiya və digər profilaktik tədbirlər həyata keçirildi. Bundan sonra təlim-tədris prosesinin davamlılığını təmin etmək məqsədilə bir sıra çevik addımlar atılmağa başlanıldı.

TELEDƏRSLƏR - İlk olaraq, ümumi təhsil pilləsini əhatə edən teledərslərin hazırlanmasına başlanıldı. Peşəkar müəllimlərdən ibarət kadrlar seçildikdən və texniki vasitələrlə təchizat məsələləri qısa müddət ərzində yekunlaşdıqdan sonra teledərslərin çəkilişinə başlanıldı. Ucqar rayon və ya kəndlərdə yaşayan əksər məktəblilərin internetə çıxışının olmaması və bu səbəblə də dərslərin onlar üçün əlçatan olmayacağı nəzərə alınaraq, teledərslərin televiziya vasitəsilə yayımlanmasına qərar verildi. Həftənin 5 günü, gündəlik 5-6 saat davam edən, təhsil proqramının tələblərinə cavab verən və bütün siniflər və əksər fənləri özündə cəm edən teledərslər, iki televiziya kanalında "Mədəniyyət" və "ARB Günəş" yayımlandı. Məktəblilərin teledərslərdən sərbəst istifadəsinə imkan yaratmaq məqsədilə yayımlanan canlı dərslər daha sonra Təhsil Nazirliyin www.video.edu.az portalına və eyni zamanda sosial şəbəkə hesablarına (YouTube, Facebook) yerləşdirildi. Şagirdlərin ev tapşırıqlarını yoxlaya bilməsi də nəzərə alınmışdı. Belə ki, teledərslərlə yanaşı, həftədə müəyyən günlər ev tapşırıqlarının həlli ilə bağlı interaktiv proqramlar televiziya vasitəsilə yayımlandı.

"VİRTUAL MƏKTƏB" LAYİHƏSİ - Atılan bu addımların davamı olaraq, daha sonra ölkə çərçivəsində "Virtual Məktəb" layihəsinə start verildi. Bu lahiyə vasitəsilə dərslərin interaktivliyi daha da artırıldı və distant təhsilin imkanları daha da genişləndirildi. Hər bir şagird bu portalda qeydiyyatdan keçərək öz yaşına uyğun olan sinifə təyin olundu və həftə ərzində yayımlanan teledərslərdə keçilən mövzulara aid ev tapşırıqlarını yerinə yetirmək imkanı əldə etdi. Portala hər həftə yeni mövzular və fənnlərə aid tapşırıqlar əlavə edildi və eyni zamanda şagirdlərin əlavə tədris resurslarından da istifadə edə bilməsi təmin edildi. Bu layihənin üstünlüklərindən biri də o oldu ki, portalda müəllimlər onlayn (audio və görüntülü) dərslər keçə bilir, dərs cədvəlini hazırlaya bilir, hər bir şagird portalda öz sinifinə (qrupuna) daxil ola bilir, eyni zamanda müəllim və şagirdlər arasında əlaqənin təmin olunması üçün onlar yazışma (chatting) funksiyasından istifadə edə bilirdilər. Microsoft korporasiyası ilə əməkdaşlıq çərçivəsində yaradılan "Virtual Məktəb" layihəsindən stolüstü kompyuterlərlə yanaşı, mobil telefonlar vasitəsilə də asanlıqla yararlanmaq mümkün

idi. Belə ki, hər bir kəs mobil telefonuna "Microsoft Teams" tətbiqini yükləyərək portalda qeydiyyatdan keçdikdən sonra dərslərə qoşula bilirdi.

MİCROSOFT TEAMS PLATFORMASI - Ali təhsil müəssisələrində də dərslər "Microsoft Teams" tətbiqi ilə keçildi. Magistratura təhsilinin bir ilini distant təhsillə başa vuran bir tələbə olaraq, mən də öz təəssüratlarımı bölüşmək istərdim. Ənənəvi təhsilə alışmış olduğumuz üçün ilk vaxtlar hər birimizdə tədrisin necə keçiriləcəyi ilə bağlı müəyyən suallar və tərəddüdlər vardı. Hər birimiz bizə təqdim edilmiş poçt ünvanları vasitəsilə tətbiqdə qeydiyyatdan keçdik və tədris ilinə start verildi. Tətbiqə daxil olduqda artıq hər birimiz aid olduğumuz qruplara avtomatik daxil edilmişdik. Həftəlik dərslər, tarix və saatlar və fənn müəllimələrimizin adları dərs cədvəllərində qeyd olunmuşdu. Dərslər görüntülü təşkil edilmişdi və dərslər keçirilən zaman həm müəllimlərimizi, həm də bir-birimizi rahatlıqla görüb dinləyə bilirdik. Həmçinin sualımız yarandıqda yazışma bölməsindən istifadə edərək sualımızı yaza bilir, yaxud mikrofonumuzu açaraq sualımızı ünvanlaya bilirdik. Tətbiqdə mövcud olan lövhələr vasitəsilə müəllimələrimiz yazılı izaha ehtiyac olan məqamları izah edə bilirdilər. Lövhədə yazılan hər bir məlumat eyni anda bizim ekranlarımızda da əks olunurdu. Dərslər üçün zəruri olan materialları, elektron dərs vəsaitlərini tətbiq vasitəsilə dərs qrupumuzda bir-birimizlə bölüşə bilir və internet vasitəsilə müxtəlif faydalı resurslardan, onlayn kitabxanalardan istifadə edə bilirdik. Dərslərin tətbiq daxilində yaddaşda saxlanınması, dərsdən sonra onlardan sərbəst istifadə edə bilməyimizə, yaxud dərsdə iştirak edə bilməyən tələbələrin sonradan dərsi dinləməsinə imkan yaradırdı.

Bütün çətinliklərə baxmayaraq, xüsusən də müəllimələrimizin əziyyəti, zəhməti ilə bu çətin günlər artıq geridə qalmaqdadır. Bu gün artıq ənənəvi tədris bərpa edilib. Lakin pandemiya sınağı bizlərə bir çox mənada müəyyən dərslər verdi. Pandemiya bir daha sübut etdi ki, müəllimlik heç bir alternativi olmayan peşədir. İnsanların sağlamlığını qoruyan həkimlərlə yanaşı, şəxsi qayğılarını bir kənara buraxaraq, təhsilin davamlılığını, keyfiyyətini təmin edən məhz müəllimlər oldu. Onlar müasir platformalardan, tətbiqlərdən istifadə edərək onlayn dərslər keçdilər, mövzuların qavranılması üçün səy göstərdilər, şagirdlərlə ünsiyyətdə oldular, ehtiyac olduqda dəyərli vaxtlarından ayıraraq, bizə əlavə dərs keçərək, tədris ilinin müvəffəqiyyətlə başa çatmasına imkan yaratdılar. Pandemiyanın bizə öyrətdiyi ən önəmli dərslərdən biri də o oldu ki, həm müəllimlər, həm də təhsilanlar müasir tətbiqlərdən, vasitələrdən istifadə edə bilmək üçün mükəmməl rəqəmsal bacarıqlara malik olmalıdırlar. Habelə, pandemiya nəticəsində ölkə çərçivəsində distant təhsil təcrübəsinin daha geniş tətbiq edilməsi, texniki vasitələr və keyfiyyətli internet bağlantısınının təmin olunması ilə bağlı problemlərin həlli əsas prioritetlərdən birinə çevrildi.

AĞILLI LÖVHƏLƏR (SMART BOARDS) - Təhsildə yeni imkanlar yaradan innovativ təlim vasitələrindən biri də "ağıllı" lövhələrdir. "Elektron lövhələr" olaraq da adlanan bu qurğudan bir çox ölkələrdə fəaliyyət göstərən məktəblərdə istifadə

edilməkdədir. Vizual elementləri ekranda yansıdan bu mükəmməl innovativ texnologiya vasitəsilə nəinki təhsilverənlərin tədris üsulları, eləcə də təhsilalanların öyrənmə üsulları da genişlənir, tədris prosesini daha rəngarəng, dolğun və əhatəli və interaktiv qurmaq imkanı yaranır. Bu qurğu dörd elementdən ibarətdir: elektron sensor lövhə, proyektor, lövhəni idarəetmə pultu, noutbuk və onun üçün çıxış.

Sensorlu, yəni hissiyyatlı səthə malik olan bu qurğunun üstün imkalarından biri də odur ki, lövhə üzərində aparılan bütün əməliyyatlar, dərs prosesi ərzində lövhə üzərində qurulmuş şablonları, modelləri kompyuterin daimi yaddaşında saxlamaq və sonradan dəfələrlə istifadə etmək mümkündür. Beləliklə, dərsdə iştirak etməyənlər, yaxud hər hansı mövzunu tam başa düşməyənlər, sonradan həmin mövzunu sərbəst izləyə bilərlər.

Lövhələrin tədris prosesini daha interaktiv təşkil edilməsini asanlaşdırdığını qeyd etdik. "İnteraktiv" termini "qarşılıqlı fəaliyyətə əsaslanan" mənasını özündə ehtiva edir. Tələbələr tam dərs prosesinə tam cəlb olaraq bu prosesdə tam iştirak etdikdə dərsi daha yaxşı qavrayır və praktiki öyrənmə üsulu da bunun ən yaxşı yollarından biridir. Bu texnologiya ilə sinifdəki hər bir istifadəçi eyni vaxtda "ağıllı" lövhələrdən istifadə etmək imkanına malikdir. Məsələn, qabaqcıl "ağıllı" lövhələrdə şagirdlər, yaxud tələbələr təbaşirə ehtiyac olmadan, barmaqları ilə birbaşa lövhələrin üzərində yazmaq imkanına malikdir. Əksər "ağıllı" lövhələrin üzərində bir-birindən ayrılmış bir neçə xüsusi bölmələr var ki, bir neçə insan eyni anda lövhədən istifadə edə bilsin. Bu interaktivlik həm də planşet vasitəsilə lövhə üzəində yazmaq, hər hansı modeli çəkmək və ya qeydlər aparmaq imkanı yaradır. Ağıllı lövhələrdən istifadə etmək çox asandır. Adi lövhələrdən fərqli olaraq, bu lövhələrin üzərinə yazmaq üçün təbaşir və ya markerlər deyil, barmağınız və ya xüsusi qələmdən istifadə etmək kifayətdir. İstifadə etdikdən sonra lövhənin təmizlənməsi də çox rahat olduğu üçün, bu qurğudan istifadə sinifdə dağınıqlığın, yazı yazarkən əllərin və ya paltarların ləkələnməməsinin, təbaşir tozunun nəfəs vasitəsilə insan orqanizminə daxil olmasının qarşısını alır.

"Ağıllı" texnologiya öyrənənlərə onlayn resurslara asan çıxış imkanı verir. Belə ki, bütün istifadəçilər kompüter proqramı vasitəsilə istənilən veb-sayt və ya videoya baxa bilərlər. Eyni zamanda müəllimlər dərslərini daha da effektiv təşkil etməyə kömək edə biləcək bir çox məlumat bazasına çıxış əldə edə bilərlər. Tələbələr və ya şagirdlər tapşırığı tamamlamaq və ya araşdırma aparmaq üçün geniş çeşidli resurslara asanlıqla daxil ola bilirlər.

Bu lövhələr ətraf mühitə "dost"durlar. Çünki bu qurğulardan istifadə kağıza ehtiyacı aradan qaldırır. Sinifdə kağızlarının surətini çıxarmağa və çap etməyə ehtiyac qalmır. Bu interaktiv lövhələr hər il tonlarla kağız və mürəkkəbin israf edilərək ətraf mühitə atılmasının aradan qaldırılmasına kömək edir. Müəllimlər bildirirlər ki, "ağıllı" lövhələrdən istifadə edilən sinif otaqlarında tələbə fəallığının nəzərəçarpan dərəcədə artması müşahidə edilir. Bu interaktiv lövhələr müəllimlərə

müxtəlif öyrənmə üslublarına malik tələbələrin bir-birilərindən öyrənə biləcəyi sinif mühiti yaratmaq üçün qeyri-adi imkan yaradır.

Beləlilklə, öyrənilməsi asan olan bu vasitələr həm müəllimlərin, həm də onların tələbələrinin müasir dünyada müvəffəqiyyət əldə etmək üçün ehtiyac duyduqları 21-ci əsr bacarıqlarını inkişaf etdirmələrini təmin edir. Bu da dərs prosesinin daha maraqlı, daha yadda qalan edir, mövzunun şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsini təmin edir. Eyni zamanda, müəllimlərin və təhsilin bir çox sahəsində çalışan mütəxəssislərin informasiya və kommunikasiya texnologiyaları (İKT) ilə işləmək, onlardan düzgün istifadə etmək bacarığına yiyələnməsinə təkan verir.

ƏDƏBİYYAT:

1. Blanton, B. & Helms-Breazeale, R. (2000). Gains in Self-Efficacy: Using SMART Board Interactive Whiteboard Technology in Special Education Classrooms
2. Ağayev Ə. Yeni təlimin metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəsmi saytında göstərilən xəbərlər, hesabatlar..
4. Veysova Z. Fəal/ interaktiv təlim. Bakı 2007.

ЗНАЧИТЕЛЬНАЯ РОЛЬ СОВРЕМЕННЫХ СРЕДСТВ ОБУЧЕНИЯ В УЧЕБНО-ВОСПИТАТЕЛЬНОМ ПРОЦЕССЕ В ПЕРИОД ПАНДЕМИИ COVID-19, 2020-2021 ГОДОВ

Резюме

Мы живем в период, когда технологии развиваются день ото дня. Инновации создают новые возможности как для учащихся, так и для преподавателей во всех областях, особенно в сфере образования. Кроме того, новые технологии дают большой толчок к расширению существующих возможностей. Как известно, прошлый год был временем, когда весь мир боролся с вирусом COVID-19. В такой ситуации занятия проводились онлайн (дистанционно) с использованием современных технологий и методик. В результате была обеспечена преемственность в образовании. Кроме того, было предотвращено распространение инфекции на более широкую аудиторию. Какие есть современные технологии обучения? Каково их значение в образовании? В чем преимущества этих инструментов для нас? Как проходит учебный процесс с использованием инновационных технологий? В чем разница между традиционными технологиями обучения и инновационными технологиями? В чем суть интерактивного обучения? Как ряд современных технологий обучения поддержали образование в такое непростое время, когда наша

страна борется с пандемией COVID-19? В этой статье я затронул эту тему. При этом я упомянула особенности ряда современных технологий обучения. В своей статье я хотела отразить взаимодействие и влияние текущих проблем и инноваций на образование.

Ключевые слова: *современные средства обучения, дистанционное обучение, "умные" доски, интерактивное обучение*

SIGNIFICANT ROLE OF MODERN TEACHING AIDS IN THE EDUCATIONAL PROCESS IN THE PERIOD COVID-19 PANDEMIC, DURING 2020-2021

Summary

We live in a period in which technology is developing day by day. Innovations create new opportunities for both learners and educators in every field, especially in education. In addition, new technologies give a big impetus to the expansion of existing opportunities. As we know, last year was a time when the whole world was fighting against COVID-19 virus. In such a situation, classes were organized online (distance) using modern technologies and techniques. As a result, continuity in education was ensured. In addition, infection was prevented from spreading to a wider audience. What are the modern training technologies? What is their importance in education? What are the advantages of these tools for us? How is the teaching process conducted with innovative technologies? What is the difference between traditional teaching technologies and innovative technologies? What is the essence of interactive learning? How did a number of modern teaching technologies support education in such a difficult time when our country is struggling with the COVID-19 pandemic? In this article, I touched on this topic. At the same time, I mentioned the features of a number of modern teaching technologies. In my article, I wanted to reflect the interaction and impact of current issues and innovations with education.

Key words: *modern teaching aids, distance learning, "smart" boards, interactive learning.*

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: ***ADPU-nun Xarici Dillər Mərkəzinin dosenti Svetlana Məmmədova Nəsib qızı.***
tərəfindən çapa tövsiyə olunmuşdur

NAĞIYEVA İNCİ SƏMƏDDİN QIZI
Bakı Mühəndislik Universiteti
nagiyeva_80@mail.ru

İ. V. HÖTENİN "FAUST" ƏSƏRİ ƏLİ BƏY HÜSEYNZADƏNİN VƏ DİGƏR MÜƏLLİFLƏRİN TƏRCÜMƏSİNDƏ

Xülasə

İ. V. Hötenin "Faust" əsəri Azərbaycan ədəbiyyatına ilk dəfə Əli bəy Hüseynzadə tərəfindən tərcümə olunmuşdur. Hötenin bütün həyatı boyu üzərində çalışdığı, yaradıcılığının son dövrlərində romantizmə meyil etməsilə bu əsər həmin ədəbi növə köklənmişdir. Ədəbiyyatımızda romantizm cərəyanını inkişaf etdirən, hətta özülünü təşkil edən füyuzatçılar üçün bu əsər xüsusi səciyyə daşıyırdı.

"Faust" əsərini ədəbiyyatımızda Ə. Hüseynzadədən sonra almanşünas alim professor Nəzakət Ağazadə bir hissəsini sətri tərcümə etmiş, daha sonr isə Əhməd Cəmil rus dilindən poetik tərcümə etmişdir.

Məqalədə bu tərcümələr və eyni zamanda Türkiyə ədəbiyyatında olan tərcümə veysiyası arasında yaxınlıq, poetik xüsusiyyət və məna zənginliyinin dərinliyi baxımından müqayisəyə cəlb olunmuşdur. Ədəbiyyatşünas alimlərin dövrü mətbuatda və ədəbiyyat tarixi materiallarında ədəbi-bədii tərcümə və sətri tərcümə ilə bağlı, həmçinin bu tərcümənin ədəbiyyatşünaslığımızda yeri ilə əlaqəli mülahizələri diqqət mərkəzinə alınmşdır.

Açar sözlər: "Füyuzat" jurnalı "Faust" əsəri, Ə. Hüseynzadə, Ə. Cəmil, sətri tərcümə, poetik tərcümə

Romantik sənət görüşləri Ə. Hüseynzadənin təkcə tənqidi əsərlərində deyil, həmçinin bədii yaradıcılığında da öz əksini tapmışdır. Ədəbiyyatımızda ilk dəfə Ə. Hüseynzadə tərəfindən tərcümə olunan "Faust" əsəri üzərində İ. V Höte yaradıcılının ilk vaxtlarından sonuna qədər işləmiş, ədəbi fəaliyyətinin ikinci yarısında - daha çox romantizmə meyil etdiyi dövdə tamamlamışdır. Buna görə də "Füyuzat"ın ilk nömrələrindən "Faust" əsərinin Ə. Hüseynzadənin tərcümələrində dərc edilməsi heç də təsadüfi deyildir. Əsərdə Hötenin yaratdığı şair obrazı ilə ədib sanki, özünü, "Füyuzat"ın bədii-estetik məramını, sənət və dünyanı dərkindən danışır. Jurnalın birinci sayında verilən bir parçaya diqqət yetirək: "Şair-... Bana asimanın, mavərayı-kəvakibdə olan bir aləmi-asudənin yollarını göstər ki, oraya pərvaz edəyim. Şair üçün ən həqiqi bir şəfanın, ən saf bir bəhrü sürurun şükufəzarı ancaq o balalardadır, qəlbləri ləbrizi-füyuzat edən eşq və məhəbbət yeddi lahuti ilə ancaq orada bədayelər yaradır, xarüqə ibda edər". [3. s. 7]

Göylərə qalxmağı, xəyalın ənginliklərinə baş vurmağı arzu edən Höte, şübhəsiz, Ə. Hüseynzadənin milli ədəbiyyatımıza rəvac vermək istədiyi romantik sənət axınını

çox gözəl ifadə edir. Bu fikir yolu ilə N. Kamalın fikirləri bir-birini tamamlayır: "Həp gördüyümüz kibi yazmaqda nə tərəqqi ola bilər, bir az da düşündüyümüz kibi yazmalıyız"[6. s. 345]

Görkəmli ədəbiyyatşünas alim Ş. Vəliyev məsələyə belə yanaşır: "... "Faust"a böyük əhəmiyyət verilirdi, müxtəlif hadisə, fakt və problemlərə faustvarı fəlsəfi kredo ilə yanaşmaq "füyuzat"çılar üçün müəyyən ədəbi-estetik norma halında qəbul olunurdu. Klassik ədəbi qəhrəman və sənətkarların gözü ilə çağdaş gerçəkliyə baxmaq və qiymət vermək füyuzatçılar üçün əsas keyfiyyət sayılsa da, faustsayağı düşüncə ayrıca önə çəkilirdi".[4.s.181]

Ə. Hüseynzadənin bu tərcüməsini başqa tərcümələrlə müqayisəyə cəlb etməyə çalışdıq. Ədəbiyyat tariximizə diqqət etdikdə görürük ki, dilimizdə əsərin daha iki tərcüməsi mövcuddur; istedadlı almanşünas alim professor Nəzakət Ağazadənin ilk dəfə olaraq alman dilindən etdiyi sətri tərcümə (yalnız birinci hissə) və bir çox rus ədiblərin (A.L.Solokovski, S.Peterburq, P. Vyenberq, N. Xolodkovski, B. Pasternak) tərcümə və poetik vəsaitlərindən bəhrələnərək şair Əhməd Cəmil poemanı bütöv şəkildə 1970-ci ildə kitab şəklində çap etdirdiyi poetik tərcüməsidir. Müqayisəli tədqiqarımızın daha dəqiq və yerində olması üçün ilk olaraq N. Ağazədənin tərcüməsi çap olunmadığı üçün onu əlyazma şəklində əldə etməyə çalışdıq. Nəzakət xanım uzun illər Bakı Dillər Universitetində çalığdışı üçün oraya üz tutduq çox əfsus ki, orada əlyazma ilə bağlı heç bir nişanəyə rast gələ bilmədik. Alimin şəxsi arxivini araşdırmaq ümidilə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinə üz tutduq, burada da N. Ağazadə ilə bağlı heç bir material tapılmadı. (Şəxsi arxiv buraya ümumiyyətlə verilməyib) Lakin Ə. Cəmilin şəxsi arxivi Azərbayca Respublikası Milli Arxiv İdarəsində mövcud idi. İş № 25-i – Ə. Cəmilin şəxsi qovluğunu diqqətlə araşdırdıqda orada 44 nömrəli sənət diqqətimizi çəkdi, üç dəftərdən ibarət olan əski əlifba və əl yazısı ilə yazılmış "Faust"un sətri tərcüməsi idi. Bizdə bu əlyazmanın Ə. Cəmilin şəxsi fondunda olsa da, ona yox, Nəzakət xanıma aid olacağına dair şübhə doğdu. Dəftərlərin üzərində kimə aid olduğuna dair heç bir iz yox idi. Buna görə də sənəd Ə. Cəmilin adında arxivdə qeydə alınmışdı. Məlumatımız var ki, Ə. Cəmil əsəri sətri tərcümə etməyib, bu düşüncə ilə həmin əlyazmanı və şairin digər işlərini qarşılaşdırdıq. Ə. Cəmilin əksər yazı materialları ya çap versiyada, ya da kiril əlifbası ilə yazılıb. Qarşımıza cıxan gürcü dilindən tərcümə olunmuş, əski ələfba ilə yazılmış yarımçıq bir əlyazma burada köməyimizə gəldi. "Faust"un sətri tərcüməsilə onu qarşılaşdırdığımız zaman bunların eyni yazı üslubu ilə - eyni xətlə yazılmadığı aydınca ortaya çıxdı. Bu məlumatı arxiv nümayəndələri ilə paylaşdıq onlar da fərqi təsdiq etdilər. Beləliklə, biz N. Ağazadənin əl yazısı ilə yazdığı "Faust"un yalnız birinci hissəsini tapmışdıq.

Çox heyif ki, Nəzakət xanım əsərin nə müqəddimə - proloq hissəsini, nə də ikinci hissəsini tərcümə etməyib. Bu hal bizim müqayisəmizə əngəl olur, belə ki, "Füyuzat" jurnalındakı Ə. Hüseynzadənin etdiyi tərcümələrlə (yalnız müqəddimə hissəsindən tərcümələr verilib) Nəzakət xanımın tərcümə etdiyi hissə heç bir paralellik təşkil

etmir. Bu səbəbdən biz əsəri yeri gəldikcə Ə. Cəmilin tərcümələrilə müqayisə etməyə çalışacağıq.

"Füyuzat" jurnalındada çap olunan tərcümə əsəri əlahiddə fikir və ideya bitkinliyi baxımından bütöv bir pyes xarakteri daşıyır. Maraqlı mövzu və ideya xətti ətrafında cərəyan edən söhbətlər ilə o dövrün teatr ab-havasını özündə əks etdirir. Ədib əsəri tərcümə və təbdil edərkən çalışmışdır ki, həmin illərdə teatr işində mövcud olan bəzi məsələlərə münasibət bildirsin. "Səhni-tamaşada müqəddimə" (Ə. Cəmildə "Proloq - teatrda" adlanır bu parça) adlı bu tərcümə və təbdildə hadisələr üç personajın arasında gedən dialoqlar əsasında formalaşır. Ə. Hüseynzadə onları Müdir, Şair və Məddah adlandırmışdır, Ə. Cəmilin poetik tərcüməsində isə personajlar Direktor, Şair və Komik kimi təqdim olunur. Əsərin bu hissəsini Ə. Hüseynzadə bədii nəsrlə, Ə. Cəmil isə, təbii ki, nəzmlə qələmə almışdır. Diqqətlə təhlil olunarsa bu tərcümələr arasında olduqca fərq olduğunu görmək mümkündür:

Direktor:
Çətin günlərimdə, siz hər ikiniz
Daim yetibsiniz hayıma, dostlar,
Bəs, necə gedəcək indi işimiz?
Burda nəyə ümid bağlamaq olar?
Mən çox istəyirdim ki, kütləni razı salaq,
Onun razı qalması, həyatdır bizim üçün.
Dirəklər basdırılmış, səhnə hazır, indi xalq
Toy bayram həsrətilə bizi gözləyir bu gün.[2.s.14]

Müdir: Çox dəfələr bənim dərdlərimə, sıxıntılarıma hər ikiniz də iştirak etmiş idiniz. Şimdi anlatınız baxayım, bizim buralardakı təşəbbüsatımız haqqında nə fikirdə və mülahizədə bulunuyorsunuz, nə kibi bir ümid bəsləyorsunuz? Bən cəmaətimizi xoşnud etmək, anın istədigi vəchlə hərəkət eyləmək istər idim, çünki bu cəmaət özü həyyü zində olduğu kibi bizim də həyatımız anınla qaimdir. Tamaşaxanəmizin bütün ləvazim və məfruşatı təhiyyə və ikmal olunmuşdur. Hər kəs işə baçlayacağımızı bir sur, bir bayram gözlər kibi gözliyor. [3. s. 7]

Yuxarıda hər iki tərcümədən verilən geniş nümunələr ard-arda oxunduqda həm dil, həm də bədii mahiyyət baxımından ortadakı fərq özünü aydın bir şəkildə göstərir. Bədii nəsrlə yazmaq imkanının yaratdığı geniş şəraitdən istifadə edən Ə. Hüseynzadə bu parçalarda fikir, təfəkkür və düşüncə etibarilə poetik nümunə olmağın şablon sərhədlərinin içərisində sıxılıb qalmır, düşüncə və metod azadlığının dəstəyilə daha zəngin və orijinala ən yaxın nümunə yaratmağa nail olur. Ana fikri təqdim etmək metoduna və seçilmiş sözlərin tasirliliyi baxımından, fəlsəfi ideanı zəngin dil ünsürlərindən istifadə edərək tərcümə ortaya çıxaran Ə. Hüseynzadə dilinin yanında, doğrudan da, Ə. Cəmilin tərcüməsi sadə, aztəsirli xususıyyət sərgiləyir. (Bəzi hallarda Ə. Hüseynzadənin tərcümələrinin izah tələb etməsini də nəzərə almaq lazımdır)

Poetik tərcümə ən yaxşı halda da orijinaldan, xüsusən dəqiqlik cəhətdən həmişə müəyyən dərəcədə fərqləndiyi üçün, adətən "Faust" kimi mürəkkəb fəlsəfi məzmunlu əsərlər poetik tərcümə ilə yanaşı sətri və mənsur bədii tərcümə halında da nəşr edilir ki, bu da orijinalın dilini bilməyən oxuculara əsəri daha dəqiq öyrənməyə kömək edir. Bu əsəri müxtəlif dillərdə də bədii nəsrlə tərcüməsinə rast gəlmək olur; A.L.Solokovski, S. Peterburq, 1902-ci il; P. Vyenberq, S Peterburq, 1904-cü il ədəbi nümunənin rus dilinə sətri və mənsur bədii tərcümələrini etmişdirlər. Bu tərcümələrdən Ə. Cəmil yetərincə bəhrələnmişdir. Bu bəhrələnmə tərcümələrin dilinin zənginlik dərəcəsində, fikir və fəlsəfi məzmunu çatdırma baxımından Ə. Hüseynzadənin tərcüməsilə xeyli fərqlənir. Orijinal əsərin özündən edilən tərcümə ilə N. Ağazadənin və başqa rus şair və nasirlərin əsərlərindən edilən tərcümələrin (tərcümənin tərcüməsi) məziyyətinə görə fərqlənməsi qaçınılmazdır.

Ə. Hüseynzadə dünya klassiklərinin öyrənilməsindən bəhs edərkən, onların bədii-estetik irsinin tərcümə və təbliğ məsələsinə böyük məsuliyyətlə yanaşılmasını və sənətkarlıqla yazılmasını ciddi surətdə tələb edirdi. O, bu məsələyə hansı həssaslıqla yanaşırdısa, müasirlərindən də istəyi bu idi. O, bədii tərcümə işinə bədii yaradıcılıq işinin üzvi bir hissəsi kimi baxırdı. Tərcümələrdən geniş parçalar verməkdə məqsədimiz budur ki, Ə. Hüseynzadənin poetik tərcümədən dil, bədiilik və ahəngdarlıq baxımından çox da seçilmədiyi diqqət mərkəzinə çəkilsin.

Müasir Türkiyə ədəbiyyatından "Faust" əsərinin tərcüməsində vəziyyət daha fərqlidir; görünür ki, hazırkı tərcümələrində ya Ə. Hüseynzadə tərcüməsinə (Türkiyə mətbuatında da bu tərcümələr vaxtilə nəşr olunub) çox az baxılıb, ya da tamamilə uzaq durulubdur:

Tiyatro Müdürü:
İkiniz de, zor ve sıkıntılı anlarımda,
Çoğu zaman bana yardımcı oldunuz;
Söyleyin şimdi:
Nedir beklentileriniz,
Almanya'daki girişimlerimiz için?
Halkın hoşuna gitmeyi çok isterdim,
Çünkü yaşayan da yaşatan da odur.[7.s.15]

Şeiriyyət və bədiiyyəlikdən tamamilə kənar bu parça əski osmanlıcanın rəğbət görülməməyinin səbəbilə ortaya çıxmış nümunəsidir sanki. Əsərin tərcüməsi sərbəst şeir formasında yazılıb, lakin nümunə daha sox söhbət xarakteri daşıyır

Ə. Hüseynzadə və Ə. Cəmilin tərcümə əsərləri müzakirəyə cəlb edildikdə bəzən Ə. Hüseynzadənin dilinin qəlizliyi tənqid edilir. Məşhur publisist A. Turan tərcümə materiallarının dili üslubu məsələsinə diqqət çəkərək şərh edir: "Türk ədəbiyyatının böyüklərindən olan Əbdülhəq Hamidin verdiyi qiymətə (Ə.Hüseynzadənin tərcümələrini oxuyan ədib ona təbrik xarakterli məktub göndərmişdi İ.N.) rəğmən "Faust"un Əhməd Cəmil tərəfindən Azərbaycan dilinə tərcüməsinin izahlar bölümündə "ədəbi dilimizin, xüsusən, inqilabdan sonra keçən müddətdə nə qədər

sürətlə inkişaf etdiyini, nə dərəcə dəyişdiyini, necə sadələşib gözəlləşdiyini görmək üçün Əli bəy Hüseynzadənin etdiyi həmin tərcümədən bir parçanı" misal gətirirdilər. Misal isə, təbii ki, hər dəfə olduğu kimi, "Faust"un:

Ənzari-şəbabımda pədidar olan ey zill,
Ey zilli-tüluat oluyorsın yenə peyda

- misralarıyla başlanan hissəsiydi. (Çünki bu hissə tərcümənin digər hissələri ilə müqayisədə daha çox anlaşılmayan sözlərin bolluğu ilə diqqəti çəkir İ. N)

Ə.Cəmilin böyük zəhmət bahasına hasilə gətirdiyi tərcüməsinin dəyərini azaltmadan bu məqamda onu da etiraf etməliyik ki, həmin mülahizəni irəli sürənlər nədənsə fərqinə varmırdılar ki, dilin sürətlə sadələşdirilməsi bahasına Hötenin təfəkkür tərzinə, poeziyasına çox da müvafiq olmayan bir "Faust" meydana çıxmışdı". [1.s.100]

"Füyuzat" jurnalının 12-ci sayda verilmiş müqəddiməninin sonunda - ""Səhni-tamaşada müqəddimə"nin xitamı, mabədi "Səhni-asimanda müqəddimə"dir" Ə. Hüseynzadə" - bildirimi ilə ədib əsərin davamını da dərc etdirəcəyini qeyd edir. Bundan sonrakı tərcümələrdə artıq ədib bədii nəsrlə başladığı tərcüməni poetik bədii tərcümə ilə davam etdirir. Tərcümə işinə çox ciddi – yenidən bir əsər yazırmış kimi məsuliyyətli yanaşan Ə. Hüseynzadəyə görə tərcüməçi tərcümə üçün seçdiyi əsərin ruhunu duymalıdır, yalnız dil elementləri hesabına uğurlu tərcümə mümkünsüzdür. Ona görə də onun bu tərcüməsi adi bir bədii tərcümə olmaqdan çox yüksəkdə dayanır. Sanki, o, bu əsərin bütün bədiiyatının, mifologiyasının, fəlsəfəsinin, hətta müəyyən mənada üslubiyyatının bələdçisi idi. Bu, təkcə Əli bəy Hüseynzadənin sənət qüdrətinin hesabına deyildi, həm də tərcümə olunan əsərin düzgün seçilməsi hesabına idi. Çünki "Faust" onun "əskidən bəri ruhunun yeganə munisi olan alman şairi Hötenin" (A.Şaiq) əsəri idi. Bu tərcümələri mütaliə etdikcə həm Ə. Hüseynzadə ilə Hötenin fikir oxşarlığını, həm də əsərə və Höteyə olan sevginin təcəssümünü hiss etmək olur.

"Səhni-asimanda müqəddimə" adlı proloqun "Füyuzat" jurnalının 16-cı nömrəsində dərc olunur. Bu saydakı parçada Rafael, İbril (Cəbrail), Mixail və Mefistofel obrazları bir-birilə poetik dildə dialoqa cəlb edilmişdir. Yazının əvvəlində başlıq verildikdən sonra ədib "Nur, Süfufi-əflakiyan (göylər dəstəsi), Mefistofel" şəklində obrazların adını sadalayır. Ə. Cəmildə isə bu təqdimat "Allah, cənnət qoşunu, sonra Mefistofel, üç baş mələk" şəklində tərcümə olunub. Ə. Hüseynzadə tərcümədə obraz olaraq Allah ismi yerinə Nur ifadəsinə üstünlük verib. Bu da onun Allah məqamının aliliyinə olan inancının, hörmətinin təcəssümü kimi düşünülə bilər. A. Turan da hər iki ədibin Uca Yaradana olan münasibətlərinə diqqət çəkərək, Ə. Cəmili kəskin bir dillə tənqid edir

Mefistofel Allah haqqında:
Hərdən xoşum gəlir lap bu qocadan,
Onunla aranı vurmamaq şərtdir.

Şeytanın özüylə belə mehriban
Danışmaq, özü də bir kəramətdir. Ə.C.

Mefistofel Rəbbi-aləm haqqında:
Bəzən də ziyarət xoş olur Zati-qədimi;
Heç istəməm etmək Ona izhari-ədavət.
Bunca əzəmət, heyrətə şayəstə deyilmi!
Şeytana belə göstəriyor rıfkı-nəzakət!.. Ə.H.

Dilimizin sürətli inkişafının göstəricisi Allaha şamil edilən "qoca" ilə "Zati-qədim" frazaları arasındakı fərq qədər dərin və düşündürücüdür.

Höte şeriyyətinin vüsəti, fəlsəfə və romantikası Ə. Hüseynzadədə daha mükəmməl bir şəkildə təzahür etmişdir. Görkəmli alman dili mütəxəssisi professor Nəzakət xanım Ağazadənin fikrilə desək: "Əli bəy Hüseynzadənin əruz vəznində "Faust"dan etdiyi tərcümə əvəzedilməzdir. Əgər bu gün həmin tərcüməni alman dilinə çevirsək, eynilə Hötenin "Faust"unu alarıq".[5.s.6] Bu da Ə. Hüseynzadənin tərcüməsinin nə qədər dəqiq və yerində bir tərcümədir deməyimizə əsas verir.

Ədəbiyyat siyahısı:

1. A. Turan Əli bəy Hüseynzadə. Moskva. Salam press. 2008. Səh 100
2. Ə. Cəmil. Höte "Faust" "Öndər nəşriyyat" Bakı. 2004. səh. 14
3. Ə. Hüseynzadə "Füyuzat" №1. Bakı 1906. Səh 7
4. Ş Vəliyev Füyuzat ədəbi məktəbi. Bakı. Elm. 1999. Səh. 181
5. N. Ağazadə "Ədəbiyyat və incəsənət" qəzeti, 4 mart 1988-ci il. №10. s.6.
6. N. Kamal "Füyuzat". 1907. №22. Səh. 345
7. https://www.kitabyurdu.org/kitab/dunya-edebiyyati/1632-johann-wolfgang-goethe-faust.html

НАГИЕВА ИНДЖИ САМЕДДИН КЫЗЫ

ПЕРЕВОД ПРОИЗВЕДЕНИЯ В. ГЁТЕ "ФАУСТ" В ИСПОЛНЕНИИ АЛИ БЕЙ ГУСЕЙНЗАДЕ И ДРУГИХ АВТОРОВ

Резюме

"Фауст" В. Гёте был впервые переведен в азербайджанской литературе Али Бей Гусейнзаде.

Это литературное произведение вобрало в себя и то над чем Гёте работает и размышляет на протяжении всей его жизни, а также тенденции романтизма, которые появились в его творчестве в последние годы. Это, в свою очередь, способствовало развитию течения романтизма в нашей литературе, особенно для фюзатистов, у которых это течение считалось основой их творчества и поэтому это произведение имело для них особое значение.

После подстрочного перевода А. Гусейнзаде некоторых частей произведения, "Фауст" перевела немецковед ученый, профессор Назакет Агазаде, позже Ахмед Джамил перевел поэтический перевод с русского.

Переводы, упомянутые выше, и переводы этого произведения в литературе

Турции привлекают схожестью по глубине поэтического качества и смысла.

В этой статье были приняты во внимание литературно- художественный и подстрочный перевод и место этих видов перевода в работах наших ученых-литераторов, нашедшие отображение в литературоведческих статьях в

периодической прессе и в материалах по истории литературы.

Ключевые слова: журнал «Фуюзат», произведение «Фауст», А. Гусейн-заде, А. Джамиль, строчный перевод, поэтический перевод.

NAGIYEVA INJI SAMADDIN

THE NOVEL "FAUST'" BY J. V. GOETHE IN ALI BEY HUSEYNZADE AND OTHER AUTHORS' TRANSLATION

Summary

J. V. Goethe 's novel "Faust" was first translated into Azerbaijani literature by Ali bey Huseynzadeh. Goethe worked on this novel throughout his life, and as Goethe inclined to the Romanticism in the last years of his career, the novel was based on this literary genre. This work was special for the "phuzatchilar" who instituted and developed Romanticism in our literature.

After A. Huseynzadeh, a part of the novel "Faust" was translated by a German scholar, professor Nazakat Agazadeh, and later Ahmad Jamil translated the novel poetically from the Russian language.

The literary scholars' views on literary – fictional and linear translation, as well as the place of this translation in our literary criticism in the periodic press and in the materials of the history of literature was in the center of attention.

Keywords: "Füyuzat" magazine, the novel "Faust", A. Huseynzadeh, A. Jamil, linear translation, poetic translation

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Seyfəddin Gülverdi oğlu Rzasoy – AMEA-nın Folklor İnstitutu Mifologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor tərəfindən çapa tövsiyə olunmuşdur

BABAYEV RƏŞAD VAQIF OĞLU
Bakı Dövlət Universiteti
Ərəb filologiyası kafedrası
babayevresad6791@gmail.com

İBN MALIK ƏT-TAI VƏ CƏLALƏDDIN ƏS-SÜYUTININ HƏYAT VƏ YARADICILIĞI HAQQINDA

XÜLASƏ

Ərəb qrammatika məktəbləri içərisində Əndəlis məktəbinin özünə məxsus mövqeyi vardır. İspaniyada ərəb xilafəti, ərəb mədəniyyəti tarixinə dair müxtəlif əsərlər yazılmasına baxmayaraq, Avropa və keçmiş Sovet ərəbşünaslığında, o cümlədən Azərbaycan ərəbşünaslığında Əndəlis qrammatika məktəbinə həsr olunmuş ayrıca monoqrafik tədqiqat yoxdur. Ərəb dilçilərinin bu məsələyə həsr edilmiş əsərləri isə, əsasən, icmal xarakteri daşıyır; onlar başlıca diqqətlərini həmin məktəb nümayəndələrinin tərcümeyi-halını verməyə, əsərlərinin adlarını çəkib onların qısa məzmununu söyləməyə yönəldilər.

Məlumdur ki, müstəqil dövlət kimi əsası əməvilərdən I Əbdürrəhman (756-778) tərəfindən qoyulmuş Əndəlis xilafətində mədəniyyət, elm sürətlə inkişaf edirdi. Əndəlisdə gözəl poeziya, nəsr nümunələri yaradılır, tarixə, fəlsəfəyə, filologiyaya, fiqhə və s. ciddi tədqiqat əsərləri həsr edilirdi. Müvəşşəh, zəcəl kimi şer formalarının ərəb ədəbiyyatında təşəkkül tapması, geniş yayılıb şöhrətlənməsi məhz Əndəlis şairlərinin adı ilə bağlıdır. Əndəlisdə ərəb dili geniş tədris olunur, Qur`anın əzbərlənməsinə, düzgün qiraətinə ciddi fikir verilirdi. Bütün bunlar ərəb dilinin qayda-qanunlarına, tələffüz normalarına və s. aid əsərlər yazılmasını zəruri edirdi.

Əndəlis məktəbinin ən görkəmli nümayəndəsi Cəmaləddin Məhəmməd bin Abdulla bin Malik ət-Tai əl-Cəyyani öz dövründə qrammatikanı, hədisləri, Qur`anın qiraətini, ərəblərin tarixini, məişətini və ənənələrini ən gözəl bilən alim hesab edilirdi. İbn Malik 1206-cı ildə Əndəlisdən Şərqə gedərək İbn Hacibə rast gəlmiş, onun yanında oxumuş, sonra Hələbdə məskən salıb İbn Hişamın şagirdi olmuş, daha sonra Dəməşqə köcərək oradakı mışhur "Azimiyyə" mədrəsəsinə başçılıq etmişdir. İbn Malikin gözəl təbi də olmuş, o sərf-nəhvə dair müxtəlif mənzum əsərlər yazmışdır. Bunların içərisində ən məhşurları indiyə qədər ərəb ölkələrində dərslik kimi istifadə olunan min beytdən ibarət "Əlfiyə", üç min beytdən ibarət "əl-Kafiyətu-ş-şafiyə" və Zəməxşərinin "əl-Müfəssəl" əsəri əsasında yazdığı "əl-Müfəssəl" poemalarıdır. İbn Malikin, ümumiyyətlə, otuza qədər mənzum və mənsur əsəri vardır.

Məqalədə ət-Tainin yaradıcılıq fəaliyyəti müxtəlif mənbələr əsasında araşdırılmışdır. Dilçinin təxminən sayı qırxa çatan əsərlərinin adlarını məqaləmizin həcmi kiçik olduğu üçün qeyd etməyərək, yalnız dilçilik sahəsində "Əlfiyyə" və "əl-Xulasə" kimi ən məşhur olanları haqqında bəhs etməklə kifayətlənmişik.

Açar sözlər: Ərəb dilçiliyi, Əndəlis məktəbi, İbn Malik, Əlfiyyə, əl-Xulasə, ət-Təhsil, ərəb mədəniyyəti

Əsrinin dilçi və filoloqlarının qabaqcıl alimi olan Əbu Abdulla Cəmaləddin Məhəmməd bin Abdulla bin Malik ət-Tai əl Cəyyani əsas qəbul olunmuş rəyə görə h.600 (1204)-cü ildə Əndəlisin paytaxtı olan Qurtuba şəhərinin yaxınlığında yerləşən Cəyyanda anadan olmuşdur. (1, 252; 2,310)

Bəzi mənbələrdə anadan olduğu tarix h.598 (1202), h.601(1205). h.602 (1206)-cı illər, "Tabaqatuş-şafiuyya" əsərində isə h.608 (1212)-ci il göstərilməkdədir, Təbəqat (təbəqələr şəklində yazılmış bioqrafiyalar) kitablarında göstərilən mənbələrə müraciət edərək onun nəsəb silsiləsinin doğru olmasına ümid etmək olar. Onun "Umdətul-hafiz və uddatul-lafiz" və "al-Kafiyyətuş-şafiya" adlı kitablarının müqəddiməsində "bin Abdulla" bir dəfə, "Tuhfətul-məvdud fil- məqsur və al-mənsur" kitabının müqəddiməsində isə iki dəfə qeyd olunmuşdur. Bunula belə qərara gəlmək olar ki, adı çəkilən kitabların müqəddiməsində onun "Abdulla" nəsəbini bir dəfə qeyd etməsi yalnız ixtisar və yığcamlığa meyl etməsindən irəli gəlmişdir (7,120).

İbn Malik İspaniyanın fəthindən sonra Şibilliyyə (Sevilla) və Mürsiyə məntəqələrində yerləşən Tayy qəbiləsinə mənsub olduğu üçün ət-Tai nisbəti ilə tanınmışdır. O, öz dövründə nəhvi (qrammatikanı), hədisləri, Quranın qiraətini, ərəblərin tarixini, məişətini, adət və ənənələrini ən gözəl bilən alim hesab edilirdi. (1,252). Həyatının ilkin çağlarını Quran azbərləmək, qiraət dərslərində iştirak etmək, müəyyən qədər din və nəhv elmlərini öyrənməklə başlamış olan bu böyük filoloq alimin təhsil mənbələri Sibəvəyhinin "əl-Kitab" əsəri və şərhləri, Əxfəşin "əl-Məsail", Mübərrədin "əl-Müəllafat", İbn Sərracın "əl-Üsul" əz-Zəccacinin "əl-Cumal", Sibəvəyhinin "Nətciul-fikr", şərhini yazdığı əl-Cüheylinin "Müqəddimə" əsəri və İbn Mütinin "əl-Əlfiyyə" və s. bu kimi qədim nəhv (qramatika) kitablarının qaynaqlarını mənimsəməkdə təcəssüm edilirdi. Onun nəhəng elmi sərvəti yalnız kitabları öyrənməklə bitməyib, bununla yanaşı böyük alimlərin dərslərini də dinləmişdir (5,130). O, Əndəlisdə yaşadığı dövrdə bir neçə alimdən dərs almaqla bərabər, həmçinin qrammatika, leksikologiya və məntiq elmlərini də atasından öyrənmişdir (5,130). Ona Əndəlisdə dərs demiş aşağıda qeyd edəcəyimiz alimlərin adları bir çox mənbələrdə göstərilmişdir. İbn Malikin bacarıqlı bir dilçi və hörmətlə yad edilən müəllim olaraq səciyyələndirdiyi Sabit bin Xiyar əl-Kəlai (ölüb h. 628 (1232)) onun əsas müəllimi olmuş və eyni zamanda Sibəvəyhinin "əl-Kitab" əsərini Əbu Abdulla bin Malik əl-Marşanidən (ölüb. H 698) öyrənmiş, qiraət dərslərini Əbul-Abbas Əhməd bin Nüvvardan almış və qısa bir müddət Əbu Əli Şəlavbinin (ölüb. h 645 (1248)) dərslərini dinləmişdir. Bu alimlərin yaşadığı illərin tarixi müqayisəli şəkildə öyrənilərək İbn Malikin ilk ustadı Sabit bin Xiyar olduğu söylənilir (8,150). Bəzi mənbələrdə qeyd olunanlara görə Sabit bin Xiyar qiraət

dərslərini eyni zamanda İbn Malikin də müəllimi olan Əbul-Abbas Əhməd bin Nüvvardan almışdır.

Əndəlisdə ilk dövrlər dilçilik fəaliyyəti çox güclü idi. Sonrakı dövrlərdə əmirliyə çaxnaşma düşdüyü, siyasi vəziyyətin çətinləşdiyi üçün və həyatın saflığını korlayan fitnələrdən qaçaraq elm və alimlər üçün daha əlverişli və həvəsləndirici bir mühit axtarmaq məqsədilə dilçilər şimali Afrika və şərq ölkələrinə köçməyə başladılar. Bu alimlərin ən məşhuru olan İbn Malik təxminən otuz yaşlarında Misir və Hicazdan keçərək şərqə köçməli oldu. Qahirə və Hicazda bir müddət qalıb, daha sonralar həcc ziyarətini edib dönüşdə Dəməşqə getdi (8,151). Müasir Misir filoloqu Şövqi Zeyf İbn Malikin Əndəlisdən şərqə köçməsi tarixinin h. 630 (1234)-cü il olduğunu iddia edir. Bu iddiaya dəlil olaraq əl-Qəftininin "əl-Cəziliyyə" əsərinin şərhçilərinin adlarını sayaraq qeyd etdiyi "onu (əl-Cəziliyyəni) Hələbdə bu işi öyrətmək üçün rəhbərlik edən Cəyyan əhlindən olan gənc dilçi şərh etmiş və orada bu haqqda danışılanların bəzilərini toplamış və mükəmməl şəkildə ixtisar etmişdir" fikrinə əsaslanaraq İbn Malikin məhz əl-Qəftininin yaşadığı dövrdə şərqə getdiyini söyləyir. Bu da təxminən h.630 (1234)-cü illərə təsadüf edir. Bu tarixin həmin il olmasına dəlil olaraq irəli sürülən başqa bir rəy də budur ki, İbn Malikin Dəməşqdə müəllimi olmuş Əbu Sadiq Həsən bin Səbbah h.632 (1236)-cı ildə vəfat etmişdir. Belə ki, onun vəfatından bir neçə il əvvəl İbn Malikin Dəməşqə gəlməsi məntiqə uyğun bir fikirdir. Çünki o, İbn Səbbahdan sonra Əbul-Fəzl Nəcməddin Mükərrəm (ölüb. h. 635 (1236)), Əbül-Həsən əs-Səxavi (ölüb. H.648 (1248)), İbn Yaşi əl-Hələbi (ölüb h. 643 (1244)) və onun şagirdi olmuş İbn İmrun əl-Hələbinin (ölüb h.649 (1243)) yanında təhsilini davam etdirmişdirsə, deməli Dəməşqə ilk gəldiyi zaman İbn Səbbahın yanında araşdırıb öyrənən bir tədqiqatçı kimi şagirdlik etmişdir. Bu da təqribən 30 yaşlarına yaxın bir vaxtda olmuşdur (6,73).

Təbaqat kitablarında qeyd olunanlardan aydın olur ki, İbn Malik şərqə getdiyi zaman Qahirə və Hicazdan keçmiş və bu ölkələrdə qısa bir müddət qalmışdır. Həmçinin ehtimal olunur ki, O, Əndəlisi tərk etdiyi zaman yaşı iyirmi beşdən çox olmuşdur. Onun qərbdən şərqə doğru olan səfərində getdiyi yola və bu yol boyu keçdiyi ölkələrin hər birində qaldığı müddətə gəlincə, bunun məhdud şəkildə öyrənilməsi heç də asan olmayan və eyni zamanda böyük əhəmiyyəti olmayan bir işdir. Çünki O, Misir və Hicazda olduğu zaman hələ də tələbə idi. Lakin onun Dəməşqdə məskunlaşması isə uzun müddət, yəni vəfatına qədər sürdü və öz bəhrəsini verdi (6, 73-74). İbn Malik Dəməşqdə ilk gəldiyi zaman bir müddət qalaraq Əbu Sadiq Həsən bin Səbbah, mühəddis (hədis elmi ilə məşğul olan) Ələməddin əs-Səxavi, Əbul-Fəzl Mükərrəm kimi görkəmli alimlərin dərslərində iştirak etmişdir. Bu arada Dəməşqdə qalan dilçi alim Cəmalləddin İbn ül-Hacibdən də istifadə etmişdir (8,150). Daha sonra Dəməşqdən Hələbə gedib, orada Yəiş bin Yəşi əl-Hələbi (ölüb. h.643 (1244)) və onun şagirdi Məhəmməd bin Məhəmməd bin İmrun əl-Hələbinin (ölüb.h.649 (1249)) yanında uzun müddət dərs almışdır. Beləliklə, İbn Malik leksikologiya və qrammatikanın dərinliklərini, şərq və qərb qrammatika başçılarının

rəylərini qarşılıqlı şəkildə öyrənmiş və bunun nəticəsində öz məharətilə bir-biri ilə uyğun və fərqli cəhətləri olan mütənasib bir sintez yaratmışdır (8,151).

İbn Malik sağlığında qiymətləndirilib, şöhrəti yayılmış və yüksək vəzifələrə sahib olmuşdur. O, Hələbdə şafii və hənəfi məzhəbləri arasında müştərək olan, hazırda "Sultaniyyə" adı ilə tanınan kral əz-Zahirin (ölüb.h.613 (1215)) özülünü qoyduğu "əz-Zahiriyyə" mədrəsəsinə başçılıq etmişdir. Daha sonralar o, Dəməşqə qayıtdıqda Həmadana köçərək bir müddət orada qalmış və misirli dilçi və ədib Dəmalinin (h.763-827 (1360-1423)) qeyd etdiyi kimi orada zəngin elm təbliğatçılarından olmuşdur. Nəhayət, Dəməşqə gedib orada məskunlaşaraq özünü dərs deməyə həsr etmiş və çoxları onun tədrisindən faydalanmışdır. Əndəlisdən gəlmiş digər alimlər kimi maliki ikən dönüb şafii olan İbn Malik Dəməşqdə hazırda elmlər akademiyası qərargahı olan Sultan Nurəddin Zənginin (ölüb.h.568 (1173)) şafii fiqhinin (şəriət hüququ) tədrisi üçün özülünü qoyduğu "Adiliyə" mədrəsəsində şeyx olaraq dil və qiraət dərsləri vermişdir. (3,11; 8,151). O, əsrinin qabaqcıl alimi, zamanının Sibəveyhisi olanadək usanmadan sürəkli oxumaq və çoxlu əzbərləməklə təhsilini və özünün ərəb mədəniyyətini təkmilləşdirmiş, nəhv və sərfdə misilsiz dərya, rəqabət edilməyəcək bir alim olmuşdur.

İbn Malik keçmiş Bəsrə, Kufə, Bağdad qrammatika məktəblərinin bir çox rəylərini seçmiş, lakin təqlidçi olmayıb öz müstəqil rəyinə əsaslanaraq məsələlər üzərində çalışıb, həmin məktəblərin bəzi fikirlərinə müxalifət etdiyi halda, bəzən də onların fikirləri ilə uyğunlaşaraq yeni nəzəriyyələr irəli sürmüşdür (7,120). O, Əbu Əli əl-Farisi (h.900/901-987 (1494-1578)) və İbn Cinni Əbul-Fəth bin Osman (h.941/942-1002(1435-1593)) kimi məşhur Bağdad məktəbi dilçilərinin də ardıcıllarından olmuşdur.

İbn Malikin Nəhvə (ərəb dili qramatikasına) gətirdiyi ən mühüm yenilik hədis-şəriflərə istinad edərək səmaya (nitqə) geniş yer verməsidir. O, hər hansı bir qrammatik qaydaya aid misal vermək istədikdə, əvvəlcə Qurana sonra hədislərə, daha sonra isə poeziyaya müraciət edirdi. Özündən əvvəlki dilçilərdən İbn Xəruf, Süheyli, əl-Farisi, İbn-Cinni, İbn Bərri əl-Misri hədislərdən faktik dil materialı kimi istifadə etsələr də, İbn Malik hədislərə çox müraciət edən ilk dilçi hesab olunur (1,253; 4, 170). Ondan əvvəl qrammatik qaydalar izah edilərkən əsasən Qurandan və h. 150 (m.767)-ci ilədək yazılan şeirlərdən misal verilirdi.

Bəsrə və Kufə məktəblərinin ən görkəmli nümayəndələri Əbu Əmr bin Fərra, Əli bin Mübarək əl-Əhmər, Hişam, Zərir hədislərdən faktik dil materialı kimi istifadə etməmişlər. Hər iki məktəbin sonrakı nümayəndələri də bu məsələdə səleflərinin (özlərindən qabaqkı alimlərin) ardınca getmişlər (1,63).

İbn Malikin qrammatika məsələlərində Qurandan sonra hədislərdən ilk dəfə geniş və sistemli şəkildə dəlil olaraq sitat gətirməsi ərəb dili qrammatikasında yeni bir təməlin qoyulmasına səbəb oldu. Onun bu işi əsassız bir qərar olmamışdır. Çünki, o, peyğəmbərdən (s) rəvayət olunan hədislərdə mövcud olan bütün modellərin dilçilərin hamılıqla istinad etdikləri ərəb poeziyasında dəlilləri olduğunu sübut

etmişdir. Sanki, o, bununla hədislərin çoxunun mənaya görə söyləndiyini və əksər ravilərin (hədis rəvayət edənlərin) danışığında səhvlər olan qeyri-ərəblərdən olduğunu deməklə bəhanə gətirərək hədislərdən faktik dil materialı kimi istifadə edilməsini inkar edən dilçilərin müddəalarını təkzib etmişdir. O, ət-Tavzih vət-Təshih Lişəvahidil-cəmiis-səğir" adlı kitabında müxtəlif hədis ravilərinin ərəb dilində düzgün danışmaları barəsindəki fikrə müxalif olan dilçilərin doğru olmadıqlarını elmi və təcrübi şəkildə sübut etmişdir (4,170).

İbn Malikin ümumiyyətlə, yazdığı əsər və traktatlara gəlincə bir çox mənbələrdə adları qeyd olunmuşdur. Bu kitabların bəzisi mövcuddur və bəzisinə isə təsadüf edilməmişdir. Mövcud olan kitabların bir çoxu çap edilməklə yanaşı hələ də əlyazması olaraq qalanları da vardır. Alimlər və tələbələrin istifadə etməsi, İbn Malikin uğrunda var gücünü sərf etdiyi hədəfin həyata keçirilməsindən ötrü həmin əlyazmaların təhqiq edilib nəşr olunması üçün xeyli vaxta və zəhmətə ehtiyac vardır. Müəllifin yazdığı əsərləri ərəb dilinin müxtəlif sahələrinə aid olduğuna görə dörd qismə bölmək olar (8,152).

1) Nəhvə (Sintaksis) aid əsərlər.
2) Sərfə (Morfologiya) aid əsərlər.
3) Leksikologiyaya aid əsərlər.
4) Qiraətə aid əsərlər.

İbn Malikin umumiyyətlə, yazdığı əsərlər içərisində ən məşhur və ən geniş yayılmış olanları "əl-Kafiyətuş-Şafiyə", "əl-Xulasə (əlfiyyə)", "Təshilul-Fəvaid və Təkmilul-məqasid" əsərləridir. Bu üç şah əsərin hər biri onun elmi irəliləyişinin xüsusi bir mərhələsini ifadə edir. Adları çəkilən əsərlər arasında onun ilk yazdığı "əl-Kafiyyətuş-Şafiyə" dir. İki min yeddi yüz əllidən artıq beytdən ibarət olaraq nəzmə çəkilmiş bu əsər müəllifin geniş tədqiqatı nəticəsində topladığı məlumatları özündə əhatə edən ensiklopedik bir əsərdir. Daha sonra müəllif bu əsəri şərh edərək ondan məşhur "Əlfiyyə"sini (əl-Xulasə əsəri) seçmişdir. Həmin əsərin xulasəsi olan "Əlfiyyə" tətbiqi düzəlişləri özündə əhatə edən dərs vəsaiti olaraq tələbələr üçün ağırlıq yaratmadan öyrənilməsi zəruri olan qrammatik qaydaları təqdim edir və eyni zamanda onları dildən düzgün şəkildə istifadə etmək yollarını bilməyə, onun mənalar altında dərc edilmiş irab (fleksiya) əlamətlərini dərk etməyə istiqamətləndirir. Oxucu kütləsi bu əsərə etimad edərək onu Sibəvəyhinin "əl-Kitab", əz-Zəccacinin "əl-Cuməl", əl-Farisinin "əl-Müqəddəmə" əsərləri ilə əvəz etdilər. İbn Malik "əl-Kafiyyə"ni özü və "əl-Xulasə"ni tələbələr üçün yazdıqdan sonra "ət-Təshil" əsərini alimlər üçün qələmə almışdır. Deyilənə görə o, həmin əsəri özünün "əl-Fəvaid" adlı keçmiş əsərinin xülasəsi olaraq yazmışdır. Səiduddin Məhəmməd əl-Ərəbi həmin əsəri bir neçə misra ilə nəzmə çəkərək tərif etmişdir;

إن الامام جمال الدين فضّله إلاهه و لشر العلم اهله
أملى كتابا له يسمى الفوائد لم يزل معيد الذي لب تامله
فكل مسألة في النحو يجمعها ان الفوائد جمع لا نظير له

Tərcüməsi:

"Allah-Təala böyük alim Cəmalləddini üstün, elmi yaymağa onu layiq etdi. Yazdığı "əl-Fəvaid" əsəri, üzərində düşünən ağıllı kəslər üçün çox faydaları əhatə etməkdədir. Bənzəri olmayan bu əsər nəhv elmində hər məsələni özündə cəm etmişdir" (6,75).
"Ət-Təshil" əsərinin əhəmmiyyəti İbn Malikin son və qəti rəylərini təmsil etməkdən ibarətdir. O, İbn Malikin təfəkkürünün, ömrünü elmə həsr etdiyi uzun illərin bəhrəsi olmuşdur. Müəllif bu əsərlə, qrammatik qaydaların sabitləşdirilməsini təkrar gözdən keçirmək və onların leksik tətbiqin tələbləri ilə olan əlaqələrini bərpa etməkdən ötrü özündən sonrakı dilçilər üçün böyük perspektivlər açmışdır.
Alimlər "ət-Təshil" əsərini Sibəvəyhinin "əl-Kitab"ı ilə bərabər tutdular. İbn Malikdən sonra Əndəlis məktəbinin ən görkəmli dilçisi sayılan, eyni zamanda onun tələbəsi Bəhaəddin bin ən-Nəhhasın yanında dərs almış Əbu Həyyan əl-Əndəlisi (h.1256-1344) yazdığı "əl-Bəhrul-muhit" adlı təfsirində qeyd edir ki, nəhv (qrammatika) elmindən ən yaxşı və ən möhtəşəm mövzu Əbu Bişr bin Əmr bin Osman bin Qunbur Sibəvəyhinin (ölüb. h 177/794) əl-Kitab əsəri və ondan sonrakı dilçilərin yazdığı konspekt xarakterli əsərlərin ən yaxşısı və ən geniş şəkildə qrammatik qaydaları özündə əhatə edəni Əbu Abdulla Məhəmməd bin Malikin yazdığı "Təshilul Fəvaid" əsəridir. Əbu Həyyanın, bu kitabı əhatəli bir yığcam əsər kimi səciyyələndirməsi tamamilə doğrudur. Odur ki, haqqında danışılan əsər hər zaman böyük filoloqlar tərəfindən xüsusi bir maraq obyekti olmuşdur. Əbu Həyyan özü, yazdığı "ət-Təkmil fi şərhit-təshil", həmin əsərin şərhinin ixtisarı olan "ət-Təxyilul-muləxxəs min şərhit-təshil" və onların ən mühimi, ən məzmunlu və əhatəlisi olan "ət-Təzyil vət-təkmil fi şərhit-təshil" adlı kitablarında "ət-Təshil" əsərinə əsaslanmışdır. Əbu Həyyanın adı çəkilən sonuncu əsərinin nəhəngliyinə dəlil olaraq bunu qeyd etmək kifayətdir ki, müəllifin altı cilddən ibarət olan (xulasəsi iki cilddir) "İrtişaf" əsəri onun yalnız ixtisarıdır.

Əbu Hayyandan sonra diçilər "ət-Təshil" əsərinə xüsusi diqqət yetirərək onu şərh etmək üçün bir-biri ilə rəqabət aparmağa başladılar. Həmin əsəri şərh edənlər arasında ən məşhur olanları Bədrəddin əl-Hüseyn bin Qasim əl-Muradi (ölüb h. 749/1348), Məhəmməd bin Əhməd bin Qəddamə əl-Hənbəli (ölüb. h: 761/1360), İbn Əqil Abdulla bin Əbdurrəhman (ölüb. h 763/1367), Muhyiddin əl-Hələbi (ölüb. h 778/1375) və Məhəmməd əl-Muratib əd-Dəlaidir (ölüb h. 1089(1677)) (3,65). Sibəveyhinin "əl-Kitab"ı beş əsr boyu qrammatik tədqiqatların asas mənbə obyekti olub, orada əsrinin sintaktik və morfoloji bilikləri qeyd edildiyi halda İbn Malikin "ət-Təshil"i isə maraq nöqteyi nəzərindən onu əvəz etmiş və müəllifin məramlarına müvafiq olaraq bu biliklərin köklərini dərindən öyrənmək, onların babları (özündə fəsilləri əhatə edən başlıqları) və fəsillərinə yiyələnməyə yönəlmişdir. Bu da Əbu Həyyanın yuxarıda, haqqında danışılan iki əsər barəsində qeyd etdiyi müqayisəyə tamamilə aydınlıq gətirir (4,169). Əbu Həyyan İbn Malikin fəzilətini və onun ərəb dilinə göstərdiyi xidməti etiraf edərək söyləmişdir: "Həqiqətən, İbn Malik bu elmdə çoxlu mənzum və mənsur əsərlər yazmış və öz fəaliyyəti və etdiyi müqayisələri ilə nadir olan şeyləri toplamışdır. Onun nəhəng şah əsərləri qeyri-adi və heyrətamizdir.

Əgər hər kəs onun "Təshil"ində olanları bilsə, yer üzündə ondan daha bilikli bir dilçi olmaz" (7,120).

Lakin qəribə burasındadır ki, Əbu Həyyan İbn Malikin əsərlərini yüksək qiymətləndirib həmin kitablardan tələbələrinə tədris etməsinə baxmayaraq ən çox onun müddəalarına etiraz etmişdir. O, İbn Malikdən fərqli olaraq, hədislərdən faktik dil materialı kimi istifadə etməyin əleyhinə olmuş və həmçinin, onun irabın sözün əslinə, özünə aid olması fikrinin əleyhinə çıxıb, onun zaidə (əlavə) olmasını söyləyən dilçiləri müdafiə etmişdir (1,255). O, İbn Malikin etimad ediləcək və problemlərin həllində müraciət ediləcək bir müəllimi olmadığını və bu elmi təkbaşına öyrəndiyindən mübahisələrə dözümlü olmayıb və diskussiyaların qarşısında tab gətirmədiyini söyləmişdir . Lakin Əbu Həyyanın bu fikrini muasirləri və ondan sonrakı alimlərin heç biri qəbul etməmiş və onun İbn Malik barəsində olan bu müddəasının yalnız onun həməsri olduğu üçün həsəddən irəli gəldiyini söyləmişlər. Çünki, İbn Malikin hörməti, onunla bir əsrdə yaşamış alimlər arasında əldə etdiyi məqamı və özündən sonra miras qoyduğu, alimlər və tələbələri düşündürən qiymətli əsərləri Əbu Həyyanın fikrinin puç olmasına açıq-aşkar dəlildir, İbn Malik özündən sonra tələbələri arasında bir çox əsərini şərh edən İbnun-Nazim deyə tanınan oğlu Bədrəddin bin Məhəmməd, Bədrəddin bin Camaə, fiqh alimi əbu Zəkəriyyə ən-Nəvəvi, hədis alimi Əbul-Hüseyn Əli bin Məhəmməd əl-Yunini və şair Bəhaəddin bin ən-Nəhhas kimi alimlər yetişdirmiş və özünə xas olan metod və üslubu ilə gələcək nəsillərə İbn Malik nəhv məktəbini yadigar qoymuşdur (4,170).

İbn Malik hicri tarixi ilə 12 şaban 672-ci il, miladi ilə 21 fevral 1274-cü ildə Dəməşqdə vəfat etdi və Qasiyun dağının ətəklərində dəfn edildi. Tələbələri Bəhaəddin bin ən-Nəhhas əl-Hələbi və Şərəfəddin əl-Həsni onun haqqında mərsiyyələr qələmə almışlar. Aşağıda qeyd edilmiş üç bənddən ibarət olan mərsiyyə Bəhaəddin bin ən-Nəhhasa aiddir (4,171).

قل لابن مالك ان جرت بك ادمعي ... حمرا يحاكيها النجيع القاني
فلقد جرحت القلب حين نعيت لي ... فتدفقت بدمائه أجفاني
لكن يسهل ما أحس من الأسى ... علمي بنقلته إلى رضوان

Tərcüməsi: "İbn Malikə de ki, göz yaşlarım sənin üçün şəffaf qana oxşar qırmızı axdı.
Sənin ölüm xəbərin mənə çatanda qəlbimi yaraladın, gözlərimdən qan axdi.
Lakin səndən razı qaldığımı bilməyim çəkdiyim qüssəni yüngülləşdirir".

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Məmmədəliyev V.M. “Ərəb dilçiliyi”. Bakı. Maarif nəşriyyatı. 1985.
2. Şövqi Zeyf “Əl-Mədərisun-nəhviyyə”. Qahirə. 1968.
3. İbn Hişam “Müğni əl-ləbib”. Qahirə. 1997.
4. İbn Rəşiq “əl-arabi” jurnalı. Küveyt. 1964.

5. Abbas İhsan. “Tarixu ən-nəqdil-ədəbi ində-l-arab”. Beyrut. 1871
6. “Dəiratul-maarif-İsləmiyyə əl-kubra. IV cild. Tehran. 1998.
7. İslam Ansiklopedisi. III cild. TDV Ansiklop. 1995.
8. Mehiri A.Les theories grammaticales d’Ibn Çijinni Publ. Univ. Tunis. 1973.
9. Звегинцев В. А. “История арабского языкознания”. Краткий очерк. М., 1958.

Babayev Rashad Vagif

ABOUT THE LIFE AND CREATION OF İBN MALIK ET-TAI AND JALALADDIN ES-SUYUTI

SUMMARY

Among the Arabic grammar schools, the Andalusian school has its own position. Although various works on the history of the Arab caliphate and Arab culture have been written in Spain, there is no separate monographic study on the Andalusian grammar school in European and former Soviet Arabic studies, including Azerbaijani Arabic studies. The works of Arab linguists on this subject are mainly of a review nature; they focused on the biographies of the representatives of that school, on the names of their works, and on their summaries.

It is known that culture and science were developing rapidly in the Andalusian caliphate, which was founded as an independent state by the Umayyad Abdurrahman I (756-778). Beautiful poetry and prose are created in Andalusia, history, philosophy, philology, jurisprudence, etc. serious research papers were devoted. The formation and widespread popularity of poetic forms in Arabic literature, such as muwashshah and zajal, is connected with the names of the Andalusian poets. In Andalusia, the Arabic language was widely taught, and serious attention was paid to the memorization and correct recitation of the Qur'an. All this is in accordance with the rules of the Arabic language, pronunciation norms and so on. made it necessary to write related works.

The most prominent representative of the Andalusian school, Jamaladdin Muhammad bin Abdullah bin Malik al-Tai al-Jayyani, was considered the best scholar of his time in grammar, hadiths, recitation of the Qur'an, and the history, life, and traditions of the Arabs. Ibn Malik went to the East from Andalus in 1206 and met Ibn Hajib, studied with him, then settled in Aleppo and became a disciple of Ibn Hisham, then moved to Damascus and headed the famous "Azimiyah" madrasa there. Ibn Malik also had a beautiful nature, and he wrote various poems about spending. The most famous of these are the thousand-verse Alfiyya, the three-thousand-verse al-Kafiyatu-sh-Shafiyya, and the al-Mufassal by Zamakhshari, which have been used as textbooks in the Arab world. Ibn Malik generally has about thirty verses and mansurs.

The article examines the creative activity of al-Tai on the basis of various sources. We will not mention the names of the forty works of the linguist because of the small size of our article, but only the most famous ones in the field of linguistics, such as "Alfiya" and "Al-Khulasa".

Keywords: Andalusian school, arabic culture, arabic linguistics, Ibn Malik, Alfiya, Al-Khulasa.

Бабаев Рашад Вагиф оглу

О ЖИЗНИ И ТВОРЧЕСТВЕ ИБН МАЛИКА ЕТ-ТАИ И ДЖЕЛАЛЛАДИНА АС- СУЮТИ

РЕЗЮМЕ

Среди арабских гимназий свое положение занимает андалузская школа. Хотя в Испании были написаны различные труды по истории арабского халифата и арабской культуры, отдельного монографического исследования андалузской гимназии в европейских и бывших советских арабских исследованиях, включая азербайджанские арабоведение, не существует. Работы арабских лингвистов по этой теме носят в основном обзорный характер; они сосредоточились на биографиях представителей этой школы, на названиях их произведений и на их резюме.

Известно, что культура и наука быстро развивались в Андалузском халифате, который был основан как независимое государство Омейядом Абдуррахманом I (756-778). Прекрасная поэзия и проза создаются в Андалусии, истории, философии, филологии, юриспруденции и т. Д. были посвящены серьезные исследования. Становление и широкое распространение в арабской литературе таких поэтических форм, как мувашшах и заджал, связано с именами андалузских поэтов. В Андалусии широко преподавался арабский язык, и серьезное внимание уделялось запоминанию и правильному чтению Корана. Все это в соответствии с правилами арабского языка, нормами произношения и так далее. заставил написать родственные работы.

Самый выдающийся представитель андалузской школы, Джамаладдин Мухаммад бин Абдулла бин Малик аль-Тай аль-Джайяни, считался лучшим знатоком грамматики, хадисов, чтением Корана, а также истории, жизни и традиций своего времени. арабов. Ибн Малик отправился на восток из Андалуса в 1206 году и встретил Ибн Хаджиба, учился с ним, затем поселился в Алеппо и стал учеником Ибн Хишама, затем переехал в Дамаск и возглавил там знаменитое медресе «Азимия». У Ибн Малика тоже была красивая природа, и он писал различные стихи о тратах. Самыми известными из них являются «Альфийя», состоящий из тысячи стихов, «Аль-Кафияту-ш-Шафийа»

из трех тысяч стихов и «Аль-Муфассаль», основанный на «Аль-Муфассале» Замахшари, которые до сих пор используются в качестве учебников в арабском мире. У Ибн Малика обычно около тридцати стихов и мансуров.

В статье исследуется творческая деятельность аль-Тай на основе различных источников. Мы не будем упоминать названия сорока работ лингвиста из-за небольшого размера нашей статьи, а только самые известные в области лингвистики, такие как «Альфия» и «Аль-Хуласа».

Ключевые слова: андалузская школа, арабская культура, азербайджанские арабоведение, Ибн Малик, Альфия, Аль-Хуласа.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Filologiya elmləri doktoru, professor Nəsrullah Məmmədov tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRMİN RAMIZ qızı BABAYEVA
AMEA Folklor İnstitutu
Içərişəhər, 8-ci Kiçik qala, 31
narmin.babayeva.85@inbox.ru

DÜNYANIN YARANMASI HAQQINDA MİFLƏRİN ETİOLOJİ SEMANTİKASI

(Xülasə)

Dünyanın yaranması haqqında etioloji miflərin bəziləri islami görüşlərə transformasiya olunmuşdur. Yaradıcı başlanğıc kimi Allahın adı çəkilir. Lakin miflərin təhlili göstərir ki, burada Allah obrazının İslamdakı Allahla yalnız ad bağlılığı var. Çünki miflərin məzmunu "Quran"la, İslam hədisləri ilə təsdiq olunmur. Həmin miflər İslam dinindən çox-çox qabaqkı ibtidai icma quruluşu ilə bağlıdır. Miflərin bir qismində Allahın dünyanı necə yaratması təsvir olunur. Bu, dünyanın əsas elementlərinin ardıcıllıqla yaradılmasını nəql edən kosmoqonik prosesdir. Ancaq miflərin sadə quruluşa malik olması, kosmoqonik prosesdə mahiyyətin izahının mənşəyin izahına tabe olması onları etioloji miflər kimi səciyyələndirməyə imkan verir. Mifləri bir qismi yer və göyün bir-birindən aralanmasını nəql edir. Burada dünyanın iki vəziyyəti öz əksini tapmışdır: göylə yerin bir-biri ilə yaxın olduğu əvvəlki vəziyyət və bir-birindən aralandıqdan sonrakı indiki vəziyyət. Əvvəlki vəziyyətdən indiki vəziyyətə keçid kosmos-xaos-kosmos ümumi yaradılış sxemi əsasında baş verir. Yer və Göy haqqındakı mifdə onlar Günəş və Ay haqqındakı etioloji miflərdə olduğu kimi qoşa təsvir olunurlar. Ay və Günəş, adətən, bacı-qardaş olduqları halda, bunların münasibətləri məlum deyil. Dünya mifologiyasında Yer və Göyün münasibəti "müqəddəs nikah" kimi təqdim olunur. Ancaq bizim burada təhlil etdiyimiz miflərdə onların nikahı barəsində heç bir bilgi yoxdur.

Açar sözlər: mif, mifologiya, etioloji miflər, kosmoqonik miflər, dünyanın yaranması

Problemin qoyuluşu: İlk növbədə vurğulamaq istərdik ki, etioloji miflərin seçilməsi, əhatə olunması da mürəkkəb bir problemdir. Təsnifatlar müxtəlif olduğu, alimlərin etioloji mifləri müxtəlif şəkillərdə təsnif etdikləri kimi, etioloji miflərin əhatəsi dairəsi də müxtəlifdir. Bəzi fikirlərə nəzər saldıqda onların bütün hallarda təsnifat aparan alimlərin öz baxışlarını əks etdirdiyini görürük.

İşin məqsədi: Tədqiqatın qarşısında duran vəzifə dünyanın yaranması haqqında miflərin etioloji semantikası araşdırmaqdır.

Y.M.Meletinskinin etioloji miflərin ümumi olaraq bəzi heyvan və bitkilərin, dağ, dəniz, göy cisimləri kimi təbiət obyektlərinin, ildırım, tufan və s. kimi təbiət hadisələrinin müxtəlif sosial və dini təsisatların, təsərrüfat fəaliyyətinin növləri, od, ölüm və s. necə meydana çıxmasının səbəbləri haqqında olan mətnləri əhatə etdiyi göstərilir [9, s. 635].

Əlbəttə, Y.M.Melentinski kimi bir mifşünas alimin bu yanaşması elmi bir yanaşmadır və hər bir tədqiqatda əsas olaraq götürülə bilər. Elə biz də öz tədqiqatımızda alimin həm bu fikrinə, həm də digər fikirlərinə istinad etmişik. Ancaq bu yanaşma alimin özünün də qeyd etdiyi kimi, etioloji mifləri ümumi şəkildə əhatə edir. Yəni hər bir xalqın özünə məxsus mifoloji hekayətləri var. Həmin hekayətlər onu yaradan xalqın özünə məxsus mifoloji görüşlərini əks etdirir. Bu cəhətdən, belə hesab edirik ki, etioloji miflərin araşdırılması zamanı mövcud mifoloji mətn fonduna əsaslanmaq daha faydalıdır. Biz də bu tədqiqatda dünya alimlərinin fikirlərini də nəzərə almaqla məhz Azərbaycan mif mətnlərinə əsaslanacağıq.

Məlumdur ki, mifoloji obrazlar tipi etibarilə iki qismə bölünür:

1. Real-fiziki dünyanı əks etdirən obrazlar;
2. Metafiziki dünyanı əks etdirən obrazlar.

Örnək olaraq deyək ki, mifdəki insanlar, heyvanlar, quşlar, göy cisimləri və s. real-fiziki dünyanı əks etdirir. Lakin pəri, cin, hal, qaraçuxa, quleybanı və s. kimi fantastik-xəyali obrazlar metafiziki dünyanı əks etdirir. Biz də haqqında etioloji mif olan obrazların semantikasını bu təsnifatda öyrənməyi məqsədəuyğun hesab edirik.

Yerin, göyün və ümumiyyətlə, dünyanın yaranması haqqındakı mifləri müqayisə etdikdə çox maraqlı etioloji mənzərə ilə üzləşirik. Belə ki, bu miflərin əksəriyyətinin məzmunu ümumən eynidir, lakin mətndən-mətnə məzmunla bağlı müxtəlif təfərrüatlara, fərqli detallara rast gəlirik. Yəni dünyanın yaranması haqqındakı mif sanki məzmunca genişlənir. Bu da bizə həmin miflərin etioloji semantikasının dərinliklərinə, məna incəliklərinə varmağa imkan verir.

Mətn örnəklərinə nəzər salaq. Miflərdən birində deyilir ki, lap qabaqlar Allahdan başqa heç kim yox imiş. Yer üzü də başdan-ayağa su imiş. Allah bu lili su edir. Sonra bu lili qurudub torpaq edir. Sonra torpaqdan bitkiləri cücərdir. Ondan sonra da torpaqdan palçıq qayırıb, insanları yaradır, onlara ruh verir [4, s. 35].

Bu mətn yaradılışı nəql edir. Dünyanın yaradılışından bəhs edən mif tipologiyasına görə kosmoqonik mifdir. Çünki burada bütöv bir kosmoqonik proses

təsvir olunmuşdur. Ancaq mifin sadə quruluşa malik olması, dünyanın yaradılışının səbəbini, yəni mənşəyini izah etməsi ümumi planda kosmoqonik mif olan bu mətnin daha çox etioloji mif olduğunu söyləməyə imkan verir. Çünki bu mətndə dünyanın yaradılış prosesinin mahiyyətindən daha çox mənşəyi izah olunmuşdur.

Bu mifin etioloji semantikasını aydınlaşdırmaq üçün ilk növbədə onda inikas olunmuş yaradılış prosesini və həmin prosesi təşkil edən ünsürləri müəyyənləşdirmək lazımdır. Mətndə iki tip obraz var:

Yaradan: Allah;

Yaradılanlar: lil, torpaq, bitki, insan.

Əvvəlcə su ünsürünün bu yaradılış prosesindəki yerini və vəzifəsini (funksiyasını) müəyyənləşdirmək gərəkdir. Çünki yaradıcının (Allahın) onu nə vaxt və necə yaratması haqqında mətndə heç bir söz deyilmir. O, elə əvvəldən var imiş.

S.S.Averintsev mifologiyada su obrazı haqında yazır: *"Su – kainatın fundamental ünsürlərindən biridir. Su ən müxtəlif mifologiyalarda ilk başlanğıc, bütün varlığın başlanğıc vəziyyəti, ilkin xaosun ekvivalentidir"* [6, s. 240].

Alimin verdiyi bu bilgi bizə yuxarıda verdiyimiz etioloji mifdə su ünsürünün yaradılış prosesindəki yerini və rolunu anlamağa imkan verir. Suyun ilkin xaosun ekvivelenti (Ekvivalent – "eynigüclü" mənasında olan sözdür və suyun xaosun ekvivalenti olması, onun xaosu bildirməsini ifadə edir.) olması bizə bu mətnin ilkin mifoloji görüşlərlə bağlı olduğunu söyləməyə imkan verir. Çünki mətndə işlənmiş Allah sözü bu mifoloji mətni İslam dövrünə aid etməklə, onun tarixini cavanlaşdırır. Lakin islami düşüncəyə görə, su Allahla bərabər öz-özünə mövcud ola bilməz. Çünki İslamda maddi yaradılış aləmi, o cümlədən suyun özü Allah tərəfindən yaradılmışdır. Bu mətndə isə suyun Allahla bərabər elə əvvəldən var olması aydın şəkildə göstərilmişdir.

Mətndə yaradılış silsilə şəklində baş verir: sudan – lil, lildən – torpaq, torpaqdan – bitki və palçıq, palçıqdan – insan yaradılır. Mifin etioloji semantikasının əsas mənası ondan ibarətdir ki, dünyanın yaradılışının səbəbi Allahdır. Allah istəməsə idi, dünyanı yaratmazdı.

Başqa bir mif mətnində də dünyanın yaradılışının mənşəyində Allahın durduğu göstərilir. Mifdə deyilir ki, dağları Allah-taala həzrətləri torpağa pərsəng yaradıb. Dağları yaradandan sonra yer kürəsi dayanıb öz səviyyəsində. Ona qədər silkələnirmiş, su da yayılırmış hər yerə... [3, s. 14].

Bu etioloji mifdə dünyanın indiki sabit vəziyyətinin səbəbləri izah olunub. Mifdən məlum olur ki, Allahın yaratdığı dünya silkələnir, su da hər yerə yayılırmış. Təbii ki, bu halda yer üzündə normal yaşayış ola bilməzdi. Allah yerin silkələnməsini durdurmaq üçün dağları pərsəng olaraq yaradır. Bundan sonra yerin silkələnməsi dayanmış və yer indiki səviyyəsində durmuşdur.

Əslində, burada iki yaradılış aktı var:

1. Dünyanın mühüm relyef ünsürlərindən olan dağların yaradılma səbəbi:
2. Dünyanın indiki vəziyyətinin necə yaranması.

Göründüyü kimi, Allah dağları pərsəng olaraq yaradıb. Mifin etioloji semantikası bu pərsəng elementi ilə sıx bağlıdır. Pərsəng – peyğəmbəri tərəzi adlanan tərəzilərin gözlərini bir-birinə bərabər etmək üçün işlədilən daşlara, yaxud başqa yüklərə deyilir. Peyğəmbəri tərəzi əllə çəkilən tərəzidir. Bu tərəzi, təqribən, bir metr uzunluğunda olan möhkəm bir ağacdan və onun iki tərəfindən iplə asılmış tərəzi qablarından (gözlərindən) ibarətdir. Tərəzinin gözləri bərabər səviyyədə durmayanda yüngül tərəfə, adətən, daşlardan ibarət yük qoyurlar ki, onlar bərabərləşsin. Həmin yüklər pərsəng adlanır. Buradan aydın olur ki, Allah yaratdığı varlıq aləminə ilahi tarazlıq verib. Yeri də bu tarazlığa uyğunlaşdırmaq üçün dağları pərsəng yaradıb. Buradan o nəticəyə gəlmək olar ki, Allah dünyanın, kainatın bütün ünsürlərini ölçü-biçi, nizam-intizam içərisində yaradıb.

Qeyd edək ki, mifin təhlilindən hasil olan bu məna, əslində, dünyanın mahiyyətini, yəni onun elementləri arasındakı münasibətləri ifadə edir. Buna görə təhlil etdiyimiz mif qısa və sadə məzmununa baxmayaraq, janr tipologiyasına görə kosmoqonik mif hesab oluna bilər. Lakin İslam dini kosmoqoniyasında Allahın dünyanı hansı isə tərəzi ilə çəkərək yaratmasına dair heç bir işarə yoxdur. Bu o deməkdir ki, mifdəki Allah obrazı İslam dininin qəbulundan sonra mətnə daxil edilib. İslamdan çox-çox əvvələ, ibtidai düşüncə dövrünə aid olan bu mifdə Allahın yerində, çox güman ki, ilk əcdad, yaxud onun başqa bir şəkli olan mədəni qəhrəman obrazı olub. Bu cəhətdən, təhlil etdiyimiz mif ilkin etioloji miflər qrupuna aiddir.

Təhlildən aydın olur ki, miflərdəki Allah obrazını heç vaxt İslamdakı Allah ilə eyniləşdirmək olmaz. Çox qədim tarixi köklərə malik etioloji miflərin islamlaşmasına dair bir örnəyə də diqqət verək. Mətndə deyilir ki, dünya titrəyib, bərqərar olmayıb. “Bismillahir-Rəhmanir-Rəhim” sözü “Quran”a yazılandan sonra bərqərar olub. Ondan sonra yerin titrəməsi dayanıb, yer üzünə insanlar gəlib [3, s. 14].

Bu mif yuxarıdakı miflə sıx bağlıdır. Yer üzünə insanların gəlməsi üçün yerin titrəməsi durmalı imiş. Onu Allah durdurur. Yerin titrəməsi “Quran”ın ilk sözü olan “Bizmillahir-Rəhmanir-Rəhim”in yazılması ilə dayanıb. Buradan aydın olur ki, yer üzündə indiki həyat “Quran”ın yaranması ilə başlanıb. Lakin bu mif bizə nə qədər islami təsir bağışlasa da, onun əsasında yerin və ondakı insanların yaranmasının səbəbləri haqqında etioloji mif durur. Çünki İslam dininin özündə belə bir mətn yoxdur və bu mif də əvvəlkilər kimi yaradılışın səbəbini ilkin yaradıcıya bağlayır.

Digər bir maraqlı mifə diqqət yetirək. Göylə uçan üç quşdan biri sual verir ki, bu dünya haqq dünyadır, yoxsa nahaq? Biri deyir ki, haqq dünyadır, o birisi deyir, nahaq dünyadır. Üçüncü quş isə deyir ki, nahaq dünyadır. Çünki dəryanın – dibi, qatırın – balası, göyün də – ucu yoxdur [1, s. 30].

Göründüyü kimi, bu mifdə dəryanın, yəni okeanların çox dərin olmasının, qatırın bala verməməsinin , göyün də intəhasız dərəcədə hüdudsuz olmasının səbəbləri izah olunur. Səbəb çox sadədir. Çünki Allah dünyanı belə yaradıb. Ancaq mətnin etioloji semantikası bununla məhdudlaşmır. Mətnin semantik strukturu iki

məna layına malikdir. Başqa sözlə, birinci məna layının altında başqa məna layı da var. Çünki mətndə İslam ideologiyasındakı "haqq dünya" və "nahaq dünya" anlayışlarından da söhbət gedir.

İslamda bu dünya nahaq dünya, o dünya haqq dünya hesab olunur. Burada haqq və nahaq dedikdə bu dünyanın fani olması, yəni müvəqqəti dünya olması, o biri dünyanın isə əbədi olması nəzərdə tutulur. Etioloji mif bu dünyanın nahaq dünya olmasını elə mifin məntiqinə uyğun izah edir. Yəni mifə görə, okeanların dibi görünsə idi, qatırın balası olsa idi, göylərin də sonu bilinsə idi, bu dünya kamil dünya olacaqdı. Məlum olur ki, mifin məntiqinə görə, bu dünya tam şəkildə, yəni mükəmməl yaradılmayıb, dərya, qatır və göylə bağlı daha üç yaradılışa ehtiyac var. Mifdən çıxan bu məna dünyanın mahiyyətinə işarə etdiyi üçün onu həm də kosmoqonik mif hesab etmək olar. Onsuz da kosmoqonik və etioloji miflər bir-biri ilə sıx bağlıdır və bəzən elə olur ki, eyni mif mətnini həm kosmoqonik, həm də etioloji mif kimi götürmək olar.

Bir qədər əvvəl qeyd etmişdik ki, dünyanın yaranması haqqındakı etioloji miflər sanki məzmunca bir-birini təkrarlasa da, müəyyən detallarla fərqlənir. Bu cəhətdən, indi nəzərdən keçirəcəyimiz mifin etioloji semantikası daha zəngindir. Mətndə deyilir ki, Yer ilə Gör bir-birinə çox yaxın imiş. Günlərin bir günü bir arvad çörək bişirirmiş. Bu vaxt uşağın burnu axır. İstəyir ki, çörəklə uşağın burnunu silsin. Göydən bir yaylıq düşür. Arvadın yaylığa heyifi gəlir. Çörəkdən bir az qopardıb uşağın burnunu silir. O vaxt göy qəzəblənir, yerdən çox-çox uzaqlaşır [2, s. 10].

Biz burada dünyanın iki vəziyyətini görürük:

1. Yer ilə Göyün bir-birinə yaxın olduğu ilkin vəziyyət;
2. Yer ilə Göyün bir-birindən uzaq olduğu indiki vəziyyət.

Mifdə dünyanın yaranması kosmos-xaos-kosmos sxeminə uyğun baş verir:

a) Yer ilə göyün bir-birinə yaxın olduğu vəziyyət dünyanın yaxşı çağı imiş (*kosmos vəziyyəti*).

b) Arvadın etdiyi pis hərəkətlə dünyanın nizamı pozulur (*kosmosun xaosla əvəz olunması*);

c) Göy qəzəblənərək yerdən uzaqlaşır və dünyanın indiki halı yaranır (*xaosdan yeni kosmosun yaranması*).

Mifdən aydın görünür ki, burada Yer və Göy obrazları Günəş və Ay haqqındakı miflərdə olduğu kimi canlı obrazlardır: necə ki, Göy qəzəblənərək yerdən uzaqlaşır. Q.Rabinoviç mifologiyada yer obrazı haqqında yazır: *"Yer – Od, Hava və Su ilə yanaşı, kainatın əsas ünsürlərindən biridir. İlahiləşdirilmiş Yer obrazının iştirakı etdiyi süjetlərin əhəmiyyətli hissəsi kosmoqonik miflərə aiddir və bu miflərdə ilkin ilahi cütlük olan Göy və Yerin ittifaqının kainatda həyatın əsasını qoymasından və həmin ittifaqdan yeni tanrıların yaranmasından danışılır"* [10, s. 466].

Bu mifdə Yerin sabit vəziyyətdə durduğunu, Göyün hərəkət etdiyini, yəni qəzəblənərək Yerdən uzaqlaşdığını görürük. Mifin məntiqinə görə, insanlar, o

cümlədən həmin qadın yerdə yaşadığına görə onların məsuliyyətini Yer daşıyır. Bu cəhətdən, Göy elə Yerə qəzəblənir.

Göyün bu fəallığı təsadüfi deyil. N.B.Braginskaya yazır: *"Mifologiyada göy kosmosun ən əhəmiyyətli hissəsidir. Göy – ilk növbədə əsas semantik oppozosiyalardan biri olan yuxarının mütləq təcəssümüdür"* [7, s. 206]. Gördüyümüz miflərdə yer və göyün bir yerdə olması təsadüfi deyildir. Q.A.Levinton yazır ki, *"mifologiyada kəbin motivlərinin bir neçə kateqoriyası var. Ən əsas kəbin mifi Yer və Göyün dünyanın yaradılışının əsasını qoyan nikahıdır"* [8, s. 423].

Yuxarıdakı mifin başqa bir variantında yuxa bişirən arvad ağır bayıra gedən uşağın yanını yuxa ilə silir. Yer-göy bir dəfə möhkəm şaqqıldayır, göy guruldayır və dünya indiki halına düşür [5, s. 14].

Dünyanın yaranması haqqında etioloji miflərin ümumi semantikasını aşağıdakı kimi səciyyələndirmək olar:

a) Bu miflərin bəziləri islami görüşlərə transformasiya olunmuşdur. Yaradıcı başlanğıc kimi Allahın adı çəkilir. Lakin miflərin təhlili göstərir ki, burada Allah obrazının İslamdakı Allahla yalnız ad bağlılığı var. Çünki miflərin məzmunu "Quran"la, İslam hədisləri ilə təsdiq olunmur. Həmin miflər İslam dinindən çox-çox qabaqkı ibtidai icma quruluşu ilə bağlıdır.

b) Miflərin bir qismində Allahın dünyanı necə yaratması təsvir olunur. Bu, dünyanın əsas elementlərinin ardıcıllıqla yaradılmasını nəql edən kosmoqonik prosesdir. Ancaq miflərin sadə quruluşa malik olması, kosmoqonik prosesdə mahiyyətin izahının mənşəyin izahına tabe olması onları etioloji miflər kimi səciyyələndirməyə imkan verir.

c) Mifləri bir qismi yer və göyün bir-birindən aralanmasını nəql edir. Burada dünyanın iki vəziyyəti öz əksini tapmışdır: göylə yerin bir-biri ilə yaxın olduğu əvvəlki vəziyyət və bir-birindən aralandıqdan sonrakı indiki vəziyyət. Əvvəlki vəziyyətdən indiki vəziyyətə keçid kosmos-xaos-kosmos ümumi yaradılış sxemi əsasında baş verir.

ç) Yer və Göy haqqındakı mifdə onlar Günəş və Ay haqqındakı etioloji miflərdə olduğu kimi qoşa təsvir olunurlar. Ay və Günəş, adətən, bacı-qardaş olduqları halda, bunların münasibətləri məlum deyil. Dünya mifologiyasında Yer və Göyün münasibəti "müqəddəs nikah" kimi təqdim olunur. Ancaq bizim burada təhlil etdiyimiz miflərdə onların nikahı barəsində heç bir bilgi yoxdur.

Ə D Ə B İ Y Y A T

1. Azərbaycan folkloru antologiyası. XII kitab. Zəngəzur folkloru / Topl. V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərt. ed. Ə.Əsgər, M.Kazımoğlu – Bakı: Səda, – 2005 – 463 s.

2. Azərbaycan folkloru antologiyası. XIII kitab. Şəki-Zaqatala folkloru / Tərt. ed. İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva – Bakı: Səda, – 2005 – 549 s.

3. Azərbaycan folkloru antologiyası. XVI kitab. Ağdaş folkloru / Topl. tərt. ed. İ.Rüstəmzadə – Bakı: Səda, – 2006. – 495 s.

4. Azərbaycan mifoloji mətnləri / Tərtib edəni, ön sözün və şərhlərin müəllifi A.Acalov. – Bakı, Elm, – 1988, – 196 s.

5. Qarabağ: folklor da bir tarixdir / VII kitab. Toplayıb tərtib edən L.Qaqifqızı (Süleymanova). – Bakı: "Zərdabi LTD" MMC, – 2014, – 444 s.

6. Аверинцев, С.С. Очерк «Вода» / Мифы народов мира. В 2-х томах. Том 1. – Москва: Советская энциклопедия, – 1980, – с. 240

7. Брагинская, Н.В. Небо / Мифы народов мира. В 2-х томах. Том 2. – Москва: Советская энциклопедия, – 1980, – с. 206-208

8. Левинтон, Г.А. Священный брак / Мифы народов мира. В 2-х томах. Том 2. – Москва: Советская энциклопедия, – 1980, – с. 422-423

9. Мелетинский, Е.М. Общее понятие мифа и мифологии / Мифологический словарь. Гл. ред. Е.М.Мелетинский. – Москва: Советская энциклопедия, – 1990, – с. 634-640

10. Рабинович, Е.Г. Земля // Мифы народов мира. В 2-х томах. Том 1. – Москва: Советская энциклопедия, – 1980, – с. 466-467

Narmin BABAYEVA

Myths on Creation of the World
Etiological semantics

(Summary)

Some of etiological myths on creation of the universe have been transformed to Islamic views. The name of Allah has been presented as creative beginning. However, analysis of myths showed that here the image of Allah had name relation with Allah in Islamic view. Because, content of myths had not been certified by "Koran", Islam. The said myths were related with primary community existed a far head of the religion of Islam. In some parts of myths, creation of universe by Allah were described. This is a cosmogonic process conveying sequence creation of main elements of the world. However, simple structure of myths, subordination to the explanation of source of essence explanation in cosmogonic process enable to classify them as etiological myths. Some of myths conveys the separation of the Earth and the sky. Here two kinds of situation of the universe have been presented: previous situation in which the Erath and the sky were close to each other and the present situation after their separation. Transition from the previous situation to the present has emerged based on cosmos-chaos-cosmos general creation scheme. The Earth and the Sky have been described in pairs in the myths regarding to them as they described in etiological myths. While moon and sun were siblings, their relations were always unknown. Relation between the Earth and the Sky has always

presented as “holy marriage” in world mythology. However, there is not any information on their marriage in the myths we analyze therein.
Key words: myth, mythology, etiologic myths, cosmogonic myths, creation of the world.

Нармин БАБАЕВА
МИФЫ О СОЗДАНИИ МИРА
ЭТИОЛОГИЧЕСКАЯ СЕМАНТИКА
(Резюме)

Некоторые из этиологических мифов о сотворении мира трансформировались в исламские взгляды. Бог упоминается как творческое начало. Однако анализ мифов показывает, что образ Бога здесь имеет лишь номинальную связь с Богом в исламе. Потому что содержание мифов не подтверждается Кораном или исламскими хадисами. Эти мифы связаны с примитивной структурой сообщества задолго до ислама. Некоторые мифы описывают, как Бог создал мир. Это космологический процесс, который передает последовательность основных элементов мира. Однако простая структура мифов, тот факт, что объяснение сущности в космологическом процессе подлежит объяснению происхождения, позволяет нам характеризовать их как этиологические мифы. Некоторые мифы передают разделение земли и неба. Он отражает два состояния мира: первое состояние, в котором небеса и земля близки друг к другу, и нынешнее состояние после отделения друг от друга. Переход от предыдущего состояния к настоящему происходит на основе общей схемы создания пространства-хаоса-пространства. В мифе о Земле и Небе они изображены парами, как и в этиологических мифах о Солнце и Луне. Хотя Луна и Солнце обычно братья, их отношения неизвестны. В мировой мифологии отношения между Землей и Небом представлены как «священный брак». Однако проанализированные нами мифы не содержат никакой информации об их браке.
Ключевые слова: миф, мифология, этиологические мифы, космогонические мифы, происхождение мира.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Prof.Dr. Seyfəddin Rzasoy tərəfindən çapa tövsiyə olunmuşdur

İMANOVA KƏMALƏ
ATU
Mərdanov qardaşları, 19
imanova_kemale@mail.ru

WORKPLACE ISSUES

SUMMARY

Workplace is typically an environment in which people with different personalities, communication styles, & worldviews interact. Workplace issues can lead to decreased performance & productivity, loss of job, decreased satisfaction, happiness, stress & wide variety of mental health, issues. Workplace issues can vary in terms of seriousness. They include a wide range of behavioral, environmental, cultural, relationship & performance issues. While everyone will react & respond defiantly to workplace issues. Some examples of the negative impact that inappropriate behavior or misconduct can have included:

- an impact on individuals involved, such as stress anxiety, panic attack, sleeping problems, loss of self-esteem & confidence, isolation, strain on relationships, absenteeism, reduced work performance & work dissatisfaction, impaired concentration or ability to make decisions & decreased productivity.
- an impact on the wider team, such as reduced team morale & increased tension at work.

  If the conflict is caused by a personality clash, the conflict will most likely continue unless attitudes & behaviors are changed.

Suggestions include:

- Accept that people are different
- Think about how much energy you are wasting in your dislike for the other person, & how you could invest that energy in more productive ways.
- Don't gossip or complain about person to others
- Try to be reasonable & polite, or at least neutral, to the other person.
- Work towards making your workplace a friendlier environment.

Key words: issue, gossip, bullying, harassment, job fit, employee, equality, staff, impact, promotion.

People spend nearly one third of their adult lives at work, & workplace issues are a common source of stress for many. It is impossible to have a workplace were everyone's roles, expectations, & personalities work perfectly together, without

conflict. As such, certain workplace issues may cause negative psychological symptoms.

Scientific researches show perceived stress in the workplace, for example, is associated with a higher prevalence of mental health issues such as depression & anxiety.

Common workplace issues that employees face include:

- Interpersonal conflict
- Communication problems
- Gossip
- Bullying
- Harassment
- Discrimination
- Low motivation & job satisfaction
- Performance issues
- Poor job fit.

The workplace is typically an environment in with people with different personalities, communication styles, & worldview interact. These differences lead to stress & tension. Though all employees have the right to be treated fairly & to feel safe in the workplace, some employees experience bullying, harassment & discrimination. Some employees may face dissatisfaction with their work, or have difficulty finding a job that fits their abilities & interests.

Some jobs involve a particularly high degree of stress. Work stress are prevalent in jobs with many demands & little control over working conditions. Such jobs as firefighter, airline pilot, military personal, police officer are especially stressful. Some jobs such as health care worker, teacher, social worker have been associated with increased levels of depression. Substance abuse are prevalent among employees who work in mining, construction & the food service. In addition to mental health symptoms, work – related stress can cause physical health problems, such as heart attacks, hypertension, pain & insomnia.

Whether it is employees, managers or the boss, the workplace can be filled with people who don't communicate well or they harass or discriminate others. There are also colleagues who are slackers, bullies, gossiper, troublemakers, whiners, complainers saboteurs, or backstabbers.

These can cause misunderstanding distrust, anxiety, & stress. They can also affect productivity, performance, mood, morale, reputations, & employee / management relationships. You can overcome this challenge by promoting equality & teamwork asking for & giving feedback, addressing negative attitudes & behaviors, so on. This will result in a happier, more collaborative & engaged workplace, which can lead to increased.

Employees often approach problems from the same perspective, & so as new issues arise, they risk not acknowledging them, or at least not recognizing them as problems and a business that won't recognize problems won't be able to solve them, hindering them from finding success. Business can overcome this challenge by being open to adopting new perspectives to help shift mindsets & see other points of view. You should also ask solution – driven questions. This way, you'll be able to recognize problem when they arise &, in turn your business can keep moving forward.

Everyone wants to be successful in their career & will do anything to get ahead. For example, they could cut corners, omit information, lie & steal, or deceive others. This practices destroy the trust between people & without trust, the business cannot complete effectively & it will fail.

Praise & promote behaviors that promotes working together, as opposed to working for yourself. This doesn't mean that all efforts need to be for only the team's benefit as a whole, but rather making sure that employees see the value of helping & building trust with each other. With trust between team members, your business can complete effectively & become successful.

Every members of your staff is capable of feeling motivated to do a great job at work. But it's important to remember that motivation is a two – way street. If you haven't tapped into what drives your employees, they may struggle with motivation & deliver average results. To encourage your team to do their best, you have to move past any communication problems & find out what makes them tick. Although you can ask them directly, distributing an anonymous survey tends to be a better way to get honest answers. Create a list factors, such as better pay & acknowledgement for great work, & ask your staff to put them in order of what motivates them. The work with your management team to develop a reward system that drives your team to work better & harder.

Requiring employees to be available at all hours of the day & rarely granting time off can quickly wear your staff out & cause their work to suffer. Instead, your employees need a healthy balance between work & home life to deliver their best performance at both. To establish a better work life balance, start by implementing a company culture that celebrates doing well at home & at work. Require your employees to respond to emails & texts during work hours only, & allow them to live their best lives & participate in family events to the fullest. Forcing your staff to work from 8 a.m. to 5 p.m. with no leeway can inspire high-stress levels, especially when employees could do better work with more flexibility. To add more flexibility to your employees' workday, consider letting your staff set their own schedules or even work remotely.

Providing your staff with insufficient training creates a quick path to frustration & burnout. Professionals can assess the skills your employees lack & devise development programs & training sessions to get them on track for success.

When your employees' work starts to suffer due to slow systems or malfunctioning equipment, their motivation & performance can take a nosedive. Instead of forcing your staff to engage in constant problem – solving to get around the lack of current technology, make a plan to invest in new systems & equipment.

A lack of promotion possibilities can cause your staff to get discouraged & demoralized, which can eventually reflect in their work. To give your employees the mobility they deserve, create a strategy for granting raises.

When you bring on new employees, you always hope they'll fit right in. However, when you hire a diverse workforce, your employees will have a range of backgrounds & perspectives that may have minimal common ground. These differences can easily boil over into interpersonal conflict, which can lead to victimization, bullying & harassment in the workplace.

Victimization is when someone is treated unfairly because they made or supported a complaint to do with a "protected characteristic", or someone thinks they did or might do.

Another type of workplace issues is bullying. Bullying is behavior from person or group that's unwanted & makes someone feel uncomfortable, including feeling:

- Frightened
- Less respected or put down
- Made fun of
- Upset

Examples of bullying in the workplace could include:

- Spreading a false rumor about someone
- Putting someone down in meetings
- Not allowing someone to go on training courses, but allowing everyone else to
- Giving someone a heavier workload them everyone else
- Excluding someone from team social events.

Sometimes bullying is classed as harassment, which is against the law.

By law harassment is when bullying or unwanted behavior is related to any of the following:

- Age
- Disability
- Gender reassignment
- Pregnancy & maternity
- Race
- Religion & belief
- Sex
- Sexual orientation.

As with bullying, the person being harassed might feel:

- Disrespected
- Frightened
- Humiliated
- Made fun of
- Offended
- Threatened

For it to count as harassment, the unwanted behavior must have either:

- Violated the person's dignity, whether it was intended or not
- Created a hostile environment for the person, whether it was intended or not.

Example: a group of people at work keep making offensive comments about a team member's age. This is making them feel humiliated & anxious about coming to work. This is likely to be harassment because of the team member's age. Discrimination is when someone's treated unfairly because of the following:

- Age
- Disability
- Marriage or civil partnership
- Pregnancy or maternity
- Race
- Religion or belief
- Sex
- Gender reassignment.

In every workplace you'll have difficult coworkers. Dealing with difficult coworkers, bosses, customers, clients, & friends is a skill worth perfecting. Difficult people are found in every single workplace. But, how difficult a person is for you to deal with depends a lot on such factors as your self-esteem, your self-confidence, how closely you must work with them on a daily basis, & your professional courage.

- Be calm
- Understand the person's intentions
- Get some perspectives from others
- Built a rapport (go out with them)
- Treat the person with respect.

Gossip is rampant in most workplaces. If often seems that people have nothing better to do than gossip about each other. They gossip about their coworkers, their managers, this company's prospects for success. They frequently take a partially true fact & blow it all out of proportion to its importance or intended meaning. Find out how dealing with difficult gossip is a must-do or a can-do. You can obliterate destructive gossip from your workplace.

Therapy may be useful to help resolve workplace issues in various ways. Therapy can effectively treat depression, anxiety, & other mental health symptoms that result from workplace issues. Therapist can also teach healthy coping skills that employees use to manage work-related stress & other issues.

For example, cognitive behavioral therapy helps people identity & change unhealthy thoughts which often results in improved mood & overall well-being. Mindfulness, meditation, other stress management techniques can be taught in psychotherapy. Therapy can also be useful for improving an individual's assertive communication skills, as well as other conflict resolution skills. These skills can then be applied in the workplace to improve one's experience at work. Vocational counseling can be useful for job fit, performance, & satisfaction. Vocational counselors help employees identity their specific skills & abilities in order to help then develop career goals & find jobs for which they are need suited.

As an employer, you should do all you can to try to prevent bullying, discrimination & victimization in the first place. Anyone harasses, victimizes or discriminates against someone at work is responsible for their own actions. But as an employer, you can be responsible too – this is called "vicarious liability". By law, you must do everything you reasonably can to protect staff from harassment, discrimination & victimization.

Taking workplace issues seriously can:

- Show you are working to make the workplace fair
- Give employees confidence to raise an issue
- Help stop & prevent unacceptable behaviors
- Prevent legal action.

ИМАНОВА КЯМАЛЯ

ПРОБЛЕМЫ НА РАБОТЕ
РЕЗЮМЕ

Все люди, которые занимаются трудом в той или иной форме, неизбежно сталкиваются с таким понятием как «проблемы на работе». Они возникают у каждого человека, даже у самого хорошего, ответственного и компетентного. С этим стоит смириться. Одной из частых проблем является взаимоотношение с коллегами. Бывает, что люди ненавидят свою работу, поскольку не вписались в коллектив. Если проблема заключается в натянутых отношениях с коллегами, тогда стоит потрудиться над улучшением климата межличностных взаимоотношений с сотрудниками. Ищите общие интересы помимо работы, хотя бы изредка проводите свободное время вместе, делайте коллегам приятные сюрпризы и говорите м искренние комплименты. Некоторые из наиболее распространенных проблем: сплетни, плохое обращение, отсутствие

мотивации, карьерный прогресс, межличностный конфликт, дискриминация. Здоровье вашего персонала должно быть вашим главным приоритетом. Что можно сделать для них?

1. Тренинг по управлению временем.
2. Короткий утренний брифинг, который позволяет каждому сотруднику обсудить свои приоритеты на день.
3. Предлагайте тихие зоны – многие люди не могут выполнять работу в шумной обстановке.
4. Заставьте сотрудников почувствовать их ценность – не забывайте о материальном и карьерном поощрении.

Ключевые слова:

Дела, сплетни, насилие, дискриминация, работодатель, служащий, самооценка.

IMANOVA KƏMALƏ

İŞ YERINDƏ PROBLEMLƏR

XULASƏ

İnsan nə gədər istedadlı olsa da, bir çox nailiyyətlərə imza tsa da, bəzi davranış modeli var ki, onu insanların gözündən sala bilər. Qəsdən və ya istəmədən həmkarlarınıza arxada zərbə vuranda iş yerində mübahisələrə səbəb olur. Çox vaxt insanlar problemlərini həll etmək üçün başqasını satmağa, zərbə altında qoymağa hazırdılar. Və hər şey ortaya çıxanda çox ciddi bir qarşıdurma yaranır. Başqası haqqında dedi-qodu yayan biri kənardan çox pis görünür. Kiminsə səhvini müzakirə etmək və ya onu qınamaq həmin insandan daha çox sizin haqqınızda mənfi rəy formalaşdırır. Kiminsə ideyasını oğurlamaq komandanıza və iş münasibətlərinə hörmətsizlikdir.

Ətrafdakılardan biri sizin xətrinizə dəyməyə çalışdıqda özünü alçaltmış olur. Əhval-ruhiyyənin aşaığı olması, yuxunun pozulması, mədə fəaliyyətinin pozulması, baş ağrısı, ailə üzvəri və dostları ilə münasibələrin pozulması stresslə bağlı problemlərdir. Işlə bağlı stressin əlamətlərini müəyyənləşdirmək adətən asandır. Sağlam təşkilatlarda işçilər arasında xəstələnmə halları daha az olur.

Açar sözlər: Biznes, dedi-qodu, zorakılıq, ayrı-seçkilik, işəgötürən, işçi, özünə hörmət.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur

SONAXANIM İMANOVA
Azərbaucan Texniki Universiteti
"Humanitar Fənnlər"kafedrasının baş müəllimi
H.Cavid pr.25
sonakhanum@com.ru

AZƏRBAYCANIN MEDİA SƏHİFƏLƏRİNDƏ AĞA MƏHƏMMƏD ŞAH QACARIN TARİXİ ŞƏXSİYYƏT KİMİ İŞIQLANDIRILMASI VƏ ONUN SƏFƏVİ İMPERİYASINI BƏRPA ETMƏK UĞRUNDA MÜBARİZƏSİ

XÜLASƏ

Qısa tərcümeyi-hal

Ağa Məhəmməd xan Qacar, 1742-ci ilin 26 oktyabrında Astarabadda doğulub. Ağa Məhəmməd xanın anası Ceyran xanım qacarların o biri boyundan çıxmış ən görkəmli şəxsiyyətlərdən olan Məhəmməd xan Dəvəlünün bacısı idi. Nadir şahın xələfi Adil şah qüdrətli qacar tayfasını öz tərəfinə çəkməkdən ötrü Məhəmməd Həsən xan Qacarı Məşhəddə, öz sarayında eşikağasıbaşı təyin edir. Ancaq müstəqil olmağa, rəhbərlik etməyə öyrəşmiş Qacar tezliklə şahla mübahisə edir və yenidən türkmənlərin yanına qaçır. Lakin onun kiçik yaşlı uşaqları Adil şahın əlinə keçir.

Gənclik illəri

Yürüşlərin birində atası on üç yaşlı oğlu Ağa Məhəmməd xanı da özü ilə götürür. Ona qabaqda gedən dəstənin rəhbərliyini tapşırır. Bundan sonra gənc Ağa atası ilə bütün yürüşlərə getməyə başlayır. Məhəmməd Həsən xan hətta bəzi vaxtlarda Azərbaycan və Astrabad idarəçiliyini də oğluna tapşırır. 1759-cu ildə Məhəmməd Həsən xan zəndlərlə döyüşlərin birində həlak olur və İran hakimiyyəti uğrunda mübarizə estafeti istər-istəməz onun böyük oğlu Ağa Məhəmməd xan Qacara keçir. Onun atasının nüfuzu olduqca yüksək idi, çıxışlar etmək üçün münbit şərait yaranmışdı və taxt-tac üçün Ağa Məhəmməddən yalnız yüksək şəxsi keyfiyyətlər tələb olunurdu. 1796–97-ci illərdə o Suşanı ələ keçirir Atasının ölümündən sonra Ağa Məhəmməd Türkmən düzünə qaçaraq, öz tayfasının cavan nümayəndələrindən və türkmənlərdən dəstə toplayır. Bundan sonra zəndlərlə partizan müharibəsinə qoşularaq, hətta Astrabadı tutmağa da çalışır. 1761–1762-ci ildə Kərim xan Zəndin 4 minlik qoşunu Ağa Məhəmmədin kiçik dəstəsini mühasirəyə alır. Ağa Məhəmməd xanın 500 süvarisi mühasirəni yarmaq qərarına gəlir. Döyüş bir gün davam edir. Ağa Məhəmməd xan başda olmaqla yalnız 10 gənc mühasirədən çıxa bilir. Ağa Məhəmməd xan 9 ağır yara almasına baxmayaraq döyüşün axırına qədər yəhər üstdə qalmaq üçün özündə güc-qüvvə tapır. Yorulmuş, ağır yaralar almış döyüşçülər Nəcəf yaxınlığında qarovul qoyaraq, yatmaq istəyirlər. Lakin Mazandaran hakiminin qoşunları onların üstünə gəlir. Ağa Məhəmməd oyanan

kimi müqavimət göstərmək istəsə də, artıq qüvvəsi onu tərk etmişdi. Onun əl-qolunu bağlayıb, Tehrana, Kərim xan Zəndin hüzuruna aparırlar. Kərim xan Zənd düz altı il Ağa Məhəmmədi girov, yaxud "fəxri qonaq" sifəti ilə öz yanında saxlayır.

Açar zözlər: müqavimət,müharibə,imperiya,Səfəvilər dövləti,Azərbaycan.

Onun şəhəri tərk etmək hüququ yox idi. Ağa Məhəmməd xan burada mədrəsəyə getməyə başlayır və sadə bir həyat keçirir. Onun oxuduğu mədrəsədə tanınmış ilahiyyatçı və filosof şeyx Əli Təcrimi dərs deyirdi. Ağa Məhəmməd hər səhər xoruz banından durur, fiziki hazırlıqla məşğul olur, mədrəsəyə gedərək, mühazirələrə qulaq asır, müzakirələrdə iştirak edir, öz yaxınları və həmyerliləri ilə daimi yazışmalar aparırdı. Ağa Məhəmməd xan ehtiraslı ov azarkeşi idi. O, xüsusilə şahinlərlə birlikdə tülkü ovuna çıxmağı çox sevirdi. Tutduğu tülküləri qonşularına və yaxınlarını hədiyyə edirdi. O vaxt belə hesab edirdilər ki, tülkü evə səadət gətirir. Kərim xan Zənd paytaxtı Şiraza köçürərkən Ağa Məhəmməd xanı da özü ilə aparır. İranın ən qədim təhsil mərkəzlərindən birinə düşən Ağa Məhəmməd təhsilini davam etdirir və bu sahədə böyük uğurlar qazanır. O, ilahiyyatı, fəlsəfəni, riyaziyyatı, astronomiya və astrologiyanı, poeziyanı öyrənir. Özünün fenomenal yaddaşına görə, Ağa Məhəmməd sonralar da Qurandan, fəlsəfi əsərlərdən iri sitatlar gətirir və hətta çox da məşhur olmayan şairlərin şerlərini əzbərdən deyirdi. Ədəbi məclislərdə onun böyük hörməti vardı, müxtəlif məsləhət və məlumatlar almaq üçün onun yanına gəlirdilər. Filosoflar arasında o, hamıdan artıq XII əsrin **əndəlus** alimi ibn-Tüfeylini sevirdi. Həmin filosofun yaradıcılığı ilə tanış olmaqdan Ağa Məhəmməd bütün ömrü boyu əl çəkməmişdi. Belə deyirlər ki, ibn-Tüfeylinin "Yəqzanın oğlu Həy" adlı fəlsəfi romanını həmişə, həm sarayda, həm də hərbi yürüşlər zamanı öz yanında gəzdirərmiş. O, həmişə bu kitaba istinad edər, daim buradan sitatlar gətirərmiş (1.s.161).

Ağa Məhəmməd bir gün öz həyatına hazırlanan qəsddən xəbər tutur və qardaşlarından,sadiq qulluqçularından ibarət kiçik bir dəstə ilə ov adı altında

Şirazdan Mazandarana qaçır.

Səksəninci illərin əvvəllərində o, qacarların liderliyi uğrunda qardaşı Rzaqulu xanla mübarizədə qalib gəlir və bütün Mazandaranı, habelə Astrabadı özünə tabe etdirir. Bu mübarizədə o biri qardaşları da ona yaxından köməklik göstərirlər. 1782-ci ildə Ağa Məhəmməd Astrabada gedir qardaşları və yaxın qohumları ilə birlikdə atası Məhəmməd Həsən xanın qəbrini ziyarət edir.

Zəndlərlə mübarizə.

Kərim xan Zənd öləndən sonra onun qohumları hakimiyyətə can atırdılar. Onların arasında gedən gərgin mübarizə bir il davam edir. Heç kim hakimiyyətdə duruş gətirə bilmir. Bundan istifadə eləyən Ağa Məhəmməd 500–600 nəfərlik bir dəstə ilə Mazandarandan çıxaraq, İsfahana hərəkət edir. 1785-ci ildə o, həmin şəhəri tutur, oradan Zənd hakimini qovur və bu tayfanın nümayəndələri üzərində qazanılmış bir neçə parlaq qələbədən sonra təqribən bütün Mərkəzi İranı azad edir. Həmin döyüşlərdə Ağa Məhəmməd xana qardaşı, istedadlı sərkərdə Cəfərqulu xan

Qacar böyük yardım göstərir. Bundan sonra Ağa Məhəmməd o zaman kiçik bir şəhərcik olah Tehranda iqamətgah salır və 1786-cı ilədə buranı yeni dövlətin paytaxtı elan edir. Elə həmin il o, özünü İran hökmdarı sayan Cəfər xan Zənd üzərində əsaslı bir qələbə qazanır. Qoşunu dağılmış Cəfər xan Şiraza qaçır və çox keçmədən orada sui-qəsd qurbanı olur. Bundan sonra Ağa Məhəmməd xan Gilanı tutur və öz qardaşı Mürtəzaqulu xan Qacarı Astrabad hakimi təyin edir. Lakin qardaşı ona dönük çıxaraq, zəndlərin tərəfinə keçir. Buradan da Talışa qaçır və II Yekaterinanın himayəsinə keçmək istəyir. Bir il sonra rus donanmasının köməyinə arxalanan Mürtəzaqulu xan Gilana dönsə də, Ağa Məhəmmədin böyük bir ordu ilə üzərinə gəldiyini eşidən kimi yenidən Rusiyaya qaçır. 1798-ci ildə o, Peterburqda ölür. 1795-ci ildə Gürcüstan yürüşündən sonra Ağa Məhəmməd xan Talış xanlığını Mürtəzaqulu xana kömək etdiklərinə görə cəzalandırır. Bu zaman Azərbaycan, Kürdüstan və Mərkəzi İranın (İraqi-əcəm) hökmdarları qacarların tərəfinə keçirlər. Artıq 90-cı illərin əvvəllərində az qala bütün İran Ağa Məhəmməd xanın tabeçiliyi altında idi. Onun idarəsi altına keçməkdən imtina edən türkmən yomudlar darmadağın olunur, öldürülənlərin kəllələrindən təpələr düzəldilir. Ağa Məhəmməd Kərim xana o qədər nifrət bəsləyirdi ki, onun cəsədinin qalıqlarını məzarından çıxarıb Tehranda, Gülüstan sarayının girəcəyində basdırtdırır.

Şahlığı

1791-ci ildə Ağa Məhəmməd özünü İran şahənşahı elan edir, lakin bu münasibətlə nəzərdə tutduğu təntənəli mərasimi bir qədər sonraya saxlayır. O, təcili surətdə mərkəzi hakimiyyətin möhkəmləndirilməsi istiqamətində ciddi tədbirlər görür, baş qaldıran xanları yatırır, ölkə daxilində iqtisadi və ticarət əlaqələrinin bərpa olunması üçün əlindən gələn hər şeyi edir. Lakin o, köklü inzibati-təsərrüfat islahatları keçirməyə vaxt tapmır. Qacarlarla zəndlər arasında son qanlı döyüş, 1794-cü ilin yayında Girman yaxınlığında baş verir və Ağa Məhəmmədin tam qələbəsi ilə nəticələnir. Bununla da Zəndlər nəslinin adı İran taxt-tacı tarixindən biryolluq silinir. Burada Ağa Məhəmməd şah gürcü çarı II İraklinin və Qarabağ xanı İbrahim Xəlilin Rusiya himayəsinə keçmək niyyətində olduqlarını eşidir. İbrahim Xəlilin sözsüz razılığı ilə İrakli Qacarların dədə-baba torpaqlarını – Qarabağ, İrəvan xanlıqlarını və Gəncəni rus çarına vermək istəyirdi. Gürcüstan çarının bu niyyətini Qacar, İranın tabeçiliyində olan bir şəxsin xəyanəti və Azərbaycan xanlıqlarının daxili işinə qarışmaq kimi qəbul edirdi. Üstəlik Qacar buna əsaslanırdı ki, bir neçə əsr qabaq onun tayfasından olan çox sayda adam bu yerlərə köçürülmüş və həmin torpaqların idarəçiliyində fəal iştirak etmişdi.

1795-ci ildə Ağa Məhəmməd şah Qacar özünün 60 minlik qoşununu Qafqaza yeridir. Qoşun üç yerə bölünür: kiçik bir hissəsi Dağıstan üzərinə keçmək üçün Muğana, əksər hissəsi Ağa Məhəmməd şahın öz başçılığı altında Şuşanı almaq məqsədilə Qarabağa, üçüncü dəstəsi isə şahın qardaşlarının rəhbərliyi altında İrəvan xanlığına doğru yollanır. Keçilməz Şuşa qalasını xüsusi

hazırlıq olmadan tutmaq mümkün deyildi və bunu anlayan Ağa Məhəmməd şah qoşunun ağzını Tiflisə tərəf döndərir. Onun dəstəsi güclü müqavimət görmədən İraklinin yaraqlılarını darmadağın edərək, Tiflisə girir. İrakli qaçıb dağlara çəkilir. 22 min dinc sakin qul və kəniz kimi satılır. Tiflis yağmalanıb, dağıdılır.

Qacarın dəstəsi Şuşanı mühasirəyə alarkən II İrakli Gəncəyə hücuma keçmişdi. Və görünür, Şuşanın mühasirəsinin belə tezliklə alınmasına və Tiflis üzərinə hücuma bunun da müəyyən təsiri olmuşdu. Gəncə xanı Cavad xan Ziyadoğlunun Ağa Məhəmmədə fəal köməklik köstərməsi də müəyyən dərəcədə Gəncə üzərinə talançı basqınların müqabilində II iraklidən hayıf çıxmaq məqsədi güdürdü. Tiflis alındıqdan sonra bir çox Azərbaycanin cənub xanliqlari Ağa Məhəmməd şaha tabe olduqlarını bildirir. Yalnız İrəvan və Qarabağ xanları onun tabeçiliyini qəbul etmirlər. 1796-cı ilin yayında Ağa Məhəmməd şahın qardaşlarının komandanlığı altında 20 minlik ordu İrəvana yaxınlaşır. Beş həftəlik mühasirədən sonra şəhər təslim olur və sülh bağlanır. Yürüşdən geri qayıdarkən Ağa Məhəmməd xan Muğan düzündə təntənəli tacqoyma mərasimi keçirir. Baxmayaraq ki, Nadirin tacqoyması da Azərbaycanın bu vilayətində keçmişdi, Qacar onun qoyduğu tacı başına qoymaq istəmir. Təzə tac dörd lələkdən k ibarət idi. Həmin dörd lələk İran, Hindistan, Əfqanıstan və Orta Asiya üzərində hökmranlığın rəmzi idi. Tacqoyma zamanı Ağa Məhəmmədə şah qılıncı da verirlər. Qılınc Ərdəbildən Şeyx Səfi kompleksindən gətirilmişdi. Görünür, bununla Ağa Məhəmmədin Səfəvi hakimiyyəti ilə varisliyi rəmzləşdirilmişdi. Qacar böyük Səfəvi imperiyasını bərpa etmək arzusu ilə yaşayırdı.

O, öz dövlətində Qacarlar boyundan olanların üstün mövqeyini hər cəhdilə göstərməyə çalışırdı. Qacar öz tayfasından başqa, hakimiyyət uğrunda mübarizəsində türkmənşəli Azərbaycan tayfaları olan Əfşarlar, Xələclər, Bayatlar və Qaragözlülərin köməyinə arxalanırdı. Ağa Məhəmməd şah taxt-tacını varisi Baba xana vəsiyyət edərkən demişdi:

"Bəylərbəyi Mirzə Məhəmməd xan Dovalu-Qacarın qızını taxtın səndən sonrakı varisi Abbas Mirzəyə alarsan. Onların oğluna mənim adımı verib, Məhəmməd Mirzə çağırarsınız. Bax, o öz qanında iki böyük Qacar sülaləsinin qanını daşıyacaq. Mənim dayım Süleyman xan dövlətimiz üçün çox işlər görüb. Öz qızını onun oğluna verərsən. Onların nigahından doğulan qızı isə Məhəmməd Mirzəyə alarsan. Beləliklə, Məhəmməd Mirzədən doğulan uşaqlar hər iki tərəfdən sənin nəvələrin olar." Buradan belə bir nəticə çıxarmaq mümkündür: Ağa Məhəmməd elə bir şahzadə istəyirdi ki, onun atası Kovanlu, anası Dovalu qacarlarından olsun. Buna görə də, sonralar Baba xanın (Fətəli şahın) varisi kimi onun gürcü qızından doğulmuş böyük oğlu yox, Abbas Mirzə seçilmişdi. Tacqoyma mərasimindən sonra Ağa Məhəmməd şah Nadir şah Əfşarın nəvəsi Şahruxun hökmranlıq etdiyi Xorasanı fəth edir. Xorasana gedərkən Ağa Məhəmməd yenə nəzarətdən çıxmış Astrabad türkmənlərini yatırır. O, 1796-cı ildə Məşhəd darvazalarına çatanda Şahrux özü təslimçilik nişanları ilə onun qarşısına çıxır. Lakin Ağa Məhəmməd bununla kifayətlənmir. O, Nadir şahın məşhur xəzinəsini almaq tələbi qoyur. Şahrux əvvəl

buna razılaşmır, lakin dəhşətli işkəncələrdən, bir qocanın başına əridilmiş qurğuşun tökəndən sonra o, Nadir şahın xəzinəsinin yerini nişan verir. Məlumdur ki, bütün müsəlman aləmində müqəddəs yer sayılan İmam Rza məscidinin sərvəti də həmin xəzinədə saxlanırdı. Üstündən çox keçməmiş Qacarın ağır işkəncələrə məruz qalmış bu sonuncu rəqibi də həyatla vidalaşır.

Rusların general V. A. Zubovun başçılığı altında Gürcüstana yürüşünə cavab olaraq, Ağa Məhəmməd 1797-ci ildə böyük bir qoşunla Qafqaza doğru irəliləyir. O, Gürcüstana yolun üstündə olan Şuşanı ələ keçirir. Qarabağ xanı İbrahim Xəlil xan Azərbaycanın şimalına qaçır. Lakin Gürcüstan yürüşü bu dəfə baş tutmur. Ağa Məhəmməd şahı onun öz qulluqçuları qətlə yetirirlər. Bir mülahizəyə görə, şaha qarşı sui-qəsdi digər Azərbaycan xanları və İranda yaşayan gürcülərlə birlikdə görkəmli dövlət xadimi, Qacarın bacarıqlı sərkərdələrindən biri Sadıq xan Şəqqaqi hazırlamışdır. Digər bir versiyaya görə isə burada əsas işi gürcü hakimlərinin əmrini yerinə yetirən Sadiq Qorci (Mesxetli Andrey) görüb. Təzkirəçilərin yazdıqlarına görə, Ağa Məhəmməd gecə ikən yatağında öz qulluqçuları, gürcü Sadıq Qorci, isfahanlı Xodadad və mazandaranlı Abbas tərəfindən öldürülüb. Şah bunları hansı günahlarına görə isə səhərisi gün öldürülməli imiş. Şahın oğurlanmış zinət şeyləri Sadıq xan Şəqqaqiyə verilib ki, bu da onun sui-qəsdlə əlaqəsini göstərir.

Saray tarixçisi bu hadisələrin finalını belə təsvir edir: "Elə ki, bu cəsarətli addım və mühüm hadisə vicdan əzabı çəkməyən dələduzlar tərəfindən cinayətkarcasına həyata keçirildi, onlar şah hakimiyyətinin əlamətləri olan çutqabağını və tacı ələ keçirdilər. Bunlar müqayisəyə gəlməz incilərlə bəzənmişdi və hər dənənin qiyməti yeddi iqlimin vergisinə bərabər idi. Bundan başqa həmin başkəsənlər şahın brilyant qolçağını, düşmənlərin kökünü kəsmiş, ziynət daşlarla bəzənmiş qılıncını, nadir əşyalar saxlanan sandıqçasını, həmçinin "Kuhi-nur", "Dəryayi-nur", "Taci-mah" adlanan brilyantlarını, hər biri dünyanın bir hökmdarına şərəf gətirəcək qədər gözəl illüstrasiyalarla bəzədilmiş nadir əlyazmalarını apardılar."

Qatillər qacar xanımları, o cümlədən Baba xanın anası və şahın xalası tərəfindən çarmıxa çəkdirildilər. Şahın cəsədi Məşhədə aparılır və orada dəfn olunur. Onun başını Balakənə İbrahim Xəlil xana göndərirlər, orada onu şərəflə məşhur adamların basdırıldığı qəbristanlıqda torpaqa tapşırırlar. Şahın qoşunları İrana qayıdır və Qacarın qohumu Baba xan Fətəli şah adı altında şah elan olunur.

Qacarın qətli, bu hadisə Azərbaycanın Rusiya tərəfindən işğalını sürətləndirdi .XVIII yüzillik xalqımızın tarixində qaranlıq səhifələrlə doludur. Belə ki, bu dövr tarixçilərimiz tərəfindən həmişə mübahisə predmetinə çevrilir. Maraqlıdır, həmin əsr yaddaşımıza necə işıq salır? Əvvəla, Nadir şahın öldürülməsindən sonra yaranan siyasi şəraitə nəzər yetirək. Bu zaman üç şəxs hakimiyyət uğrunda ölüm-dirim mübarizəsinə qoşulmuşdu. Bunlardan birincisi, Nadir şahın əmisi oğlu, Bütün fars vilayətləri onu dəstəkləyirdi. Üçüncü şəxs isə Qacar tayfasının başçısı olan Məhəmmədhəsən xan Qacar idi. Məhəmmədhəsən xan Qacar Mazandaran,

Gilan və Astrabadı tutmuşdu. Bu üç şəxs arasında hakimiyyət uğrunda gedən mübarizədə ilk mərhələlərdə məğlub olan tərəf Kərim xan Zənd olmuşdu. O, döyüş bölgələrindən qaçmaqla canını qurtara bilmişdi. Məhəmmədhəsən xan Qacar ömründə bir dəfə səhv etdi və bu səhvin də qurbanı oldu. Belə ki, 1759-cu ilin fevralında Kərim xan Zəndin üzərinə kiçik bir qüvvə ilə getdi və döyüşdə öldürüldü.

İstinadlar:

1. http://www.anl.az/down/meqale/xalqcebhesi/2013/yanvar/289496.htm
2. İbn Tüfeyli: "Yədzanın öğlu Həy" roman səh:161
3. Mirzə Adıgözəl bəy "Qarabağnamə"səh.57.
4. Əhməd bəy Cavanşir:"Qarabağ xanlığının siyasi vəziyyətinə dair"səh:126.

С.Иманова

ОСВЕЩЕНИЕ АГА МОХАММАД ШАХ ГАДЖАРА В СМИ АЗЕРБАЙДЖАНА КАК ИСТОРИЧЕСКАЯ ЛИЧНОСТЬ И ЕГО БОРЬБА ЗА ВОССТАНОВЛЕНИЕ САФАВИЧЕСКАЯ ИМПЕРИЯ

РЕЗЮМЕ

Величайшим примером самопожертвования, которое могло бы требоваться от такого человека, как Ага Мухаммед, было воздержание от мести за кровь своего отца, который был убит лидером соперничающего клана Каджаров; но он обладал мудростью, чтобы увидеть, что дом, разделённый против самого себя, не может устоять, и для того чтобы обеспечить искреннюю поддержку всего объединённого племени, он широко простил соперничавшее семейство и в течение своего правления продолжал использовать многих его членов на некоторых из самых высоких постов своего царства.

Это предусмотрительное поведение принесло отличные результаты; примеру, установленному Ага Мухаммедом в этом отношении, последовали его преемники, и на сегодняшний день (1864) армия Персии находится под командованием лидера верхнего клана Каджарского племени. Ага Мухаммед нашел Персию в состоянии анархии, и он видел, что только сильной рукой можно навести порядок в этой стране.

Первый Каджарский монарх был непомерно алчным, но деньги были для него в конце концов лишь инструментом. Рвение, которое он демонстрировал для того, чтобы стать обладателем всех драгоценных камней, которые раннее принадлежали короне, легко понять, поскольку обладание ими его наследником вероятнее всего привело бы к консолидации его власти.

Активность и упорство, продемонстрированные этим выдающимся человеком в течение его долгой карьеры, достойны заслуженной похвалы, и доказательство его дальновидности и мудрости можно обнаружить в факте, что царство, которое он передал своему наследнику, с тех пор сохранило свою

целостность под правлением Каджарских принцев; за исключением отдаленных провинций, завоёванных Россией, и маленького острова в Каспийском море, перешедшего во владение той же державы.

:Его личность была широко известна и её боялись. Алчность и мстительность были двумя его главными страстями, хотя он был способен подчинять обе первостепенной жажде власти.

Ключевые слова: сопротивление, война, империя, государство Сефевидов, Азербайджан.

S.Imanova

AGA MUHAMMAD SHAH GAJARIN IN THE MEDIA PAGES OF AZERBAIJAN ILLUSTRATION AS A HISTORICAL PERSONALITY AND ITS SAFAVI EMPIRE THE STRUGGLE TO RESTORE

SUMMARY

The greatest example of self-sacrifice that could be required of a man like Aga Muhammad was refraining from revenge for the blood of his father, who was killed by the leader of the rival Qajar clan; but he had the wisdom to see that a house divided against itself could not stand, and in order to secure the sincere support of the entire united tribe, he widely forgave the rival family and continued to use many of its members on some of the most high offices of their kingdom.

This forward-looking behavior has produced excellent results; the example set by Aga Muhammad in this regard was followed by his successors, and today (1864) the army of Persia is under the command of the leader of the upper clan of the Qajar tribe. Agha Muhammad found Persia in a state of anarchy, and he saw that only a strong hand could bring order to this country. The first Qajar monarch was excessively greedy, but money was in the end only a tool for him. The zeal that he displayed to become the owner of all the gems that previously belonged to the crown is easy to understand, as possession of them by his heir would most likely lead to the consolidation of his power. The vigor and tenacity shown by this distinguished man during his long career is commendable, and proof of his foresight and wisdom can be found in the fact that the kingdom he passed on to his heir has since retained its integrity under the rule of the Qajar princes; with the exception of the remote provinces conquered by Russia, and a small island in the Caspian Sea, which passed into the possession of the same state ”.

Key words: resistance, war, empire, Safavid state, Azerbaijan

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Pedağoji elmlər namizədi,professor Tamilla Hüseynova tərəfindən çapa tövsiyə edilmişdir.

QULİYEVA NAZİLƏ ƏLİ QIZI
nazilequliyeva539@gmail.com
Beyləqan şəhər 4 nömrəli
M.Əsədov küç 3.
tam orta məktəbin müəllimi

ŞİFAHİ ƏDƏBİYYATIMIZDA XALQ HİKMƏTİ

Xülasə

Hər bir xalqın folklor yaradıcılığı onun təfəkkürünün, bədii düşüncəsinin formalaşma tarixinin göstəricisidir. Şifahi ədəbiyyatımızın tarixinə nəzər salsaq görərik ki, ən qədim örnəklərimiz yüz min illər bundan öncənin arxaik dövrlərinə aiddir. İlk zamanlar mifoloji düşüncədən qaynaqlanan folklorumuz, zaman keçdikcə təkmilləşmiş, müxtəlif tarixi dövrlərdə yeni düşüncənin məhsulu olaraq formalaşmış, nəsildən-nəslə ötürülərək bü günümüzə qədər gəlib çatmışdır.

Azərbaycan xalqının folklor yaradıcılığı janr etibarilə zəngin, əhatə etdiyi mövzu və mündəricə baxımından isə rəngarəndir. Qərinələr boyu məkanı xalqımızın sinəsi olan, dildən-dilə, ağızdan-ağıza keçsə də, öz təravətini itirməyən şifahi ədəbiyyatımız, eyni zamanda milli-mənəvi dəyərlərimizin məxəzi kimi də qiymətlidir.

Lirik növün nəğmə janrlarından olan əmək nəğmələri,sayaçı sözləri, holavarlar, bayatılar; epik növün janrlarından olan atalar sözü və məsəllər, rəvayətlər, əfsanələr, dastanlar və s. janrların bətnində xalqımızın bəşər tarixi boyunca qazanmış olduğu mənəvi dəyərlər öz təcəssümünü tapmışdır.

Açar sözlər: Azərbaycan ədəbiyyatı, şifahi ədəbiyyat, xalq hikməti, ağız ədəbiyyatı, mənəvi tərbiyə,qanadlı sözlər, atalar sözü və məsəllər

Şifahi xalq ədəbiyyatının ən yığcam janrlarında olan atalar sözü və məsəllər təlim-tərbiyə nöqteyi-nəzərindən olduqca qiymətli materiallardır. Tərbiyənin əsasını təşkil edən bütün cəhətlər (vətənpərvərlik, əməyə məhəbbət, kollektivçilik, mübarizlik, sədaqət, böyüklərə hörmət, elmə, biliyə həvəs və s.) üçün yüzlərlə atalar sözləri vardır. Atalar sözləri və məsəllərin çoxu zəhmətkeş xalq tərəfindən yaradılmışdır. Buna görə də onlarda xalqın keçmişindəki ağır əməyi və yoxsulluğu haqqında daha çox danışılır, hakim siniflərə, istismarçılara qarşı dərin nifrət və etiraz ifadə edilir.

Azərbaycan şifahi xalq ədəbiyyatının ən qədim və zəngin bədii nümüunələrindən biri atalar sözləri və məsəllərdir. Atalar sözləri və məsəllər danışıqda çox az işlənən qısa, dərin mənalı və bitkin ifadələrdir. Bunlar xalq müdrikliyinin, xalq zəkasının, xalqın həyat təcrübəsi, dünyabaxışının bədii ifadəsidir.

“Cild-cild kitablar dolusu məna və hikməti özünə sığdıran bu el yaradıcılığı nümunələri bitirən, yetirən, gətirən el dühasının və sağlam xalq fəlsəfəsinin narın

zərrələridir. Obrazlı təfəkkürün aforizm şəklində ifadəsi olmaq etibarilə atalar sözləri milli təfəkkürdəki cilalanmış tarixi təcrübəni, dərin və sanballı həyat həqiqətlərini bədii idrak və təxəyyülün süzgəcindən keçirərək yaşadır, onları tükənməz bir enerjiylə dolğun əks etdirir.

Ulu babaların müdriklik dəfinəsinin birər hikmət inciləri və fikir cövlərləri olan atalar sözləri, el məsəlləridir ki, obrazlı təfəkkürün qida mənbəyi kimi zehinlərə təpər verir." (1, 4)

Azərbaycan dilinin aydınlığı, qısa, yığcam şəkildə dərin məna ifadə etmək kimi özünəməxsus xüsusiyyətləri məhz atalar sözlərində daha bariz şəkildə əks olunub. "Başqa janrlar kimi, atalar sözləri də müxtəlif dövrlərdə, müxtəlif şəraitdə yaranmışdır. Buna görə də o, müxtəlif təbəqələrin dünyagörüşünü, həyat təcrübəsini və arzusunu ifadə etmişdir. Məhz bu xüsusiyyətinə görə atalar sözü və məsəllərə ruslar ibrətamiz söz, qanadlı söz, qızıl söz; yunanlar və romalılar hakim fikirlər; italyanlar xalq məktəbi, ispanlar ruhun təbiəti; ingilislər və fransızlar təcrübənin barı və s. adlar vermişlər". (4,72)

Atalar sözü və məsəllər bir-birinə çox yaxındır. Bunları bir-birindən ayırmaq çox vaxt çətin olur. Lakin onların hər birinin özünəməxsus cəhəti fərqləndirilməsinə kömək olur. Bəzi tədqiqatçılar bu fikirləri onların qrammatik quruluşunda görmüş, bəziləri həcmcə kiçik və böyük olmalarını qeyd etmişlər. "K. D. Uşinski, M. A. Rıbnikova kimi məşhur pedaqoq və metodistlərin, İ. V. Dal, F. J. Buslayev və Q. Sokolov kimi məşhur rus alim və folklorşunasların fikrincə məsəllərdə atalar sözündəki kimi dərin, hikmətli fikirlər vardır, lakin bu hələ bitməmiş, püxtələşməmiş, kamilləşməmişdir. Xalq ifadəsi ilə desək, məsəllər hələ "çiçək" olduğu halda, atalar sözləri meyvədir. Məsələn: "aranda tutdan, dağda quruddan" ifadəsi məsəl, "Aranda tutdan olduq, dağda quruddan" ifadəsi isə atalar sözüdür. Yaxud, "Elə bil tünd sirkədir" ifadəsi məsəl, "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" isə atalar sözüdür".

Atalar sözü və məsəllərdən uşaqların əxlaq, əmək, əqli, estetik və s. tərbiyəsi işində geniş istifadə olunur. Belə ki, atalar sözü və məsəllər təsərrüfatın, həyatın, məişətin bütün sahələrini əhatə edir, insanlara mənsub olduqları ailəni, xalqı, dövləti sevməyi, mənəvi cəhətdən zəngin olmağı öyrədir.

Məlumdur ki, əxlaqi və mənəvi tərbiyənin mühüm tərkib hisslərindən biri vətənpərvərlikdir. İndiki dövrdə uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsi olduqca mühüm vəzifədir. Əsrlər boyu yadellilər tərəfindən parçalanmış, işğal edilmiş torpaqlarımız bu gün də düşmən tapdağı altındadır. İşğal olunmuş ərazilərimiz, şəhid, yaralı və əlillər, milyondan artıq qaçqın və köçgünlərimiz, dağıdılmış dünya əhəmiyyətli tarixi abidələrimiz doğma vətəninə bağlılıq tərbiyəsini həmişəkindən daha artıq zəruri edir. Vətənpərvərlik təkcə Vətəni sevməklə bitmir. Əsl vətənpərvərlik Vətəni yadellilərdən qorumaq, bu yolda savaşmaq və mübarizə aparmaqdır. Atalar sözü və məsəllər uşaqlarda xalqa, torpağa, elinə-obasına məhəbbət hisləri aşılayır, vətənin qədrini bilməyi, düşmənə

baş əyməməyi öyrədir: “Vətən viranə də olsa, cənnətdir”, “Vətən elin evidir”, “Vətənə gəldim, imana gəldim”, “Vətənə məhəbbət imandandır”, “Vətənin bir qışı qürbətin min baharından yaxşıdır” və s.

Məlum olduğu kimi, hələ XIX əsrin ortalarından başlayaraq ibtidai məktəbin ana dili və qiraət kitablarında atalar sözü və məsəllərə geniş yer verilmişdir. Onu da qeyd etməliyik ki, hətta atalar sözü və məsəllər hələ sistemli şəkildə toplanana qədər çox qədim zamanlardan başlayaraq yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin diqqətini cəlb etmişdir. Nizami, Xaqani, Xətai, Füzuli və başqa sənətkarların əsərlərində bu və ya digər dərəcədə külli miqdarda Azərbaycan atalar sözü və məsəlləri işlənmişdir. Eləcə də bir sıra klassik yazıçılarımız öz əsərlərinin adlarını atalar sözləri və məsəllərdən götürmüşlər. Məsələn: N. Vəzirovun “Arxadan atılan daş topuğa dəyər”, “Sonrakı peşmançılıq fayda verməz”, “Adı var, özü yox”, “Yağışdan çıxdıq, yağmura düşdük”; Ə. Haqverdiyevin “Yeyərsən qaz ətini, görərsən ləzzətini”; R. Əfəndiyevin “Qonşu qonşu olsa, kor qız ərə gedər” və s.

Şifahi xalq ədəbiyyatının ən yığcam janrlarından olan atalar sözü və məsəllər təlim-tərbiyə nöqteyi-nəzərindən olduqca qiymətli materiallardır. Tərbiyənin əsasını təşkil edən bütün cəhətlər (vətənpərvərlik, əməyə məhəbbət, kollektivçilik, mübarizlik, sədaqət, böyüklərə hörmət, elmə, biliyə həvəs və s.) üçün yüzlərlə atalar sözləri vardır. Atalar sözləri və məsəllərin çoxu zəhmətkeş xalq tərəfindən yaradılmışdır. Buna görə də onlarda xalqın keçmişindəki ağır əməyi və yoxsulluğu haqqında daha çox danışılır, hakim siniflərə, istismarçılara qarşı dərin nifrət və etiraz ifadə edilir. Məsələn: "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Bəylə bostan əkənin tağı çiynində bitər".

Şifahi xalq ədəbiyyatının başqa növlərində olduğu kimi, atalar sözləri və məsəllərdə də xalq öz düşmənlərini çox zaman ilan, əjdaha, qurd sifətində göstərmişdir: "İlanın ağına da lənət, qarasına da".

Atalar sözləri və məsəllərdə namərdlik, ikiüzlülük, hiyləgərlik, paxıllıq, tamahkarlıq, xəsislik kimi murdar-pis sifətlər pislənir, mərdlik, doğruçuluq, igidlik tərifənir:

"Tazıya tut deyir, dovşana qaç", "Artıq tamah baş yarar, Daş qayıdar baş yarar", "İgid basdığını kəsməz", "Əmanətə xəyanət yoxdur", "İgid ölər adı qalar, müxənnətin nəyi qalar?" və s.(2, 85)

Qeyd etdiyimiz kimi, atalar sözləri ilə məsəllər bir-birinə oxşayır. Çox zaman bunları bir-birindən seçmək çətin olur. Lakin atalar sözləri ilə məsəllər arasındakı əsas fərq ondan ibarətdir ki, atalar sözləri bitmiş bir fikir ifadə edir, tərbiyəvi-əxlaqi nəticə verən bir cümlə və ya hökm şəklində olur.

Aşıq qoşmaları, bayatılar və lətifələrindən də atalar sözləri sırasına keçmiş misra və cümlələr vardır. Məsələn: XI əsrin yadigarı olan "Kitabi-Dədə Qorqud" dastanlarından da atalar sözlərinin nümunələri vardır:

"Kül təpəcik olmaz"; "Əski pambıq bez olmaz"; "Ölən adam dirilməz"; "Qarı düşmən dost olmaz"; "Çıxan can geri gəlməz"; "Yer qatı, göy iraq". (3, 26)

Böyük sənətkarlar öz əsərlərinin çox zaman xalq yaradıcılığından istifadə edərək zənginləşirlər. Atalar sözlərindən yazıçılar fikri yığcam, mənalı ifadə etmək bacarığını öyrənirlər. Nizami Gəncəvi öz əsərlərində dastan və nağıllarımızdan çox istifadə etmişdir. Onun əsərlərində yüzlərcə atalar sözləri vardır. Nizaminin əsərlərində aşağıdakı atalar sözlərinə rast gəlmək olar:

"Özgəsinə quyu qazan özü düşər"; "Əyri oturaq, düz danışaq"; "İsinmədim istisinə, kor oldum tüstüsünə"; "Pişik balasını istədiyindən yeyər"; "Heç kəs öz ayranına turş deməz". (2, 88)

Atalar sözləri müxtəlif yerlərdə, müxtəlif zamanlarda yaranıb ağızlarda dolaşdığı üçün hər kəs onu bir cür söyləyir, danışıq zamanı öz sözünü qüvvətləndirmək üçün ondan məqsədə uyğun şəkildə istifadə edir.

Atalar sözləri və məsəllərin yaranması və inkişafı bu gün də davam etməkdədir. ümumtəhsil məktəblərinin aşağı siniflərində əmək, zəhmət, böyüklərə, eləcə də şikəstlərə hörmət, düzgünlük, təmizlik, doğruçu olmaq və s. kimi müsbət xüsusiyyətlər öyrədilirsə, yuxarı siniflərdə bu iş daha da mürəkkəbləşir. Burada atalar sözlərinin mənşəyi, bədii xüsusiyyətləri və s. haqqında verilən məlumat canlı misallarla əyaniləşdirilməli və gənclərin özləri də fəal işə cəlb olunmalıdır.

Əgər diqqət etsək görərik ki, bəzi atalar sözü və məsəllərdə xalqın din nümayəndələrinə münasibəti necə aydınlaşır. Xalqı çapıb talayan, şəriət pərdəsi altında iyrənc işlər görən fırıldaqçı mollalar, seyidlər kəsgin tənqid atəşinə tutulur. Məsələn: "Mollanın qarnı beşdir, həmişə biri boşdur", "Aşığınkı haynan, mollanınkı vaynan", "Molla çörəyi, ilan ayağı görünməz", "Mola xana qoşuldu, xalqın evi yıxıldı", "Aşı mollanın, başı mollanın, altıdan da beşi mollanın", "Mola halvanı gördü, Quranı unutdu", "Molanın evi o vaxt yıxılır ki, iki yerə qonaq çağırırlar" və s. (2, 90)

Atalar sözləri və məsəllərdə biz xalqın əməyə, zəhmətə, namusla işləməyə böyük səy və həvəsinin ifadə olunduğunu görürük. Məsələn: "İşləməyən dişləməz", "İş adamın cövhəridir", "Əldən qalan əlli il qalar", "Zəhmət çəkməyən bal yeməz", "Könlü balıq istəyən ayağını suya salar", "El gücü, sel gücü", "Cəfa çəkməsən, səfa görməzsən" və s.(2, 87)

Vətənə məhəbbət mövzusu da Azərbaycan atalar sözlərində mühüm yer tutur. Məsələn: "Vətənə gəldim, imana gəldim", "Hər kəsə öz vətəni əzizdir", "Doğma yurd şirin olar", "Vətən viranə olsa, yenə cənnətdir", "Qürbət cənnət olsa da, yenə vətən yaxşıdır" və s.

Atalar sözlərində dostluq, qardaşlıq, mehribanlıq kimi gözəl keyfiyyətlər təbliğ olunur: "Duz çörək, düz çörək", "Bir görən yoldaş, iki görən qardaş", "Tikə ilə dost olan aylarla küsülü olar", "Dil var bal gətirər, dil var bəla", "Dost yaman gündə tanınar", "Köhnə dost düşmən olmaz", "Dost yolunda boran olar, qar olar", "Dost gəlişi bayram olar", "Dost min isə azdır, düşmən bir isə çoxdur" və s. (2, 92)

Atalar sözlərinin böyük əksəriyyəti həyatı təcrübəyə əsaslanan əxlaqi-tərbiyəvi nümunələrdir. Bunlar əsrlər boyu pis, yaxud yaxşı işlər görülərkən

çıxarılan nəticələrdir. Atalar sözlərində nadanlıq, paxıllıq, xəyanət, ikiüzlülük, qorxaqlıq pislənir, elmə, sənətə, vətənə və anaya məhəbbət, dostluq, humanizm kimi gözəl insani keyfiyyətlər isə təbliğ edilir: "Elm ağılın çırağıdır", "Savadsız adam kor kimidir", "Sənət insanın xəzinəsidir", "Bir ağıllı baş, min baş saxlar", "Uşaq əziz, tərbiyəsi ondan əziz", "Ağıl yaşda deyil, başdadır", "Tək əldən səs çıxmaz", "Yüz ölç, bir biç", "Hər şeyin təzəsi, dostun köhnəsi", "Anlayana qul ol, anlamayana ağa olma", "Acıqlı başqa ağıl olmaz" və s. Bu tipli atalar sözləri üzərində gəncləri düşündürmək, xalqın yaratdığı bu ağıllı sözlərdən düzgün nəticə çıxarmağa onları alışdırmaq lazımdır. Eyni zamanda bilavasitə məktəb həyatı, gənc nəslin tərbiyəvi təlimi ilə əlaqədar olan atalar sözlərinin üzərində aparılan planlı iş gənclərin daha ədəbli, daha nəzakətli, ataya-anaya və ümumiyyətlə, böyüklərə qarşı daha mehriban olmalarına, pis adamlardan uzaq olmalarına, yalan danışmamalarına, daha səylə oxumalarına səbəb olar.

Azərbaycan xalqı həmişə qonaqpərvərliyi, xeyirxahlığı, humanizmi, əməksevərliyi, halallığı ilə seçilmiş, qəhrəmanlığı, vətənpərvərliyi və mübarizə əzmi ilə seçilən ər oğullarının adını dastanlara həkk etmiş, tarixdə silinməz izlər qoymuşdur. Xalqımızın yaratdığı folklor nümunələrində də yuxarıda sadalanan mənəvi keyfiyyətlər öz əksini tapmış, bir növ tərbiyə örnəyi kimi ulu əcdadlarımızdan gələcək nəsillərə miras olaraq qalmışdır. Ata-babalarımız insanlara, köməyə ehtiyacı olanlara əl tutmağı, yardım etməyi, yetimlərin, kimsəsizlərin qayğısına qalmağı, onların haqqını qorumağı, müdafiə etməyi öyrətmişlər:

“Yetimə öyüd verən çox olar, çörək verən az”, “Yetim malı oddan yaman yandırar”, “Əl tutanın əlindən tutarlar” və s.

Folklorumuzun epik üslubunun janrlarından olan atalar sözü və məsəllər xalqımızın mənəvi aləminin təkamülündə böyük əhəmiyyət kəsb etmişdir. Atalar sözü və məsəlləri ilk dəfə (1899-cu ildə) toplu kimi M. Qəmərlinski çap etdirmişdir. Sonralar isə maarifçi pedaqoqlarımız – F. Köçərli, A. O. Çernyayevski, R. Əfəndiyev, A. Şaiq və başqalarının bu sahədəki fəaliyyəti diqqətəlayiqdir.

“Atalar sözü və məsəllərin işlənmə mexanizmi, məzmunundakı məntiqilik onun hamı tərəfindən başa düşülməsində, daha çox təkrar olunmasında və qəbul edilməsində, yaddaşlardan keçərək toplum üçün işlək formaya çevrilməsində təsdiqini tapır. Belə bir müdrik kəlam var: söz dildən doymur, dil sözdən. Bu ifadə atalar sözü və məsəllərin formulunu ifadə edir”. (7,87)

Diqqət etsək görərik ki, dilimizdə atalar sözü və məsəllər olaraq daşlaşmış ifadələr insanların məsləhət yeri, inancı və az qala etiqadına çevrilmişdir. Məsələn: “Acıqlı başda ağıl olmaz”, “Yorğanına bax, ayağını uzat” (5,160), “Çox yemək insanı az yeməkdən də qoyar!”, “Duz-çörək, düz çörək!” (5,162) və s. ifadələr insanları əməlisalehliyə, nəfsinə hakim olmağa, təkəbbürlü olmaqdansa sadəliyə və mehribanlığa, mənəvi kamilliyə çağıran qiymətli nəsihətlərdir.

Azərbaycan xalqı daim yüksək mənəvi dəyərlərin daşıyıcısı olmuşdur. Əlbəttə ki, bir xalqın ata sözü və məsəli, həmin xalqın genetik xüsusiyyətlərinin bir növ açarıdır. Məhz bu açar sayəsində xalqımızın hansı mənəvi keyfiyyətlərə malik olmasını müəyyənləşdirmək o qədər də çətin məsələ deyildir. Əgər atalar sözü və məsəllərimizin məzmununa, mövzusuna və ideyasına diqqət etsək görərik ki, bu təsnifatda ən ali insani xüsusiyyətlərdən olan düzlük, doğruçuluq ("Doğru yolla gedən yorulmaz", "Yalan ayaq tutar, yeriməz!", "Yalan üz qaraldar" və s.) (5,156); sədaqət, dostluq, məhəbbət, vəfadarlıq ("Dost arası pak gərək!", "Tikə ilə dost olanlar, illər ilə küsülü qalar" və s.) (5, 157); insanda yaxşılıq, səxavətlilik, ədalət, mərdlik ("Yaxşılıq et at dəryaya, balıq bilməsə, xaliq bilər", "Pisliyi torpağa əkdilər, göyərmədi!", "Qanı qan ilə yumazlar", "Mərd əli kasad olmaz" və s.) (5,158); əməyə məhəbbət ("Əmək xoşbəxtliyin açarıdır", "Əməyə hörmət et ki, hörmətini artırsın" və s.) (6, 332); Vətənə məhəbbət ("Vətənə gəldim, imana gəldim", "Qürbət eldən Vətən olmaz!", "Qəribi vurmuşlar, vay, Vətən demiş" və s.) (5,154); etibarlılıq, müdriklik ("Ağıl yaşda deyil, başdadır", "Bilik ağlın aynasıdır", "Ağıllı düşmən nadan dostdan yaxşıdır" və s.) (5, 155); insaf, qonaqpərvərlik ("İnsaf dinin yarısıdır", "Varını verən utanmaz", "Qonaq süfrənin yaraşığıdır", "Qənaət tükənməz dövlətdir") (6, 194) və digər yüksək mənəvi keyfiyyətlərin aşılanması üçün xalqımızın tükənməz söz xəzinəsi olan ata sözümüz geniş məna tutumuna və təsir dairəsinə malikdir.

Şəxsiyyətin formalaşmasında əmək fəaliyyətinin əsas göstərici olduğu haqqında dəyərli fikirlər böyük mütəfəkkirlərimizin yaradıcılığında da öz əksini tapır. Lakin bu mövzuda ən gözəl nümunələrə yenə də şifahi xalq ədəbiyyatında rast gəlirik.

Əməyi daim yüksək qiymətləndirən ata-babalarımız söyləmişlər ki, halal əmək insanlarda ən yüksək əxlaqi keyfiyyətləri formalaşdırır, tüfeyli həyat sürmək isə mənfi əxlaqi sifətlər yaradır. İnsan əməyi sevməli, onun faydalı və zəruri olduğunu başa düşməlidir. Əmək insanın həm fiziki, həm də mənəvi inkişafı üçün əhəmiyyətlidir. Uşaqları lap erkən yaşdan əməyə alışdırmaq, onlara asan qazanılan malın bərəkətinin olmadığını, bunun günah olduduğunu izah etmək lazımdır.

Mövzu muxtəlifliyi ilə yanaşı bitmiş fikir, ümumiləşdirmə və nəticə atalar sözlərinə xas olan cəhətlərdir. Atalar sözləri xalqın həyatda sınanmış, müdrik və nəsihətli fikirlərindən ibarət olur və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Əsas xüsusiyyəti həcmcə kiçikliyi, lakin mənaca hikmətli və nəsihətli olmasıdır. Atalar sözləri bitkin fikir ifadə edir, həm həqiqi, həm də məcazi mənada işlənir.

"Həyatın bütün sahələrini əhatə etmək və sınaqdan keçirmək sayəsində əldə edilən qənaətləri bədii-fəlsəfi ümumiləşdirmələr yolu ilə ifadə edən yığcam əxlaqi-tərbiyəvi əsər" (8, 20) olan ata sözü və məsəllər xalqımızın həyata baxışını, təcrübədə əldə etdiyi nəticələrin həyat dərsi olaraq gələcək nəsillərə çatdırılmasında, həmçinin mənəvi tərbiyənin yüksəlişində müstəsna əhəmiyyətə malikdir.

Hazırkı cəmiyyətimizdə gənclərin avropalılaşmaq meyli, Qərb mədəniyyətinə olan maraqları haqlı narahatlıq doğurur. Əlbəttə, yenilik lazımdır. Ancaq bu yenilik mənəviyyatımızın sarsılmasına, yad əxlaq normalarının milli əxlaq normalarımızı sıxışdırmasına gətirib çıxarmamalıdır. Unutmamalıyıq ki, biz Azərbaycanlıyıq və mənsub olduğumuz xalqın mədəni tarixi nəinki Avropanı, hətta bütün dünyanı tərbiyələndirəcək qədər zəngin və misilsizdir.

Nəticə olaraq onu deyə bilrik ki, Azərbaycan folkloru və onun hər bir örnəyi ən ali mənəviyyat dərsliyidir. Bu dərsliyi qorumaq, mütaliə etmək, inkişaf etdirmək isə hər bir Azərbaycanlının müqəddəs vəzifəsidir. Yüksək əxlaqi-mənəvi dəyərlərə malik olan bir xalqın min illər boyu yaradıb təkmilləşdirdiyi və təmənnasız olaraq istifadəyə verdiyi bu müqəddəs əmanət, şübhəsiz, xalqımız var olduqca yaşayacaq və inkişaf edəcəkdir.

Ədəbiyyat:

1. Atalar sözü. “Öndər nəşriyyat”. Bakı, 2004
2. Atalar sözü. “Elm” nəşriyyatı. Bakı, 1981.
3. Atalar sözü, ağlın gözü. “Uşaqgəncnəşr” nəşriyyatı. Bakı, 1976.
4. Hikmətli sözlər, “Uşaqgəncnəşr” nəşriyyatı. Bakı, 1961.
5. Azərbaycan folkloru. Bakı. “Şərq-Qərb” nəşriyyatı, 2005, 339 səh.
6. Atalar sözü. Bakı. “Yazıçı” nəşriyyatı, 1985, 690 səh.
7. Ramil Əliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, “Çıraq” nəşriyyatı, 2014, 280 səh
8. Zaman Əsgərli. Poetika: izahlı sözlük. Bakı. “Elm” nəşriyyatı, 2014. 262 səh.

Nazila Guliyeva

PEOPLE'S WISDOM IN OUR ORAL OUR LITERATURE

Summary

The folklore of each nation is an indicator of the history of the formation of its thinking and artistic thinking. If we look at the history of our oral literature, we see that the oldest examples belong to the archaic periods of hundreds of thousands of years ago. Our folklore, which originated from mythological thought, has improved over time, formed in different historical periods as a product of new thought, passed down from generation to generation and has survived to the present day.

The folklore of the Azerbaijani people is rich in genre and colorful in terms of its theme and content. Our oral literature, which is the heart of our people, has not lost its freshness, but is also valuable as a source of our national and spiritual values.

Labor songs, counting words, holavars, bayats from lyrical genres; proverbs and parables, legends, myths, epics, etc. from the genres of the epic type. In the

womb of genres, the moral values that our people have acquired throughout human history are embodied.

Keywords: Azerbaijani literature, oral literature, folk wisdom, oral literature, spiritual education, winged words, proverbs and parables

Назила Гулиева

НАРОДНАЯ МУДРОСТЬ В НАШЕЙ УСТНОЙ ЛИТЕРАТУРЕ

Резюме

Фольклор каждого народа - показатель истории становления его мышления и художественного мышления. Если мы посмотрим на историю нашей устной литературы, мы увидим, что самые старые примеры относятся к архаическим периодам сотен тысяч лет назад. Наш фольклор, возникший из мифологической мысли, со временем совершенствовался, формировался в разные исторические периоды как продукт новой мысли, передавался из поколения в поколение и сохранился до наших дней.

Фольклор азербайджанского народа богат жанровым и красочным по тематике и содержанию. Наша устная литература, являющаяся сердцем нашего народа, не утратила свежести, но также ценна как источник наших национальных и духовных ценностей.

Трудовые песни, счетные слова, холавары, баяты из лирических жанров; пословицы и притчи, легенды, мифы, былины и др. из жанров эпического типа. В чреве жанров воплощены моральные ценности, которые наш народ приобрел на протяжении всей истории человечества.

Ключевые слова: азербайджанская литература, устная литература, народная мудрость, устная литература, духовное образование, крылатые слова, пословицы и притчи.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: Məmmədov Sabir Rüstəm oğlu
filologiya üzrə fəlsəfə doktoru, dosent
tərəfindən çapa tövsiyə edilmişdir.

VƏLİYEVA CEYRAN ELŞƏN QIZI
Mingəçevir Dövlət Universiteti (müəllim)
caa.vab@mail.ru

NİZAMİ GƏNCƏVİ ƏDƏBİ ŞƏXSİYYƏTİNİN İŞIQLANDIRILMASI

Açar sözlər: Nizami Gəncəvi, Şərq, Xəmsə, tədqiq, tarix
Ключевые слова: Низами Гянджеви, Восток, Хамса, исследование, история
Keywords: Nizami Ganjavi, East, Khamsa, research, history

Nizami Gəncəvi yaradıcılığı daim alimlərin diqqət mərkəzində olmuşdur. H.Orucəli "Nizami Gəncəvini tədqiq edən Azərbaycan alimləri" məqaləsində 1920-ci ilə qədər Nizami tədqiqatçılarının adını sadalayaraq yazırdı: "İndiki vəziyyətdə 1920-ci ilə qədər Nizaminin yaradıcılığı ilə məşğul olan məşhur Azərbaycan alimləri bunlardır: Lütfəli bəy Azər (1711-1781), Abbasqulu ağa Bakıxanov "Qüdsi" (1794-1846), Mirzə Fətəli Axundov (1812-1878), Mirzə Məhəmməd Axundov, Məhəmmədəli Tərbiyət və Firudin bəy Köçərli (1863-1920)" (155, 131). Müəllif Seyid Əzim Şirvaninin də təzkirəsini yada salırdı: "Həmid Araslı tərəfindən verilən məlumata görə Seyid Əzim Şirvani dəxi Nizami haqqında öz təzkirəsində bəhs etmişdir. Lakin biz əlyazması halında olan bu təzkirəni görə bilmədik" (Ordubadi 2005, 131).

Həmid Araslının ədəbi fəaliyyəti bədii ədəbiyyatımızda Nizami Gəncəvi obrazının formalaşdırılması baxımından xüsusilə diqqətəlayiqdir. Nizami Gəncəvi yaradıcılığını "İlkin Azərbaycan renessansının zirvəsi" kimi elmi təhlilə cəlb edən tədqiqatçı uzunmüddətli və zəngin araşdırmaları sayəsində dahi şairin həyat və yaradıcılığını bədii-publisistik üslubla işıqlandıran "Şairin həyatı" adlı sənədli povestini də yazmışdır (Araslı 1940, 119). Əsər Gəncədə 1139-cu ildə baş verən dəhşətli dağıdıcı zəlzələnin təsviri ilə və Nizami Gəncəvinin ulu babası İbrahim haqqında məlumatla başlayaraq şairin ölümünə qədərki dövrünü əhatə edir. Həmid Araslının "Şairin həyatı" əsəri ilə eyni zamanda yazılmış Mehdi Hüseynin "Nizami" dramı, Mirvarid Dilbazinin "Məhsəti" poeması arasında oxşarlıqlar müşahidə etmək mümkündür. Bu baxımdan ədibin povestinin özündən sonrakı bədii əsərlərin yazılmasında rolu barəsində danışmaq imkanı qazanırıq.

M.Mübarizin "Dahi sənətkarın obrazı" (Mübariz 1940, 264) məqaləsi öz dövründə Həmid Araslı, M.S.Ordubadi kimi nizamişünasların əsərləri ilə bərabər səviyyədə bədii təxəyyülə qüvvət verə bilən əsərlərdən idi. Məqalədə ədəbi-bədii qaynaqlara istinadən Nizami Gəncəvinin ədəbi şəxsiyyətinin mümkün istiqamətlərdə dolğun şəkildə işıqlandırılması şair və yazıçıların yaradıcılıq fəaliyyətinə istiqamət verə biləcəyini ehtimal etməyə imkan verir.

Nizami təzkirələrdə

Təzkirələrin Nizami haqqında verdiyi məlumatlar ədəbi-bədii xarakter daşıdığı üçün onları tədqiqata cəlb etmək maraq obyektimizə çevrilmişdir. Bunun səbəbi isə qədim bioqrafiya müəlliflərinin faktlardan çox xəyallarının gücünə etimad göstərmələridir ki, bu barədə Musa Cərullah Bigiyevin tədqiqatçısı Mehmed Görməz maraqlı fikirlər söyləmişdir: "Belçikalı tarixçi Halkinin də bildirdiyi kimi, ən qədim bioqrafiya yazarları bilgi edinmənin çilələrini bilməzlər, onlar mühayyilənin zövqlərini və şəxsiyyət kültürünün mübaliğələrini tərcih edirlər. Binaenaleyh dünya ədəbiyyat tarixində ilk biyoqrafilər ya mədhiyyələr, yaxud bunun panzehiri olan həcviyyələrlə başlamışdır. İslam literatüründə hədisçilərimizin cərh və tadil qəsdiylə qələmə aldıqları biyoqrafiləri ayıracaq olursaq, İslam öncəsinə nisbətlə müstəsna bir yerə sahib olsalar da, rical, təracim, təbaqat və mənakib türü əsərlərin kəndilərini mədhiyyə və həcviyyədən qurtardığını söyləmək imkansızdır" (Mehmed Görmez 1994, 120). Qədim bioqrafiyaların bu əskik yönü şairlərin həyatının öyrənilməsində çətinlik çəkdirirsə də, bizim araşdırmamız üçün, yəni Nizaminin bədii obrazının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir.

Nizaminin ədəbi şəxsiyyəti haqqında məlumat toplamaq üçün öz əsərləri nə qədər əhəmiyyətlidirsə, təzkirəçilərin təxəyyülünün məhsulu olan ədəbi parçalar da o qədər rol oynayır. Nizami obrazının araşdırılmasında tədqiqat obyektimiz Azərbaycan ədəbiyyatı olduğu üçün təzkirələrdən də yalnız milli olanlarına müraciət edəcəyik. Bu baxımdan ilk maraqlı əsər XVIII əsrdə yaşamış Lütfəli bəy Azər Bəydilinin "Atəşgədə" adlı təzkirəsidir. "L.Azər təzkirəçilərə məxsus bir yığcamlıqla Nizaminin həyat və yaradıcılığından bəhs etmiş və nümunə üçün bir neçə qəzəlini, fəxriyyəsini dərc etmişdir" (Orucəli 1979, 130).

Lütfəli bəy Azərin nəzərini, hər şeydən əvvəl, Nizaminin saray və təntənə dəbdəbələrindən özünü kənara çəkməsi və xalqa yaxınlığı cəlb etmişdir. O, təzkirəsində belə bir əhvalat nəql edirdi:

"Sair şairlər kimi müştəhik nəfs və hava qələbəsi ilə şahlara və kübarlara ərizəçi olmamışdır, bəlkə onun astanası alimiqdar şahların sığınacaq yeri olmuşdur. Belə ki, Atabəy Qızıl Arslan imtahan qəsdi ilə Şeyxin ibadətgahına getdi. Şeyx isə batini aləmdə onun qəsdini anlamışdı. Sultanın gözündə o, kübar ulduzları kimi cilvələndi. Bir saat keçdikdən sonra Sultan gördü ki, zəif, qoca bir kişi bir parça keçə üstündə canamaz başında əyləşibdir. Qarşısında isə Quran, mürəkkəb, qələm və əsa vardır. Sultan Şeyx barəsində tamam etiqad hasil etdi" (Orucəli 1979, 132). Mənbədən göründüyü kimi, Şeyx Nizami Qızıl Arslanın gələcəyini əvvəlcədən hiss etmişdir. Belə bir hal təsəvvüf böyüklərinə aid mənbələrdə tez-tez təsadüf olunur. Məsələn, Seyid Yəhyanın təriqətə girməsi və Şeyxinə bağlanması haqqında olan mənbədə Şeyx Sədrəddinin də eyni kəramətindən bəhs olunurdu: "Seyid Yəhya uşaqlıq illərində çox gözəl ədəb və əxlaq sahibi olmuşdur. Bir gün dostları ilə çövkan oynayarkən Pirzadə oradan keçirmiş, bu vaxt dəyənəklə vurulan top havalandı və gəlib Pirzadənin önündə durdu. Topun arxasınca qaçan Yəhya Pirzadəni görüncə

önündən keçməyə ədəb etdi, kənarda durub Pirzadəyə hörmətlə salam verdi. Yəhyanın bu davranışı Pirzadənin xoşuna gəldi. Uşağı bir müddət seyr etdikdən sonra müridlərə: "Allahu-təala bu uşağa babalarının ədəbini, ərkanını və gözəl əxlaqını ehsan etmişdir. Dua edək ki, xəlvəti yolunun feyz və mərifətlərinə də qovuşsun" – dedi. Birlikdə əl açıb Cənabi Haqqa dua etdilər. Nəql edilir ki, Seyid sevincək və qəlb rahatlığı ilə evə gəldi. Gecə yatarkən yuxusunda (s.v.) Hz. Məhəmmədi gördü. Ona nəsihətlər etdi, Şeyx Sədrəddini göstərib "Bu sənin mənəvi atandır. Onun yanına get, ondakı sirr bizim ruhaniyyətimizin sirrindəndir" – dedi və onu Şeyx Sədrəddinə təslim etdi. Seyid oyandıqdan sonra Pirzadənin yanına getdi, onunla birlikdə Şeyx Sədrəddinin hüzuruna çıxdılar. Görüş əsnasında Şeyx Sədrəddin Seyidə, "Mənəvi atandır deyə göstərdikləri adama bənzəyirikmi" – deyə soruşduğunda Seyid ağlayaraq şeyxin əllərini öpüb, ona beyət etdi. Şeyxin tərbiyəsi altında uzun illər çalışaraq elm və təsəvvüf yolunda çox yüksək dərəcələrə ucaldı" (Rıthım 2005, 26).

Lütfəli bəyin verdiyi məlumatlar Nizaminin "Leyli və Məcnun" poemasına əlavə etdiyi bir hekayətlə yaxından səsləşir. Hekayətin məzmunu bundan ibarətdir ki, sarayından çox kənar yerləri gəzib dolaşan Şah bir zahidin evinə yetişir, onun bu xarabada məskən salmağına heyrətlənir. Onun haqqında məlumat almaq istəyəndə bildirirlər:

"Dedilər: "Bir məşhur zahiddir, ancaq
Ömr edir yuxudan, yeməkdən uzaq" (Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası 1985, 274).

Şah onun halından xəbərdar olan kimi arxasınca atlı göndərir ki, hüzuruna gətirsin.

"Qapıçı getdi ki, xəbər yetirsin,
Şahın hüzuruna onu gətirsin.
Dedi: "Ey dünyadan əlini üzən.
Neçin xoşlanırsan bu xərabədən?
Burda nə yoldaşın, nə yeməyin var,
Neçin mağarada tutmusan qərar?" (Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası 1985, 274).

Bu sualı eşidən zahid bir çəngə quru ot götürüb deyir: "Budur xörəyim. Bundan qüvvət alır mənim ürəyim. Qapıçı zahidə şahın qulluğuna girməyi təklif edir ki, bir də ot yeməsin bu çöllərdə" (Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası 1985, 274). Qapıçının təklifini eşidən zahid cavab verir:

"...Sözün əbəsdir,
Bu ot bir gülqənddir mənə bu bəsdir.
Bu otun sirrini bilsən, ey insan,
Şahın qulluğundan azad olarsan (Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası 1985, 274-275).

Kənardan zahidi dinləyən şah atından sıçrayıb yerə düşür:

Döşəndi zahidin önünə xaqan,
Öpdü o müqəddəs ayaqlarından.
Azadlıq əzizdir, – dedi, – daima,
Budur sözlərində gizlənən məna" (Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası 1985, 274-275).

Hekayətin və təzkirənin qarşılaşdırılmasından, eyni zamanda, Nizaminin daha yaxşı maddi durumu haqqında məlumat verən mənbələrə istinadən belə nəticəyə gəlirik ki, hər iki əsərdə yaradılan oxşar obrazlar Nizaminin real maddi yaşayışının deyil, mənəvi aləminin bədii təzahürüdür

H.Orucəli Lütfəli bəy Azərin verdiyi məlumatları şairin həyat həqiqətləri ilə əlaqələndirərək yazırdı: "Bu əhvalatın nə qədər doğru olduğu tarix tərəfindən artıq müəyyən edilmişdir. Nizaminin durduğu yerdə Qızıl Arslanın niyyətini birdən-birə qeybdən öyrənməsi və onu qarşılamağa hazırlanması, əlbəttə, ağlasığmaz bir şeydir. Bu rəvayət keçmiş əsrlərdəki dini etiqad və xalq əfsanələrilə çox yaxından bağlıdır. Əsl həqiqət isə budur ki, Nizami saray və şəxsi xoşbəxtlik düşkünü olmamış, bütün həyatı boyu zəhmətkeş xalqla birlikdə yaşamağı daha üstün tutmuşdur. Saraylar onun yaradıcılığını deyil, onun yaradıcılığı sarayları fəth etmişdir. Buna görə də Qızıl Arslan kimi bir hökmdarın, eyni zamanda, sözün qədrini bilən və şeirdəki incə mənaları dərk edən bir insanın gəlib Nizamini kasıb bir daxmada ziyarət etməsinə qətiyyən təsadüfi bir hadisə kimi baxmaq olmaz" (Orucəli 1979, 131). Tədqiqatçının fikirlərindəki elmi həqiqətlərə etinasız qalmaq da düzgün hesab olunmaz. Nizaminin gözütox olmasını, insanlara qayğıyla yanaşdığını, öz şəxsi səadətindən daha artıq cəmiyyəti düşündüyünü dönə-dönə təsdiq etmək üçün dəlillərə müraciət etmək mümkündür.

Şairin maddi durumu haqqında təzkirələrdə dəqiq, onun öz yazdıqları ilə üst-üstə düşən məlumatlar da mövcuddur. Qədim mənbələr, o cümlədən, "Təvarixi əl-Səlcuq" (1250) əsərinin müəllifi İbn Bibinin məlumatına əsasən, Nizaminin "Sirlər xəzinəsi"ni ithaf etdiyi Fəxrəddin Bəhram Şah bu məsnəvini mükafatlandıraraq, şairə beş min dinar qızıl və beş yük müxtəlif əşya, fəxri geyim və s. hədiyyə etmişdir. Bu haqda M.Ə.Tərbiyətin təzkirəsində və Ziya Bünyadovun araşdırmasında geniş məlumat verilmişdir.

Lütfəli bəy Azər Nizamini sufi kimi təqdim edərək "Sufilik aləmində əxi Fərəc Zəncani ilə bərabərdir" deyə qiymətləndirirdi. M.Ə.Rəsulzadə də bu barədə yazırdı: "Təsəvvüfdəki seyr və süluk ilə təhsil və irşadını kimlərdən aldığı haqqında şair kəndisi sükut etməkdədir; fəqət bəzi rəvayətlərdə onun Şeyx Əbu Fərrux-i Reyhani və ya Əbu Fərəc-i Zəncanidən dərs aldığı qeyd olunmaqdadır. Araşdırıcılardan bir qismi Nizaminin tam bir sufi olduğunu qəbul etmiyorlarsa da, suficə bir həyat yaşadığında hər kəs müttəfiqdir. O yalnız şair deyil, yüksək nevidən bir hakim və şeyx deyə tanınmışdır" (Rəsulzadə 1955, 44). Nizaminin Əxi Fərəc Zəncaninin müridi olub olmaması haqqında alimlər tərəfindən günümüzə qədər davam etdirilən mülahizələrə axır ki, Mehmet Rıhtımın tədqiqatında aydınlıq

gətirilir. Mehmet Rıhtım ilk dəfə olaraq təsəvvüf rəhbərinin yaşadığı tarixi dəqiq göstərərək yazır: "Əxi Fərəc Zəncani; İbn Bakuyənin müasirlərindəndir. Zəncanda yaşamış və 457/1065-ci ildə orada vəfat etmişdir. O, Şeyx Əbu Abbas Nəhavəndinin müridi olmuşdur" (Rıthım 2005, 76). M.Rıhtım Nizaminin Əxi Fərəc Zəncani ilə əlaqəsi haqqında isə özündən əvvəlki tədqiqatçıların fikirlərini təkrarlayaraq yazır: "Azərbaycanda təsəvvüf ədəbiyyatının nəzm sahəsində bir çox görkəmli şəxsiyyət yetişmişdir. Bunlardan biri XII əsrin dahi şair və mütəfəkkir sufisi Nizami Gəncəvidir (1141-1209). Nizami şeyx olub, Əxi Fərəc Zəncaninin müridiidir. Ömrünün axırlarında guşənişinlik rəsmini qəbul edərək batini saflaşdırma ilə məşğul olmuşdur" (Rıthım 2005,85). Bizcə, tədqiqatçının fikirlərində mexaniki olaraq dolaşıqlığa yol verilmişdir. Çünki alim əsərinin başqa bir səhifəsində müridlik və mürşidlik əlaqəsi haqqında yazır: "Bütün təriqətlərdə silsilə vardır. Ancaq silsilədə yad olunan hər şeyxin bir öncəki şeyxdən həqiqətən tərbiyə görməsi, bir sonrakı şeyxi də həqiqətən irşad etməsi bəzi hallarda tarixi olaraq mümkün görünmür. Bu halda bir şeyxin digərini mənən, yəni ruhən tərbiyə etməsinə inanılır ki, buna "üveysilik" deyilir" (Rıthım 2005, 87). Bu fikrə istinadən belə nəticəyə gəlirik ki, Nizami əxi Fərəc Zəncaninin müridi ola bilməzdi. O, sadəcə, əxi təriqətinin rəhbərinin fikirlərindən mənən bəhrələnə bilərdi.

Mehri Məmmədovanın "Lütfəli bəy Azər və Azərbaycan ədəbiyyatı" əsərində də təzkirəçinin şair haqqında fikirləri olduğu kimi verilir. Buradan da Nizaminin Şeyx olaraq qəbrinin ziyarətgaha çevrilməsi haqqında məlumatlanırıq: "Cənab Şeyx Gəncədə dəfn olunmuşdur. Onun nurlu qəbri indi də hər bir diyarın böyüklərinin ziyarətgahıdır" (Məmmədova 2001, 140).

Daha sonrakı dövrdə A.Bakıxanov özünün "Gülüstani-İrəm" əsərində "Həkimi-mənəvi Şeyx Nizami Gəncəvi" deyərək şairin adını böyük ehtiramla çəkir".

Firudin bəy Köçərlinin tədqiqatında Nizaminin sənətkarlıq keyfiyyətləri sadalanırdı: "Şeyx Nizami böyük şairlərdən birisi olub. Onun kimi fəsih, rəvantəb və şirinzəban şair dünya üzünə az gəlibdir" (Köçərli 1978, 128).

Firudin bəy Köçərli də özündən əvvəlki təzkirəçilər kimi, Nizaminin şəxsiyyətinin müqəddəsliyi üzərində israrla dayanmışdır: "Nizami dünyadan əl çəkib əhli-qənaət və salih bir zat olduğu üçün ömrünü ibadət və riyazətdə keçirərmiş (Köçərli 1978,129).

"Hətta zəmanəsinin müluk və səlatini ona hörmət və riayət etdikləri halda sair şüəra kimi kimsəni mədh və tərif etməmişdir və tamahkar və əhli-dünya mülazimi olmaqdan nəfsini saxlayıb, ömrünün axırına kimi məddahlıq ismini şəninə layiq və rəva görməmişdir və padşahlar dərbarında şöhrət və izzət tələbkarı olmamışdır. Bəlkə onun öz astanası böyüklər və xosrovlar məlcəvü məvası olub. Müasirləri onun söhbətindən feyziyab olmağa talib olmuşlar" (Köçərli 1978,130). F.Köçərli Lütfəli bəy Azərin verdiyi məlumatları maraqlı bir fakt kimi əsərinə daxil etmişdir: "Belə ki, Atabəy Qızıl Arslanın imtahan qəsdi ilə Şeyx Nizami olan zaviyəyə gedib, onu qəribə bir halda görməyi "Atəşgədeyi-Azəri"də rəvayət olunubdur. Şeyx aləmi-

batində Qızıl Arslanın qəsdü niyyətini anlayır və sultanın nəzərində onun şərafət və böyüklük ulduzu cilvələnir. Atabəy görür ki, bir piri-zəif bir parça keçənin üstündə əyləşib. Ətrafında başqa bir şey yoxdur, bəqeyr əz qələm, dəvat və əsayi-piri. Əlində quran və Şeyx onun mütaliəsinə məşğul. Atabəy Şeyxin bu halına diqqət yetirdikdə onun haqqında etiqadi-kamil hasil edib, Şeyxin müqəddəs bir vücud olmağını təsdiq eləyir. Və həmçinin rəvayət olunur ki, İran padşahlarından birisi Azərbaycan vilayətini təsxir etdikdə Şeyxə riayət göstərib, Gəncə şəhərinin təxminən 24 verstliyində –cənubi-şərqi səmtində vaqe bir kənd bağışlamışdı. Sabiqdə haman qəryə Həmdünyan adlanırmış. İndi İlə adı ilə məşhur erməni kəndidir. Şeyx özü bu barədə demişdir:

"Mənim etiqadıma və səmimiyyətimə nəzər saldı,
Həmdünyan kəndini mənə bağışladı" (Köçərli 1978,131).

XX əsrin birinci yarısına qədər ilkin ədəbi-tarixi qaynaqlarda Nizami Gəncəvi haqqında verilən məlumatlar qiymətli bir məxəz kimi qorunaraq yaddaşlardan yaddaşlara ötürülmüşdür. Şair haqqında yazan görkəmli yazıçı və şairlərimiz bu məxəzə sahib çıxaraq öz yaradıcılıqlarında məhz onların sayəsində dahi şairin ölməz abidəsini ucaltmışdırlar. H.Araslının "Şairin həyatı" (1940), M.S.Ordubadinin "Qılınc və qələm" (2005), A.Zöhrabbəyovun "Odlu diyar" (1978) romanları, M.Hüseynin "Nizami" dramı (2005), Ə.Məmmədxanlının "Afaq" (1941), "Şairin kədəri" (1941), C.Məmmədovun "Portret" (1941) hekayələri, M.Dilbazinin "Məhsəti" (1983) adı ilə həm poema, həm də mənzum dramı, Z.Xəlilin "Gəncə qartalı" (1975) (ikinci adı ilə "Şairin yuxusu") adlı mənzum dramları, A.Kəmalənin "Məhsəti" (1974) mənzum dramı, Balaş Azəroğlunun "Nizami" poeması (2004), Oqtay Salamzadənin "Əsrlərin sirri" romanı (1989) kimi əsərlərin hər birində ilkin ədəbi-tarixi mənbələrin verdiyi məlumatların bədii inikasını müşahidə edirik.

ƏDƏBİYYAT:

1. Araslı H. Şairin həyatı. Bakı, 1940, 115 s.
2. Azərbaycan ədəbiyyatı tarixi, II cild. Bakı: Elm, 2007, 378 s.
3. Azərbaycan Klassik Ədəbiyyatı Kitabxanası. "Nizami Gəncəvi". IV cild, Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1985, 250 s.
4. Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları, I cild, Bakı, 1978, 595 s.
5. Mehmet Emin Resulzade Azerbaycan şairi Nizami Ankara,Milli Egitim Basımevi, 1951, 402 s.
6. Mehmet Görməz. Musa Carullah Bigiyef. Ankara, 1994, 2 s.

7. Məmmədova M. Lütfəli bəy Azər və Azərbaycan ədəbiyyatı. Bakı: Örnək nəşriyyatı, 2001, 220 s.
8. Mübariz M. Dahi sənətkarın obrazı. Bakı: Azərnəşr, 1940, 264 s.
9. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı: Yazıçı, 1986, 347 s
10. Ordubadi M.S. "Qılınc və Qələm" (Mətn): 2 hissədə: Bakı: Şərq-Qərb, 2005, 416 s.
11. Orucəli H. Nizamini tədqiq edən Azərbaycan alimləri. Bakı: Yazıçı, 1979, 161 s.
12. Orucəli H. Nizamini tədqiq edən Azərbaycan alimləri. Bakı: Yazıçı, 1979, 161 s.
13. Rıhtım M. Seyid Yəhya Bakuvi və xəlvətilik. Bakı: Qismət, 2005
14. Rüstəmova A. Mənəvi dünənimiz bu günün işığında. Bakı: Elm, 2011, 510 s.

Xülasə

Dahi Nizami Gəncəvi xalq müdrikliyini öz poetik təfəkküründə yaşatmış, bəşəri mövzulardan qaynaqlanaraq qələmə aldığı bədii nümunələrdə uşaqların sevdiyi ədəbi əsərlər yaratmışdır. Nizami Gəncəvinin yaradıcılığı müasir dövrdə belə öz aktuallığını qoruyub saxlamış, dahi mütəfəkkir özünəməxsus ideologiya və ədəbi dünyagörüşü ilə müasir düşüncə zirvəsinə yüksəlmişdir.

Dünya mədəniyyəti tarixində özünəməxsus mövqeyi olan, əsərləri dünya şeir xəzinəsinin nadir inciləri sayılan Nizami Gəncəvi yaradıcılığı Azərbaycan bədii-estetik fikrinin inkişafında yeni, orijinal bir mərhələ təşkil edir. Nizami Gəncəvi dühası əsrlərlə Azərbaycan şairlərinin yaradıcılıq yolunu işıqlandırmış, ədəbiyyat tariximizdə öz imzasını həkk edən şair və yazıçılar daim onun zəngin ədəbi irsindən bəhrələnmişlər.

Dünya mədəniyyəti tarixində özünəməxsus mövqeyi olan, əsərləri dünya şeir xəzinəsinin nadir inciləri sayılan Nizami Gəncəvi yaradıcılığı Azərbaycan bədii-estetik fikrinin inkişafında yeni, orijinal bir mərhələ təşkil edir. Nizami Gəncəvi dühası əsrlərlə Azərbaycan şairlərinin yaradıcılıq yolunu işıqlandıraraq XIX əsrə qədər öz ədəbi məktəbinin qapısını açıq buraxmışdır. XX əsrdə isə şairin yaradıcılığının öyrənilməsinə marağın və ehtiyacın artması ilə yanaşı, şairin ədəbi şəxsiyyəti özü də ədəbiyyatın bədii obrazına çevrilmişdir. Bu ədəbi-bədii nümunələrdə yazarların təxəyyülünü qidalandıran mənbələrdən birincisi şairin öz poemaları olduğu kimi, ilk ədəbi qaynaqlar da əhəmiyyətli rol oynayırdı.

Məqaləmiz Şərq bədii fikir salnaməsində Nizami obrazının təsvirinin bədii cizgilərinin öyrənilməsinə həsr olunduğu üçün janrlararası fikir mübadiləsinin üzə çıxarılmasına, bəhrələnmə, iqtibas məsələlərinə nəzər salmağa, mərhələlərarası

oxşarlıq və fərqlərin aşkarlanmasına imkan verir. Azərbaycan poeziyasında yeri gəldikcə Nizami surətinin təsviri, Nizami şəxsiyyətinin tərənnümü XX əsrə kimi özünü göstərmişdir. XIX əsr ədəbiyyatında Nizami xatirəsinin orta əsrlər poeziyasından fərqli cizgiləri üzə çıxır. Əgər orta əsrlərdə Nizaminin mənən yaşadığı, hər zaman şairlərin qəlbində bir ustad kimi diri olduğu vurğulanırdısa, XIX əsrdə ilk dəfə olaraq Nizami xatirəsinə laqeydlik təəssüflə qeyd olunurdu ki, bu da Seyid Əzim Şirvani, Əli Nəzmi və başqa sənətkarların yaradıcılığında öz bədii ifadəsini tapmışdır.

VALIYEVA JEIRAN ELSHAN QIZI

COVERAGE OF NZAMİ GANJAVİ'S LİTERARY PERSONALİTY

Summary

The genius Nizami Ganjavi lived the wisdom of the people in his poetic thinking, created children's favorite literary works in his artistic samples based on human themes. Nizami Ganjavi's work has maintained its relevance even in modern times, the genius thinker has risen to the peak of modern thinking with his unique ideology and literary worldview.

Nizami Ganjavi's work, which has a special place in the history of world culture and whose works are considered to be rare pearls of the world poetry treasury, is a new, original stage in the development of Azerbaijan's artistic and aesthetic thought. Nizami Ganjavi's genius has illuminated the creative path of Azerbaijani poets for centuries, and poets and writers who have left their mark on our literary history have always benefited from his rich literary heritage.

The work of Nizami Ganjavi, who has a special place in the history of world culture and whose works are considered to be rare pearls of the world poetry, is a new, original stage in the development of Azerbaijan's artistic and aesthetic thought. Nizami Ganjavi's genius illuminated the creative path of Azerbaijani poets for centuries and left the door of his literary school open until the 19th century. In the twentieth century, along with the growing interest and need to study the poet's work, the poet's literary personality has become an artistic image of literature. In these literary-artistic examples, the first literary sources played an important role, as did the poet's own poems, the first of which was the source of the writers' imagination.

As our article is devoted to the study of the artistic features of the description of Nizami's image in the Oriental Chronicle of Artistic Thought, it allows us to reveal the exchange of genres, to look at the issues of use, quotation, to identify similarities and differences between stages. As for the place in Azerbaijani poetry, the description of Nizami's image, the glorification of Nizami's personality showed itself until the XX century. In the literature of the XIX century, Nizami's memory differs from medieval poetry. If in the Middle Ages it was emphasized that Nizami lived spiritually, always alive as a master in the hearts of poets, in the XIX century for the

first time the indifference to Nizami's memory was regrettably noted, which found its artistic expression in the works of Seyid Azim Shirvani, Ali Nazmi and others.

ВАЛИЕВА ДЖЕЙРАН ЭЛШАН КЫЗЫ

ОСВЕЩЕНИЕ ЛИТЕРАТУРНОЙ ЛИЦНОСТИ НИЗАМИ ГЯНДЖЕВИ

Резюме

Гений Низами Гянджеви жил мудростью народа в своем поэтическом мышлении, создавал любимые детские литературные произведения по своим художественным образцам на человеческие темы. Творчество Низами Гянджеви сохранило свою актуальность и в наше время, гениальный мыслитель поднялся на вершину современного мышления со своей уникальной идеологией и литературным мировоззрением.

Творчество Низами Гянджеви, занимающего особое место в истории мировой культуры и чьи произведения считаются редкими жемчужинами мировой поэзии, является новым оригинальным этапом в развитии художественной и эстетической мысли Азербайджана. Гений Низами Гянджеви на протяжении веков освещал творческий путь азербайджанских поэтов, а поэты и писатели, оставившие свой след в нашей литературной истории, всегда извлекали пользу из его богатого литературного наследия.

Творчество Низами Гянджеви, занимающего особое место в истории мировой культуры и чьи произведения считаются редкими жемчужинами мировой поэзии, является новым оригинальным этапом в развитии художественной и эстетической мысли Азербайджана. Гений Низами Гянджеви на протяжении веков освещал творческий путь азербайджанских поэтов и оставлял двери его литературной школы открытыми до XIX века. В двадцатом веке, наряду с растущим интересом и необходимостью изучать творчество поэта, литературная личность поэта превратилась в художественный образ литературы. В этих литературно-художественных образцах важную роль сыграли первые литературные источники, а также собственные стихи поэта, первые из которых были источником воображения писателей.

Поскольку наша статья посвящена изучению художественных особенностей описания образа Низами в «Восточных хрониках художественной мысли», она позволяет выявить жанровый обмен, взглянуть на вопросы употребления, цитирования, выявить сходства и различия между этапами. Что касается места в азербайджанской поэзии, описание образа Низами, прославление личности Низами проявлялось вплоть до XX века. В

литературе XIX века память Низами отличается от средневековой поэзии. Если в средние века подчеркивалось, что Низами жил духовно, всегда жив как мастер в сердцах поэтов, то в XIX веке впервые с сожалением отмечалось безразличие к памяти Низами, что нашло свое художественное выражение в творчестве поэтов. Сейид Азим Ширвани, Али Назми и другие.

Redaksiyaya daxil olma tarixi: 13.10.2021.
Çapa qəbul olunma tarixi: 29.10.2021
Rəyçi: fil.f.d.,dos.Flora Kamran qızı Namazova
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏYLƏR

AZƏRBAYCAN DİLİNİN İŞGÜZAR VƏ AKADEMİK KOMMUNİKASİYA PROBLEMLƏRİ

Dilçiliyimizdə yenilik kimi professor Nadir Məmmədlinin 2021-ci ilin yeni tədris ili ərəfəsində müəllimlərin maraqla, tələbələrin həvəslə gözlədiyi "Azərbaycan dilinin işgüzar və akademik kommunikasiya problemləri" adlı dərsliyi "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur. 512 səhifədən ibarət olan bu dərslik Azərbaycan Respublikası Təhsil Nazirinin 22 iyun 2021-ci il tarixli F-366 saylı əmrinə əsasən çap olunmuşdur. Dərslik ali məktəblərin tədris planında nəzərdə tutulan eyni adlı fənnin tələblərinin yerinə yetirilməsi zərurəti əsasında hazırlanmışdır. Dərslikdə əhatə olunan bütün mövzular ümumilikdə nitq mədəniyyətinin praktik məsələlərini özündə əks etdirir. Dərslik quruluşca dörd fəsildən ibarətdir. Hər fəslə işgüzar və kommunikasiya problemləri ilə bağlı olan vacib mövzular daxil edilmişdir. Birinci fəsil işgüzar kommunikasiya məsələsinə həsr olunmuşdur. Burada ünsiyyət kommunikasiyası və işgüzar kommunikasiya, işgüzar kommunikasiyanın verbal (yazılı və şifahi) və qeyri-verbal (jestlərlə və digər vasitələrlə çatdırılan informasiya), işgüzar kommunikasiyanın qurulması, onun strateji və taktiki üsulları, danışıq və dinləmə mədəniyyəti, davranış qaydaları, norma etikası və kompüter-internet diskursu, etiket qaydalarına aid olan norma məsələləri ardıcıllıqla sistemləşdirilir və mükəmməl bir rabitə çərçivəsində

hərtərəfli şəkildə şərh edilir. Bütün şərhlərdə və izahlarda elmi-nəzəri müddəalar praktika və tətbiqetmə qaydalarının qovşağında izah edilir. Dərslikdə şərh olunan elmi dil qəlizləşdirilmir, eyni zamanda bəsitləşdirilmir. Burada həm elmi tədqiqat sahəsi mütəxəssislərinin istinad imkanları və həm də tələbələrin qavrayış səviyyəsi nəzərə alınır. Dərsliyin ikinci fəsli akademik kommunikasiya məsələlərini əhatə edir. Bu fəsildə də mövzuların nəzəri və praktik istiqamətləri qarşılıqlı şəkildə təqdim edilir. Fəslə aid mövzularda məntiqi-psixoloji və pedaqoji tələblər başlıca istiqamət təşkil edir. Bu da fənnin mənimsənilməsində və tələblərin intellektual təfəkkürünün inkişafında pedaqoji tələblərə tamamilə uyğundur. "Akademik kommunikasiya" adlanan ikinci fəsildə konkret olaraq kommunikasiyanın mərhələləri, elmi-tədqiqat işlərində akademik kommunikasiyanın rolu, elmi mühakimələrin prinsipləri, elmi işin tərtibi, tələbələrdə elmi-tədqiqat bacarıqlarının inkişaf etdirilməsi üsulları kimi müasir dövrün başlıca tələbləri ilə bağlı məsələlər şərh olunur. Birinci fəslin ikinci hissəsi demək olar ki, akademik kommunikasiyanın praktik məsələlərinə həsr olunmuşdur. Burada yazılı və şifahi akademik kommunikasiya, akademik yazı qaydaları, onların tərtibi və normaları, sərbəst işlərin, tezislərin və məqalələrin hazırlanması üsulları, annotasiya, xülasə, icmal, referat, diplom və buraxılış işlərinin hazırlanması, dissertasiya, avtoreferat və monoqrafiya hazırlığına dair qayda və üsulların öyrədilməsi, həmçinin plagiat haqqında təsəvvürlərin formalaşdırılması məsələləri şərh olunur. Bu fəslə aid mövzuların hazırlanmasında, şərhində və izahında ümumi ideoloji prinsiplərlə yanaşı müəllifin linqvistik istedadı və təhsil təcrübəsinin nəticələri üzvi bir bağlılıq təşkil edir. Dərsliyin üçüncü fəsli işgüzar və akademik kommunikasiyada nitq mədəniyyəti məsələlərinə həsr olunmuşdur. Burada işgüzar kommunikasiyanın milli-mədəni spesifikliyindən, nitq mədəniyyətinin konsepsiyasından, norma və variantlıqdan, fonetik, orfoepik, orfoqrafik, leksik, morfoloji və sintaktik normalardan, eyni zamanda nitqə verilən tələblər çərçivəsində nitqin münasibliyindən, zənginliyindən, təmizliyindən, dəqiqliyindən, məntiqiliyindən, əlverişliliyindən, ifadəliliyindən və düzgünlüyündən də bəhs edilir. Müəllifin həmin mövzularla əlaqədar gəldiyi əsas nəticələr bundan ibarətdir ki, nitq mədəniyyəti normalarına yiyələnmək bir tərəfdən informasiyaların sərbəst ötürülməsinə, mühafizəsinə, yayılmasına və ünsiyyət-kommunikasiya problemlərinin yerinə yetirilməsinə xidmət etdiyi kimi həm də mühüm strateji əhəmiyyət kəsb edir. Burada nəzərə alınır ki, müasir dövrdə sabit və mükəmməl dil normalarına malik olmaq dilin beynəlxalq informasiya mühitinə çıxması üçün vacib tələblərdən biridir. Dilin beynəlxalq informasiya aləmində təmsil olunması sadəcə hər hansı informasi-

yanın çatdırılması ilə məhdudlaşmır. İndiki qloballaşma mərhələsində sivilizasiyalararası inteqrasiyaların genişlənməsi həm də bir çox elmi, texniki, siyasi, iqtisadi, diplomatik, mədəni və işgüzar əlaqələrin tənzimlənməsində dil fenomeni başlıca yer tutur. Bu mərhələdə o dillər daha çox uğur qazana bilir ki, onların yazı və nitq normalarında sabitlik baş vermiş olsun. Əlbəttə ki, sabit normalara malik olmayan dildə mükəmməl informasiya mühiti yaratmaq mümkün deyildir. Azərbaycan dili artıq hansısa digər dilin əhatəsində deyildir. Bu dil müstəqil bir dövlətin rəsmi dili kimi özünün daxili mənbələri əsasında inkişaf imkanlarına malikdir və bütün informasiyaların həm yazılı, həm də şifahi yolla çatdırılmasına qadirdir. Odur ki, işgüzar kommunikasiya prosesində ana dilindən istifadə olunması bu dilin başlıca prioritetlərini təşkil edir. Professor Nadir Məmmədli məhz təcrübəli bir dilçi alim kimi öz kitabında həmin məsələləri peşəkarcasına şərh edir.

Dərsliyin üçüncü fəslinin punktuasiya və durğu işarələrinə həsr edilmiş bölməsində yazılı dil qaydaları üçün zəruri olan nöqtə, vergül, nöqtəli vergül, iki və üç nöqtə, tire, dırnaq, sual və nida işarələrinə dair tələblərin yerinə yetirilməsi məsələlərindən bəhs olunur. Durğu işarələri bir çox hallarda yazılı dilin ifadəsində müəyyən qəlizləşmə yaratdığından onların vaxtaşırı tənzimlənməsinə də zərurət lazım gəlir. Azərbaycan dilində də durğu işarələrinin tənzimlənməsi məsələsi daim diqqət mərkəzində qalır. Durğu işarələrinin tənzimlənməsi işi birbaşa şifahi ədəbi dilə məxsus normaların yazılı dillə əlaqə və münasibəti mühitində təkmilləşməsinə uyğun olaraq aparılır. Odur ki, şifahi ədəbi dilin inkişafı, onun yazılı dil normaları ilə tənasübü normalarda yeniləşmənin təməlini yaradır.

Dərslikdə bütün bu məsələlərin şərhinə linqvistik bir həssaslıqla yanaşılır və mövzuların mənimsənilməsinə ənənəvi üsullardan fərqli olaraq interaktiv yanaşma prinsiplərinin üstünlüklərinə istinad edilir.

Dərsliyin dördüncü fəslinə funksional üslublar daxil edilmişdir. Burada funksional xarakterli publisistik, elmi, danışıq, bədii və rəsmi-işgüzar üslublardan bəhs edilir ki, həmin üslublar barədəki izahlar ənənəvi izahların təkrarı deyildir. Funksional üslublar bu dərslikdə özlərinin kommunikativ xarakteri baxımından şərh edilir. Bu da dərsliyin işgüzar-kommunikasiya tələblərinə tamamilə uyğundur. İşgüzar və akademik kommunikasiya problemləri ilə əlaqədar olan bu dərsliyin hazırlanması zaman etibarı ilə demək olar ki, çox tezliklə başa gəlmişdir. Bu da müəllifin peşəkarlığı, geniş dilçilik təfəkkürünə malik olması, təcrübəliliyi, pedaqoji nailiyyətləri, obrazlı desək, fədakarlığı sayəsində yerinə yetirilmişdir.

Dərslik işgüzar və akademik kommunikasiya sahəsində ilk təcrübə olmasına baxmayaraq həm elmi-nəzəri və həm də pedaqoji baxımdan mükəmməldir. Ümidvaram ki, dili işgüzar, kommunikativ, akademik və ən əsası strateji tələblərinin ödənilməsində ixtisas müəllimlərinin və tələbələrin istifadəsi üçün nəzərdə tutulan bu dərslik özünün praktik keyfiyyətləri ilə əlaqədar olaraq həm də geniş oxucu kütləsinin rəğbətini qazanacaqdır.

Mübariz Yusifov
filologiya elmləri doktoru, professor

MÜNDƏRİCAT:

DİLÇİLİK

QƏRİBƏ MƏMMƏD QIZI MƏMMƏDOVA
MÜXTƏLİF SİSTEMLİ DİLLƏRİN
ONOMASTİKASINDA FEİL KÖKLÜ ADLAR 3

AĞAKIŞIYEV ƏLIHEYDƏR YUNIS OĞLU
MANAFLI XANIMANA FƏTƏLI QIZI
ALI MƏKTƏBLƏRIN RUS BÖLMƏLƏRINDƏ MORFOLOJI
NORMANIN TƏDRISI ILƏ BAĞLI BƏZI MƏSƏLƏLƏR. 9

LEYLA MAHMUDOVA
FARS DILINDƏ ANTESEDENT 17

ФИДАН АФИЗ гызы АЛИЕВА
К ПРОБЛЕМЕ СИНТАГМАТИЧЕСКИ СВЯЗАННЫХ СОЧЕТАНИЙ
В РУССКОМ ЯЗЫКЕ 25

AYGÜN DURUR QABİL QIZI
LEARNING TO COMMUNICATE IN THE CLASSROOM 33

ŞƏHLA MİR HEYDƏR QIZI HÜSEYNOVA,
NİZAMİ GƏNCƏVİ - SÖZÜN QÜDRƏTİ VƏ BƏLAĞƏTLİ NİTQ HAQQINDA 43

AYDIN RZAI
XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ALINMALAR VƏ DİLİN İNKİŞAFINDA
ONLARIN ROLU 52

NƏRMİN CAHANDAR QIZI AXUNDOVA
ROMAN YAKOBSONUN POETİK DİLLƏ BAĞLI NƏZƏRİ FIKIRLƏRİ 59

ТУКУМБАЕВА АЛТЫН ДАУЛЕТКАНОВНА
ФРАЗЕОЛОГИЗМЫ СО СЛОВОМ «ЧЁРТ» НА МАТЕРИАЛЕ ПЕРЕВОДОВ РОМАНА
М.БУЛГАКОВА «МАСТЕР И МАРГАРИТА» НА АЗЕРБАЙДЖАНСКИЙ, КАЗАХСКИЙ И
АНГЛИЙСКИЙ ЯЗЫКИ 67

TƏHMİNƏ ƏLİYEVA
DİSKURSUN NÖVLƏRİ VƏ ONLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ 74

İLHAMƏ BABANLI
“KİTABİ-DƏDƏ QORQUD”UN DİLİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ 82

КУЛИЕВА ШАРГИЯ МАХМУД
О СООТНОШЕНИИ ЯЗЫКА И КУЛЬТУРЫ 88

A. Ş. PİRMƏMMƏDOVA
İNCƏSƏNƏT TERMİNLƏRİNİN MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ 95

BAGHIRLI SAMIRA
MEANS OF LINGUISTIC EXPRESSION OF IRONY 103

BAGHIRLI SAMIRA
MEANS OF LINGUISTIC EXPRESSION OF IRONY 103

HÜSEYNOVA TÜRKAN ETIBAR QIZI
AZƏRBAYCAN DİLİNDƏ FEİLİN ŞƏRT ŞƏKLİ 112

AĞARZAYEVA QIZILGÜL RƏYIS QIZI
MƏTNDƏ İNTONASİYANIN FUNKSİONAL-KOMMUNIKATİV XÜSUSIYYƏTLƏRİ 121

ARZU MİRZƏYEVA
AZƏRBAYCAN DİLİNDƏ FEİLİ İDİOMLARIN
STRUKTUR TİPLƏRİ 128

VALİDƏ ABIYEVA
AFƏT SƏFIXANOVA
İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ ŞİFAHİ NİTQİN İNKİŞAF ETDİRİLMƏSINDƏ
ÇALIŞMALARIN TƏTBİQ YOLLARI 139

ЗЕМФИРА ОРУДЖЕВА
ФРАЗЕОЛОГИЧЕСКИЕ ЕДИНИЦЫ
В РУССКОМ ЯЗЫКЕ 146

E.A.MƏMMƏDOVA
M.KAŞĞARİNİN "DİVANÜ LÜĞAT-İT-TÜRK" ƏSƏRİNDƏ
FEİLLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ (HƏRƏKƏT FEİLLƏRİ).....155

ƏDƏBİYYATŞÜNASLIQ

TƏRANƏ ASLANOVA
MÜHACİRƏT ƏDƏBİYYATINDA HEKAYƏ JANRI 163

MƏLAHƏT SOLTAN QIZI QƏDIROVA
XX ƏSRİN 50-60-CI İLLƏRİNDƏ BELARUS
ƏDƏBİYYATI AZƏRBAYCANDA.....171

KƏMALƏ İSLAMZADƏ
BƏZİ FOLKLOR ELEMENTLƏRİNİN NİZAMİ
YARADICILIĞINDA OBRAZLAŞMASI.....178

GÜLNARƏ BABA QIZI ƏHMƏDOVA
ONLAYN TƏHSIL NÖVÜNÜN YARANMASI VƏ INKİŞAFI 193

ŞAKİR CƏFƏROV,
MİR CƏLALIN HEKAYƏ VƏ ROMANLARI HƏYATI PROBLEMLƏR QALDIRAN TƏRBIYƏVI ƏSƏRLƏRDIR 202

QƏDİM İGİD OGLU RUFULLAYEV
SALMAN MÜMTAZIN "XALQ ƏDƏBİYYATI HƏYATDAN DOĞAR" ADLI MƏQALƏLƏRİNDƏ XƏLQİLİK MƏSƏLƏLƏRİNİN İFADƏSİ 209

Z.N.NURİYEVA
XIX ƏSRDƏ BOLQARISTAN MİLLİ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR 218

ŞIXƏLİ ƏLİYEV
CAHİLİYYƏT POEZİYASININ HƏQİQİLİYİ MƏSƏLƏSİ 228

ARZU HÜSEYNLI
VİLYAM ŞEKSPİR YARADICILIĞI 239

VÜSAL MƏMMƏDZADƏ
PLATFORMAYA UYĞUN KONTENT VƏ ONUN MULTİMEDİA JURNALİSTİKASI DÖVRÜNDƏ ƏHƏMİYYƏTİ 245

SƏDİYYƏ XANLAROVA
NİZAMİNİN SÖZ DÜNYASININ İDRAKI MAHİYYƏTİ 255

ƏFSANƏ ƏSGƏROVA AYDIN QIZI
MÜASİR TƏLİM VASİTƏLƏRİNİN 2020-2021-Cİ İL COVID-19 PANDEMİYASI DÖVRÜNDƏ TƏLİM-TƏDRİS PROSESİNDƏ ƏHƏMİYYƏTLİ ROLU 263

NAĞIYEVA İNCİ SƏMƏDDİN QIZI
İ. V. HÖTENİN "FAUST" ƏSƏRİ ƏLİ BƏY HÜSEYNZADƏNİN VƏ DİGƏR MÜƏLLİFLƏRİN TƏRCÜMƏSİNDƏ 269

BABAYEV RƏŞAD VAQIF OĞLU
İBN MALIK ƏT-TAI VƏ CƏLALƏDDIN ƏS-SÜYUTININ HƏYAT VƏ YARADICILIĞI HAQQINDA 276

NƏRMİN RAMIZ qızı BABAYEVA
DÜNYANIN YARANMASI HAQQINDA MİFLƏRİN ETİOLOJİ SEMANTİKASI 286

İMANOVA KƏMALƏ
WORKPLACE ISSUES 294

SONAXANIM İMANOVA
AZƏRBAYCANIN MEDİA SƏHİFƏLƏRİNDƏ AĞA MƏHƏMMƏD ŞAH QACARIN TARİXİ ŞƏXSİYYƏT KİMİ İŞIQLANDIRILMASI VƏ ONUN SƏFƏVİ İMPERİYASINI BƏRPA ETMƏK UĞRUNDA MÜBARİZƏSİ 301

QULİYEVA NAZİLƏ ƏLİ QIZI
ŞİFAHİ ƏDƏBİYYATIMIZDA XALQ HİKMƏTİ 308

VƏLİYEVA CEYRAN ELŞƏN QIZI
NİZAMİ GƏNCƏVİ ƏDƏBİ ŞƏXSİYYƏTİNİN İŞIQLANDIRILMASI 316

RƏYLƏR

Mübariz Yusifov.
AZƏRBAYCAN DİLİNİN İŞGÜZAR VƏ AKADEMİK KOMMUNİKASİYA PROBLEMLƏRİ 326

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 11

"Elm və təhsil" nəşriyyatının direktoru:
N.MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 25.11.2021
Şərti çap vərəqi 20,5. Sifariş № 396
Kağız formatı 60x84 1/8. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4